Elxan Şahinoğlu



# DƏMİR YUMRUQ

*İşğal altındakı torpaqlarımızın azadlığı uğrunda şəhid olanların əziz xatirəsinə*

Elxan Şahinoğlu

# DƏMİR YUMRUQ

**Elxan Şahinoğlu  DƏMİR YUMRUQ**
Bakı, QANUN nəşriyyatı, 2021, 280 səhifə, tiraj 500

Redaktor: Hədiyyə Şəfaqət
Korrektor: Əyyar Tahir
Texniki redaktor: Tural Zeynallı

Üz qabığının tərtibatı: Rafael Qasım
Kompüter tərtibatı: Rahilə Şamil
Şəkillərin müəllifi: Əziz Elxanoğlu

QANUN nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN  978-9952-36-912-0

© Elxan Şahinoğlu, 2021
© QANUN nəşriyyatı, 2021

Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı aparılan danışıqlar dalana dirənmişdi. Ermənistanda hakimiyyətə gələn yeni qüvvələrin Azərbaycana qarşı təxribatları artırdı. Ermənistanın baş naziri Nikol Paşinyanın işğal altındakı Şuşaya mütəmadi gəlişləri, Azərbaycanın qədim şəhərində yallı oynaması, Dağlıq Qarabağ "prezidentinin andiçmə mərasimini" Şuşada keçirməsi və separatçıların parlamentini də qədim şəhərimizə köçürməsini bəyan etməsi müharibənin qaçılmaz olduğunu göstərirdi. Ermənistan silahlı qüvvələrinin iyul ayında törətdiyi təxribat səbir kasamızı daşıran son damla oldu.

*İşğal altındakı torpaqlarımızın*
*azadlığı uğrunda şəhid olanların*
*əziz xatirəsinə*

## İçindəkilər

Giriş ....................................................................................9
Azərbaycanın xarici siyasət kursunda nə dəyişəcək? ..............12
Moskva nə qərar verəcəkdi? ..................................................19
Ermənistan İranın səfirindən niyə narazı idi? ..........................24
Türkiyə Azərbaycanda hərbi baza yerləşdirə bilər(mi?) .........27
Prezident qərar verib! ..........................................................32
Hikmət Hacıyevin üç mesajı... ..............................................35
Los-Anceles və Brüssel təxribatının əmri İrəvandan verilib ..38
Serbiya Ermənistana silah satsa da, Azərbaycanı seçdi ..........42
Avropa İttifaqı sərhəddəki döyüşləri boru xətti ilə əlaqələndirib ....................................................................45
Ankara sərhəd müharibəsinə geniş baxır ................................48
İlham Əliyev Nikol Paşinyana cavab verdi .............................50
Ankaranın Qarabağ planı... ...................................................54
Vasitəçilərin bəyanatı heç nəyə təsir etmədi ..........................59
Erməni lobbisi Azərbaycana qarşı təbliğatını gücləndirib ......61
Birgə hərbi təlimlər Moskvaya mesaj idi ...............................63
Hərbi təlimlərdən sonra nə olacaqdı? .....................................66
Rusiya Ermənistana görə Türkiyə ilə münasibətləri gərginləşdirərmi? ...............................................................69
Qarabağda BMT protektoratı mümkündürmü? .......................72
Erməni separatçıları narazıdırlar ............................................75
Livandakı ermənilər Dağlıq Qarabağa köçürlər ......................77
İlham Əliyevin Vladimir Putinə Zənginin əsas səbəbi nə idi? .............................................................................79
Ceyhun Bayramov Türkiyə ilə birlikdən danışdı ....................83
Rəsmi Bakı Türkiyənin regional siyasətini dəstəkləyir ...........87
Ərdoğan Putinlə bu dəfə Qarabağdan danışmadı ....................89

Hərbi təlimlər kimə qarşıdır? ....................................................91
Erməni general görüş yeri kimi Tiflisi niyə təklif edib? .........94
Şoyqu Bakıya niyə gəlmişdi? ....................................................96
Ceyhun Bayramov danışıqlarda iştirak edəcəkmi? .................98
Lavrovun açıqlamaları Azərbaycanın maraqlarına zidd idi ...102
Moskvanın Bakıya qarşı “cavab addımı”... ..........................104
PKK terrorçuları Dağlıq Qarabağda... ..................................109
Erməni nazirin anti-türk turnesinin məqsədi nə idi? ............112
Kiyev Azərbaycanla strateji tərəfdaşlığı
gücləndirmək istəyir ..............................................................116
Köçəryan Paşinyana xəbərdarlıq edib ....................................119
Kreml Paşinyandan niyə narazıydı? ......................................122
Ermənistanın Xarici İşlər naziri dialoq istəyirdi ...................126
Hədəfə yaxınlaşmaq üçün Rusiya maneəsini aşmalıydıq .....128
İlham Əliyev Gürcüstanı təriflədi ..........................................130
Ukraynaya səfərin aktuallığı artdı .........................................134
Azərbaycan Ermənistanı sülhə məcbur edəcək .....................139
Azərbaycan Avropadakı dostlarını fəallaşdırmalıdır .............147
Paşinyan Türkiyədən qorxurdu .............................................150
Bayden və Azərbaycan Ukraynanı həvəsləndirir ..................152
“Güclü istehkamlar” işə yaramadı ........................................156
Ermənistan Gəncə və Mingəçevirə niyə raketlər atırdı? .......158
Ermənistan atəşkəsi niyə pozdu? ...........................................161
İran Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi ..................164
Rusiya Azərbaycanı dayandıra bilərdimi? ............................166
Rusiya Azərbaycana təzyiqi artırdı .......................................169
Minsk qrupu lazımdırmı? ......................................................172
Amerika və Böyük Britaniya mane olmurdu ........................176
Ukrayna Türkiyə ilə strateji müttəfiq olmaq istəyir .............179
BMT öz qətnamələrini nəzərə almır .....................................182
Azərbaycan İranla sərhədi nəzarətə götürdü ........................184
Ermənistanın ehtiyatları azaldı .............................................186
Putin oktyabrda Azərbaycana mane olmadı ..........................189

Paşinyan Putindən nə istəyirdi? ............................................192
Azərbaycana təzyiq niyə artdı? ..............................................195
İran fəallaşmağa qərar verdi ..................................................198
Gürcüstanda etnik müharibə mümkündürmü? .......................200
Şuşa şəhərinin xüsusi əhəmiyyəti var ...................................205
İranın Azərbaycana dəstək açıqlamaları artdı .......................208
Cozef Bayden Ermənistana kömək edəcəkmi? ......................210
Şuşanın azad olunması müharibəni bitirdi .............................212
Birgə bəyanatda nələr var? ....................................................215
Ermənilər fürsəti əldən verdilər ............................................220
Qərb kənarda qaldı ................................................................223
Putin və Narışkin Azərbaycana hansı mesajı göndərdilər? ...226
Lavrov təhlükədən danışdı ....................................................230
Vaşinqton və Paris Minsk qrupunu dirçəltmək istəyir...........232
Amerika Cənubi Qafqazda nəyi səhv etdi? ...........................235
Ermənistan Bakıda terror planlaşdırırdı ................................237
Paşinyan özünümüdafiəyə keçdi ...........................................241
Türkiyə və Rusiya Azərbaycan üzərindən
əməkdaşlıq edəcək ................................................................250
Azərbaycan-İran sərhədi dostluq sərhədinə çevriləcək .........255
Azərbaycan Avrasiya İqtisadi Birliyinə üzv ola bilərmi? .....260
Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyarsa... .....262
Qarabağ Azərbaycan iqtisadiyyatına necə fayda verəcək? ...266
Bakı-Xankəndi qatarı realdırmı? ...........................................271
Rusiya Gürcüstana nə təklif edib? .........................................274
İki parad və yerinə yetirilən vəd... ........................................277

# GİRİŞ

2004-cü ildə Türkiyənin "Anadolu" agentliyində çalışırdım. Həmin gün ofisdə tək idim. Agentliyin dünyadan yayınladığı bütün xəbərlərinə anında bilgisayardan giriş imkanım var idi. Agentliyin Macarıstandakı əməkdaşının hazırladığı son xəbəri oxudum: "Azərbaycanlı zabit NATO kurslarında erməni zabiti qətlə yetirib". Bu xəbər yayınlandıqda nə azərbaycanlı zabitin adı, nə də onun erməni zabiti nəyə görə öldürdüyü bəlli idi. Ancaq bu xəbəri oxuduğumda ilk ağlıma gələn "Azərbaycanda işğalla barışmayan gənc nəsil yetişib" fikri oldu. Halbuki, bu hadisəyə qədər bəziləri düşünürdü ki, münaqişənin həlli uzandıqca yeni nəslin itirilmiş torpaqların geri qaytarılmasına marağı azala bilər. Tam tərsi oldu.

Azərbaycanlı zabit Ramil Səfərovla illər sonra Bakıda tanış oldum, dostlaşdıq, indi də ara-sıra görüşür və fikir mübadiləsi aparırıq. Bəziləri: "Ramil belə etməməliydi", "bayrağımızın təhqir edildiyini görüb kurs rəhbərliyinə şikayət etməli idi" kimi fikirlər səsləndirirdi. Ramildən heç zaman Maca-

rıstanda baş verən olayın təfərrüatlarını soruşmadım. O, erməni zabiti Azərbaycan bayrağını təhqir etdiyinə görə cəzalandırmışdı. Onun yerində olan istənilən azərbaycanlı zabitin bayrağımızı təhqir edəni cəzalandıracağına şübhə etmirəm. Ramil erməni zabiti etdiyi əməlinə görə cəzalandırmaqla yanaşı dünyaya vacib mesaj da göndərdi: Azərbaycanda işğala son qoyacaq nəsil yetişib.

Dünyaya növbəti mesajı şəhid qəhrəmanımız Mübariz İbrahimov göndərdi. Mübariz İbrahimov 18 iyun 2010-cu il tarixində gecə saatlarında təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçərək Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini məhv etdi. Qəhrəmanımız bununla kifayətlənməyərək düşmənin öz silahlarından özünə qarşı istifadə edərək 5 saat təkbətək döyüşdü. Düşməni ağır itkilərə məruz qoyan, onların zəif cinahlarını üzə çıxaran Mübariz qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid oldu.

Bu iki hadisədən sonra tam əmin oldum ki, Azərbaycanın öz torpaqlarını müharibə yolu ilə geri qaytarmaqdan başqa yolu qalmayıb, gənclər Ali baş komandandan əmr gözləyirlər. Ramil və Mübariz Azərbaycan cəmiyyətinin müharibəyə başlamaq sifarişini yerinə yetirirdilər. Ramil və Mübarizin ardıcılları 44 günlük müharibədə düşmənə elə ağır zərbələr vurdular ki, Ermənistanda bunu hələ uzun illər unutmayacaqlar. Yeni nəsil öz sözünü dedi.

2016-cı ilin aprel döyüşləriylə bağlı yazdığım "Aprel atəş(kəs)i" kitabımı bu cümlə ilə bitirmişdim: "İşğal altındakı ərazilərimizin azad edilməsi azərbaycanlıların milli ideyasına çevrilib". Həmin gün dörd il sonra, sentyabrın 27-də yetişdi.

Bu kitabda müharibəyə aparan yolun başlanğıcı, müharibə günlərindəki müxtəlif səviyyəli danışıqların təfərrüatları və Azərbaycana edilən təzyiqlər, bir sözlə, geosiyasi vəziyyət analiz edilib. Zaman gələcək qəhrəman hərbçilərimizin – şəhidlərimizin və qazilərimizin döyüşlərdə qələbələri necə əldə etdiyi, Şuşaya dağlardan dırmaşaraq əlbəyaxa döyüşlərdə düşmənə çoxsaylı itkilər verməsi barədə də kitablar yazılacaq.

## AZƏRBAYCANIN XARİCİ SİYASƏT KURSUNDA NƏ DƏYİŞƏCƏK?

Azərbaycan-Ermənistan sərhədində 2020-ci ilin yay aylarında gərginlik artırdı. Atəşkəsin Azərbaycanın maraqlarına cavab vermədiyi aşkar idi, Dağlıq Qarabağda anti-terror əməliyyatına başlanılması an məsələsi idi. Bu arada, İlham Əliyev xarici işlər naziri Elmar Məmmədyarovu istefaya göndərdi. Doğru qərar idi. Fikirlərini ifadə etməkdə çətinlik çəkən Elmar Məmmədyarov müharibə dövrünün naziri deyildi. Onun illərdir səsləndirdiyi "Ermənistanla substantiv danışıqlar" ifadəsi cəmiyyətdə böyük narazılıq yaradırdı.

Prezident xarici işlər naziri vəzifəsinə təhsil naziri Ceyhun Bayramovu təyin etdi. Cəmiyyətdə və siyasi ekspertlər arasında xarici işlər naziri vəzifəsinə prezidentin köməkçisi Hikmət Hacıyevin təyin olunacağı proqnozlaşdırılırdı. Prezident Hikmət Hacıyevin fəaliyyətini yüksək qiymətləndirir, gün ərzində onunla daima görüşür, fikir mübadiləsi aparır. Görünür, bu baxımdan Hikmət Hacıyevin preziden-

tin daima yanında olması vacib idi. Qərarın doğru olduğu müharibə günlərində bir daha təsdiqləndi. Hikmət Hacıyev müharibə günlərində və ondan sonrakı dövrdə dayanmadan çalışır, xarici mediaya müsahibələr verir, onlayn konfranslarda iştirak edir, xarici jurnalistlər və səfirlik təmsilçiləriylə bombalanmış şəhərlərə və işğaldan azad olunan rayonlara səfərlər təşkil edirdi, hələ vaxt tapıb cəmiyyəti koronavirusla mübarizə ilə bağlı da məlumatlandırırdı.

Prezident iyulun 16-da xarici işlər naziri vəzifəsinə Ceyhun Bayramovu təyin edərkən onun qarşısında dayanan vəzifələri bir-bir sadaladı. Prezidentin geniş nitqində vacib məqamlar var idi.

***Birincisi,*** prezident Xarici İşlər Nazirliyinin fəaliyyətindən narazı qaldığını ortaya qoydu. Dövlət başçısının sözləri ilə desək, nazirlikdə kadr siyasəti yanlış olub, kadrlar kimlərləsə qohumluluq əsasında irəli çəkilib. Prezident yeni nazir qarşısında ilk vəzifəni belə qoydu: *"Nazirliyə təyinatlar peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsasında həyata keçirilməlidir".* Dövlət başçısı nazirlikdə müxtəlif idarələr, o cümlədən rəhbər işçilər arasındakı koordinasiya işlərinin lazımi səviyyədə təmin edilməsinin vacibliyini də bildirdi.

***İkincisi,*** prezident yeni nazirin xarici nümayəndəliklərdə buna qədər görülən işlərin ciddi təhlil olunmasını tələb etdi, səfirliklərin işinin səmərəlilik əmsalından narazı olduğunu bu şəkildə izah etdi: *"Bəzi hallarda bizim səfirliklərimizdə çalışan insanlar öz işinə laqeyd yanaşırlar, passiv olurlar, ölkəmizin maraqları-*

*nı lazımi səviyyədə müdafiə və təmin edə bilmirlər. Ölkəmiz haqqında reallıqları geniş ictimaiyyətə çatdıra bilmirlər, ya da, bunu etmək istəmirlər".* Prezident səfirliklərin xaricdə yaşayan, fəaliyyət göstərən Azərbaycan icmaları ilə sıx əlaqələr qurmamasından da narazı idi. Prezidentin haqlı olduğu müharibədən sonra noyabr ayının sonunda Fransa Senatının Azərbaycana qarşı qətnaməsində özünü büruzə verdi. Senatın 306 üzvündən 305-i Azərbaycanın ərazi bütövlüyünün əleyhinə səs verdi. Görəsən, Azərbaycanın Fransadakı səfiri nə işlə məşğul idi ki, Azərbaycanın əleyhinə cəmi bir nəfər səs verməmək istəməyib.

***Üçüncüsü,*** prezidentin sözlərindən o da aydın oldu ki, diplomatlar çalışdıqları ölkələrdə kütləvi informasiya vasitələri ilə sıx təmasda deyillər. Prezident vurğuladı ki, diplomatların bir qismi Azərbaycan haqqında qəsdən uydurulan, heç bir əsası olmayan şayiələri təkzib etmirlər. *"Azərbaycana qarşı kampaniyaya adekvat cavab verilirmi? Verilmir",* – deyən İlham Əliyev həmin diplomatların ünvanına belə bir sərt ifadə də işlətdi: *"Bəzi hallarda fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycanın maraqlarını yox, özlərini həmin ölkələrin yüksək vəzifəli nümayəndələrinə yaxşı tərəfdən göstərmək üçün o ölkələrin maraqlarını müdafiə edirlər".* Prezident bu qüsurların Xarici İşlər Nazirliyində aparılan yanlış kadr siyasəti ilə izah etdi. Prezident hətta bəzi diplomatların dövlətə xəyanət – satqınlıq etdiklərini, yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətində olduqlarını səsləndirdi.

***Dördüncüsü,*** prezident Azərbaycanın xarici siyasətinin prioritetlərini sıralayarkən qonşu ölkələrlə sıx əlaqələrə əvvəlki tək üstünlük verdiyini bildirdi. Dövlət başçısı bu zaman qonşu dövlətlərin adlarını xüsusi olaraq çəkməsə də, Azərbaycanın təşəbbüsü ilə qurulan üçtərəfli formatların ölkəmiz üçün əhəmiyyətli olduğunu bir daha qeyd etdi. Prezident Azərbaycan üçün vacib olan təşkilatlardan İslam Konfransı Təşkilatının və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adlarını çəkdi. Prezident Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığa əhəmiyyət verdiyini, bu qurumla saziş üzərində işlərin davam etdiyini, ancaq sazişin Azərbaycanın maraqlarına cavab verməsi üçün sənədi tələsik imzalamağın da əleyhinə olduğunu vurğuladı.

***Beşincisi,*** prezident çıxışında ayrıca olaraq Azərbaycanın ABŞ və Böyük Britaniya əlaqələrinə toxundu. *"Azərbaycanın Amerika Birləşmiş Ştatları ilə münasibətləri çox böyük əhəmiyyət daşıyır və bu münasibətlərin böyük tarixi var. Həm siyasi, iqtisadi, enerji sahələrində, həm də təhlükəsizlik sahəsində çox yaxşı nəticələr var"*, – deyən İlham Əliyev Ağ Ev sahibi Donald Trampın il ərzində ona göndərdiyi məktublardan tutmuş iki ölkənin Əfqanıstanda əməkdaşlığına dair bəndləri sadaladı. Prezident çıxışının Amerika ilə bağlı hissəsinə bu cümlə ilə yekun vurdu: *"Amerika ilə əlaqələrin gələcəyi çox müsbət olacaq"*. Prezident Böyük Britaniyanın və BP-nin Azərbaycan üçün strateji investor olduğunu xatırladaraq iki ölkənin qeyri-neft sektorunda daha

böyük işlər görməli olduğunu da sözlərinə əlavə etdi. Həqiqətən müharibə dövründə Böyük Britaniya rəsmiləri Fransa və Almaniyadakı həmkarlarından fərqli olaraq Azərbaycan əleyhinə hər hansı açıqlama vermədilər, sənəd qəbul etmədilər. Əksinə, BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qətnamənin müzakirəyə çıxarılması istənildikdə Böyük Britaniya təmsilçisi Təhlükəsizlik Şurasının daimi üzvü kimi veto hüququndan istifadə edərək sənədin qəbuluna imkan vermədi. Böyük Britaniya mətbuatı Avropadakı nəşrlərdən fərqli olaraq müharibə zamanı orta mövqe tutdu.

***Altıncısı,*** prezident yeni nazir qarşısında ən mühüm vəzifənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində olacağını vurğuladı. Prezident istefaya göndərilən nazirdən fərqli olaraq yeni nazirin mənasız danışıqlarda iştirakının əleyhinə olduğunu bildirdi.

***Beləliklə,*** prezidentin tapşırıqları yeni xarici işlər naziri Ceyhun Bayramovdan çeviklik tələb edirdi. O, prezidentin sadaladığı istiqamətlər üzrə fəaliyyət göstərməli idi. Yeni nazir ilk növbədə nazirlikdə kadr islahatlarından başlamalıydı. Bu uzun prosesdir. Çünki, özünü doğrultmayan səfirlərin və nazirlikdə çalışanların dəyişdirilməsi vaxt aparacaq. Ancaq Ceyhun Bayramovun başqa yolu yoxdur. Prezidentin tapşığırını yerinə yetirməlidir. Digər tərəfdən yeni nazir Xarici İşlər Nazirliyinin cəmiyyətdə itirilən nüfuzunu bərpa etməyə də çalışmalıdır.

Ceyhun Bayramov Elmar Məmmədyarovdan fərqli olaraq həmsədrlər və erməni nazirlə mənasız danışıqlarda iştirak etməməli idi. Bunu nə prezident, nə də Azərbaycan cəmiyyəti istəyirdi. Danışıqlar predmetli olmalıydı. Ancaq erməni tərəfi müharibədən əvvəl predmetli danışıqlara hazır deyildi. Bu o demək idi ki, danışıqlara bir müddət fasilə veriləcəkdi. Ümumiyyətlə atəşkəsin intensiv pozulduğu şəraitdə danışıqlara başlamaq Azərbaycanın maraqlarına cavab vermirdi.

Ceyhun Bayramovun ilk gündən fəal olduğu göründü. O, Rusiyanın xarici işlər naziri Sergey Lavrova açıq şəkildə Dağlıq Qarabağ münaqişəsinin sülh yoluyla həlli üçün işğal altındakı torpaqların boşaldılmalı olduğunu bildirdi. Yəni ilk gündən prinsipial mövqe ortaya qoydu. Bu təqdirəlayiq idi. Keçmiş xarici işlər naziri Elmar Məmmədyarov uzun illər mənasız danışıqlarda iştirak etməklə zamanımızı boş yerə xərcləmişdi.

Ceyhun Bayramov isə ictimaiyyətin mövqeyini nəzərə almalıydı, predmetli danışıqlarda iştirak etməliydi, əks halda, danışıq xətrinə danışıqlarda iştirak etmək işğalın uzanması demək olacaqdı.

Ceyhun Bayramovun bir başqa fəaliyyəti yarıtmaz səfirlərdən qurtulması olmalıydı. Müharibə dövründə bu işi sürətləndirmək çətin idi. Ancaq sonrakı dövrdə bu haqda ciddi qərarlara ehtiyac var. Məsələn, ilk növbədə Mərkəzi Asiya ölkələrindəki səfirlərimizin fəaliyyəti yoxlanmalıdır. Niyə iyul

ayında sərhəddəki insident fonunda Türkiyədən başqa digər türkdilli dövlətlərin birinin də Xarici İşlər Nazirliyi Azərbaycanın haqq işinə rəsmi dəstək verən bəyanat yaymadı? Halbuki, Qazaxıstandakı və Özbəkistandakı ictimaiyyət Azərbaycana dəstək ifadə edirdi.

XİN-də qohumbazlıq, dostbazlıq prinsipinə son qoyulmalıdır, nazirliyin qapıları millətini və vətənini sevən, gələcəyə ümid verən gənclərin üzünə açılmalıdır. XİN-nin müvafiq strukturları siyasi ekspert və analitiklərlə fikir mübadilələri aparmalıdır. Ağıl ağıldan üstündür.

Azərbaycanla Ermənistan arasında artan gərginlikdə Azərbaycana əsas dəstək verən dövlət Türkiyə oldu. Bunu İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana iyulun 15-də göndərdiyi məktubda da yazmışdı. Türkiyə Prezidenti, xarici işlər və müdafiə naziri, parlamentdəki partiyalar, ictimai fəallar Azərbaycana istənilən, o cümlədən hərbi dəstəyi verməyə hazır olduqlarını bildirdilər. Bu arada, Azərbaycanın müdafiə nazirinin müavininin Ankaraya gedərək Türkiyənin müdafiə naziri Hulusi Akarla görüşməsi xüsusi əhəmiyyət kəsb edirdi. Bu o demək idi ki, rəsmi Bakı balanslaşdırılmış xarici siyasəti davam etdirməklə yanaşı Türkiyə ilə siyasi və hərbi ittifaqı gücləndirməyə qərar verib. Bu, doğru strategiyaydı. Ceyhun Bayramov bu strategiyanı həyata keçirən əsas fiqurlardan olmalıdır.

## MOSKVA NƏ QƏRAR VERƏCƏKDİ?

Azərbaycanla Ermənistan arasında iyul ayında davam edən döyüşdə ən aktual suallardan biri bu idi: Rusiya münaqişəyə müdaxilə edəcəkmi? Sonrakı aylarda bu sualı bir neçə dəfə səsləndirməli olacaqdıq.

Rusiyanın Dağlıq Qarabağ məsələsində fəallığı və vasitəçiliyi hər zaman Azərbaycanda ciddi suallar doğurub. Vaxtilə erməniləri kütləvi surətdə Dağlıq Qarabağda yerləşdirən Rusiya imperiyası sonrakı onilliklərdə də bölgədəki erməniləri qorumaq üçün əlindən gələni edib.

Vladimir Putin 2000-ci ildə prezident seçiləndə ilk xarici səfərini Azərbaycana reallaşdırdı. O zaman Putin Çeçenistanda müharibə aparırdı və çalışırdı ki, çeçen mücahidlərə müxtəlif yollarla verilən dəstək kəsilsin. Rəsmi Bakı Rusiyanın ərazi bütövlüyünə xələl gətirən hərəkətlərə yol vermirdi. Buna baxmayaraq, Rusiyadakı siyasi dairələr çeçenlərlə azərbaycanlılar arasındakı əlaqələrdən narahat olduqlarını bildirirdilər. Halbuki, Azərbaycan qardaş çeçen xalqına yalnız humanitar məsələlərdə yardım edirdi.

Putinin Azərbaycana səfərindən sonra çeçenlərin Bakıdakı nümayəndəliyi bağlandı. Ancaq Rusiyanın yeni prezidenti bunun cavabında Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı lazımi addımları atmadı. Tam əksinə, Rusiyanın hərbi-sənaye kompleksi Ermənistanda müasir hərbi texnikalar və təyyarələr yerləşdirməkdə davam edirdi.

Rusiya 2016-cı ilin aprelində də Azərbaycana mane olmaqla döyüşün davam etdirilməsinə imkan verməyərək daha çox ərazinin işğaldan azad olunmasının qarşısını aldı.

2020-ci ilin iyul ayında ermənilərin sərhəddəki təxribatları, Azərbaycana torpaqları işğaldan azad etmək üçün, növbəti imkan yaradırdı. Kreml həmin günlərdə prosesə mane olmadı, Moskvadan yalnız atəşkəs və sülh çağırışları edildi. Ancaq zaman keçdikcə Kremlin prosesə müdaxiləyə hazırlaşdığına dair xəbərlər çoxaldı.

Vladimir Putin həmin günlərdə Rusiya qoşunlarının Cənubi və Qərbi hərbi dairələri qoşunlarının qəfil yoxlanışını elan etdi. Rusiya qoşunlarının cənub-qərbində təhlükəsizliyi təmin etmək qabiliyyətini və sentyabrda keçiriləcək "Qafqaz-2020" təlimlərinə hazırlıq səviyyəsini qiymətləndirmək planlaşdırılırdı. Bundan başqa Vladimir Putin iyulun 17-də Təhlükəsizlik Şurasının daimi üzvləri ilə Ermənistan-Azərbaycan sərhədində vəziyyəti müzakirə etdi. Kremlin təmsilçisi Dmitri Peskov Təhlükəsizlik Şurasının iclasında Moskvanın vasitəçilik səylərinə ha-

zır olduğunun qeyd edildiyini bildirdi: "Ermənistan-Azərbaycan sərhədində vəziyyətlə bağlı ətraflı fikir mübadiləsi aparılıb. Eskalasiyanın davam etməsindən narahatlıq ifadə olunub. Vasitəçilik fəaliyyətinə hazırlıq, tərəflərin atəşkəsi təmin etməsinə təcili ehtiyac olması qeyd edilib".

Atəşkəsin Azərbaycanın maraqlarına cavab vermədiyi bəlli idi. Ona görə də rəsmi Bakı Moskvanın səylərini diplomatik tərzdə müsbət qiymətləndirilməklə yanaşı, Rusiyanın təktərəfli vasitəçiliyindən yayınmağa çalışırdı. Çünki Rusiyanın təkbaşına vasitəçiliyinin Azərbaycana xeyri yox idi, növbəti atəşkəs işğalın davamına xidmət edəcəkdi.

Vladimir Putinin Ermənistanın baş naziri Nikol Paşinyana rəğbəti yoxdur. Rusiya hakimiyyətinə yaxın mətbuat Paşinyanı Qərbin adamı adlandırır. Ancaq bu, Kreml sahibinin Paşinyana görə Ermənistana dəstəkdən imtina etməyə hazır olması demək deyil. Rusiya döyüşlərin hansısa mərhələsində Azərbaycana və Ermənistana qəti şəkildə dayanmaq tələbi irəli sürə bilərdi.

Rəsmi Bakının Türkiyə ilə hərbi əməkdaşlığı yüksək səviyyəyə qaldırması Rusiyanın təzyiqlərini neytrallaşdırmağa xidmət edəcəkdi. Kreml sahibinin Azərbaycan və Türkiyə prezidentləri ilə tərəfdaşlıq münasibətləri var. Bu mənada Kreml sahibinin təmsilçisi Peksovun həmin günlərdəki açıqlaması maraqlıydı: "Putinlə Ərdoğan bir-birinə bənzəyirlər. Rusiya və Türkiyə prezidentləri çox çətin vəziyyətlərdə

həll yolu tapmağı bacarırlar. Bu, Suriya məsələsinə də aiddir”.

Suriya məsələsinə aid olan Ermənistan-Azərbaycan münaqişəsinə niyə aid olmasın? Ərdoğanın sərhəddəki insident fonunda Azərbaycana verdiyi qətiyyətli dəstək Putini düşünməyə vadar etməliydi. Kiçik və işğalçı Ermənistana görə Türkiyə və Azərbaycanla tərəfdaşlığı gərginləşdirməyə dəyərdimi?

Sərhəddəki insident fonunda Azərbaycana iki tərəfdaş dövlətin mövqeyi də diqqəti cəlb edirdi. Gürcüstan prezidenti Salome Zurabişvili Ermənistan-Azərbaycan sərhədində yaşanan gərginliklə bağlı narahatlığını bu sözlərlə ifadə etdi: “Bu gün biz hamımız görünməz düşmənə qarşı vuruşarkən beynəlxalq həmrəylik və qlobal stabilliyin saxlanılması olduqca əhəmiyyətlidir. Regionumuzda sülh və təhlükəsizlik Gürcüstanın gələcək inkişafı baxımından, həmçinin bizim dost və tərəfdaş ölkələrimiz – Ermənistan və Azərbaycan üçün vacibdir”.

Ukrayna Xarici İşlər Nazirliyinin yaydığı bəyanat isə fərqli idi: “Ukrayna münaqişənin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır. Münaqişə tərəflərini BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri əsasında bütün səyləri göstərməyə çağırırıq. Ukrayna vəziyyətin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Azərbaycan Respublikasının suverenliyinə

və ərazi bütövlüyünə hörmət əsasında siyasi yolla həll olunmasının tərəfdarıdır”.

Göründüyü kimi, Gürcüstan sərhəddəki döyüşlərlə bağlı balanslı mövqe tutarkən, Ukrayna birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi. Ukraynanın bu mövqeyi Azərbaycan cəmiyyətində yüksək qiymətləndirildi.

## ERMƏNİSTAN İRANIN SƏFİRİNDƏN NİYƏ NARAZI İDİ?

Ermənistan İranın Azərbaycandakı keçmiş səfiri Cavad Cahangirzadənin açıqlamalarından narahat idi. Ermənistan İctimai Televiziyasının əməkdaşı İranın Ermənistandakı səfiri Abbas Bədaxşandan müsahibəsində ona belə bir sual verdi: *"İranın Azərbaycandakı səfirinin Tehranın siyasəti ilə üst-üstə düşməyən açıqlamalarını necə qiymətləndiririsiniz?"*

Bu suala cavabında İranın Ermənistandakı səfiri həmkarının adını dəqiq çəkməsə də ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin həllində balanslaşdırılmış mövqeyini dəyişmədiyini dedi. Səfir bu sözlərinə belə bir cümlə də əlavə etdi: *"Əgər fərqli fikir söyləyənlər varsa, onların mövqeyi İran hökumətinin baxışını əks etdirmir, rəsmi mövqe İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi vasitəsilə təqdim edilir, onun açıqlamalarında isə fərqli heç nə yoxdur"*.

İranın Ermənistandakı səfiri bu açıqlamalarla nə demək istəyirdi?

O, Tehranın Dağlıq Qarabağ münaqişəsinin həllində hansı balanslaşdırılmış mövqeyindən danışırdı?

Tehran Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Dağlıq Qarabağı da Azərbaycanın bir parçası sayır. Bunu həm İran rəsmiləri, həm də qonşu ölkənin ali dini lideri bildirir. Əslində İranın Ermənistandakı səfiri İrəvanda Tehranın mövqeyini təhrif edirdi. Doğru olanı isə məhz İranın Azərbaycandakı səfiri demişdi.

İranın Azərbaycandakı keçmiş səfiri Cavad Cahangirzadə ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəklədiyini bildirib. *"Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll olunmalıdır"* – bu iranlı diplomatın hər dəfə təkrarladığı cümləydi. Bundan başqa Cavad Cahangirzadə hər il iyun ayında qeyd edilən "Qüds günü" münasibətilə bu fikri də səsləndirirdi: *"İran Azərbaycan və Fələstin torpaqlarının işğaldan azad olunmasını istəyir"*.

Cavad Cahangirzadə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri Tural Gəncəliyevlə görüşündə Ermənistan tərəfindən işğal edilmiş torpaqların sülh yolu ilə geri qaytarılmasının, regionda sabitliyi qoruyub saxlamaq üçün ən yaxşı yol olduğunu bildirmişdi.

Aydındır ki, keçmiş səfirin bu açıqlamaları və onun Dağlıq Qarabağın azərbaycanlı icmasının sədri ilə görüşü Ermənistan hakimiyyətinin və separatçıların xoşuna gəlməyəcəkdi. Ancaq İranın Azərbaycandakı digər səfirləri də eyni sözləri deyiblər. İranın Azərbaycanda Cavad Cahangirzadədən əvvəlki səfiri

Möhsün Pak Ayin də Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll edilməli olduğunu deyirdi. İranın Azərbaycandakı istənilən səfiri Bakıda fərqli açıqlama verə bilməz. İranın Ermənistandakı səfirlərinin *"Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir"* fikrini səsləndirməkdən çəkinmələri isə başqa məsələdir.

Cavad Cahangirzadənin Azərbaycanda fəaliyyət müddəti başa çatıb. Seyid Abbas Musəvi İranın Azərbaycandakı yeni səfiridir. O, Azərbaycan prezidentinə etimadnaməsini 2020-ci ilin sentyabrın 7-də təqdim edib. Yeni səfirin Azərbaycanın ərazi bütövlüyü də Dağlıq Qarabağla bağlı fikirləri keçmiş səfirlərin açıqlamalarından fərqlənmir.

## TÜRKİYƏ AZƏRBAYCANDA HƏRBİ BAZA YERLƏŞDİRƏ BİLƏR(Mİ?)

Liviya Milli Barışıq Hökuməti Əl Vatiyyə bazasını Türkiyəyə vermək məsələsini həll etdi. Ankara orada hava hücumundan müdafiə sistemlərini və hərbi dronları yerləşdirməyi planlaşdırırdı. Türkiyənin Liviyadakı ikinci hərbi bazası isə Misrata limanında yaradılacaqdı. Burada Türkiyənin Hərbi Dəniz Qüvvələrinin gəmilərinin yerləşdiriləcəyi nəzərdə tutulurdu. Bu hərbi baza da Türkiyə üçün vacib idi. Türkiyənin Liviyanın xüsusi iqtisadi zonasındakı dəniz yataqlarından neft çıxaracaq şirkətlərinə ortaq ola biləcəyi, Türkiyənin hərbi gəmilərinin varlığı qazma işlərinin təhlükəsizliyinin təminatı üçün zəruriydi.

Türkiyəni Aralıq dənizində sıxışdırmaq istəyən dövlətlər var. Türkiyə son illərdə bölgənin aparıcı gücünə çevrilib. Türkiyə Cümhuriyyəti tarixində ilk dəfə eyni zamanda sərhədlərindən kənarda üç ölkədə – İraqda, Suriyada və Liviyada hərbi əməliyyatlar həyata keçirir. Bu, Türkiyənin bölgədə hərbi bazalar yaratmasını da aktuallaşdırır. Vaxtilə deyirdilər ki,

Türkiyə NATO üzvü olduğundan qurumun kollektiv icazəsi olmadan başqa ölkədə hərbi baza yarada bilməz. Ankara bu arqumenti Qətərdə hərbi baza yaratmaqla ortadan qaldırdı. Həmin hərbi bazalar ilk növbədə Qətərin özünə lazım idi. Çünki Qətərin qonşu ərəb dövlətləriylə münasibətləri gərginləşmişdi. Səudiyyə Ərəbistanı Qətərə qarşı bir neçə maddəlik ultimatum irəli sürdü, ətrafında ittifaq yaratmaqla Dohaya qarşı sanksiyalar tətbiq etdi. Türkiyə Qətərdə hərbi baza yaratmasaydı, Dohanın ciddi təhlükəsizlik çətinlikləri yaranacaqdı. Türkiyənin Qətərdəki hərbi bazası Ankaranın bölgədə artan roluna işarə idi. Bundan sonra Türkiyə İraqda PKK ilə mübarizə aparmaq üçün dağ massivlərində hərbi postlar yaratdı. Əslində həmin postları da kiçik hərbi bazalar hesab etmək olar. Türkiyənin Somaliyə humanitar və iqtisadi yardım etməsi bu Afrika ölkəsi ilə hərbi əməkdaşlıq imkanlarını hərəkətə gətirdi. Türkiyənin Suriyada da hərbi varlığı inkarolunmaz faktdır.

Türkiyə Liviyada möhkəmlənməyə başladı. Keçmişdə bəziləri deyirdi ki, Türkiyənin Liviyada və ya Suriyada nə işi var? Bu sual hazırda aktuallığını itirib, Türkiyə hakimiyyətinə müxalif olanlar da anladılar ki, Türkiyə İraqda, Suriyada, Liviyada və Somalidə hərbi varlığını ortaya qoymasa, oralarda Türkiyəni qəbul etməyən dövlətlərin hərbi bazaları olacaq və bu amil Türkiyə üçün gələcəkdə ciddi təhdidə çevriləcəkdi. Bu baş verməsin və Türkiyənin bölgədəki rolu hamıya aydın olsun deyə, Ankara dost dövlətlərlə hərbi

əməkdaşlığı genişləndirmək siyasətinə üstünlük verir və bu, strateji baxımdan doğru siyasətdir.

Türkiyənin hərbi baza quracağı növbəti ölkə Azərbaycan olmalıdır. Müharibədən əvvəlki yazılarımda hər zaman qeyd edirdim ki, Azərbaycan öz torpaqlarını hərbi yolla azad etmək istəyir. Biz Ermənistanla qarşı-qarşıya qalsaydıq Dağlıq Qarabağ və ətraf rayonların boşaldılması məsələsini çoxdan həll etmişdik, bunu ermənilərin özləri də etiraf edirdilər. Ancaq Ermənistanın arxasında Kreml və Rusiyanın Ermənistandakı hərbi bazaları dayanır. Azərbaycanın müdafiə naziri Zakir Həsənov da müsahibəsində etiraf etmişdi ki, 2016-cı ilin aprel savaşının dördüncü günündə Rusiyanın müdafiə naziri Sergey Şoyqu ona zəng etdi və hücumu dayandırmağı xahiş etdi. Yəni bu zəng olmasaydı, Azərbaycan ordusu daha çox ərazini işğaldan azad edəcəkdi. Bu ondan xəbər verir ki, növbəti savaşda da Rusiya yenidən bizə torpaqlarımızı azad etməyə mane olmağa çalışa bilərdi. Bunun qarşısını almağın yolu Türkiyənin Liviyada olduğu kimi Azərbaycanda da iki hərbi bazasının yaradılmasıyla bağlıydı.

Bu baza Naxçıvanda, digəri Abşeronda formalaşdırılmalıdır. Türkiyənin Abşeronda hərbi hava qüvvələrinin yerləşdirilməsi zəruridir. Bu həm işğalçı Ermənistana, həm də Rusiyaya ciddi mesaj olar. Biz təhlükəsizliyimizə təminat qazanmış olarıq ki, kimsə Azərbaycana hücum etmək barədə düşünməyəcək, dövlətimizi bölməyə çalışmayacaq. Bəziləri bu fikrin

əleyhinə çıxaraq deyir ki, guya Türkiyə Azərbaycanda hərbi bazalar yaratsa, biz qardaş dövlətin təsiri altına düşəcək və ondan asılı olacağıq. Əlbəttə, hərbi bazaların yaradılması halında Türkiyədən hərbi müstəvidə asılılığımızın artacağı istisna deyil. Aydındır ki, səni qoruyan dövlətin maraq və istəklərini nəzərə almalısan. Ancaq hazırkı vəziyyətdə bizim üçün vacib olan dövlətimizin təhlükəsizliyini sonadək təminat altına almaq və işğalçıya, o cümlədən onun arxasındakı dövlətlərə və güclərə göz dağı verməkdir. Biz təkbaşına Ermənistanla istənilən məsələnin həllinə qadirik, bunu 44 günlük müharibədə sübut etdik, ancaq onun arxasındakı güclərə müqavimət göstərmək üçün Türkiyənin dəstəyinə ehtiyacımız var. Bu məqsəd naminə xarici və təhlükəsizlik siyasətini Türkiyə ilə uzlaşdırmağa dəyər. Məgər Türkiyənin hərbi bazalarının var olduğu Qətər Ankaradan asılı vəziyyətə düşüb? Bəli, bunun qarşılığında Qətər Türkiyəyə milyardlarla dollar yatırım qoymağa boyun olub. Ona qalsa, Azərbaycan hərbi bazalar mövzusu olmadan da Türkiyəyə ən böyük yatırım qoyan ölkələrdəndir. Bu mənada Türkiyənin Azərbaycanda hərbi bazalar yaratmasına heç nə mane olmur.

Türkiyə son illər hərbi-sənaye kompleksini xeyli inkişaf etdirib. Türkiyənin istehsal etdiyi pilotsuz uçuş aparatları İraqda, Suriyada və Liviyada uğurla sınaqdan keçib. Təsadüfi deyil ki, dünyanın bir çox ölkəsi Türkiyənin pilotsuz uçuş aparatlarına xüsusi maraq göstərir, onları almağa çalışır. Bu

baxımdan Türkiyənin istehsalı olan hərbi texnikanın Ermənistana qarşı mübarizədə Azərbaycana çox böyük fayda verdiyi müharibə günlərində bir daha aydın oldu. Türkiyə bununla kifayətlənmək istəmir. Türkiyə Azərbaycana daha çox hərbi texnika və sursat göndərməyə hazırdır. Rəsmi Bakı da Ankara ilə hərbi sahədə əməkdaşlığı artırmaqda maraqlı görünür.

## PREZİDENT QƏRAR VERİB!

İlham Əliyev iyulun 21-də Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəkı çıxışında müxtəlif mövzulara toxundu.

Prezident Türkiyə ilə strateji tərəfdaşlığa əhəmiyyət verdiyini bir daha qeyd etdi. İlham Əliyev türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın xüsusi olaraq ona söylədiyi fikirləri xatırlatdı: "Azərbaycan və Türkiyə, iki qardaş ölkə hər zaman bir yerdə olacaq. Biz sona qədər bir yerdəyik". İlham Əliyevin bu sözlərindən aydın oldu ki, Azərbaycan Türkiyə ilə hərbi-strateji müttəfiqliyi yüksək səviyyəyə qaldırmağa hazırdır. Elə sərhəddəki qarşıdurma zamanı müdafiə nazirinin Ankaraya göndərilməsi prezidentlərin telefon söhbətindən sonra reallaşıb.

İlham Əliyevin işğal altındakı torpaqlarla bağlı yanaşmasında diqqəti çəkən cümlələri bu oldu: *"Biz bu məsələni elə həll etməliyik ki, bu həll Azərbaycan xalqını tam təmin etsin. Hər hansı bir yarımçıq həll bizə lazım deyil. Çünki bu, müvəqqəti olacaq. Yarımçıq, sadəcə, mərhələ ola*

*bilər. Ancaq məsələnin həlli tam olmalıdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır. Budur mənim siyasətim və bu, siyasətimin haqqında hələlik açıq danışılması mümkün olan bir hissəsidir".*

Dövlət başçısının sözlərindən bu qənaətə gəlmək olardı ki, danışıqların davamının Azərbaycan üçün faydası yoxdur və torpaqların güc yolu ilə azad olunmasına hazırlıq gedir. Ancaq bu dəfəki hərbi əməliyyat 2016-cı ilin əməliyyatına bənzəməməlidir, yəni kiçik ərazinin azad olunmasıyla kifayətlənə bilmərik, prezidentin də dediyi kimi "yarımçıq həll" Azərbaycanın maraqlarına cavab vermir. Bu mənada prezidentin Şuşanı xatırlaması təsadüfi deyildi. Azərbaycanın Dağlıq Qarabağ istiqamətindəki zərbəsi Dağlıq Qarabağ ətrafındakı beş rayonla yanaşı Şuşa, Laçın və Kəlbəcərin də azad olunmasını sürətləndirməlidir.

Prezidendin çıxışının bu hissəsi ona görə vacib idi ki, Azərbaycan ictimaiyyəti Tovuz döyüşlərindən sonra işğal altındakı torpaqların azad olunmasını tələb edirdi. Ermənistandakı daxili vəziyyət, o cümlədən beynəlxalq mühit də hərbi əməliyyata başlamaqdan ötrü Azərbaycan üçün minbit zəmin yaradırdı. Prezident də Azərbaycan cəmiyyətinin dəstəyindən məmnun qaldığını bildirirdi. Ancaq prezident son qərarı vermək üçün başqa amilləri də nəzərə almaq məcburiyyətindəydi. Bu amillər içərisində Azər-

baycanda qarışıqlıq yaratmaq istəyən güclərdən tutmuş xarici mərkəzlərin işğalçıya dəstəyinə qədər amillər var idi. Müharibə başlayacağı təqdirdə bu təhlükəli amillər ortadan qaldırılmalıydı.

Buna baxmayaraq, Azərbaycan prezidentinin fikri qəti idi: Müharibə qaçılmazdır. Bu Ermənistan hakimiyyətinə və cəmiyyətinə də ciddi mesaj idi: onlar Azərbaycan torpaqlarını azad etmək istəmirlərsə, müharibə və itkilərlə üzləşməli olacaqlar.

## HİKMƏT HACIYEVİN ÜÇ MESAJI...

Azərbaycanla Ermənistan arasında sərhəd savaşı dörd gün çəkdi. 2016-cı ilin aprel savaşı da dörd gün çəkmişdi. Ancaq bu son deyildi, iyulun 21-də Azərbaycan ordusunun Ermənistana məxsus iki pilotsuz uçuş aparatını Azərbaycan səmasında neytrallaşdırması vəziyyətin sabitləşmədiyindən xəbər verirdi.

Pilotsuz uçuş aparatlarından biri Ağdam rayonu istiqamətində vurulmuşdu. Bu, Ermənistan hakimiyyətinin döyuşlərin Tovuz istiqamətindən Dağlıq Qarabağ istiqamətinə keçə biləcəyindən narahat olub işğal altındakı ərazilərdə kəşfiyyat uçuşları həyata keçirdiyini göstərirdi. Ermənistan hakimiyyəti və Dağlıq Qarabağdakı erməni separatçıları Azərbaycan ordusunun Dağlıq Qarabağda hücuma hazırlaşa biləcəyindən ehtiyatlanırdılar. Təsadüfi deyildi ki, Dağlıq Qarabağ separatçılarının lideri Araik Arutunyan az qala hər gün işğal altındakı hərbi məntəqələrin hazırlıq səviyyəsini şəxsən yoxlayırdı.

Ermənilər narahatlıqlarında yanılmırdılar. Torpaqların azad olunması Azərbaycan cəmiyyətinin əsas

tələbiydi. Azərbaycanın generalı Polad Həşimovun öldürülməsi bu tələbi daha da gücləndirirdi. Ermənistanla sərhəddə gərginlik Azərbaycanın maraqlarına cavab vermirdi. Azərbaycan ordusunun əsas hədəfi Dağlıq Qarabağ və ətraf rayonlarıydı. Ermənistan hakimiyyəti sadəcə, Tovuz istiqamətində təxribatlar törətməklə Azərbaycan ordusunun əsas gücünün Dağlıq Qarabağ istiqamətində cəmlənməsinə mane olmağa çalışırdı. Ona görə də Azərbaycan ordusu yaxın gələcəkdə həm sərhəddə düşmənin təxribatlarına cavab verməli, həm də Dağlıq Qarabağ istiqamətində hücum əməliyyatlarını həyata keçirməli olacaqdı.

Bu arada, prezidentin köməkçisi və Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin mətbuat konfransı diqqəti cəlb edirdi. Hikmət Hacıyevin mətbuat konfransında söylədiyi mesajları belə qruplaşdırmaq olardı:

***Birincisi,*** Azərbaycan bundan sonra imitasiya xarakterli danışıqlarda iştirak etmək niyyətində deyil.

***İkincisi,*** Minsk prosesində iştirak edən 11 dövlətin iştirakı ilə geniş formatda iclasın keçirilməsinə ehtiyac var.

***Üçüncüsü,*** BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi mexanizminə yenidən baxılmalıdır.

Hikmət Hacıyevin bu üç şərti söyləməsi rəsmi Bakının danışıqların perspektivinə inanmadığından xəbər verirdi. Rəsmi Bakı Minsk Qrupunun geniş formatda toplanmasını istəməyi Azərbaycan

hakimiyyətinin ABŞ, Fransa və Rusiyanın həmsədrliyi ilə davam edən danışıqlardan nəticə gözləmədiyini göstərirdi. Rəsmi Bakı danışıqların məzmununun və hazırkı formatın dəyişdirilməsini istəyirdi. Məsələn, Azərbaycan Türkiyənin də həmsədrlər formatında iştirakında maraqlıydı. Ancaq üç həmsədr nə Türkiyənin onlara qoşulmasına, nə də özlərinin başqa ölkələrlə dəyişdirilməyinə imkan verəcəkdi.

Buna baxmayaraq, rəsmi Bakının Minsk Qrupunun geniş formatda toplanması təklifi müsbət idi. Həmin toplantıda deyilməliydi ki, Ermənistan "mərhələli həll" planını qəbul etməsə, vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistan hakimiyyətinin üzərində qalacaq. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün mexanizmə yenidən baxılması da köhnə tələbimiz idi. Ancaq BMT Təhlükəsizlik Şurasının, qətnamələrin yerinə yetirilməsi mexanizminə yenidən baxacağı problematikdir.

Hikmət Hacıyevin söylədikləri onu deməyə əsas verirdi ki, rəsmi Bakı danışıqların perspektivinə inanmasa da, hər halda yeni təkliflərinə BMT və ATƏT-dən reaksiya gözləyir. Ancaq adı çəkilən iki beynəlxalq təşkilat bölgədə gərginliyin azalması və işğala son qoyulması yoluyla müharibənin qarşısının alınması üçün heç nə etmədi.

# LOS-ANCELES VƏ BRÜSSEL TƏXRİBATININ ƏMRİ İRƏVANDAN VERİLİB

Dağlıq Qarabağda erməni separatizmi 1987-ci ildə baş qaldırdı, Xankəndidə və İrəvanda mitinqlər başlayaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi şüarları səsləndirildi. Azərbaycan cəmiyyəti ermənilərin təxribatına hazır deyildi, SSRİ rəhbərliyinin erməni təxribatına adekvat cavab verəcəyinə ümidlər vardı. Cavab verilmədi, tam əksinə, SSRİ-nin rəhbəri Mixail Qorbaçovun ətrafındakılar erməni separatizminə açıq rəğbət bəslədilər. Daha sonra erməni separatçılarının silahlanmasına göz yumuldu və azərbaycanlıların yaşadıqları məntəqələrə silahlı hücumlar qeydə alındı. SSRİ-nin dağılmasıyla Azərbaycanla Ermənistan arasında genişmiqyaslı müharibə başladı. Ancaq hətta həmin illərdə belə müxtəlif ölkələrdə yaşayan azərbaycanlılarla ermənilərin ciddi toqquşmaları qeydə alınmadı. Bu dəfə isə vəziyyət fərqliydi.

Azərbaycan-Ermənistan sərhədindəki döyüşlər dünyanın müxtəlif ölkələrində azərbaycanlılarla

ermənilərin qarşıdurma damğasını vurdu. Bəzi ölkələrdə azərbaycanlılar Azərbaycan səfirliyini ermənilərin hücumlarından qoruyurdusa, digərlərində isə əksinə, ermənilər öz səfirliklərinə sığınmaq məcburiyyətində qalmışdılar. İlk dəfəydi, erməni təxribatlarına qarşı səfirliklərimiz soydaşlarımızla birgə mübarizə aparırdılar.

İyulun 12-də sərhəddə azərbaycanlı hərbçilərə hücum və generalımızın şəhid olması xaricdə yaşayan milyonlarla azərbaycanlının da hissiyyatına toxundu. Sərhəddə olduğu kimi xarici ölkələrdə də təxribatı ermənilər törətdi. Ermənilərin Azərbaycanın Los-Ancelesdəki konsulluğu ətrafına toplaşan azərbaycanlılara hücum etməsi, Brüsseldə erməni qrupun azərbaycanlını vəhşicəsinə döyməsi ilə məşəl alovlandı. Sərhəddə toplar, raketlər və pilotsuz uçuş aparatları hədəfləri vururdusa, xarici ölkələrdəki səfirliklər qarşısında yumruqlar və təpiklər havada uçuşurdu. Azərbaycanlılar Los-Ancelesdəki təxribatın intiqamını Moskvada, Kiyevdə və başqa şəhərlərdə aldılar. Bu, Ermənistan hakimiyyətinə, erməni lobbisinə, Los-Ancelesdə, Brüsseldə və digər şəhərlərdə yaşayan ermənilərə yenidən azərbaycanlılara qarşı təxribatlara əl atsalar, bunun onların özlərinə ziyan vuracağıyla bağlı xəbərdarlıq idi. Bundan artığına ehtiyac yox idi, fərqli ölkələrdə erməni təxribatı ilə mübarizəni hüquqi müstəvidə davam etdirmək lazımıydı.

Los-Ancelesdə və Brüsseldə azərbaycanlılara qarşı təxribatlar törədildiyi saatlarda Ermənistanın baş

naziri Nikol Paşinyan hökumətin iclasını keçirirdi. O, müxtəlif ölkələrdəki soydaşlarını təxribatlardan çəkindirmək əvəzinə vəziyyəti daha da gərginləşdirən açıqlamalar verirdi. Ermənistanın baş naziri deyirdi ki, sərhəddəki döyüşlər fonunda dünyadakı erməni lobbisinin fəaliyyətindən məmnundur. Bu o demək idi ki, azərbaycanlılara qarşı təxribat əmri elə İrəvandan verilib. Bu, Xocalı soyqırımını planlaşdıran və həyata keçirən düşüncə tərzinin davamıydı.

Bundan başqa Paşinyan hakimiyyətə gəldiyi gündən bu yana dəfələrlə söylədiyi tezisləri təkrarladı: "1. Azərbaycan Dağlıq Qarabağla birbaşa danışıqlar aparmalıdır; 2. Dağlıq Qarabağın təhlükəsizliyi məhdudlaşdırıla bilməz; 3. Dağlıq Qarabağın öz müqəddəratını təyin etmə hüququ olmalıdır; 4. Azərbaycan Ermənistana və Dağlıq Qarabağa güc tətbiqi fikrindən rəsmən imtina etməlidir".

Ermənistanın baş naziri faktiki olaraq Azərbaycana "kapitulyasiya" təklif edirdi. Nikol Paşinyanın bu bəyanatından sonra işğalçı ölkə ilə danışıqların davam etdirilməsinin mənası yox idi. Çünki, sərhəddəki dördgünlük döyüşlərdən sonra masada dəyişən bir şey yox idi. Paşinyan bir müddət sonra Şuşada yenidən yallı oynamağa gedəcəkdi. Görünür, sərhəddəki döyüşlərdən sonra erməni hərbçilərin rusiyalı həmkarlarıyla birgə Azərbaycanın pilotsuz uçuş aparatlarına qarşı İrəvanda keçirdikləri təlimlər Paşinyanı bir az da cəsarətləndirmişdi. Ancaq başda Rusiya olmaqla müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların

erməni təxribatına qarşı verdikləri cavab həm də onu göstərirdi ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlamasına müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar seyrçi qalmayacaqlar, ona görə də Moskvada azərbaycanlı iş adamlarının bir hissəsi ermənilərlə ticarət aparmaqdan müvəqqəti imtina etdi. Bunu işğalçı Ermənistana qarşı azərbaycanlıların birgə başlatdığı təzyiq mexanizmi kimi də anlamaq olardı.

## SERBİYA ERMƏNİSTANA SİLAH SATSA DA, AZƏRBAYCANI SEÇDİ

Serbiyanın işğalçı Ermənistana Gürcüstan üzərindən minaatanlar satması xəbəri Azərbaycanda geniş əks-səda doğurdu. Serbiyanın müvəqqəti işlər vəkili Azərbaycan XİN-ə çağırıldı.

Serbiya rəsmiləri Ermənistana silah göndərdiklərini etiraf etdilər. Bu silahı Ermənistana Serbiyanın müstəqil şirkəti satmış, Serbiya hakimiyyəti buna mane olmamışdı. Serbiyanın keçmiş prezidenti və baş naziri Ermənistana silah satışına mane olmadığına görə rəsmi Belqradı tənqid etdi, bunun Azərbaycanla münasibətlərə mənfi təsir edəcəyini bildirdi. Həqiqətən bu vəziyyətdə rəsmi Bakı Belqradla münasibətlərə yenidən baxa bilərdi.

Əlbəttə Serbiyadan açıqlama verə bilərdilər ki, Azərbaycan istədiyi ölkədən silah və hərbi texnika ala bilir, Belqradın da Ermənistana minaatanlar satmaq hüququ var. Bəli, Belqradın belə bir hüququ var, ancaq belə olan halda rəsmi Bakının da Serbiya ilə əməkdaşlığa yenidən baxmaq hüququ var idi.

Azərbaycan cəmiyyəti o günlərdə sual edirdi: Belqrad işğalçı ölkəyə silah satacaqsa, Azərbaycan Serbiyaya niyə yatırım qoymalı və ortaq layihələr reallaşdırmalıdır? Doğrudur, Belqrad bizə onu da deyə bilərdi ki, bəs Rusiya da Ermənistana silah və hərbi texnika verir, Bakı Moskva ilə münasibətlərə niyə göz gəzdirmir? Rusiya əzəldən Ermənistanın siyasi və hərbi müttəfiqidir, bunu bilirik. Elə buna görə də Azərbaycan cəmiyyətində Kremlin regional siyasətinə inam yoxdur. Serbiya ikinci Rusiya olmaq istəyirdisə, bu Serbiya-Azərbaycan münasibətlərinə mənfi təsir edəcəkdi.

Serbiya prezidenti Aleksandr Vuçiç xəbər yayıldıqdan bir neçə gün sonra qeyd etdi ki, Serbiya Ermənistana silah satıb, ancaq ən çox silahı Azərbaycana satıb. Bu açıqlama Azərbaycanı razı salmadı. Bundan sonra Aleksandr Vuçiç Serbiyanın baş nazirinin müavinini və daxili işlər naziri Neboyşa Stefanoviçi Azərbaycana göndərdi. Neboyşa Stefanoviç eyni zamanda Serbiya Milli Təhlükəsizlik Şurasının katibidir.

Neboyşa Stefanoviç avqustun 10-da və 12-də Bakıda Azərbaycan rəsmiləri ilə görüşdü. O, Bakıda strateji tərəfdaş olan Serbiya və Azərbaycan arasında güclü dostluq münasibətləri olduğunu qeyd etdi. Serbiya rəsmisi iki ölkə arasındakı iqtisadi münasibətlərdən də danışdı: *"Biz Serbiyada fəaliyyət göstərən Azərbaycan şirkətlərinin fəaliyyətindən məmnunuq. Onlar çox çalışqandır və səmərəli fəaliyyət göstərir. Biz bu əməkdaşlığın*

*daha da genişləndirilə biləcəyinə inanırıq, bunun üçün böyük imkanlar var. Bu əməkdaşlıq hər iki tərəf üçün faydalı ola bilər və bu əməkdaşlığın gələcəkdə iki ölkəni daha da yaxınlaşdıracağına inanıram".*

Beləliklə, Serbiya rəsmisinin Azərbaycana səfəri və Bakıda keçirdiyi görüşlərdən gəlinən nəticə Belqradın bir daha Ermənistana silah satmayacağını göstərirdi. Belqrad üçün Azərbaycanla əməkdaşlıq daha faydalıdır. Ermənistana silah satmaqda davam etmək isə yenidən Serbiya-Azərbaycan münasibətlərinə mənfi təsir edə bilərdi. Əslində Serbiya Ermənistana cəmi bir milyon dollar qiymətində silah satıb. Ancaq bu miqdarın özü belə Azərbaycanda narazılıq yaratmışdı. Serbiya-Azərbaycan siyasi və iqtisadi əməkdaşlığını gücləndirmək hər iki tərəf üçün faydalıdır.

## AVROPA İTTİFAQI SƏRHƏDDƏKİ DÖYÜŞLƏRİ BORU XƏTTİ İLƏ ƏLAQƏLƏNDİRİB

İyulun 22-də iki mötəbər təşkilatdan – BMT-dən və Avropa İttifaqından Bakıya və İrəvana telefon zəngləri edildi. Nyu-York və Brüsseldən eyni gündə edilən iki telefon zəngi BMT və Avropa İttifaqının Azərbaycan-Ermənistan sərhədindəki döyüşlərdən narahatlığını göstərdi.

BMT-nin baş katibi Antonio Quterreş prezident İlham Əliyevlə telefonla danışığında qeyd etdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda status-kvo həmişəlik davam edə bilməz və o, hərbi əməliyyatlara son qoyulmasına, danışıqların davam etdirilməsinə çağırıb.

Bu sözlərdə yeni heç nə yoxuydu, təkrarlanan fikirləriydi. BMT baş katibi telefon danışığında bir kəlmə də rəhbərlik etdiyi qurumun münaqişənin həlliylə bağlı dörd qətnaməsinin reallaşdırılması vacibliyindən söz açmadı. Antonio Quterreşdən əvvəlki BMT baş katibləri də dörd qətnamə barədə danışmırdılar. Ona görə də həmin qətnamələri prezident

İlham Əliyev BMT baş katibinə xatırlatdı: "Ermənistan 30 ilə yaxındır BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymur".

BMT baş katibinin Azərbaycan prezidentinin bu sözlərinə reaksiya verməməsi onu göstərirdi ki, bu qurumun bölgədəki vəziyyətin gərginləşməsinə görə narahatlığına baxmayaraq, təşkilat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olmaq istəmir.

İyulun 22-də Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Cozep Borrell də Bakıya və İrəvana zəng etdi. Ancaq əgər BMT baş katibi Azərbaycan və Ermənistan liderlərinə ayrılıqda zəng etmişdisə, Avropa İttifaqının ali nümayəndəsi Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında üçtərəfli şəkildə telefonla danışdı. Cozep Borrell hər iki tərəfi silahlı qarşıdurmanı dayandırmağa və gərginliyə səbəb olan hərəkət və ritorikadan çəkindirməyə çalışarkən belə bir fikir də söylədi: *"Xüsusən bölgədəki kritik infrastruktur üçün gələcək təhdidlərdən çəkinməyə çağırıram".*

Bölgədə bütün "kritik infrastruktur layihələri" Azərbaycanla əlaqəlidir, Ermənistan heç bir regional layihədə iştirak etmir. Ona görə də Cozep Borrell ümumi danışsa da, əslində Azərbaycan ərazisindəki layihələri nəzərdə tutub. 2021-ci ildən başlayaraq Azərbaycan qazı TAP və TANAP boru xətləri ilə Avropaya nəql olunacaq. Brüssel Azərbaycan-Ermə-

nistan sərhədinə yaxın ərazilərdən keçən bu boru xəttinin təhlükəsizliyini diqqət mərkəzində saxlayır. Sərhəddəki döyüşlər isə boru xəttinə təhlükə yaradırdı. Hətta müharibənin davam etdiyi günlərdə Ermənistan Bakı-Tbilisi-Ceyhan boru xəttini hədəf almış, raket boru xəttinin yaxınlığına düşmüşdü. Brüsselin boru xəttinin təhlükəsizliyinin təminatı üçün Azərbaycanın işğal altındakı torpaqlarına baxışını dəyişdirməsi vacibiydi. Ermənistanın işğala yönələn siyasəti davam etdikcə, bölgədə müharibə təhlükəsi azalmayacaqdı.

Bölgədəki infrastruktur layihələrinin təhlükəsizliyi Azərbaycanı Avropadan az narahat etmir. Ancaq Azərbaycan üçün bu layihələrin təhlükəsizliyi torpaqların işğaldan azad olunması vacibliyinin qarşısını ala bilməzdi. Əlbəttə, Ermənistan və Rusiyadakı bəlli mərkəzlər Azərbaycanın Avropaya satacağı qaz hesabına varlanmasını, güclənməsini istəmirlər. Ermənistanın Tovuz istiqamətində törətdiyi təxribatın arxasında Azərbaycanın regional layihələrinin hədəf seçilməsi dəst-xətti seçilirdi. Bunu Brüsseldə də başa düşdükləri üçün Avropa İttifaqının ali nümayəndəsi Bakı və İrəvanla telefon danışığında "kritik infrastruktur" layihələrə eyham vururdu. Brüssel haqqında danışdığı layihələrin təhlükəsizliyi haqqında ciddi düşünürdüsə, münaqişənin "mərhələli həllinə" dəstək verməliydi. Bu həll planına dəstək olmayınca, Brüsselin tərəflərə balanslı çağırışlarının heç bir əhəmiyyəti olmayacaqdı.

## ANKARA SƏRHƏD MÜHARİBƏSİNƏ GENİŞ BAXIR

Türkiyənin müxtəlif televiziya kanallarında Tovuz istiqamətində döyüşlərlə bağlı müzakirələr günlərlə davam etdi. Türkiyənin tanınmış ekspertlərinin müzakirələrindən bir neçə qənaətə gəlmək mümkün idi.

***Birincisi,*** türkiyəli ekspertlər hesab edirdilər ki, son hadisələrdə Rusiyadakı mərkəzlərin əli var. Rusiyanın Liviyadakı mövqeləri zəiflədiyindən və Türkiyə Liviyada gücləndiyindən Kreml bunun əvəzini Türkiyənin Qafqazdakı strateji müttəfiqi Azərbaycana Ermənistan üzərindən zərbə endirməklə çıxmağa çalışıb və bu yolla Ankaraya xəbərdarlıq mesajı göndərib. Bu bir az mübahisəli yanaşma idi. Çünki, sərhəddəki toqquşma Azərbaycanın Ermənistandan üstün olduğunu göstərdi. Bu isə Rusiyanın maraqlarına cavab verə bilməzdi.

***İkincisi,*** türkiyəli ekspertlər hesab edirdilər ki, Azərbaycanı zəiflətmək Türkiyəni zəiflətmək deməkdir. Ona görə də Türkiyə İraqda, Suriyada və Liviyada hərbi yolla öz maraqlarını müdafiə etdiyi kimi Mehmetciyin Azərbaycana yardıma getməsi mümkün va-

riantlardan biriydi. Bu sırada Türkiyə ilə Azərbaycan arasında hərbi-strateji əlaqələrin daha üst səviyyəyə qaldırılması gündəmə gətirilirdi.

***Üçüncüsü,*** türkiyəli siyasi ekspertlər hesab edirdilər ki, Tovuzun yaxınlığından keçən neft və qaz boru xətlərinə, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yoluna ciddi təhlükə var. Bu isə birbaşa Türkiyənin təhdid edilməsi deməkdir.

***Beləliklə,*** türkiyəli ekspertlər Tovuzdakı insidentə geniş aspektdən yanaşırdılar. Elə Türkiyə Cumhurbaşqanı Rəcəb Təyyub Ərdoğanın ermənilərin təxribatına "Bu hücum Ermənistanın səviyyəsini aşan hadisədir" açıqlaması da arxa planda başqa güclərin olduğuna işarəydi. Bu güclərin içərisində Türkiyənin bölgədə artan rolundan narahat olan Fransanı da nəzərdə tutmaq olardı.

Dağlıq Qarabağda 1990-cı illərin əvvəllərindəki müharibədən sonra Azərbaycanla Türkiyə arasındakı strateji əlaqələr yüksələn xətt üzrə inkişaf edib. Türkiyə 1990-cı illərdəki vəziyyətdən fərqli olaraq hazırda regional gücə çevrilib və Azərbaycana qarşı təxribatlara seyrçi qalmayacaq. Ankarada Azərbaycanın təhlükəsizlik maraqları Türkiyənin təhlükəsizlik maraqları ilə eyni tutulur. Odur ki, xarici güclər Ermənistan üzərindən Azərbaycana hücumlar təşkil edirlərsə, Ankarada artıq bunu Türkiyəyə hücum kimi dəyənləndirirdilər. Ona görə də Türkiyə öz maraqlarını ətraf ölkələrdə qoruduğu kimi bir nömrəli strateji müttəfiqi saydığı Azərbaycanda da qorumağa hazır idi.

## İLHAM ƏLİYEV NİKOL PAŞİNYANA CAVAB VERDİ

Ermənistanın baş naziri Nikol Paşinyan iyul ayındakı sərhəddəki döyüşlərdən sonra Azərbaycan prezidentinə öz düşüncə tərzinə görə mesajlar yolladı: "Birincisi, Azərbaycan Dağlıq Qarabağla birbaşa danışıqlar aparmalıdır. İkincisi, Dağlıq Qarabağın təhlükəsizliyi məhdudlaşdırıla bilməz. Üşüncüsü, Dağlıq Qarabağın öz müqəddəratını təyin etmə hüququ olmalıdır. Dördüncüsü, Azərbaycan Ermənistana və Dağlıq Qarabağa güc tətbiqi fikrindən rəsmən imtina etməlidir". Paşinyanın ümumilikdə məntiqsiz şərtlərinin sayı 7 idi. Paşinyan ikinci "mesajını" Rusiyanın "RBC" televiziya kanalında müsahibəsində səsləndirdi. O iddia etdi ki, guya Azərbaycan prezidenti onunla danışıqlar aparırsa, bunun özü "rəsmi Bakının Dağlıq Qarabağı Ermənistan ərazisi kimi qəbul etməsi" deməkdir.

Prezident İlham Əliyev Paşinyana rayonlardan birinə səfəri zamanı cavab verdi. Birincisi, prezident qətiyyətlə vurğuladı ki, Paşinyanın "7 şərtini"

lazımsız kağız parçası kimi zibil yeşiyinə atmaq lazımdır. Azərbaycanın tək şərti olduğunu xatırladan İlham Əliyev Ermənistanın Azərbaycan torpaqlarını qeyd-şərtsiz boşaldılması vacibliyini bildirdi. Bunsuz münaqişə həll olunmayacaq.

Prezident Paşinyanın "münaqişənin həlli məqsədilə Yerevanla danışıqlar aparılırsa, demək, Bakı Dağlıq Qarabağı Ermənistan ərazisi sayır" fikrinə də tutarlı cavab verdi. İlham Əliyev dedi ki, biz məhz ona görə illərdir İrəvanla danışıqlar aparırıq ki, işğalçı Ermənistandır, "Dağlıq Qarabağ Respublikası" qondarma qurumdur. Yəni İlham Əliyev bir daha Paşinyana xatırlatdı ki, Azərbaycan heç bir halda separatçılarla danışıqlar aparmayacaq.

Beləliklə, yeni "açıqlamaları" vasitəsilə Paşinyanın informasiya savaşında üstünlük qazanmaq istəyi nəticəsiz qaldı. Paşinyandan başqa dünyanın heç bir dövləti və beynəlxalq təşkilatı bizdən separatçılarla birbaşa danışıq tələb etmir. Çünki bilirlər ki, Dağlıq Qarabağda Ermənistanın işğalçı ordusu yerləşir və təbii olaraq danışıqlar İrəvanla aparılmalıdır. İlham Əliyev heç zaman işğalçının şərtlərini qəbul etməyəcək.

İlham Əliyevin "özünə güvənirsənsə, elə bu gün Dağlıq Qarabağın müstəqilliyini tanı" açıqlaması Paşinyana mesaj idi. Paşinyandan əvvəlkilər də bunu edə bilmirdilər. Çünki, bilirdilər ki, bunu etsələr, danışıqların mənası qalmayaraq müharibə başlayacaq. Paşinyan da Levon Ter-Petrosyan, Robert Köçəryan

və Serj Sərkisyan kimi separatçıları rəsmən tanımaqdan qorxurdu. Paşinyan da o birilər kimi anlayırdı ki, İrəvanın Dağlıq Qarabağın "müstəqilliyini" tanımasının sabahı Azərbaycan ordusu anti-terror əməliyyatına başlayacaqdı.

Nikol Paşinyan rusiyalı jurnalistin *"Soros və digər Qərb fondlarına Ermənistanda niyə bu qədər imkan yaradılıb, axı bu Rusiya-Ermənistan münasibətlərinə mənfi təsir edir"* sualına həmin fondların nümayəndəliklərinin İrəvanda onun hakimiyyətindən əvvəl yaradıldığı cavabını verdi.

Məsələ burasındadır ki, Soros və digər fondlar İrəvanda uzun müddət fəaliyyət göstərsə də, bu nümayəndəliklərin İrəvandakı erməni təmsilçilərini müxtəlif dövlət vəzifələrinə məhz Nikol Paşinyan təyin edib. Bu isə Paşinyanın həmin fondlarla sıx bağlı olduğu deməkdir. Soros Fondu virusla mübarizə üçün Ermənistana 600 min dollar ayırmışdı. İlham Əliyev bütün bu faktları sadalayaraq Paşinyanın Soros Fondu ilə bağlı yalanlarını faş etdi. İlham Əliyevin Paşinyanın Soros Fondu ilə əlaqələri haqqında söylədikləri Rusiyaya mesaj idi: *"Görün dəstək verdiyiniz dövlətin lideri nə işlə məşğul olur, Kremlin düşmənlərinə qucaq açır".* Təsadüfi deyil ki, Rusiya mediasında Paşinyanın Soros Fondu ilə əlaqələrinə dair müxtəlif yazılar yayınlandı. Bu o demək idi ki, Kreml də Paşinyanın "mənim Soros Fondu ilə əlaqəm yoxdur" fikrinə inanmır. Soros müxtəlif ölkələrdəki "rəngli inqilablarla" Rusiyanın əsas düşmənlərindən biri hesab edilir və

Rusiyanın vassalı olan dövlətin – Ermənistanın lideri həmin düşmənlə sıx əlaqələr qurub.

Nikol Paşinyanla danışıqlar aparmasının mənasızlığı aşkar idi. Bunu İlham Əliyevin yay aylarındakı açıqlamalarından da anlamaq olardı. Azərbaycan-Türkiyə hərbi birliyini gücləndirmək lazımıydı. Paşinyan bundan çox qorxurdu. Buna misal olaraq Paşinyanın rusiyalı jurnalistə dediyi bir ifadəni xatırlatmaq yerinə düşər: "Erməni cəmiyyəti məndən soruşur ki, necə olur, Türkiyə Azərbaycana bu qədər hərtərəfli dəstək verərkən, müttəfiq Rusiya Ermənistana kifayət qədər dəstək vermir?" Bu sualın məntiqi cavabı odur ki, bu gün Türkiyə-Azərbaycan siyasi və hərbi ittifaqı Rusiya-Ermənistan ittifaqından güclüdür.

## ANKARANIN QARABAĞ PLANI...

Türkiyə və Rusiya prezidentləri iyulun 27-də telefonla danışdılar. İki ölkənin prezidenti il ərzində bir neçə dəfə telefonla danışır, əsasən Suriya və Liviyadakı vəziyyəti müzakirə edirdilər. Bu dəfə belə olmadı. Türkiyə və Rusiya prezidentləri ilk dəfəydi, Azərbaycan-Ermənistan qarşıdurmasını detallı şəkildə müzakirə etdilər.

Bu baxımdan bu dəfə telefon danışığının təşəbbüskarının hansı prezidentin olduğu maraq doğururdu. Çünki, telefon danışığının kimin təşəbbüskar olmasından məhz hansı prezidentin həmkarı ilə Azərbaycan-Ermənistan qarşıdurmasının müzakirəsinə marağı ortaya çıxacaqdı. Xəbərlərdə telefon danışığının təşəbbüskarı haqqında məlumat yox idi, sadəcə: "Prezidentlər arasında telefon danışığı olub", – yazılırdı.

"Atlas" Araşdırmalar Mərkəzinin məlumatına görə, telefon danışığının təşəbbüskarı Türkiyə Cumhurbaşqanı Rəcəb Təyyub Ərdoğan olub. Demək məhz Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə

Azərbaycan-Ermənistan qarşıdurmasını müzakirə etmək istəyib.

Rusiya prezidenti Vladimir Putin Dağlıq Qarabağ münaqişəsinin həllinə heç vaxt maraq göstərməyib. Buna dair sadəcə iki misalı göstərmək olar.

***Birinci misal.*** Rusiya prezidenti Vladimir Putin bir neçə il əvvəl Moskvada geniş mətbuat konftransı keçirirdi. Mətbuat konfransında iştirak edən azərbaycanlı jurnalistlərdən biri tədbir boyu Rusiya prezidentinə israrla sual vermək istəyirdi. Mətbuat konfransı bitdikdə ayağa qalxan Putin azərbaycanlı jurnalistin israrını müşahidə edərək ayaqüstü ona kinayəli şəkildə belə cavab vermişdi: "...yəqin yenə Qarabağdan sual verəcəksiniz". Bu cavabın özü Qarabağ mövzusunun Kreml sahibi üçün maraqsız olduğunu göstərirdi.

***İkinci misal.*** Türkiyə Cumhurbaşqanı Rəcəb Təyyub Ərdoğan bir neçə il əvvəl rusiyalı həmkarıyla görüşdükdə müxtəlif mövzularla yanaşı Qarabağ mövzusunu müzakirə etmək istədikdə Putin ona qısaca belə cavab vermişdi: *"Bu çox mürəkkəb məsələdir".* Putin bununla faktiki Ərdoğana demək istəmişdi ki, "mən Səninlə Suriyanı müzakirə etməyə hazıram, ancaq Cənubi Qafqazdakı əsas problemi Səninlə müzakirə etməyə marağım yoxdur". Başqa sözlə, Kreml Ankaranın Dağlıq Qarabağ münaqişəsinin həllindəki fəallığını qəbul etmirdi.

Ancaq 2020-ci ilin əvvəlindən vəziyyət dəyişməyə başladı. Moskva istəməsə belə Türkiyə Cənubi

Qafqazda əsas oyunçulardan birinə çevrilirdi. Bunun bir səbəbi Azərbaycanla Türkiyə arasındakı strateji münasibətlərin inkişafıydısa, ikinci səbəbi Azərbaycanın iştirakçısı olduğu böyük enerji və nəqliyyat layihələrinin Türkiyəyə uzanmasıydı. Yəni Azərbaycana qarşı istənilən həmlə Türkiyənin təhlükəsizlik maraqlarına toxunurdu və Ankara baş verənlərə seyrçi qala bilməzdi. Türkiyə bundan sonra Azərbaycanın milli və təhlükəsizlik maraqlarına toxunacaq proseslərdən kənarda qala bilməzdi və qalmayacaqdı. Bu səbəbdən Tovuz istiqamətindəki döyüşlərə ən sərt reaksiya verən dövlət məhz Türkiyə oldu. Türkiyənin rəsmiləri sərhəddəki döyüşlər fonunda açıq şəkildə Azərbaycana istənilən hərbi dəstəyi verməyə hazır olduqlarını dedilər. Bu mesaj işğalçı Ermənistanla yanaşı həm də Rusiyaya ciddi mesaj idi. Buna görə də artıq Rusiya prezidenti də anladı ki, Türkiyəni Cənubi Qafqazdakı proseslərdən kənarda saxlamaq fiziki baxımdan mümkün deyil.

Ərdoğan Putinə telefon zəngindən bir neçə saat əvvəl vacib strateji gediş etdi, Türkiyənin ordu birlikləri Naxçıvana daxil oldu və bununla Kreml fakt qarşısında qaldı. Bundan başqa Türkiyə Azərbaycanla birgə ölkəboyu geniş hərbi təlimlərə başladı. Türkiyə bir sıra ölkələrdə olduğu kimi bir anda Cənubi Qafqazda da oyun qurucusuna çevrildi. Bu vəziyyətdə Vladimir Putin Rəcəb Təyyub Ərdoğanla Azərbaycan-Ermənistan qarşıdurmasını geniş şəkildə müzakirə etməyə bilməzdi.

Aydındır ki, Ankaranın Azərbaycanla bağlı strateji planı Kremli narahat edirdi. Məhz ona görə Putin Ərdoğanla telefon söhbətində gərginliyin eskalasiyasına kömək edəcək hər cür fəaliyyətə imkan verməməyin vacibliyini qeyd etdi. Kremldə şübhələnirdilər ki, ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqların faydasız olduğunu anlayan rəsmi Bakı işğal altındakı torpaqların azad olunması üçün müxtəlif variantlar üzərində ciddi düşünür və bu planların reallaşmasında Türkiyənin dəstəyi olacaq. Bu baş verməsin deyə Putin Ərdoğanla söhbətdə diqqəti münaqişənin yalnız danışıqlar yolu ilə həllinə yönəltməyə çalışdı. Məsələn, telefon danışığıyla bağlı yayılan xəbərdə belə bir hissə var idi: *"Hər iki tərəf münaqişəli vəziyyətin istisnasız sülh yolu ilə həllində maraqlı olduqlarını bildirib. Liderlər tərəfindən Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsipləri əsasında Azərbaycan və Ermənistan xalqlarının maraqları çərçivəsində siyasi diplomatik yolla nizamlanmasının alternativsizliyi qeyd olunub".*

Beləliklə, Kreml Türkiyənin Azərbaycanda var olduğunu qəbul edib. Bundan sonra Putin Ərdoğanla görüşlərində və telefon söhbətlərində Suriya, Liviya və digər mövzularla yanaşı Azərbaycan-Ermənistan qarşıdurmasını da müzakirə etmək məcburiyyətindəydi. Rusiya informasiya agentliklərinin prezidentlərin telefon danışığı barədə yaydığı xəbərdə *"regionda sabitlik məqsədi ilə səylərin koordinasiyasına hazırlıq qeyd olunub"* cümləsi də bundan xəbər verirdi.

Bu cümlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində yeni Rusiya-Türkiyə formatının yaradılmasına yol aça bilərdi.

Türkiyənin və Azərbaycanın Qarabağ planı sadəydi:

- Ermənistan işğal altındakı Azərbaycan ərazilərini boşaldır;
- Azərbaycanlılar geri qayıdırlar;
- Dağlıq Qarabağa ermənilərinə təhlükəsizlik təminatı verilir;
- Azərbaycan və Türkiyə Ermənistanla kommunikasiya xətlərini açır və beləcə regional əməkdaşlığa Ermənistanın qoşulması imkanları açılır.

Ermənistan bu təklifləri əvvəlkitək rədd edib danışıqların uzanmasına çalışarsa, gərginliyin artmasına və bundan doğan nəticələrlə barışmalı olacaqdı.

## VASİTƏÇİLƏRİN BƏYANATI HEÇ NƏYƏ TƏSİR ETMƏDİ

Azərbaycanla Ermənistan arasındakı sərhəddə dördgünlük müharibədən sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik (*polşalı diplomat vəzifəsində qocaldı, onu dəfələrlə Polşa Xarici İşlər Nazirliyindəki vəzifəsinə geri qayıtmağı təklif etsələr də, razılaşmadı. Yox, o, Azərbaycanla Ermənistan arasında ədalətli sülh əldə edəcəyi barədə düşünmürdü, düşündüyü vəzifəsində aldığı yüksək maaş və gələcək təqaüd idi. Müharibənin bitməsiylə onun vəzifəsinə ehtiyacın qalmadığı göz qabağındadır* – **E.Ş.**) ortaq bəyanat yaydılar. Bəyanatda belə bir cümlə var idi: "Həmsədr ölkələrin birgə səylərini tənqid edən və ya birtərəfli qaydada yeni "şərtlər" yaratmaq, yaxud tənzimləmə prosesi formatında dəyişikliklər edilməsi konstruktiv dialoqun başlamasına imkan vermir".

Cümlənin birinci hissəsindəki "şərtlər" ifadəsi Nikol Paşinyana aid idi. Çünki məhz Ermənistanın baş naziri sərhəddəki döyüşlərdən sonra hökumətin icla-

sında münaqişənin həlliylə bağlı təxribatçı “şərtlər” irəli sürmüşdü. Göründüyü kimi, vasitəçilər Paşinyanın “şərtlər” irəli sürməsini danışıqlara zərər kimi qiymətləndiriblər.

Həmsədrlərin bəyanatındakı cümlənin əvvəli və ikinci hissəsi isə Azərbaycan prezidentinin köməkçisi Hikmət Hacıyevə aid idi. Hikmət Hacıyev sərhəddəki döyüşlərdən sonra demişdi ki, rəsmi Bakı Minsk Qrupunun 11 üzvünün toplanmasını vacib hesab edir. Bundan başqa Hikmət Hacıyev vasitəçilərin fəaliyyətindən narazılığını bildirmişdi. Həmsədrlər isə bəyanatlarında buna cavab olaraq mövcud fotmatın dəyişilməsinin dialoqa zidd olduğunu diqqətə çatdırdılar. Həmsədrlər onların ünvanına deyilən tənqiddən narazıydılar.

Minsk Qrupunun formatı niyə dəyişdirilə bilməz? Azərbaycanın, üç dövlətin həmsədrliyi ilə 25 ildir sürən, nəticəsiz danışıqların formatının dəyişdirilməsini ifadə etməyə tam hüququ var. Bəlkə Minsk Qrupunun 11 üzv dövlətindən biri və ya bir neçəsi həmsədrlərə qoşulmaq istəyir, onların qarşısını niyə almalısınız? Üç həmsədr dövlət isə əmr formasında demək istəyirdi ki, münaqişənin həllinə bizdən başqa kimsə qoşula bilməz. Rəsmi Bakı hazırkı formatdan narazıdır və indiki format münaqişənin həlli üçün heç nə etmir.

# ERMƏNİ LOBBİSİ AZƏRBAYCANA QARŞI TƏBLİĞATINI GÜCLƏNDİRİB

"Atlas" Araşdırmalar Mərkəzinin monitorinqi yalnız bir gündə Ermənistan hakimiyyətinin və erməni lobbisinin Azərbaycana və azərbaycanlılara qarşı üç həmləsini göstərirdi.

***Birinci həmləni*** Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyanın "RBC" televiziya kanalına müsahibəsiylə etdi. Rusiyanın digər agentlikləri Paşinyanın sözlərini geniş yaydılar. Paşinyan Rusiyada azərbaycanlıların ermənilərə qarşı hücumlarını Azərbaycanın Rusiyada qarışıqlıq yaratması kimi "izah" etdi. Paşinyan "üçüncü qüvvələrin də" Cənubi Qafqazda və Rusiyada qarışıqlıq yaratmağa çalışdığını iddia etdi. Paşinyan heç şübhəsiz "üçüncü qüvvə" deyərkən Türkiyəni nəzərdə tuturdu.

Erməni lobbisinin ***ikinci həmləsi*** Ermənistan məhsullarının Moskvadakı böyük meyvə və tərəvəz bazarına girişinə qoyulan yasağın aradan qaldırılmasıyla əlaqəli oldu. Moskvadakı ən böyük meyvə və tərəvəz qəbulu və satışı mərkəzinin azərbaycanlı

sahibləri bir müddət Ermənistan məhsullarını qəbul etmədilər. Ancaq daha sonra Moskvadakı erməni diasporu Rusiya hakimiyyəti ilə danışıqlar apardı. Nəticədə Rusiyanın dövlət strukturları erməni biznesmenlərin xeyrinə məsələyə müdaxilə etdilər. Əslində azərbaycanlı biznesmenlər uzun müddət erməni biznesmenlərə mane ola bilməzdilər. Bu Rusiya qanunlarına da ziddir. Hər halda bir neçə günlük etiraz nəticə verdi. Ermənistan hakimiyyəti anladı ki, onların işğalçılıq siyasəti erməni biznesmenlərə də ciddi problemlər yaradır.

Azərbaycan əleyhinə ***üçüncü həmlə***ni Ukraynadakı separatçılar etdilər. Luqansk separatçılarının təmsilçisi televiziyada çıxış edərək guya Ukrayna Təhlükəsizlik Xidmətinin Azərbaycana muzdlular göndərdiyini iddia etdi. Separatçıların nümayəndəsi həmin muzdluların ukraynalı millətçilər olduğunu bildirdi. Ermənilərin xeyrinə yayılan bu dezinformasiyanın arxasında Rusiyanın müvafiq strukturları dayanırdı. Çünki, Donbasdakı separatçılar Moskvadakı dairələrdən təlimat almadan Azərbaycan əleyhinə açıqlama yaymazdılar, bu onların başını aşan hərəkət olardı. Ukraynadakı separatçıların Moskvanın xəbəri olmadan Azərbaycan əleyhinə açıqlama səsləndirməsi mümkün deyildi. Görünür, sərhəd münaqişəsində Ukraynanın Azərbaycana verdiyi dəstək Kremli narahat edib.

# BİRGƏ HƏRBİ TƏLİMLƏR MOSKVAYA MESAJ İDİ

İlham Əliyev 2020-ci ilin fevral ayında türkiyəli həmkarı Rəcəb Təyyub Ərdoğanla Bakıda keçirdiyi görüşdən sonra mətbuata verdiyi açıqlamada hərb əməkdaşlığın inkişafından da danışdı. “Təkcə keçən il 13 birgə hərbi təlim keçirilib, bu il təlimlər daha da çox olacaq”, – deyən dövlət başçısı Azərbaycanın Türkiyədən müasir silahların alınmasını davam etdirəcəyini bu sözlərlə izah etdi: “Birgə istehsalın təşkil edilməsi barədə də danışmışıq”.

Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı hər zaman aktualdır. Bölgədə vəziyyət gərginləşən kimi hərbi əməkdaşlığın aktuallığı daha da artır. Çünki, Ermənistanın Tovuz istiqamətində təxribatının arxasında geosiyasi faktorların ola biləcəyi istisna edilmədi. Türkiyə rəsmiləri isə açıq dedilər ki, sərhəddəki gərginliyin arxasında böyük güclər dayanıb, Azərbaycandan keçən regional layihələrə zərər vurmaq istəyirlər. Elə buna görə də Rəcəb Təyyub Ərdoğan, Türkiyənin xarici işlər və müdafiə nazirləri

Azərbaycana istənilən dəstəyi verməyə hazır olduqlarını bildirdilər. Böyük məna kəsb edən bu ifadə hərbi əməkdaşlığın genişlənməsindən tutmuş Türkiyənin Azərbaycanda hərbi bazalarının yerləşdirilməsinə qədər bəndləri nəzərdə tuturdu.

Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri 2020-ci il iyulun 29-da başladı. Bu təlimlər əvvəlcədən razılaşdırılmış plana əsasən reallaşırdı. Buna baxmayaraq, 2020-ci ildəki hərbi təlimlərin çoğrafiyasının geniş olması diqqəti çəkirdi. Cəmi 10 gün ərzində iki ölkə ordusunun hərbi təlimləri Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində keçiriləcək, bütünlükdə Azərbaycan əhatə olunacaqdı. Bu, Ermənistana və Rusiyaya vacib mesajıydı. Türkiyə Qars müqaviləsiylə yalnız Naxçıvanın təhlükəsizliyinin təminatçısıdır. Ancaq birgə hərbi təlimlərin coğrafiyası göstərirdi ki, Türkiyə üçün artıq bütöv Azərbaycanın təhlükəsizliyi əhəmiyyət daşıyır. Bu gedişat iki ölkə arasında yeni hərbi sazişin imzalanmasını diktə edirdi.

Sərhəddəki münaqişədən sonra Ermənistan Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının dəstəyini əldə edə bilməsə də, Moskva İrəvanı yalnız buraxmayıb. Rusiya mediasında Azərbaycan əleyhinə artan xəbər axını da bundan xəbər verirdi. İş o yerə çatmışdı ki, Ukraynada Rusiyaya bağlı separatçılar dezinformasiya yayaraq, guya Ukraynanın rəsmi strukturlarının Azərbaycana muzdlu döyüşçülər göndərdiyini iddia edirdilər. Rusiyanın Ermənistanla

pilotsuz uçuş aparatlarının neytrallaşdırılması ilə bağlı birgə təlimləri də Azərbaycana qarşı yönəlmişdi. Əlbəttə, İlham Əliyevin də dediyi kimi, Azərbaycan təklikdə Ermənistanla məsələni həll edə bilər, ancaq Rusiya Ermənistanı tək buraxmayacaqdı. Ona görə də Türkiyə ilə hərbi əməkdaşlığı üst səviyyəyə qaldırmaq Azərbaycan üçün həyati əhəmiyyətliydi.

Rəcəb Tayyib Ərdoğan Azərbaycana hər cür dəstək verəcəyini növbəti açıqlamalarının birində də vurğuladı: “Türkiyə olaraq mədəniyyətimizdən aldığımız ilhamla haqq, həqiqət, ədalət və sülh uğrunda apardığımız mübarizəni daima daha irəliyə aparmaq əzmindəyik. Suriyada məzlumların fəryadlarına biganə qalmadıq və Liviyada ölkənin qanuni idarəçiliyinin əməkdaşlıq dəvətini cavabsız qoymadıq. Azərbaycandakı qardaşlarımızın işğal altındakı torpaqlarını azad etmək səylərinə də eyni anlayışla dəstək veririk. Hər mübarizə arzu olunduğu nəticəni verməyə bilər, amma mübarizə aparmayan bəri başdan məğlubdur”. Bu o demək idi ki, Azərbaycan işğal altındakı torpaqları müharibə yoluyla azad etmək istəsə Türkiyə Azərbaycana dəstək verəcəkdi.

## HƏRBİ TƏLİMLƏRDƏN SONRA NƏ OLACAQDI?

Azərbaycanla Türkiyə arasında birgə hərbi təlimlər davam edirdi. İlk dəfəydi, təlimlər bölgədə marağı olan yaxın və uzaq ölkələrdə böyük maraq doğurmuşdu. Bunun iki səbəbi var idi.

***Birinci səbəb*** o idi ki, Azərbaycan cəmiyyəti işğal altındakı torpaqların boşaldılmasını sürətləndirmək istəyir və bu zaman Ermənistanla aparılan danışıqların fayda verəcəyinə inanmırdı. Azərbaycan prezidenti və cəmiyyəti müharibənin qaçılmaz olduğunu anlayırdılar. Tovuz istiqamətindəki döyüşlər və ondan sonra Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri istər-istəməz belə təəssürat yaratmışdı ki, iki qardaş dövlət işğal altındakı torpaqların azad olunması üçün birgə addım atmağa hazırdır.

Birgə hərbi təlimlərə olan marağın ***ikinci səbəbi*** Türkiyənin bölgədə artan rolu ilə əlaqəliydi. Türkiyə 15 və ya 20 il bundan əvvəlki ölkə deyil, bölgənin aparıcı gücünə çevrilib. Türkiyə heç kimlə, o cümlədən ABŞ, Rusiya və ya Avropa İttifaqı ilə hesablaşma-

dan və məsləhətləşmədən istənilən istiqamətdə hərbi əməliyyat həyata keçirir və bu əməliyyatları Türkiyənin milli və təhlükəsizlik maraqları ilə izah edir. Suriyada, Liviyada, İraqda, Aralıq dənizi hövzəsində güclənən Türkiyə Cənubi Qafqazı da öz maraqları siyahısına daxil edib. Bununla artıq Rusiya da hesablaşmaq məcburiyyətində qalıb. Nikol Paşinyan isə elə bilirdi ki, Türkiyə əvvəllər olduğu kimi Azərbaycan torpaqlarının işğalına seyrçi qalacaq. Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Təyyub Ərdoğanla telefon söhbəti zamanı bu ölkənin Azərbaycan-Ermənistan qarşıdurmasındakı rolunu qəbul etdiyinə dair fikirlər söyləmişdisə, kiçik və kasıb Ermənistan buna qarşı heç nə edə bilməzdi. Paşinyan bunu qəbul etmək istəmirdisə, onun əsas rəqibi, eks-prezident Robert Köçəryan real vəziyyəti anlamışdı.

Köçəryan iki gerçəyi anlayırdı. O, Azərbaycan cəmiyyətinin müharibə istədiyini və bu amillə hesablaşmaq lazım olduğunu dedi. Köçəryan həm də Türkiyəni artıq Cənubi Qafqazdan uzaq saxlamaq mümkün olmayacağını da anlamışdı. Əslində bunu Paşinyan da anlayırdı, sadəcə zəif görünməmək üçün səsləndirməyə qorxurdu. Ancaq reallıqdan qaçmaq mümkün deyildi. Reallıq isə buydu ki, Türkiyə hakimiyyəti və cəmiyyəti Dağlıq Qarabağı artıq özününkü sayır. Yəni Dağlıq Qarabağ və ətraf rayonların işğalı Azərbaycan üçün nədirsə, Türkiyə üçün də odur və qardaş dövlət özünə də aid olduğunu hesab

etdiyi torpaqların növbəti illər üçün işğal altında qalmasına dözüm nümayiş etdirmək istəmir. Bu yaxşı mənada Azərbaycana da torpaqların işğaldan azad etmək əməliyyatını sürətləndirmək lazım olduğu və bu zaman Türkiyənin heç nədən və heç kimdən çəkinmədən Azərbaycanın yanında olacağıyla bağlı yumşaq təzyiq formasıydı.

Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında 2010-cu ildə imzalanan anlaşma hər iki dövlətə hərbi əməkdaşlığı yüksək səviyyəyə qaldırmaq imkanı verirdi. Həmin sazişə əsasən tərəflərdən biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldıqda, tərəflər kollektiv özünümüdafiə hüququndan istifadə edə bilərlər. Sazişin digər maddəsinə görə Azərbaycan və Türkiyə silahlı qüvvələrinin güc və idarəetmə strukturlarının əlaqələndirilməsi üçün lazımi planlaşdırma həyata keçirə bilərlər. Ancaq bu sazişi hazırda gücləndirməyə ehtiyac var. Azərbaycanla Türkiyə öz aralarında imzalayacağı yeni sazişə görə Qars müqaviləsinin əhatə dairəsi bütün Azərbaycana inikas etdirməlidir. Bununla işğalçı ölkə daima qorxu və panika içində olacaq. Birgə təlimlər zamanı Türkiyənin hərbi təyyarələrinin Ermənistan sərhədinə yaxınlaşması İrəvanda güclü panika yaratdığı kimi. Azərbaycana da bu lazımdır.

# RUSİYA ERMƏNİSTANA GÖRƏ TÜRKİYƏ İLƏ MÜNASİBƏTLƏRİ GƏRGİNLƏŞDİRƏRMİ?

Kreml görürdü ki, Türkiyə fəal şəkildə Azərbaycana hərbi dəstək verir. Bu, Ermənistanı da ciddi narahat etməyə başladı. İşğalçı ölkə panika içindəydi. Ermənistan hakimiyyətinin bu vəziyyətdə əsas istəyi Rusiyanın Türkiyəyə qarşı sərt ultimatum verməsiydi. Ermənistan hakimiyyəti Rusiyanın Türkiyəni hədələməsini istəyirdi. Ancaq bu baş vermirdi və bu hal Ermənistanın narahatlığını artırırdı.

Kreml Azərbaycan-Türkiyə birgə hərbi təlimlərini diqqətlə izləyirdi. Ancaq Rusiyanın hakimiyyət dairələri bu təlimlərə qarşı heç bir bəyanat vermədilər. Kremldə birgə hərbi təlimlərə qarşı bəyanatın Moskvanın həm Türkiyə, həm də Azərbaycanla münasibətlərinə zərər verəcəyini anlayırdılar. Rusiya Ermənistanın tələsinə düşmək istəmirdi. Kreml Ermənistana görə Azərbaycan və Türkiyə ilə münasibətləri gərginləşdirməkdə maraqlı deyildi. Çünki, Kremldə Türkiyə ilə Azərbaycanın birgə hərbi təlimlərinin Ru-

siyaya deyil, Ermənistanın işğalçı siyasətinə qarşı olduğunu başa düşürdülər.

Rusiyanın Türkiyə ilə ortaq iqtisadi və eneri layihələri mövcuddur. Türkiyə ilə iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi Rusiya üçün vacibdir. Rusiya Türkiyədə atom elektrik stansiyası inşa edir. Türkiyə Rusiya hərbi texnikasının alıcılarından biridir, gələcəkdə C-400 raketlərinin birgə istehsalı nəzərdə tutulub. Ona görə də Kreml bütün bu layihələri Ermənistana görə təhlükə altına atmaq istəmir.

Müharibədən əvvəl cəmiyyətimizdə əsas sual bu idi: *Azərbaycan Türkiyə ilə birgə işğal altındakı torpaqları azad etmək əməliyyatına başlayarsa, Kremlin reaksiyası necə olacaq?*

Azərbaycan və Türkiyənin Ermənistana hücum etmək planı yox idi. Əsas məqsəd Azərbaycanın işğal altındakı rayonlarını azad etmək idi. Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ona görə də Azərbaycan ordusu Dağlıq Qarabağ ətrafındakı rayonların azad edilməsi əməliyyatına başlasa Rusiyanın buna mane olmaq üçün arqumenti olmayacaqdı. Rusiyanın Gürcüstan və Ukrayna ilə sərhədi olduğuna görə Cəbuni Osetiya, Abxaziya və Donbasdakı münaqişələrdə birbaşa iştirak etmiş, separatçılara dəstək verib və verir. Rusiyanın Dağlıq Qarabağla sərhədi yoxdur. Ancaq o da bəlliydi ki, Rusiya keçmişdə olduğu kimi Azərbaycanın hərbi əməliyyatını müəyyən vaxtdan sonra diplomatik

təzyiq yolu ilə dayandırmağa çalışacaqdı. Buna baxmayaraq, Rusiya Türkiyənin Azərbaycana verdiyi dəstəyə mane ola bilməyəcəkdi. Rəcəb Təyyub Ərdoğan Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün bir müddət Rusiya ilə münasibətləri gərginləşdirməyə hazırıydı. Azərbaycan öz torpaqlarının azad olunması əməliyyatını tamamlayan kimi Rusiya yenidən Türkiyə ilə münasibətləri əvvəlki adi axarına qaytaracaqdı.

# QARABAĞDA BMT PROTEKTORATI MÜMKÜNDÜRMÜ?

ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri vəzifəsini icra etmiş səfir Riçard Hoqland müharibədən əvvəl "Amerikanın səsi"nə müsahibəsində bir neçə vacib məqama toxundu.

***Birincisi,*** Riçard Hoqland bu sualı səsləndirdi: "Güc tətbiqi təmas xəttində deyil, Ermənistanla Azərbaycan arasındakı sərhəddə baş verdi. Bu, niyə indi baş verdi? Bax, hələ heç kimin cavablandırmadığı əsas sual budur".

Toqquşmanın Dağlıq Qarabağ istiqamətində deyil, Ermənistan-Azərbaycan sərhədində baş verməsi amerikalı diplomatı ciddi düşündürüb. Təcrübəli diplomat Riçard Hoqland anlamamış deyildi ki, Azərbaycanın əsas hədəfi Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirmək deyil, işğal altındakı torpaqları azad etməkdir. Ona görə də əslində Hoqland qoyduğu suala cavabı və sərhəddəki təxribatı hansı tərəfin törətdiyini təxmin edirdi.

***İkincisi,*** Riçard Hoqland bildirdi ki, Minsk Qrupu hazırda öz missiyasını həyata keçirə bilmir. Hoqlan-

dın sözlərinə görə, Minsk Qrupu gərginliyi azaltmaq və status-kvoya qayıtmaq üçün çox səy göstərib: "Ancaq təəssüf ki, onun məsələni həll etmək iqtidarında olmadığını hiss edirəm".

***Üçüncüsü,*** Hoqland gecikmiş etirafını səsləndirdi: "Minsk Qrupu, sadəcə, öz vəzifəsinin öhdəsindən gələ bilmir. Buna görə də BMT fəal şəkildə prosesə qoşulmalıdır. Şəxsən mən hesab edirəm ki, məsələ BMT-nin probleminə çevrilməlidir və yeganə yol Dağlıq Qarabağı qeyri-müəyyən müddətə təşkilatın protektoratlığı altına buraxmaqdır. Sonradan, illər sonra, emosiyaların sakitləşəcəyi vaxtda hər iki tərəf BMT-nin rəhbərliyi altında gələcək üçün istəklərini ifadə edə bilər".

Riçard Hoqland illərdir Azərbaycanın səsləndirdiyi fikri təkrarlayıb, yəni münaqişənin həlli ilə BMT məşğul olmalıdır. Hoqland ayrıca, münaqişənin BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ məsələsi ilə bağlı qəbul etdiyi dörd qətnamə, müəyyən həll yollarını təklif edən Madrid prinsipləri əsasında həll edilməsinin zəruriliyini diqqətə çatdırıb.

Beləliklə, Hoqland açıq etiraf edib ki, ATƏT-in Minsk Qrupu münaqişəni həll edə bilməyəcək. Minsk Qrupunun həmsədri vəzifəsində çalışan diplomatın etirafı Azərbaycan rəsmilərinin, siyasi ekspertlərinin və cəmiyyətinin dediyini təsdiq edirdi.

Hoqlandın BMT ilə bağlı fikirlərini isə iki hissəyə bölmək lazımdır. Birinci hissə Azərbaycanın maraqlarına cavab verir. Məsələylə BMT məşğul olmalı,

dörd qətnamə əsas götürülməli və münaqişə “Madrid planı”nda göstərildiyi kimi mərhələli şəkildə həll olunmalıdır. Ancaq Hoqlandın “Dağlıq Qarabağı qeyri-müəyyən müddətə təşkilatın protektoratlığı altına buraxmaq lazımdır” fikri dəqiqləşdirilməli idi. Dağlıq Qarabağda BMT protektoratı o zaman mümkündür ki, “mərhələli həll” planı işə düşsün, yəni Dağlıq Qarabağa aidiyyəti olmayan rayonlar boşaldılsın və azərbaycanlılar bu bölgələrə, o cümlədən Şuşaya qayıtsınlar. Bunlar olmadan Dağlıq Qarabağın BMT protektoratı altına alınması işğalın uzanmasına yol açacaqdı.

# ERMƏNİ SEPARATÇILARI NARAZIDIRLAR

Dağlıq Qarabağ separatçılarının lideri Araik Arutunyan Avropa nəşrlərindən birinin jurnalistinə şikayətləndi ki, onlara yalnız Ermənistan və dünyadakı erməni diasporu kömək edir. Araik Arutunyan bildirdi ki, başqa ölkələrdən dəstək yoxdur: "Rusiya Dağlıq Qarabağa yatırım qoymur. Bu həm Bakının təzyiqləri, həm də bölgənin statusunun qeyri-müəyyənliyi ilə əlaqəlidir. Problem ondadır ki, Rusiya, Avropa və ABŞ neftə görə Azərbaycanla dil tapır".

Aydındır ki, heç bir ölkə rəsmi şəkildə Dağlıq Qarabağla əlaqə qurub işğal altındakı bölgələrə investisiya qoymaz. Ancaq bəzi ölkələrdən Dağlıq Qarabağa maliyyə dəstəyi var. Məsələn, ABŞ Konqresi hər il Dağlıq Qarabağa, az da olsa, maliyyə yardımı ayırır. Konqresin bu qərarı onun qəbul etdiyi öz qərarlarına ziddir. Çünki ABŞ Konqresi iyul ayında Gürcüstan, Moldova, Ukrayna və Azərbaycanın ərazi bütövlüyünə dəstək verən sənəd qəbul edib. Deməli, ABŞ Konrqesi bir tərəfdən Azərbaycanın ərazi bü-

tövlüyünü dəstəkləyir, digər tərəfdən Azərbaycan ərazisini işğal edən separatçılara maliyyə yardımı ayırır. Bu rəsmi Vaşinqtonun siyasətinə də ziddir. Çünki, Vaşinqton Azərbaycanı Cənubi Qafqazda əsas strateji tərəfdaşlarından sayır.

Erməni lobbisi fəal olmasaydı ABŞ Konrqesi Dağlıq Qarabağ separatçılarına hər il maliyyə ayırmaz. Çünki, məsələn ABŞ Konqresi heç vaxt Moldovadakı, Gürcüstandakı və Ukraynadakı separatçılara maliyyə yardımı ayırmır.

Rusiya rəsmi şəkildə Dağlıq Qarabağ separatçılarına maliyyə yardımı ayırmasa da, Rusiyada yaşayan erməni biznesmenlər Dağlıq Qarabağa pul göndərirlər. Rusiyanın bəzi mobil şirkətlərinin də Dağlıq Qarabağda fəaliyyət göstərmələrinə dair məlumatlar var idi.

Buna baxmayaraq, müharibəyə qədər Dağlıq Qarabağ əsas maliyyəni Ermənistandan alırdı. Ermənistan büdcəsində Dağlıq Qarabağ üçün maliyyə nəzərdə tutulurdu. Ermənistan da Dağlıq Qarabağda istehsal edilən müxtəlif malları gizli şəkildə dünya bazarlarında satışa çıxarırdı. Bundan başqa Ermənistan Azərbaycanın işğal altındakı Kəlbəcər rayonunda qızıl istehsalı və mineral sularım istehsalı ilə məşğul idi. Ermənistan hökuməti həmin məhsulları dünya bazarlarında sataraq əldə edilən vəsaitin bir hissəsini Dağlıq Qarabağa verirdi.

# LİVANDAKI ERMƏNİLƏR DAĞLIQ QARABAĞA KÖÇÜRLƏR

Livanın paytaxtı Beyrut limanında 2020-ci il avqustun 4-də baş verən güclü partlayış nəticəsində bu ölkədə yaşayan ermənilər də xəsarət aldılar. Livanda iqtisadi və sosial vəziyyət partlayışa qədər də ağır idi. Bu ölkənin xarici borcları artır, iqtisadi artım isə yoxdur. Partlayış bu ölkənin borclarını daha da artıracaqdı. Bu vəziyyətdə Livanda yaşayan ermənilər başqa ölkələrə köçmək barədə düşündülər. Livanda yaşayan varlı ermənilər ABŞ və Avropadakı ölkələri seçdilər. Bu ermənilər ABŞ və Avropadakı qohumlarının maliyyə dəstəkləri hesabına adı çəkilən ölkələrə gedirlər. Livanda yaşayan kasıb və Qərb ölkələrində qohumu, tanışı olmayan ermənilər isə Ermənistanı seçmək məcburiyyətində qalırlar.

Rəsmi Bakı Livandakı ermənilərin Ermənistana köçünü diqqətlə izləyirdi. Çünki, Ermənistanda dəyişən hakimiyyətlərin illərdir davam edən siyasəti kənardan gələn ermənilərin Azərbaycanın işğal altındakı ərazilərinə köçürülməsinə yönəlib. Ermənistan

hakimiyyəti bu yolla işğal altındakı əraziləri məskunlaşdırmağa çalışırdı. Eyni ilə Suriyada müharibə başlayanda varlı ermənilər Qərb ölkələrinə, kasıb ermənilər isə Ermənistana və bir hissəsi işğal altındakı torpaqlara köçürüldü. Ermənistanda doğulan və yaşayan ermənilər Azərbaycanın işğal altındakı torpaqlarına köçmürlər, çünki bunun onlar üçün necə təhlükəli və gələcəkdə müharibənin qaçılmaz olduğunu anlayırlar. Başqa ölkələrdən Ermənistana köçən ermənilər isə Dağlıq Qarabağ və digər işğal altındakı rayonları ona görə seçirdilər ki, İrəvan onlara başqa yol təklif etmir, işğal altındakı ərazilərdə isə onlara ev, heyvan və bir qədər maliyyə vəsaiti verirdi.

Rəsmi Bakı Beyrutdakı partlayışla bağlı Livan hökumətinə bir milyon dollar ayırdı. Əlbəttə, bu, Livanın bu pulun müqabilində gələcəkdə Ermənistanla münasibətlərini dəyişdirəcəyi demək deyildi. Buna baxmayaraq, rəsmi Bakının erməni vətəndaşlarına Azərbaycanın işğal altındakı torpaqlarına məskunlaşmanın necə təhlükəli olduğunu bildirməyin vacibliyini diplomatik kanallarla Livan hökumətinin diqqətinə çatdırmağa tam haqqı vardı. Ancaq partlayışdan sonra Livan elə vəziyyətdəydi ki, kimin hara köçəcəyi rəsmi Beyrutu maraqlandırmırdı. Tam əksinə, iqtisadi və sosial xaosa yuvarlanan Livan hökuməti ölkə əhalisinin bir hissəsinin, o cümlədən ermənilərin miqrasiyasını arzulayırdı.

## İLHAM ƏLİYEVİN VLADİMİR PUTİNƏ ZƏNGİNİN ƏSAS SƏBƏBİ NƏ İDİ?

Xarici işlər naziri Ceyhun Bayramovun Türkiyəyə rəsmi səfər edəcəyi xəbəri günlər əvvəldən yayılmışdı. Müdafiə naziri Zakir Həsənovun Ceyhun Bayramovla birgə Ankaraya gedib Cumhurbaşqanı Rəcəb Təyyub Ərdoğanla görüşdüyü xəbəri isə həmin gün yayıldı. Ceyhun Bayramovun Türkiyəyə səfəri və görüşləri mətbuatda geniş işıqlandırıldı. Zakir Həsənovun isə Ankarada hansı mövzuları müzakirə etməsi haqqında məlumat yayılmadı.

Azərbaycan nümayəndə heyətinin Ankaraya səfərindən bir gün sonra Türkiyənin müdafiə naziri Hulusi Akar, Baş Qərargah rəisi Yaşar Güler Azərbaycana gəldilər. Azərbaycanla Türkiyənin avqustun 10-da tamamlanması planlaşdırılan hərbi təlimləri bir neçə gün də davam etdi. Bunlar təsadüf idimi?

Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılması istiqamətində danışıqlar aparılırdı. Bu prosesi müxtəlif səbəblərdən diqqətlə izləyən ölkələr və birliklər bunlardır: *Er-*

*mənistan, Rusiya, İran, NATO, Avropa İttifaqı və ABŞ*. Sonuncu üçünün Cənubi Qafqazdakı maraqları Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının əksinə deyil. Əlbəttə, Avropa İttifaqı və ABŞ Türkiyənin Aralıq dənizi sahili ölkələrindən tutmuş Xəzər sahilinə qədər təhlükəsizlik zolağını uzatmasını alqışlamır. Məsələn, Avropa İttifaqının iki dövləti olan Fransa və Yunanıstan Türkiyənin Aralıq dənizi hövzəsində artan rolundan narahatdır. Ancaq Türkiyənin Azərbaycanda hərbi iştirakı bütövlükdə Avropa İttifaqının maraqlarının əksinə deyil, əksinə, bu köhnə qitənin qazla təminatına başlayan Azərbaycanın təhlükəsizliyinin gücləndirilməsi deməkdir. ABŞ-la Türkiyə arasındakı fikir ayrılıqlarına baxmayaraq, Vaşinqton üçün də Azərbaycanın təhlükəsizliyinin təminat altına alınması az əhəmiyyətli deyil.

İran Türkiyə-Azərbaycan hərbi əməkdaşlığından məmnun deyil, ancaq Tehranın buna qarşı açıq siyasət ortaya qoyması gözlənilmirdi, əks halda Azərbaycan və Türkiyə ilə münasibətlərdə gərəksiz gərginlik yarana bilərdi.

Rusiyanın Türkiyə-Azərbaycan hərbi əməkdaşlığını diqqətlə izləməsi məlum faktdır. Bu mənada prezident İlham Əliyevin avqustun 12-də Rusiya prezidenti Vladimir Putinə zəng etməsi təsadüfi deyildi. Bu telefon danışığında Azərbaycan prezidenti Rusiyanın himayə etdiyi Ermənistanın təxribatlarını bir-bir Putinin diqqətinə çatdırdı.

***Birincisi,*** İlham Əliyev dedi ki, iyulun 12-16-da Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribat və təcavüz aktı nəticəsində Azərbaycanın hərbi qulluqçuları və bir nəfər mülki şəxs həlak olub. İlham Əliyev ayrıca, Ermənistan silahlı qüvvələrinin sərhəd boyunca kəndləri və yaşayış məntəqələrini artilleriya atəşinə tutması nəticəsində bir çox evlərin dağıldığını və yararsız hala düşdüyünü bildirib.

***İkincisi,*** İlham Əliyev Ermənistanın təxribatının məqsədini Putinin diqqətinə çatdırdı: *"Ermənistanın hərbi hücumunun əsas məqsədi üçüncü tərəfləri Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etmək olub".* Yəni prezident demək istədi ki, Ermənistan Rusiyanın müdaxiləsini istəyib.

***Üçüncüsü,*** dövlət başçısı Ermənistan-Azərbaycan sərhədində baş vermiş toqquşmalardan sonra, iyulun 17-dən bu günə kimi Rusiyadan Ermənistana hərbi təyinatlı yüklərin daşınmasının intensiv xarakter almasının Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi suallar doğurduğunu Rusiya prezidentinin diqqətinə çatdırıb: *"Ermənistan-Azərbaycan sərhədində baş verən hərbi toqquşmadan dərhal sonra Rusiyadan Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının hava məkanından istifadə edərək bu günə qədər Ermənistana daşınan hərbi təyinatlı yüklərin həcmi 400 tondan artıq olub və bu məsələ aydınlaşdırılmalıdır".*

İlham Əliyevin Vladimir Putinə telefon zənginin əsas səbəbi məhz üçüncü bəndlə bağlı idi. Azərbaycan

prezidenti rusiyalı həmkarına Rusiyanın Ermənistana hərbi dəstəyindən narazılığını bildirdi. Azərbaycan prezidenti ilk dəfəydi, rusiyalı həmkarıyla telefon danışığı zamanı bu cür iradlar səsləndirirdi. Azərbaycan prezidentinin rusiyalı həmkarına telefon zənginin Türkiyənin müdafiə nazirinin Bakıda olması gününə təsadüf etməsi həm də Kremlə mesajı idi: *"Rusiyanın Ermənistana hərbi dəstək siyasəti rəsmi Bakıya Türkiyə ilə hərbi-strateji müttəfiqliyi üst səviyyəyə qaldırmaqdan başqa yol qoymayıb".*

## CEYHUN BAYRAMOV TÜRKİYƏ İLƏ BİRLİKDƏN DANIŞDI

Ceyhun Bayramovun xarici işlər naziri vəzifəsində ilk rəsmi səfərini Türkiyəyə reallaşdırması gözlənilən idi. Məsələn, Rusiya xarici işlər naziri Sergey Lavrov da Ceyhun Bayramovu Moskvaya dəvət etmişdi. Ancaq bu səfər Türkiyədən sonra mümkün ola bilərdi. Bunun özü də Moskvaya mesaj verirdi: Azərbaycan üçün Türkiyə Rusiyadan əvvəl gəlir və Kreml bu amillə hesablaşmalıdır.

Ceyhun Bayramov Ankarada türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdü. Görüşdən sonra keçirilən mətbuat konfransında Türkiyə rəsmisi həmişə olduğu kimi ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəaliyyətini bu sözlərlə tənqid etdi: *"Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qərarlar olsa da, münaqişə həllini tapmır. ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin həlli üçün səmimi şəkildə səy göstərmirlər".*

Mövlüd Çavuşoğlunun sonrakı açıqlaması da maraqlıydı: *"Bu ilin 12 iyul tarixində Ermənistan, qardaş Azərbaycanın Tovuz rayonuna hücum edib. Türkiyə*

*Cümhuriyyəti olaraq o gün nə demişiksə, bu gün də onu deyirik. Azərbaycan tək deyil, bütün gücümüzlə Azərbaycanın yanındayıq".*

Mövlüd Çavuşoğlu bu sözlərlə demək istədi ki, Azərbaycan torpaqlarını işğaldan azad etmək üçün hansı qərarı verərsə, Türkiyə Azərbaycanın yanında olacaq. Ceyhun Bayramovun Mövlüd Çavuşoğlu ilə görüşdə "bizim birliyimiz əbədidir" ifadəsini səsləndirməsi, o cümlədən Azərbaycanın hər zaman bütün məsələlərdə Türkiyənin haqq işini dəstəklədiyini qeyd etməsi da əhəmiyyətliydi. Müttəfiqlik qarşılıqlı dəstəyi diktə edir. Ceyhun Bayramovun açıqlaması rəsmi Bakının Türkiyənin Cənubi Qafqazla yanaşı digər bölgələrdəki siyasətini də dəstəklədiyini göstərirdi.

Türkiyə ilə Azərbaycan arasında birgə hərbi təlimlər başa çatsa da, müttəfiqlər arasındakı əməkdaşlığın yeni konturlarının müzakirəsi davam edirdi. Azərbaycan işğal altındakı torpaqlarını azad etmək istəyir və bu zaman Türkiyənin siyasi və hərbi dəstəyinə ehtiyac duyurdu. Əlbəttə, Azərbaycan ordusu qarşısına qoyduğu hədəflərə çata bilər. Ancaq Ermənistanı dəstəkləyən müxtəlif xarici qüvvələr var və həmin qüvvələr Azərbaycanın torpaq bütövlüyünü istəmirlər. Azərbaycanın həmin güclərlə mübarizədə Türkiyənin hərtərəfli dəstəyinə ehtiyacı var.

Azərbaycan cəmiyyətində Türkiyə ilə bağlı iki təklif gündəmdəydi.

***Birinci təklif.*** Türkiyənin Azərbaycanda hərbi bazaları olmalıdır. Bu Azərbaycan üçün niyə vacib-

dir? 1990-cı illərin əvvəllərində torpaqlarımızı işğaldan azad etmək istəyəndə, müxtəlif güclər, ayrı-ayrı siyasi mərkəzlər, şimallı-cənublu fərqli dövlətlər Azərbaycana çətinliklər yaratdılar. Hətta daxildə xaricdən idarə olunan çox ciddi təxribatların şahidi olduq. Biz nəinki döyüşlər zamanı əldə etdiyimiz torpaqları itirdik, düşmən daha çox ərazilərimizi işğal etdi. Bu acı təcrübədən çıxış edərək Türkiyənin Azərbaycanda hərbi bazalarının olmasının vacibliyini qeyd edə bilərik. Məsələn, Naxçıvan kimi strateji ərazimizdə qardaş ölkənin hərbi bazası olmalıdır, beləliklə Ermənistan burada nə vaxtsa bizə çətinlik yarada bilməz. Abşeronda və ya Gəncədə isə Türkiyənin hərbi hava qüvvələrinin bazası olmalı və türklərin müasir təyyarələri burada yerləşdirilməlidir. Türkiyənin hərbi bazaları Azərbaycanın təhlükəsizliyinin təminatçısı rolunda çıxış edəcək. Rusiyanın da Ermənistanda hərbi bazaları var və bu bazalar Ermənistanın təhlükəsizliyinin təminatçısıdır. Türkiyənin də Azərbaycanda hərbi bazaları təhlükəsizliyin təminatı üçün vacibdir.

Türkiyə ilə bağlı aparılan ***ikinci müzakirə mövzusu*** konfederasiyadır. Bu mövzunun müzakirəsi də təbiidir. Bəziləri fikirləşir ki, Türkiyə ilə konfederativ əsasda birləşmə Azərbaycanın müstəqilliyinin itirilməsinə səbəb olacaq. Müstəqilliyimizə təhlükələr başqa istiqamətlərdəndir. Atatürk Türkiyədə Cümhuriyyəti bir neçə il tez formalaşdırıb Azərbaycan Cümhuriyyəti ilə konfederasiya yaratsaydı, Rusiya 1920-ci ildə məmləkətimizi işğal edə bilərdimi?

Aydındır ki, Atatürkün o illərdə rus bolşevikləri ilə əlaqəsi var idi, onlardan silah alırdı və Azərbaycan Cümhuriyyətini işğaldan qorumaq çətin idi. Ancaq kommunistlərdən xoşu gəlməyən Atatürkün Azərbaycanın rus bolşevikləri tərəfindən işğalı ilə daxilən barışdığını söyləmək çətindir, əks halda "Respublikanı bizdən əvvəl Azərbaycanda qurdular" ifadəsini söyləməzdi.

Türkiyə ilə konfederativ əsasda birləşmək istəsək, sazişdə hər iki tərəfin hüquq və məsuliyyətləri müəyyənləşəcək. Gürcüstan NATO və Avropa İttifaqının üzvü olmaq istəyir. Gürcüstan bu yolla müstəqilliyini qorumaq və təhlükəsizliyini təminat altına almaq istəyir. Azərbaycanın NATO üzvü olması müxtəlif səbəblərdən problematikdir. Ancaq Azərbaycanın da təhlükəsizliyini əbədi təminat altına almaq istəyi var. Azərbaycan Türkiyə ilə konfederativ əsasda birləşməklə təhlükəsizliyinə ömürlük təminat almış olacaq. Buna baxmayaraq, xarici siyasətdə fərqli çalarlar mümkündür. Məsələn, Türkiyənin İsraillə münasibətləri soyuqdur, Azərbaycanınkı isə yaxşıdır. Konfederativ əsasda birləşmə o demək olmamalıdır ki, Azərbaycan da Türkiyə kimi İsraillə münasibətlərinə yenidən baxmalıdır. Əksinə, Türkiyənin Azərbaycanın yaxşı münasibətldə olduğu dövlətlərlə Bakı üzərindən dialoq imkanı yaranacaq və əksinə. Əlbəttə, konfederasiya mövzusu uzun müzakirələrin mövzusudur. Bütün müsbət və mənfi tərəfləri öyrənilməlidir. Ancaq hərbi baza məsələsini uzatmaq olmaz.

## RƏSMİ BAKI TÜRKİYƏNİN REGİONAL SİYASƏTİNİ DƏSTƏKLƏYİR

Azərbaycan Xarici İşlər Nazirliyi 2020-ci il avqustun 19-da açıqlama yayaraq, Türkiyənin Aralıq dənizindəki siyasətini dəstəklədiyini bildirdi. Açıqlamada bu cümlələr yazılmışdı: *"Azərbaycan tərəfi tarixən Aralıq dənizi bölgəsinin inkişafı və tərəqqisində mühüm rol oynamış qardaş Türkiyənin bölgədə sülh və sabitliyin təmin edilməsinə yönəlmiş beynəlxalq hüquqa söykənən bütün addımlarını qətiyyətlə dəstəkləyir və mövcud gərginliyin tezliklə həllini tapacağına ümidini ifadə edir".*

Prezidentin xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyev də müsahibəsində rəsmi Bakının Türkiyənin Aralıq dənizindəki siyasətini dəstəklədiyini açıqladı. Hikmət Hacıyev bunu dedi: *"Azərbaycan Türkiyənin Şərqi Aralıq dənizində fəaliyyətini birmənalı olaraq dəstəkləyir. Hesab edirəm ki, Türkiyə beynəlxalq hüquqa uyğun olaraq bölgədə öz haqqını, maraqlarını və mənfəətini qoruyur".*

Türkiyənin Aralıq dənizindəki fəaliyyətinə qarşı çıxan əsas dövlətlər bunlardır: Yunanıstan, Fran-

sa, İsrail və Misir. Rəsmi Bakının Türkiyənin Aralıq dənizindəki siyasətini dəstəkləməsi iki ölkənin müttəfiqliyi baxımından vacibdir. Ancaq bu müttəfiqlik rəsmi Bakının xarici siyasətdə illərdir elan etdiyi "balans" siyasətini yenidən dəyərləndirməyi diktə edirdi. Azərbaycana hərbi dəstək verən Türkiyə ilə işğalçı Ermənistana tonlarla silah daşıyan Rusiya arasında "balansı" saxlamaq çətin olacaq.

Hikmət Hacıyev Gürcüstanla bağlı da vacib açıqlama etdi: *"Bu günlərdə Ermənistana göndərilən silahların rəsmi Tbilisi tərəfindən ölkə ərazisindən tranzit kimi istifadə edilərək keçirilməsinə imkan verilməməsini yüksək dəyərləndiririk. Həm Azərbaycan, həm də Gürcüstan hakimiyyəti münasibətlərin bundan sonra daha da dərinləşdirilməsi əzmindədir".*

Azərbaycan cəmiyyətində Gürcüstanla bağlı suallar yaranmışdı. Ancaq rəsmi Tbilisinin Rusiya hərbi texnikasının Etmənistana Gürcüstan üzərindən daşınmasına icazı verməməsi Azərbaycanda müsbət qarşılandı. Ona görə də prezidentin köməkçisi Gürcüstanın siyasətindən razı qaldığını söylədi. Hikmət Hacıyevin bu açıqlaması Gürcüstanda müsbət qarşılandı.

# ƏRDOĞAN PUTİNLƏ BU DƏFƏ QARABAĞDAN DANIŞMADI

Türkiyə Cumhurbaşqanı Rəcəb Təyyub Ərdoğan avqustun 17-də rusiyalı həmkarı Vladimir Putinlə növbəti dəfə telefonla danışdı. Sonuncu dəfə prezidentlər iyulun 27-də telefonla danışmışdılar. Həmin söhbətdə əsas mövzu Azərbaycan-Ermənistan sərhədindəki döyüşlər olmuşdu. Bu dəfə isə liderlər Azərbaycan-Ermənistan qarşıdurmasından danışmadılar, çünki bölgədə nisbi sakitlik hökm sürürdü. Əslində bu tufanqabağı sakitlik idi.

2016-cı ilin aprelində də belə olmuşdu. Aprel ayında Azərbaycanla Ermənistan arasında dörd gün döyüşlər oldu. Bundan sonra dünyada Dağlıq Qarabağ münaqişəsi ön plana çıxdı. Azərbaycana və Ermənistana səfərlər oldu, müxtəlif həll variantları təklif olundu. Ancaq daha sonra cəbhə bölgəsində sakitlik bərqərar olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi sanki unuduldu.

Rusiya və Türkiyə prezidentləri telefon danışığında bu dəfə Liviyadakı böhrandan danışdılar. Kreml Liviyada atəşkəs istəyirdi.

Əslində Türkiyə Liviyada istədiyinin böyük hissəsini əldə edib, Türkiyə ordusu Liviyanın mərkəzi hakimiyyətini qiyamçı general Haftarın hücumlarından qorudu, onun qoşunlarını şəhərdən geriyə atdı və paytaxt Tripolinin təhlükəsizliyini təmin etdi. Əlbəttə, Türkiyə Liviyanın tamamını qiyamçılardan azad etmək istəyərdi. Ancaq mövcud şərtlər altında bunun reallaşması çətin idi, Misir, sərhədinə yaxın Liviyanın Sirt şəhərinin mərkəzi hakimiyyətin nəzarəti altına keçməsinə mane olmağa hazırdır. Münasibətlərin gərgin olmasına baxmayaraq, Türkiyə-Misir qarşıdurmasını tərəflərdən heç biri istəmir. Ona görə də Liviyada atəşkəs Ankaranın və Moskvanın maraqlarına cavab verirdi. Ankara üçün Kreml Aralıq dənizi hövzəsində yaranan gərginlik fonunda anti-Türkiyə – Fransa ilə Yunanıstan blokunda yer almaması da vacibdir.

## HƏRBİ TƏLİMLƏR KİMƏ QARŞIDIR?

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələr (Rusiya, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistan daxildir) 2020-ci ilin avqustun 17-dən başlayaraq Həştərxanda xüsusi təlimlərə başladı. Təlimlər hərbçilərin "Qafqaz regionunda sərhəddə baş verən silahlı münaqişənin lokallaşdırılması üzrə birgə əməliyyat" üçün nəzərdə tutulmuşdu. Təlimlər Ermənistanın Azərbaycana hücumlarından sonra və təxribatların ara vermədiyi bir şəraitdə keçirilirdi.

*Təlimlərin məqsədi nə idi?*

Bu təlimlər ilin əvvəlindən planlaşdırılıbsa, təlimlərin Azərbaycan əleyhinə olduğunu söyləmək mümkün deyildi. Sadəcə, təlimin adı istər-istəməz diqqət çəkirdi. İyul ayında sərhəddə Ermənistanla Azərbaycan arasında qarşıdurma olub, tərəflər itki veriblər və bütün dünya bundan danışıb. Ona görə belə bir fikir yaranırdı ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sərhədlə bağlı təlimi üzvü – Ermənistanı qorumaq üçündür.

Aydındır ki, bu cür təlimlər Ermənistanın maraqlarına cavab verir. Errmənistanın əsas məqsədi odur ki, Azərbaycanla qarşıdurmaya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlərini cəlb etsin. Bunu prezident İlham Əliyev də rusiyalı həmkarı Vladimir Putinlə son telefon danışığında onun diqqətinə çatdırmışdı. Ancaq İlham Əliyev Vladimir Putinə iradını bildirdikdən sonra da Rusiya Müdafiə Nazirliyi Ermənistana silah daşıyırdı. Deməli, Kremldə rəsmi Bakının narazılığını nəzərə almırdılar. Belə olan halda Azərbaycanın Xəzərdə Rusiya ilə birgə hərbi təlimlərdə iştirakı suallar yaradırdı. Rusiya işğalçı Ermənistana silah daşımaqdan imtina etmədiyi halda, rəsmi Bakı heç olmazsa bu il Xəzərdə birgə hərbi təlimlərdən imtina etməli idi. Bu rəsmi Bakının qətiyyətli mövqeyini ortaya qoyardı. Xarici və təhlükəsizlik siyasətində "balans" artıq maraqlarımıza xidmət etmir. Türkiyə ilə hərbi ittifaqı gücləndirmək istəyiriksə, Rusiya ilə hərbi əməkdaşlığı əvvəlki səviyyədə davam etdirmək mümkün deyildi. Azərbaycana hərbi dəstək verən Türkiyə ilə işğalçı Ermənistana tonlarla silah daşıyan Rusiya arasında "balansı" davam etdirmək çətin idi. Azərbaycan prezidenti İlham Əliyev Türkiyənin müdafiə naziri Hulusi Akarla Bakıda keçirdiyi son görüşdə Azərbaycanın bundan sonra hərbi texnikanı Türkiyədən alacağını dedi. Halbuki, son illərə qədər Azərbaycan hərbi texnikanın böyük hissəsini Rusiyadan alırdı.

KTMT-nin digər üzvləri işğalçı Ermənistanı birbaşa dəstəkləməsələr də, zaman-zaman Rusiya-Ermənistan hərbi ittifaqının tərkib hissəsinə çevrilirlər. Məsələn, sərhəddəki son insidentdən sonra Rusiya Ermənistana tonlarla hərbi yükü Qazaxıstan səmasından daşıdı. Bu bizim haqlı narazılığımıza səbəb oldu. Axı Qazaxıstan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmaqla yanaşı, həm də Azərbaycan və Türkiyə ilə birgə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvüdür. Astana ilə bu məsələ aydınlaşdırılmalı idi.

## ERMƏNİ GENERAL GÖRÜŞ YERİ KİMİ TİFLİSİ NİYƏ TƏKLİF EDİB?

Ermənistanın keçmiş prezidenti və baş naziri Serj Sərkisyan 2020-ci il avqustun 19-da keçirdiyi mətbuat konfransında 2016-cı ilin aprel savaşının bəzi detallarını açıqladı. O, dedi ki, döyüşlərin dördüncü günü Ermənistanın keçmiş baş qərargah rəisi Yuri Xaçaturova rusiyalı həmkarı zəng edərək Bakının guya atəşkəsin şərtlərini müzakirə etmək üçün görüşə hazır olduğunu bildirib: *"Xaçaturov görüşün Tiflisdə keçirilməsini istəyirdi. Çünki Tiflis məsafəcə İrəvana yaxındır, cəbhə bölgəsində nəsə yeni hadisə baş versəydi tez geri qayıtmaq imkanı olacaqdı. Ancaq Azərbaycan tərəfi Moskvada görüşməyi təklif etdi. Bakı ona görə Moskvanı təklif etdi ki, atəşkəs vasitəçilərdən birinin təminatı əsasında bərpa olmalıydı".*

Görüşün aprelin 5-də reallaşdığını deyən Serj Sərkisyan mətbuat konfransında daha sonra bunları dedi: *"Biz döyüşlərdən əvvəlki yerlərə qayıtmağı təklif etdik. Azərbaycan tərəfi isə bildirdi ki, bu qədər itkidən sonra əvvəlki yerlərə qayıda bilməzlər. Biz başqa nəticə əldə etdik,*

*yeni saziş imzalanmasa da, 1994-cü ildə imzalanan atəşkəs rejiminə qayıtdıq".*

Hiss olunurdu ki, Serj Sərkisyan mətbuat konfransı ilə özünə bəraət qazandırmaq istəyir. Ermənistan tərəflərin görüş yeri kimi Tiflisi təklif etməsi inandırıcı deyildi. NATO və Avropa İttifaqının üzvü olmağa çalışan ölkədə – Gürcüstanda atəşkəsə nail olmaq Kremlin narazılığına səbəb olardı. Serj Sərkisyan və keçmiş baş qərargah rəisi belə həssas məsələdə Tiflisi təklif edə bilməzdilər. Moskva Gürcüstanın vasitəçiliyini əsla qəbul edə bilməzdi, Rusiyanın baş qərargah rəisi Tiflisə getməyəcəkdi. İlham Əliyev açıqlamalarında məhz Ermənistan tərəfinin aprel ayında atəşkəs barədə Moskvaya yalvardığını söyləmişdi.

***İkincisi,*** aydındır ki, Azərbaycan ordusu Lələtəpə yüksəkliyini ələ keçirdikdən sonra əvvəlki pozisiyaya qayıda bilməzdi, İrəvanın "əvvəlki pozisiyalara qayıdaq" təklifi absurd idi. Serj Sərkisyan belə vəziyyətdə guya uğurlu nəticə kimi tərəflərin 1994-cü il sazişinə qayıdılmasını göstərib. Ermənistan-Azərbaycan sərhədindəki 2020-ci ilin iyul ayındakı döyüşlər bir daha göstərdi ki, 1994-cü ildə imzalanan atəşkəs sazişi daha işləmir. Serj Sərkisyan mətbuat konfransında 2016-cı ilin aprelində Ermənistan ordusunun itkiləri barədə heç nə demədi.

## ŞOYQU BAKIYA NİYƏ GƏLMİŞDİ?

Rusiyanın müdafiə naziri Sergey Şoyqu 2020-ci il avqustun 25-də Bakıya gəldi və Xəzər dənizində keçirilən "Dəniz kuboku" hərbi yarışlarının açılışında iştirak etdi.

"Dəniz kuboku" adlanan tədbirlər hər il keçirilir və Azərbaycan artıq neçənci dəfədir ki, bu oyunlara rəhbərlik edir. Ancaq Şoyqu heç vaxt bu oyunların açılışına gəlməmişdi. Bundan bir gün əvvəl Rusiyada tank yarışları başladı. 30-dan artıq ölkənin müdafiə nazirləri Rusiyaya səfər etdi və Şoyqunun özünün Moskvada olması vacib idi. Ancaq Şoyqu bütün işlərini kənara qoyaraq Bakıya gəlməyi lazım bildi. Niyə?

Azərbaycan prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinlə son telefon danışığında Rusiyanın Ermənistana təyyarələrlə 400 ton hərbi yük daşımasından narahat qaldığını bildirmişdi. Şoyqu isə Bakıda dedi ki, guya Rusiya Müdafiə Nazirliyi Ermənistana hərbi yük daşımayıb, sadəcə Rusiyanın Ermənistandakı hərbi bazalarına inşaat texnikası göndərilib (?!). Bu şübhə doğuran açıqlama idi və buna

Azərbaycanda kimsə inanmadı. Görünür, Şoyqunun məqsədi rəsmi Bakını sakitləşdirmək idi. Ancaq onun dedikləri həqiqəti əks etdirmirdi.

Sergey Şoyqunun "Rusiya Ermənistana hərbi yük daşımayıb, inşaat texnikası göndərib" açıqlaması 1962-ci ildəki hadisəyə oxşayırdı. ABŞ kəşfiyyatı 1962-ci ilin oktyabr ayında müəyyənləşdirir ki, SSRİ Kubada nüvə başlığı daşıya bilən raketlər yerləşdirməyə başlayıb. ABŞ prezidenti Con Kennedi məsələni aydınlaşdırmaq üçün SSRİ-nin xarici işlər naziri Andrey Qromıkonu Ağ Evdə danışıqlara dəvət edir. Kennedi məlum yüklər barədə soruşduqda Qromıkonun cavabı eyni ilə Sergey Şoyqunun cavabına bənzəyir: "Biz Kubaya sadəcə müdafiə məqsədli silahlar göndərmişik". Kennedi Qromıkonu qapıdan yola saldıqdan sonra əsəbi şəkildə "əclaf üzümə yalan söylədi" ifadəsini işlədir. Qromıko həqiqətən yalan danışırdı. Tarixə "Karib böhranı" kimi düşən hadisə SSRİ-nin Kubada uzaq mənzilli və orta raketlərin yerləşdirilməsiylə əlaqəli idi. Göründüyü kimi, yalnız adlar dəyişir, o zaman SSRİ idi, indi Rusiya, o zaman Qromıko yalan danışırdı, indi isə Şoyqu, Kremlin siyasəti dəyişmir.

Sergey Şoyqu Bakıdan Moskvaya qayıtdıqdan sonra Ermənistanın müdafiə naziri David Tonoyanla görüşdü. Tonoyan həmin görüşdə "Rusiya ilə Ermənistanın ümumi düşmənləri var" ifadəsini səsləndirdi. Tonoyan "ümumi düşmənlər" dedikdə Türkiyəni və Azərbaycanı nəzərdə tuturdu. Şoyqunun bu ifadəyə etirazı olmadı.

# CEYHUN BAYRAMOV DANIŞIQLARDA İŞTİRAK EDƏCƏKMİ?

Xarici işlər naziri Ceyhun Bayramov Türkiyədən sonra Rusiyanın xarici işlər naziri Sergey Lavrovun dəvətiylə Moskvaya getdi.

Sergey Lavrov görüşdə Azərbaycanı Rusiyanın strateji tərəfdaşı adlandırdı. O Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafından danışdı. Lavrov Rusiya, Azərbaycan və İranla birgə həyata keçirilən layihədən də danışdı: "İran ərazisində Rəşt-Astara yolunun tikintisini başa çatdırmaq lazımdır. Həmçinin Astara-Bakı-Həştərxan marşrutunu reallaşdırmaq mümkündür. Bu da Şimal-Cənub dəhlizi çərçivəsindədir. Rusiya-Azərbaycan-İran enerji körpüsü da xeyli zəruri, aktual layihədir".

Əlbəttə, Azərbaycan da üçtərəfli əməkdaşlıq formatının inkişafında maraqlıdır. Ancaq İrana qarşı sanksiyalar var və rəsmi Bakı Rəşt-Astara dəmiryolunun tikintisi üçün vəd etdiyi 500 milyon dolları ayıra bilmir. Lavrov isə bu prosesi sürətləndirməyi vacib bilir.

Sergey Lavrov Ceyhun Bayramovla görüşdən sonra erməni həmkarı Zöhrab Mnatsakanyana zəng

etdi və onunla regional vəziyyəti müzakirə etdi. Görünür, Lavrov bununla mesaj verdi ki, Azərbaycanla iqtisadi və regional layihələr çərçivəsindəki "strateji tərəfdaşlıq" davam etsə də, Moskva Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistanın maraqları əleyhinə addım atmayacaq.

Sergey Lavrov danışıqlardan sonra Ceyhun Bayramovla Moskvada keçirdiyi ortaq mətbuat konfransında dedi ki, həmsədrlərlə bağlı danışıqların tərkibinin dəyişdirilməsini qəbuledilməz sayır və bunu açıq bəyan edir. Lavrovun mesajı Bakıya və Ankaraya idi. Çünki həm Bakı, həm də Ankara Minsk Qrupu həmsədrlərinin hazırkı formatının münaqişəni həll etmədiyini bildirirdilər. Azərbaycan prezidentinin köməkçisi Hikmət Hacıyev Ermənistanla Azərbaycan arasında iyulun 12-də baş verən insidentdən sonra Minsk Qrupu üzvlərinin toplanmasının vacib olduğunu bildirmişdi. Minsk Qrupunun 11 üzvü var. Azərbaycan Türkiyəni həmsədrlər sırasında görmək istəyir. Lavrov isə "yox" deməklə bütün bu təşəbbüslərin üstündən xətt çəkərək, belə bir hədələyici cümlə də işlədib: *"Təəssüf ki, biz danışıqların formatını dəyişdirmək istəyən cəhdlər görürük, bu qəbuledilməzdir"*.

Lavrovun bu hədələyici açıqlamasına Ceyhun Bayramovun necə reaksiya verdiyi barədə məlumat yox idi. Halbuki, Ceyhun Bayramov Bakıda yüksək səviyyədə səsləndirilən fikirləri Lavrovla birgə keçirilən mətbuat konfransında da təkrarlamalıydı. Yəni

Ceyhun Bayramov birincisi, deməliydi ki, hazırkı format bizi qane etmir, ikincisi, rəsmi Bakı Minsk Qrupu üzvlərinin toplanmasını və danışıqlar formatının dəyişdirilməsi imkanlarının müzakirəsini istəyir.

Azərbaycan bir müddət mənasız danışıqlarda iştirak etməməli idi. Çünki Moskva və İrəvan həmişə olduğu kimi Bakını faydasız danışıqlara cəlb etmək istəyirdilər. Yenidən 2016-cı ilin aprelindəki hadisəni xatırlamaq yerinə düşər. O zaman atəşkəs elan olundu və bundan sonra Rusiyanın xarici işlər naziri Sergey Lavrov Bakıya gəldi və danışıqlarda real nəticə əldə olunacağına dair vəd verdi. Ancaq Lavrov verdiyi vədi yerinə yetirmədi.

Lavrov yenə Bakını fayda verməyən danışıqlara cəlb etmək istəyirdi. Ceyhun Bayramov isə Moskvada dedi ki, danışıqlar konstruktiv olmadıqda nəticə vermir. Belə olan halda niyə yenidən mənasız danışıqlarda iştirak etməliydik? Bu yalnız Rusiyanın və Ermənistanın maraqlarına xidmət edirdi.

Azərbaycanla Ermənistan arasındakı sərhəddə döyüşlərdən sonra müharibənin başlayacağı ehtimalı yüksək idi. Beynəlxalq vəziyyət də Azərbaycan torpaqlarının geri qaytarılmasına mane olmurdu. Sadəcə, torpaqlarımızı geri qaytarmaq üçün hərbi hazırlıqla yanaşı informasiya işi də gücləndirilməliydi. Çünki, hərbi əməliyyat nə zamansa başlasa, dünyadakı erməni lobbisi Azərbaycan əleyhinə fəaliyyətini gücləndirəcəkdi. Onlar Azərbaycanın bölgədə “etnik

təmizləmə" həyata keçirmək istədiyiylə bağlı təbliğat aparacaqdılar.

Dünyada erməni lobbisinin təsiri altında olan güclər var. Ona görə də həm erməni lobbisinin, həm də həmin güclərin yalan xəbərlərini neytrallaşdırmaq üçün rəsmi Bakı informasiya hazırlıqlarını gücləndirməliydi. Hərbi əməliyyatlarla paralel bunun dünyaya necə izah edilməsi konsepsiyası hazırlanmalıydı.

Avqustun 23-də Azərbaycanın Goranboy rayonu istiqamətində təxribat törədən Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun komandirinin üzərində bir sıra hərbi ləvazimatlar və şəxsi əşyalar aşkar olundu. Azərbaycan hərbçiləri erməni diversiya qrupunun komandiri Qurgen Alaverdyanı həbs etdilər. Ermənistan hakimiyyəti Azərbaycanın müharibəyə hazırlaşdığını ehtimal etdiyindən Azərbaycan hərbçilərinin cəbhə bölgəsində və sərhəddə mövqelərini müəyyənləşdirməyə çalışırdılar.

# LAVROVUN AÇIQLAMALARI AZƏRBAYCANIN MARAQLARINA ZİDD İDİ

Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinin tələbə və müəllimləri qarşısında çıxış etdiyi zaman Azərbaycanla Ermənistan arasındakı münasibətlərdən və Dağlıq Qarabağ münaqişəsindən də danışdı.

***Birincisi,*** Azərbaycan və Ermənistanın ATƏT-in Minsk Qrupu həmsədrlərinin regionda təşkil etdiyi görüşlərin bərpa olunmasında maraqlı olduğunu dedi.

Halbuki, artıq rəsmi Bakı nəticə verməyən görüşlərdə maraqlı deyildi. Çünki bu görüşlər münaqişənin həllini sürətləndirmirdi. Ceyhun Bayramov Moskvada Lavrovla görüşdə də görüşlərim imitasiya xarakteri daşımamalı olduğunu demişdi. Buna görə də Lavrovun Azərbaycanın da görüşlərdə maraqlı olması barədə fikri şübhə doğururdu.

***İkincisi,*** Lavrov həmsədrlərin məsələnin həlli üçün ssenarilər yazmadığını, Azərbaycanla Ermənistanın

öz aralarında danışa bilməsi üçün şərait yaratdığını dedi.

Bu açıqlama Azərbaycanda narazılıqla qarşılandı. Lavrovun dediyi kimi həmsədrlərin işi yalnız tərəflərin danışması üçün şərait yaratmaqdırsa, onda onların 25 ildə hazırladıqları müxtəlif həll planları ("mərhələli həll", "paket həlli", "ümumi dövlət prinsipi" və "Madrid planı") nə idi?

Sergey Lavrov bununla yenə Bakıya "bizdən münaqişənin həllini gözləməyin" şəklində açıq mesaj göndərirdi. Həmsədrlər münaqişəni həll etmək istəmirlərsə, onların fəaliyyəti nəyə lazımdır? Azərbaycan və Ermənistan rəsmilərinin görüşünü təşkil etmək üçün üç böyük dövlətin vasitəçiliyinə ehtiyac yoxdur. 2008-ci ildə Rusiya ilə Gürcüstan arasında müharibə oldu. Bundan sonra Rusiya və Gürcüstan diplomatları İsveçrədə görüşlər təşkil etdilər, onlara vasitəçi lazım deyildi. Azərbaycan və Ermənistan diplomatları və rəsmiləri də vasitəçilərə ehtiyac duymadan İsveçrədə və ya digər neytral dövlətdə görüşüb fikir mübadiləsi apara bilərdilər. Bunun üçün həmsədrlərə ehtiyac yox idi.

## MOSKVANIN BAKIYA QARŞI "CAVAB ADDIMI"...

Rusiyanın "Независимая газета" (Nezavisimaya qazeta) qəzetində 2020-ci il sentyabrın 2-də yayımlanan məqalədə iki tezis diqqəti çəkdi. ***Birincisi,*** guya 500 nəfərə yaxın türkmən əsilli suriyalı döyüşçü Azərbaycana gətirilib. ***İkincisi,*** Türkiyənin Naxçıvanda döyüş təyyarələrindən ibarət gücləndirilmiş hərbi bazası var.

Türkmən əsilli suriyalı döyüşçülər öz vətənlərinə və Türkiyəyə lazımdır. Onlar Suriyada PKK-yla əlaqəli terrorçu təşkilatlarıyla mübarizəni davam etdirirdilər. Suriyadakı türkmənlər belə vəziyyətdə Azərbaycana gəlməzdilər. Bunu Moskvada da anlayırdılar. Əksinə, Ermənistan hakimiyyəti öz ordusuna muzdluları toplamağa çalışırdı. Bu Ermənistan ordusunun ağır vəziyyətdə olduğunu göstərirdi. Görünür, erməni lobbisi və Moskvada siyasi mərkəzlər "Azərbaycan da Suriyadan muzdlu toplayır" cavabı ilə rəsmi Bakıya irad bildirdiklərini düşünürdülər.

Azərbaycan Müdafiə Nazirliyi "Независимая газета" (Nezavisimaya qazeta) qəzetində yazılanları

təkzib etdi və məqalə müəllifinin sifariş yerinə yetirdiyini bildirdi. Sifariş Rusiyanın hakim dairələrindən verilib. "Независимая газета"ya dövlət əhəmiyyətli sifarişli yazılar Kremldən ötürülür. Bunu Rusiyanın ekspert dairələrində hamı bilir. Bəs bu yazı nəyə xidmət edirdi?

Moskva Bakının "sərhəddəki qarşıdurmadan sonra Ermənistana nə məqsədlə 400 ton yük daşımısız" iradına "Независимая газета" vasitəsilə cavab verdi. Moskva rəsmi Bakının Türkiyənin hərbi bazalarının Azərbaycanda yerləşdirilməsindən narazıdır. Azərbaycan Müdafiə Nazirliyinin bəyanatında belə bir cümlə var idi: *"Müdafiə Nazirliyi olaraq rəsmi surətdə bildiririk ki, Azərbaycan ərazisində nə hər hansı xarici ölkənin hərbi bazası, nə də heç bir digər qeyri-qanuni silahlı birləşmə yoxdur".*

Rusiya qəzetində həmin məqaləni yazdıran sifarişçiyə Bakının bu təkzibi lazım idi. Ona görə də Müdafiə Nazirliyi açıqlamasında Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlığın inkişafının labüd olduğu da vurğulamalıydı. Çünki Türkiyənin həqiqətən Naxçıvanda hərbi bazası olarsa, həmin məqalənin müəllifi bunu əvvəlcədən yazdığını deyəcək. Məqalə müəllifi yazıda bir neçə gün əvvəl Türkiyənin Bakıdakı səfirliyi qarşısında keçirilən mitinqdə səsləndirilən "Türkiyə ordusu, Azərbaycanda qal!" şüarına istinad edib. Məqalə müəllifi bunun təşkil olunmuş mitinq olduğundan şübhələnib. Bəli, Azərbaycan cəmiyyətində "Türkiyə

ordusu, Azərbaycanda qal!" istəyini dilə gətirənlər az deyil və bunu artıq gizlətmək mümkün deyildi.

Bu arada, İlham Əliyev sentyabrın 2-də Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul etdi. Dövlət başçısı adətən səfirləri qəbul edəndə onlarla ancaq ikitərəfli əlaqələrin müsbət məqamlarından danışır. Bu dəfə belə olmadı. İlham Əliyev səfirə Yunanıstan haqqında bütün tənqidi düşüncələrini açıq dedi.

***Birincisi,*** prezident, Yunanıstanın iki il əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanan "Tərəfdaşlıq Prioritetlərinə" sənədinə zidd siyasət apardığını dedi. Həmin sənəddə Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləyib. Bu səbəbdən Yunanıstanın Azərbaycan torpaqlarını işğal edən Ermənistanla hərbi əməkdaşlığı genişləndirməsi Azərbaycanın haqlı narazılığına səbəb olub. Digər tərəfdən İlham Əliyev Ermənistan, Yunanıstan və Kipr arasında hərbi əməkdaşlıqla bağlı narahatlığını səsləndirdi.

***İkincisi,*** İlham Əliyev Afinanın bir neçə il əvvəl Bakıya verdiyi vədi yerinə yetirmədiyini xatırlatdı: "Yunanıstanın keçmiş hökuməti bizə Yunanıstanın qaz şirkəti olan "DESFA"nın özəlləşdirilməsində SOCAR-ın iştirakını təklif etmişdi. Biz tenderə qoşulduq və qalib gəldik. Açıq tender proseduru nəticəsində SOCAR ən yaxşı təklifi etdi və "DESFA"ya sahib olmaq hüququnu qazandı. Bu bizim Cənub Qaz Dəhlizinin

tikintisi ilə bağlı planlarımız baxımından da mühüm əhəmiyyət kəsb edirdi. Bu 6 il əvvəl olub. Biz düşündük ki, Azərbaycan Yunanıstanı qazla təchiz edəcəksə, bu qazı paylaşdıran şirkətə sahib olmaq da yaxşı olar. Ancaq əfsuslar ki, Yunanıstanın əvvəlki hökuməti SOCAR-ın bu hüququ itirməsi üçün hər şeyi etdi. Yunanıstan hökuməti bizə belə münasibət göstərirsə, biz də necə cavab verəcəyimiz barədə düşünməliyik".

***Üçüncüsü,*** İlham Əliyev Yunanıstan səfirinə açıq şəkildə Şərqi Aralıq dənizində yaranan mövcud gərgin durumda birmənalı şəkildə qardaş və strateji müttəfiq Türkiyəni dəstəklədiyini dedi: *"Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsində dəstəkləyirik".*

İlham Əliyev Yunanıstan səfirinə sonda Yunanıstanla Azərbaycan arasında əlaqələrdə müsbət məsələ tapa bilmədiyini də dedi. İlham Əliyevin sözlərinə görə, ikitərəfli əlaqələr Yunanıstan hökumətinin siyasəti və mövqeyindən asılı olacaq.

Aydındır ki, Yunanıstan hökuməti Azərbaycanla bağlı siyasətini dəyişməyəcək. Afina SOCAR-a "DESFA"nın səhmlərini verməyəcək, Ermənistanla sıx əlaqələrdən imtina etməyəcək və Şərqi Aralıq dənizində Türkiyəyə müqavimət göstərməkdə davam edəcək. Bu isə o deməkdir ki, Azərbaycanla Yunanıstan arasındakı əlaqələrin inkişafını gözləmək yersiz-

dir. İki ölkə arasındakı əlaqələr sadəcə, Azərbaycanın Yunanıstana qaz satmasından ibarət olacaq.

İlham Əliyev Yunanıstan səfiri ilə görüşdə Rusiyanın Ermənistana hərbi yüklər göndərməkdə davam etdiyini də xatırlatdı. İlham Əliyev bir müddət əvvəl bunu ilə bağlı iradını rusiyalı həmkarı Vladimir Putinə çatdırdıqdan sonra da Kreml Ermənistana hərbi yüklər göndərməkdə davam edirdi.

# PKK TERRORÇULARI DAĞLIQ QARABAĞDA...

Ermənistanın keçmiş prezidentləri Levon Ter-Petrosyan, Robert Köçəryan və Serj Sərkisyan hakimiyyətdə olduğu illərdə Dağlıq Qarabağ separatçılarına dəstək verərkən, bölgənin ağır demoqrafik məsələsini də həll etməyə çalışırdılar. Ancaq nə qədər çalışsalar da, buna nail ola bilmədilər. Ermənistan vətəndaşları nə o zaman, nə də sonrakı illərdə Dağlıq Qarabağa köçdülər. Çünki Ermənistan vətəndaşları Dağlıq Qarabağ ətrafında hər an müharibənin başlanması ehtimalını yüksək qiymətləndirir və həyatlarını təhlükəyə atmaq istəmirdilər. Ona görə də Ermənistanın keçmiş prezidentləri bu məsələnin yeganə həllini Yaxın Şərq ölkələrində yaşayan erməniləri işğal altındakı torpaqlara yerləşdirməkdə görürdülər. Ancaq onların bu istiqamətdə ciddi uğurları yox idi.

Nikol Paşinyan Ermənistanın baş naziri seçildikdən sonra Azərbaycana qarşı təxribatlar artdı. Məhz Paşinyanın dövründə sərhəddə təxribatların, Şuşaya "səfərlərin" və köçürülmənin miqyası artdı.

Livanın paytaxtı Beyrutun dəniz limanındakı partlayışdan sonra İrəvan bu ölkədəki ermənilərə müraciət edərək onları Ermənistana, oradan da Dağlıq Qarabağa “dəvət” etdi. Müflisləşən Livan ermənilərinin Dağlıq Qarabağa köçü başladı. Onlara və Suriya ermənilərinə sosial çətinliklərin həlli üçün Dağlıq Qarabağda ev, bir qədər maliyyə vəsaiti və ev heyvanları verirdilər. Keçmiş illərdə Ermənistanda dəyişən hakimiyyətlər Dağlıq Qarabağa köçü gizli həyata keçirməyə çalışırdılarsa, Nikol Paşinyan heç nəyi gizlətmirdi, bu siyasətini açıq şəkildə həyata keçirirdi. Dağlıq Qarabağa köçən ermənilərin görüntüləri internet vasitəsilə yayılırdı.

Nikol Paşinyanın “köç təxribatı” bununla kifayətlənmirdi. Terrorçu PKK təşkilatının üzvlərinin də işğal altındakı torpaqlara köçü haqqında məlumatlar var idi. Türkiyə ordusu və hərbi hava qüvvələri yay aylarında İraq və Suriya ərazisindəki PKK terrorçularına öldürücü zərbələr vururdular. Buna görə də terrorçu təşkilat gizlənməyə yeni məkan axtarırdı. Bu məkanlardan biri kimi də işğal altındakı Azərbaycan əraziləri seçilə bilərdi. PKK rəhbərliyi bu yerdəyişmə ilə özlərini Türkiyə ordusunun hücumlarından qoruya biləcəklərini düşünürdü. Bu köçdən Ermənistan hakimiyyəti də öz məqsədləri üçün istifadə edərək, bölgədəki separatçıların gücünü artırmağa çalışacaqdı. PKK ilə erməni terrorçu ASALA təşkilatı arasında əməkdaşlıq uzun illərdir davam edir. PKK ilk dəfə deyil ki, ermənilərə dəstək verir.

PKK terrorçularının Azərbaycanın işğal altındakı ərazilərdə yerləşməsi rəsmi Bakı üçün yeni vəziyyət yaradırdı. Rəsmi Bakı yeni yaranan təhlükəni beynəlxalq təşkilatlar vasitəsilə həll edə bilməyəcəkdi. Heç bir beynəlxalq təşkilat PKK terrorçularının işğal altındakı bölgələrdə yerləşməsinə mane olmayacaqdı. Əksinə, illərdir Türkiyəyə qarşı terror planlarında PKK-ya bu və ya digər şəkildə dəstək verən bəzi dövlətlər terrorçuların Dağlıq Qarabağ və ətraf rayonlarda yerləşməsini bəyənəcəkdi. Ona görə də beynəlxalq təşkilatlarda söz sahibi olan həmin dövlətlərdən Ermənistan + PKK cütlüyünə qarşı addım atacağını gözləməyə dəyməzdi. Əksi olsaydı, həmin dövlətlər Livan ermənilərinin işğal altındakı torpaqlarda yerləşməsinə qarşı bəyanat verərdilər. Halbuki, bu köç bölgədə müharibə ehtimalını daha da artırırdı. Minsk Qrupu həmsədrlərinin isə bu mövzuda nə bir bəyanatı, nə də bir cümləsi oldu.

PKK-nın işğal altındakı torpaqlarda yerləşməsi və ərazimizdə hərbi düşərgələr formalaşdırması gələcəkdə terrorçu təşkilatın Türkiyə ilə bərabər Azərbaycana qarşı da təxribatların baş verməsi ehtimalını artırırdı. Bu durumun özü belə işğal altındakı torpaqların azad olunması məqsədilə Azərbaycanla Türkiyənin birgə hərbi əməliyyat keçirməsi üçün şərait yaradırdı. Çünki PKK-nın Dağlıq Qarabağda yerləşməsi Azərbaycan kimi Türkiyənin də əsas probleminə çevrilirdi.

## ERMƏNİ NAZİRİN ANTİ-TÜRK TURNESİNİN MƏQSƏDİ NƏ İDİ?

Ermənistanın keçmiş xarici işlər naziri Zöhrab Mnatsakanyan 2020-ci il sentyabrın 15-də Yaxın Şərq və Şimali Afrika ölkələrinə səfər etdi. O, ilk növbədə Misirə getdi. Misir Ermənistanın müstəqilliyini tanıyan ilk ərəb ölkələrindəndir. Erməni nazir misirli həmkarı ilə ortaq mətbuat konfransında Türkiyəyə qarşı birgə mübarizədən və hazırda iki ölkənin təhlükəsizliklə bağlı ortaq maraqlarından danışdı.

Mnatsakanyan "ortaq təhlükəsizlik maraqları" dedikdə əslində hər iki dövlətin anti-Türkiyə mövqeyinə işarə etdi. Təsadüfi deyil ki, erməni nazir sonrakı cümləsində Şərqi Aralıq dənizində Yunan Kiprinin, Yunanıstanın və Misirin mövqelərini müdafiə etdiklərini bildirdi. Məlumdur ki, adı çəkilən ölkələr Türkiyənin Şərqi Aralıq dənizində enerji kəşfiyyat işlərinə mane olmağa çalışırdı. Daha sonra erməni nazir Şimali Afrikadakı vəziyyətlə Cənubi Qafqazdakı vəziyyət arasında paralellər aparmağa çalışdı.

Ermənistanın keçmiş xarici işlər nazirinin Şimali Afrika səfərinə Misirdən başlamasının səbəbi bəlliydi. Misirlə Türkiyə arasında münasibətlər gərgindir. Erməni nazir də bundan istifadə edərək Misirə dəstək ifadə etmək üçün Qahirəyə yola düşüb. Erməni nazirin bu səfərlərdə bir başqa məqsədi də o idi ki, xarici tərəfdaşlarında Türkiyə kimi Azərbaycan haqqında da mənfi rəy formalaşdırsın.

Azərbaycanın Yunan Kipri ilə onsuz da əlaqəsi yoxdur və adadakı yunanların Azərbaycana münasibəti bəllidir. İlham Əliyev Yunanıstanın yeni səfirini Bakıda qəbul edərkən Afinanın siyasətini sərt tənqid etdi. İlham Əliyev səfirə açıq şəkildə rəsmi Bakının Şərqi Aralıq dənizində strateji müttəfiqi Türkiyənin maraqlarını müdafiə etdiyini dedi. Belə olan halda Afinanın Bakıya münasibəti yaxşı ola bilməz. Azərbaycanla Yunanıstanı yaxınlaşdıran yeganə mövzu Azərbaycanın Yunanıstana qaz satışı ola bilər. Afina Azərbaycan Dövlət Neft Şirkətini yerli "DESFA" şirkətinin səhmlərini almaqdan məhrum etməklə onsuz da münasibətlərə zərbə vurdu. Belə olan halda erməni nazirdən fərqli olaraq Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun yaxın illərdə Afinaya rəsmi səfərini təsəvvür etmək çətindir.

Misirə gəldikdə Azərbaycanın bu dövlətlə münasibətlərində heç bir çətinlik yaşanmır. Hüsnü Mübarək Misirin prezidenti olduğu illərdə iki dövlət arasında yaxşı münasibətlər formalaşıb. Ancaq Misirdə son 10 ildə fərqli proseslər cərəyan edib və

general Sisinin hakimiyyətə gəlişi ilə Qahirənin Ankara ilə münasibətləri gərginləşib. Ankara Misirdə baş verənləri çevriliş kimi dəyərləndirib. Bundan sonra Sisi Türkiyə əleyhinə siyasətə başlayıb. Bunun nəticəsində Misir Türkiyə əleyhinə Aralıq dənizinin sərhədini müəyyənləşdirməklə bağlı Yunanıstanla saziş imzalayıb. Halbuki, mütəxəssislərin rəyinə görə, dənizdə daha böyük ərazi əldə etmək baxımından Afina ilə imzalanan saziş Misirin maraqlarına uyğun deyil. Bu saziş təcili Afinaya lazım olub. Çünki, bundan əvvəl dəniz sərhədinin müəyyənləşməsiylə bağlı Türkiyə Liviyanın mərkəzi hökuməti ilə saziş imzalayıb.

Azərbaycanla Türkiyə arasında strateji əlaqələr gücləndikcə hər iki ölkə bir-birinin geosiyasi maraqlarını da nəzərə almalıdır. Ancaq iki dövlət arasında xarici siyasətdə fərqli maraqlar da var. Türkiyənin Misirlə yanaşı İsrail, Səudiyyə Ərəbistanı, Fransa və Birləşmiş Ərəb Əmirlikləri ilə də münasibətləri gərgindir. Rəsmi Bakının adı çəkilən dövlətlərlə münasibətlərində çətinlikləri yoxdur. Rəsmi Bakının Sisinin prezidenti olduğu Misirlə də münasibətlərində hər şey qaydasındadır. Ancaq rəsmi Bakı üçün xarici siyasətdə manevr imkanları getdikcə darala bilər.

Rəsmi Bakı bir tərəfdən təhlükəsizlik siyasətində Türkiyənin regional maraqlarını nəzərə almalı, eyni zamanda Türkiyə əleyhinə siyasət yürüdən dövlətlərlə münasibətlərdə gərginlik yaranmamasına çalışmalıdır. İkincini həyata keçirmək çətin olacaq. Çünki Türkiyəni düşmən kimi qəbul edən ölkələr An-

karanın strateji müttəfiqi olan Azərbaycana bundan sonra şübhəylə yanaşacaq. Rəsmi İrəvan bundan öz məqsədləri üçün istifadə etməyə çalışacaq. Buna yol verməmək üçün rəsmi Bakı xarici siyasətdə çevikliyini artırmalıdır.

## KİYEV AZƏRBAYCANLA STRATEJİ TƏRƏFDAŞLIĞI GÜCLƏNDİRMƏK İSTƏYİR

Ukrayna prezidenti Vladimir Zelinskinin Ukrayna Milli Təhlükəsizlik və müdafiə şurasının 14 sentyabr 2020-ci il tarixli "Ukraynanın milli təhlükəsizliyinin strategiyası" haqqında qərarı Azərbaycanda geniş əks-səda doğurdu. Çünki Ukraynanın milli təhlükəsizlik üzrə yeni strategiyasında Azərbaycan strateji tərəfdaş dövlət siyahısına salınıb.

Əmrin müvafiq bəndində qeyd olundu ki, Ukrayna öz milli maraqlarını qorumaq və regional təhlükəsizliyi gücləndirmək üçün bir sıra ölkələrlə münasibətləri inkişaf etdirəcək. Əmrdə Azərbaycan, Gürcüstan, Litva, Polşa, Türkiyə ilə strateji tərəfdaşlıq, digər Baltik və Şimali Avropa ölkələri ilə tərəfdaşlıq, Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri ilə yaxın qonşuluq münasibətləri nəzərdə tutulub. Belarusla və Moldova ilə praqmatik əlaqələr, Qara dəniz hövzəsində təhlükəsizliyin təmin edilməsində NATO üzvü olan ölkələrlə əməli əməkdaşlıq nəzərdə tutu-

lub. Başqa sözlə Ukrayna üçün Azərbaycan ilk sıralardadır.

Ukrayna prezidentinin qərarı Azərbaycanın siyasi və ekspert dairələrində yüksək qiymətləndirildi. Bundan bir neçə gün sonra Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yaydı. Bəyanatda Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində Ukraynanın suverenliyi və ərazi bütövlüyünü qəti şəkildə dəstəklədiyi bu sözlərlə qeyd olundu: *"Biz Ukraynanın yeni təhlükəsizlik konsepsiyasında Azərbaycanın bu ölkənin strateji tərəfdaşlarından biri kimi müəyyən edilməsini yüksək qiymətləndiririk. Ukrayna ilə strateji tərəfdaşlıq və dostluğumuzun daha da dərinləşdirilməsində qətiyyətliyik"*.

Ukrayna-Azərbaycan strateji tərəfdaşlığı zamanın tələbidir. Kiyev Azərbaycanla strateji əlaqələri yeni müstəviyə çıxarmaq istəyir. Təsadüfi deyil ki, Ukrayna prezidenti Vladimir Zelenski Cənubi Qafqaz ölkələri içərisində yalnız Azərbaycana rəsmi səfər edib. Azərbaycanla Ermənistan arasındakı sərhəddə insidentdən sonra rəsmi Kiyev birmənalı şəkildə Azərbaycana dəstək verib, işğalı pisləyib və bəyanatlarda BMT-nin Azərbaycan torpaqlarının işğaldan azad olunmasıyla bağlı dörd qətnaməsini xatırladıb. Müqayisə üçün, Gürcüstanın oxşar bəyanatında BMT-nin dörd qətnaməsiylə bağlı heç bir cümlə yox idi.

Ukrayna ilə Azərbaycan arasında iqtisadi və hərbi əməkdaşlığı inkişaf etdirmək üçün böyük im-

kanlar var. Bu imkanlardan istifadə etmək lazımdır. Bu mənada prezident İlham Əliyevin Ukraynaya gələcəkdə rəsmi səfəri mühüm əhəmiyyət kəsb edəcək.

Türkiyənin müdafiə naziri Hulusi Akar 2020-ci ilin payızında Kiyevə səfər etdi. Türkiyə Ukrayna ilə hərbi əməkdaşlığı inkişaf etdirməyə qərar verib. Rəsmi Bakının da bu istiqamətdə addımlar atması zəruridir. 2020-ci ilin əvvəlində Azərbaycan-Ukrayna-Türkiyə üçtərəfli formatının yaradılması qərara alınmışdı. Üçtərəfli format əsasında görüşlərin və yeni layihələrin hazırlanmasına ehtiyac var.

# KÖÇƏRYAN PAŞİNYANA XƏBƏRDARLIQ EDİB

Ermənistanın ikinci prezidenti Robert Köçəryanın 2020-ci il sentyabrın 21-də İrəvanda siyasi ekspertlərlə görüşdə səsləndirdiyi fikirlər diqqət çəkirdi. Köçəryan vaxtilə kitabında yazdığı bir fikri yenidən təkrarlayıb: *"Ermənistan və Azərbaycan prezidentləri 2001-ci ildə Amerikanın Ki-Uest şəhərciyində münaqişənin həlliylə bağlı sazişi imzalamağa yaxın olublar".*

Köçəryanın bu sözlərini təsdiq edən fakt yoxdur. Çünki Azərbaycanda heç bir hakimiyyət Dağlıq Qarabağın "müstəqlliyinə" yol açacaq sazişə imza atmazdı.

Buna baxmayaraq, Robert Köçəryanın baş nazir Nikol Paşinyanın Qarabağ siyasəti haqqında dediklərində həqiqət var idi. Məsələn, Köçəryan hesab edir ki, Türkiyə 10 və ya 15 il əvvəlki dövlət deyil, hazırda İraq, Suriya və ya Liviyada olduğu kimi Cənubi Qafqazda da eyni səviyyədə fəal olmaq istəyir. Köçəryanın sözlərinə görə, Paşinyan Ermənistan üçün artan bu təhlükəni anlamır. Köçəryanın fikrincə, Türkiyəni Cənubi Qafqazda saxlaya biləcək yeganə güc Rusiyadır. Ona görə də Köçəryan Paşinyan və

onun komandasının Rusiya ilə münasibətlərdə məsafə saxlamasını yanlış hesab edirdi. Köçəryanın bu məntiqinə görə, Ermənistanı bütün təhlükələrdən ancaq Rusiyadan asılılıq xilas edə bilərdi və vassallıq siyasətindən kənarlaşmaq Ermənistan üçün təhlükəlidir.

Robert Köçəryan Paşinyanın "Qarabağ Ermənistandır. Nöqtə" açıqlamasının yanlış olduğunu da bir daha səsləndirdi. O, belə bir sual verir: "Qarabağ Ermənistandırsa, rəsmi Bakı Paşinyanın çağırışına uyğun olaraq hansı məntiqlə Qarabağ erməniləri ilə danışıqlar aparmalıdır?" Paşinyanın bu məntiqsizliyini rəsmi Bakı da qeyd edirdi.

Robert Köçəryanın Dağlıq Qarabağ ətrafındakı rayonları işğal altında saxlamasının Ermənistan üçün niyə vacib olması barədə fikirləri də diqqəti cəlb edirdi: *"Dağlıq Qarabağ ətrafındakı rayonları Azərbaycana qaytarsaq, təmas xətti bizə daha da yaxınlaşacaq, bu halda mürəkkəb dağlıq relyef də nəzərə alınaraq ordunun sayını indikindən 3-4 dəfə artırmaq məcburiyyətində qalacağıq. Ona görə də, güclü təminat almadan Dağlıq Qarabağ ətrafındakı rayonları boşalda bilmərik, indiki dünyada isə belə bir təminatı bizə heç kim verməyəcək".*

Əslində Robert Köçəryan son açıqlamaları ilə Azərbaycanın düz yolda olduğunu göstərirdi, Azərbaycan Türkiyə ilə hərbi ittifaqı gücləndirməli, işğalçıya hərbi təzyiqi artırmalıydı. Azərbaycan elə etməliydi ki, təmas xətti daralsın və qarşı tərəfin hərbçilərə ehtiyacı indikindən 3-4 dəfə artıq olsun.

Azərbaycan üçün müharibədən əvvəl də yeganə maneə həmişəki kimi Rusiya hesab olunurdu. Azərbaycan prezidentinin sözlərinə də istinad edərək məsələnin yekun həllinə hazırlaşırdıqsa, hədəfə yaxınlaşmaq üçün Rusiya maneəsini də aşmalıydıq.

## KREML PAŞİNYANDAN NİYƏ NARAZIYDI?

Rusiyanın xarici işlər naziri Sergey Lavrov Dağlıq Qarabağ münaqişəsi və Ermənistan hakimiyyəti haqqında buna qədər səsləndirmədiyi sözləri səsləndirdi. Azərbaycan parlamentinin sədri Sahibə Qafarova 2020-ci il sentyabrın 22 və 23-də Rusiyada səfərdə oldu. Sergey Lavrov Sahibə Qafarova ilə görüşdə dedi ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağla bağlı səsləndirdiyi fikirlər münaqişənin nizamlanması prosesinə maneə törədir: *"Bu, rəsmi Moskvanın mövqeyidir. Rusiya tərəfi nizamlama prosesində işğal olunmuş beş rayonun geri qaytarılmasının, əraziyə sülhməramlıların yerləşdirilməsinin və nəqliyyat-kommunikasiya sisteminin bərpa olunmasının tərəfdarıdır".*

Eyni sözləri Sahibə Qafarova ilə görüşdə Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin də dedi. Volodin dedi ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağla bağlı fikirləri haqlı narahatlıq doğurur və sülh prosesinə kömək etmir.

Sergey Lavrovun və Vyaçeslav Volodinin sözləri ciddi əhəmiyyət kəsb edirdi.

***Birincisi,*** Lavrov demək istədi ki, Rusiya hakimiyyəti münaqişənin "mərhələli həll" planını dəstəkləyir, ancaq Ermənistanın baş naziri Nikol Paşinyan buna mane olur.

*Sual olunur:* Nikol Paşinyan Moskvanın dəstəklədiyi "mərhələli həll" planının qarşısını kəsirsə və erməni baş nazir "nizamlamaya mane olursa", niyə Rusiya Ermənistana hərbi yardımı dayandırmır? Tam əksinə, həmin günlərdə hərbi yüklərin daşınması davam edirdi. Paşinyan Moskvanın "sülh səylərinin" qarşısını kəsirsə, Kreml məntiqlə Paşinyana təzyiq etməli, ən azı onun əli ilə Ermənistan ordusunun gücləndirilməsini müvəqqəti dayandırmalıydı. Digər tərəfdən Rusiyanın əlində Paşinyana təzyiq etmək üçün kifayət qədər iqtisadi və enerji vasitələri var idi. Kreml bu təzyiq vasitələrindən istifadə etmədi. Yəni Paşinyanı başa salmaq üçün Kremlin əlində kifayət qədər vasitə var, ancaq bunların heç birindən istifadə olunmadı.

Lavrovun açıqlaması Kremlin müharibə qorxusundan irəli gəlirdi. Kreml Azərbaycanın Türkiyə ilə birgə hərbi hazırlıqlarını müşahidə edərək, iki dövlətin işğal altındakı torpaqları azad etmək ruhunu bilərək "Paşinyan sözümüzə qulaq asmır" açıqlamasıyla bizi sakitləşdirməyə, müharibə təhlükəsini azaltmağa çalışırdı.

***İkincisi,*** Lavrov beş rayonun azad olunmasından danışarkən, Şuşa, Kəlbəcər və Laçının taleyi barədə fikir söyləmədi. Azərbaycan beş rayonun azad olunmasıyla kifayətlənə bilməzdi. Azərbaycan Ermənistanla nəqliyyat-kommunikasiya sistemini yalnız o halda bərpa edə bilərdi ki, beş rayonla yanaşı Şuşa, Kəlbəcər və Laçının da azad olunması təmin edilsin. Ermənistan hakimiyyəti yerli separatçılarla birgə təxribatlarını – köçü, müəssisələrin açılmasını və "parlamentin" köçürülməsini məhz adı çəkilən rayonlarımızda həyata keçirirdi. Lavrovun bu haqda mövqeyi bəlli deyildi.

***Üçüncüsü,*** Lavrov "əraziyə sülhməramlıların yerləşdirilməsi vacibdir" deyərkən, şübhəsiz, Rusiya hərbçilərinin Azərbaycan ərazilərində yerləşdirilməsini nəzərdə tuturdu. ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarına görə, Dağlıq Qarabağda neytral ölkələrin sülhməramlıları yerləşdirilməlidir. Çünki Rusiya ordusu "sülhməramlılar" adı altında Dağlıq Qarabağda yerləşsə, bir daha Azərbaycandan çıxmayacaqdı. SSRİ dövründə Qarabağ separatçıları rusların bölgədəki hərbi bazalarından əldə etdiyi silahlar və hərb texnika vasitəsilə torpaqlarımızı işğal etmiş, qətliamlar törətmişdi. Moskva rusiyalı "sülhməramlıların" bölgədə yerləşməsində israr edərsə, biz də Türkiyə hərbçilərinin Dağlıq Qarabağın azərbaycanlılar yaşayan hissəsində, o cümlədən Şuşada, Kəlbəcərdə və Laçında yerləşməsini təmin etməliydik.

Sergey Lavrovun Nikol Paşinyanı və onun komandasını tənqid etməsi erməni baş nazirin əsas rəqibi və Kremlin yaxın dostu Robert Köçəryanın əlini gücləndirməyə hesablanmışdı. Köçəryan bir neçə gün əvvəl erməni eskeprtlərlə görüşdə demişdi ki, Paşinyanın Rusiya ilə soyuq münasibətləri Ermənistan üçün ciddi çətinliyə çevriləcək. Lavrov açıqlamasını prezident Vladimir Putinlə razılaşdırmışdı və bəlkə də onun təlimatıyla açıqlama vermişdi. Putin Lavrov vasitəsilə Paşinyan haqqında düşündüklərini səsləndirməklə Ermənistanda hakimiyyətdə kimi görmək istədiyini ortaya qoydu.

Bütün hallarda Rusiya rəsmilərindən kimsə ilk dəfə açıq şəkildə Paşinyandan narazı olduqlarını və beş rayonun azad edilməsi vacibliyini səsləndirdi. Bu Azərbaycan-Türkiyə hərbi ittifaqının gücləndirilməsinin və müharibə hazırlıqlarının doğru strategiya olduğunun göstəricisiydi. Deməli, Ermənistana hərbi təzyiqi artırmaqda fayda var idi.

## ERMƏNİSTANIN XARİCİ İŞLƏR NAZİRİ DİALOQ İSTƏYİRDİ

Ermənistanın müharibədən əvvəlki xarici işlər naziri Zohrab Mnatsakanyanın "Azərbaycanla danışıqları bərpa etməyə hazırıq" ifadəsi diqqəti yayındırmaq məqsədi daşıyırdı. Ermənistan hakimiyyəti anlayırdı ki, Azərbaycan ciddi hərbi hazırlıqlar görür. Ermənistan hakimiyyəti həm də anlayırdı ki, Türkiyənin də işğalçı Ermənistanla bağlı ciddi planları var.

Türkiyə PKK terrorçularının Dağlıq Qarabağda yerləşməsinə seyrçi qala bilməzdi. Türkiyə hərbi təyyarələri PKK-çılara İraq və Suriya ərazisində öldürücü zərbələr endirirsə, eyni zərbələri Dağlıq Qarabağa endirməyəcəyinin təminatı yox idi. İrəvanda özləri üçün bu təhlükəni də anlamağa başdılar. Ona görə də erməni rəsmiləri və diplomatları qorxularından "danışıqları bərpa edək" açıqlamasını səsləndirirdilər. Ancaq bu açıqlamanın başqa səbəbi də var idi.

Beynəlxalq aləm Azərbaycanın müharibə hazırlıqlarının şahidiydi. Böyük dövlətlər və beynəlxalq

təşkilatlar Cənubi Qafqazda müharibə istəmirdilər. Rəsmi Yerevan da "biz danışıqlar tərəfdarıyıq" deməklə böyük dövlətlərə və beynəlxalq təşkilatlara "sülhpərvər" olduqlarının mesajını göndərməyə çalışırdı. Yəni mesajın tam mahiyyəti bundan ibarətdi ki, "Azərbaycan müharibə istəyir, Ermənistan isə danışıqlar".

Yerevanın mesajından asılı olmayaraq rəsmi Bakı bu tələyə düşməməliydi. Azərbaycanla Ermənistan arasında danışıqlar 28 ildə nəticə vermədi. İndi niyə nəticə verməliydi? Nikol Paşinyan özündən əvvəlki rəhbərlərdən daha çox təxribatçıdır. Məgər Yerevan "mərhələli həll" planını qəbul etməyə və Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa hazırdırmı? Bu sualın cavabı müsbət deyil. Biz böyük dövlətlərə və beynəlxalq təşkilatlara siqnallar göndərməliydik ki, Ermənistan ilkin mərhələdə Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayacaqsa, bölgədə müharibə qaçılmaz olacaq.

# HƏDƏFƏ YAXINLAŞMAQ ÜÇÜN RUSİYA MANEƏSİNİ AŞMALIYDIQ

Azərbaycan ordusu 2020-ci il sentyabrın 27-də işğalçılara qarşı əks-hücuma keçdi. Azərbaycanın əsas hədəf işğal altındakı rayonları azad etmək idi.

İlham Əliyevin son açıqlamaları müharibə anonsu kimi qiymətləndirilə bilərdi.

***Birincisi,*** prezidentin açıqlamasından bir daha məlum oldu ki, Ermənistanla danışıqlar nəticə verməyəcək. Hamıya aydındır ki, danışıqların davamı işğala son qoymayacaq.

***İkincisi,*** Ermənistanın sərhəddəki təxribatları davam edir, Azərbaycanın hava sahəsində vurulan növbəti pilotsuz uçuş aparatı da bunun sübutu idi.

***Üçüncüsü,*** Ermənistan hakimiyyətinin işğal altındakı bölgələrə köçü sürətləndirməsi, PKK terrorçularının Dağlıq Qarabağda məskunlaşması barədə məlumatların çoxalması gərginliyi daha da artırırdı.

Azərbaycan və Ermənistan müharibəyə hazırlaşırdı. Ermənistan müxtəlif ölkələrdən muzdlular toplayır və Dağlıq Qarabağa göndərir, Rusiyadan si-

lah və hərbi texnika alır, Azərbaycan isə Türkiyə ilə iyul ayından başlayan hərbi təlimləri bu və ya digər şəraitdə davam etdirirdi, üstəgəl ehtiyatda olan hərbi vəzifəlilərin orduya çağırışı başlamışdı.

Hərbi toqquşma ehtimalı artdıqca yenə eyni sual gündəmə gəldi: *Rusiyanın reaksiyasi necə olacaq?*

Son dörd ildə Azərbaycanla Ermənistan arasında iki dəfə toqquşma olub və hər ikisində döyüşlər dörd gün çəkib. Hər dəfəsində Moskva prosesə müdaxilə edərək tərəfləri atəşkəsə riayət etməyə çağırıb. Atəşkəsin bu şəkildə davamı isə Ermənistanın maraqlarına xidmət edirdi. Ermənistan işğal altındakı torpaqlarda məskunlaşma siyasətini genişləndirib, inşaat işləri aparır, müəssisələr yaradırdı, hətta separatçıların "parlamentini" Şuşaya köçürəcəklərinin anonsunu vermişdilər. Bu təxribatlara Minsk Qrupu həmsədrləri və beynəlxalq təşkilatlar reaksiya vermədi. Halbuki, bütün bu qanunsuzluqlar böyük dövlətlərin və beynəlxalq təşkilatların əleyhinə çıxdığı müharibə ehtimalını artırırdı.

## İLHAM ƏLİYEV GÜRCÜSTANI TƏRİFLƏDİ

Prezident İlham Əliyev müharibə başladıqdan sonrakı ilk günlərdə Gürcüstanı təriflədi. Prezidentin Gürcüstanı Azərbaycanın strateji tərəfdaşı adlandırmasının səbəbi var idi.

Gürcüstan Rusiyadan Gürcüstan üzərindən Ermənistana silah daşınmasına imkan vermədi. Bu səbəbdən Rusiya ilk günlərdə Ermənistana hərbi yükləri Qazaxıstan, Türkmənistan və İran hava sahəsindən daşımalı oldu. Bu isə Rusiya üçün daha uzun yol və əlavə xərc demək idi. Gürcüstanın Rusiyaya "yox" deməsinə görə də İlham Əliyev qonşu dövlətin ünvanına "Gürcüstan özünü çox etibarlı tərəfdaş kimi apardı" ifadəsini səsləndirdi.

İyul ayında Ermənistan Azərbaycan sərhəddində təxribat törətdikdə Gürcüstan prezidentinin açıqlamasından narazı qalmışdıq. Çünki Gürcüstan prezidenti Azərbaycanla Ermənistan arasında bərabərlik işarəsi qoymuşdu. Digər tərəfdən bir müddət əvvəl Gürcüstandakı bəzi qüvvələrin Azərbaycanla sərhəddə

müəyyən təxribatçı hərəkətləri haqlı narazılığımıza səbəb olmuşdu.

Görünür, rəsmi Tbilisi Azərbaycanla münasibətlərdə gərginliyin onlar üçün çətinlik yaradacağını anlayaraq yenidən strateji tərəfdaşlıq siyasətinə qayıtdı. Bunu təqdir etmək lazım idi. Gürcüstan üçün Azərbaycanla Ermənistanın fərqi var. Gürcüstanla Azərbaycanı birləşdirən ortaq maraqlar var. Bu hər iki dövlət üçün ərazi bütövlüyünün əsas götürülməsindən tutmuş ortaq enerji və nəqliyyat əməkdaşlığına dair müxtəlif bəndlərdir.

Buna baxmayaraq, Tbilisi "Keşikçidağ"ın məsələsində israrını davam etdirirdi. Xarici işlər naziri Ceyhun Bayramov sentyabrın 24-də Gürcüstana səfər edərək bu ölkənin prezidentindən tutmuş gürcü həmkarına qədər müxtəlif görüşlər keçirtdi. Xarici işlər nazirləri görüşdən sonra ortaq mətbuat konfransı keçirtdilər.

Mətbuat konfransında iki ölkə arasında əlaqələrin strateji əhəmiyyəti bir daha vurğulandı. Ceyhun Bayramov "Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşı və investorlarından biridir" ifadəsini səsləndirməklə Tbilisinin bölgədə əsas tərəfdaşının ünvanını göstərdi.

Buna baxmayaraq, gürcü nazir görüşdə yenə "Keşikçidağ" mövzusuna diqqəti yönəltdi. Nazirlər qapalı görüşdə bu mövzuda fikir mübadiləsi apardılar. Ötən il insidentin yaşanmasına baxmayaraq, vəziyyətin müsbətə doğru dəyişildiyi vurğulandı. Bildirildi ki, dövlət sərhədinin delimitasiyası ilə məşğul

olan komissiyanın üzvləri yenilənib. Gürcü nazir bildirdi ki, 2006-2007-ci illərdə razılıq əldə edilən bəzi qərarlar dəyişə bilər. Söhbətin hansı qərarlardan getdiyi açıqlanmadı.

Hiss olunurdu ki, Tbilisi bu məsələnin qısa müddətdə həllini istəyir. Gürcü nazirin "dövlət sərhədlərinin delimitasiya prosesi pandemiya ilə əlaqədar bir qədər uzandı. Əminəm ki, pandemiya başa çatdıqdan sonra bu vəziyyətdən çıxacağıq və hər iki ölkə üçün məqbul qərarlar qəbul ediləcək" sözləri də bundan xəbər verirdi.

Ceyhun Bayramovla görüşən Gürcüstan prezidenti Salome Zurabişvili üçün də "Keşikçidağ" mövzusu vacib olub. "Sərhədlərin delimitasiyası prosesinin vaxtında başa çatdırılması qarşılıqlı strateji maraq kəsb edir" deyən Salome Zurabişvili əmin olduğunu bildirdi ki, "bu prosesə heç kim və heç nə mane ola bilməz". Sanki Salome Zurabişvili üçün Azərbaycanla münasibətlərdə başqa mövzu yoxdur. Halbuki, strateji tərəfdaş olaraq Gürcüstan prezidentindən Dağlıq Qarabağ məsələsində Azərbaycana birmənalı dəstək ifadəsini eşitmək istəyərdik. Necə ki, həmin dəstəyi Türkiyə, Pakistan və Ukraynanın rəhbərləri ifadə edirdilər.

Əslində Gürcüstanla dövlət sərhədinin delimitasiya məsələlərinin üçdə ikisi başa çatdırılıb. Sadəcə, Tiflis yerdə qalanını da qısa müddətdə həll etmək istəyir.

Rəsmi Tbilisi Rusiyanın Gürcüstan üzərindən Ermənistana hərbi yük daşımasına icazə vermədi.

Rəsmi Bakı bunu yüksək qiymətləndirdi. Ancaq rəsmi Tbilisinin bölgədə indiki ağır vəziyyətdə hələ də "Keşikçidağ" məsələsini gündəmdə saxlaması suallar yaradır. Azərbaycan işğal altındakı torpaqları azad etməyə çalışarkən, rəsmi Tbilisinin bizdən sərhəddə ərazi güzəşti gözləməsi yersiz idi. Əlbəttə, iki ölkə arasında sərhədin delimitasiyasıyla bağlı danışıqlar davam etdirilməlidir. Ancaq Azərbaycan üçün mövcud şərtlər daxilində əsas hədəf torpaqlarını azad etmək idi. Bunu tam həll etmədən Gürcüstana ərazi güzəşti mümkün deyil.

Gürcüstan Azərbaycana dəstəyini "Keşikçidağ"la əlaqələndirməməlidir. Yəni bir növü demək istəyirlər ki, "Siz Keşikçidağı bizə versəz, Gürcüstan Qarabağ məsələsində Azərbaycana daha böyük dəstək verər". Bizə şərti dəstək lazım deyil. Ona qalsa, Bakı bu illərdə Tbilisiyə kifayət qədər yaxşılıqlar edib. Ceyhun Bayramovun da Tbilisidə qeyd etdiyi kimi, bölgədə Gürcüstanın əsas tərəfdaşı və investoru Azərbaycandır. Gürcüstan hakimiyyətində gərək bunu unutmasınlar.

# UKRAYNAYA SƏFƏRİN AKTUALLIĞI ARTDI

Ceyhun Bayramov xarici işlər naziri vəzifəsində ilk rəsmi səfərini Türkiyəyə etdi, ikinci ölkə kimi Rusiyanı seçdi. Parlamentin sədri Sahibə Qafarova da birinci Türkiyəyə, ikinci Rusiyaya səfər etdi.

İlk ölkə kimi Türkiyənin seçilməsi doğrudur, ancaq ikinci səfər ölkəsinin hər zaman Rusiya seçilməsi suallar doğurur. Moskvaya səfər edən Azərbaycan rəsmiləri Rusiyanı "strateji tərəfdaş" adlandırırlar, həmin "strateji tərəfdaş" isə işğalçı Ermənistana hərbi yük düşımaqda davam edirdi.

Ceyhun Bayramov, Sahibə Qafarova və digər rəsmilərimiz Ukrayna istiqamətini unutmamalıydılar. Xarici işlər naziri ikinci səfər ölkəsi kimi Rusiyanı seçmişdisə, Milli Məclis sədri ikinci səfər ölkəsi kimi Ukraynanı seçə bilərdi.

***Birincisi,*** Ermənistanla iyul ayındakı sərhəddəki insidentdən sonra Ukrayna Xarici İşlər Nazirliyi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat yaydı, işğalı pislədi və BMT-nin məlum dörd qətnaməsin xatırlatdı.

***İkincisi,*** Ukraynanın yeni milli təhlükəsizlik strategiyasında Azərbaycan strateji tərəfdaş kimi göstərilib.

***Üçüncüsü,*** Ukrayna prezidenti Vladimir Zelenski sentyabrın 22-də azərbaycanlı həmkarı İlham Əliyevə zəng edərək bir daha Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələlərində ölkələrimizin bir-birini dəstəklədiyini qeyd etdi.

Bu faktorları nəzərə alaraq Azərbaycan rəsmilərinin Ukraynaya səfər etmələri vacibdir.

Bu arada ABŞ-Ukrayna təlimləri başladı. Türkiyə ilə Azərbaycan arasındakı birgə hərbi təlimlər də həmin günlərdə davam edirdi. Rusiya hər iki təlimdən narahat görünürdü.

Rusiya 2008-ci ildə Gürcüstanla müharibədən sonra separatçı Cənubi Osetiya və Abxaziyanın "müstəqilliyini" tanıdı. Rusiya 2014-cü ildə Krımı işğal etdi, Donbasda separatçı bölgə yaratdı. Bununla Kreml qırmızı xətləri keçdi. Rusiya-NATO dialoq formatı var idi. Ancaq Rusiyanın bölgədə aqressiv siyasəti bu formatın sonunu gətirdi və Rusiya NATO üçün tərəfdaşdan rəqibə və düşmənə çevrildi. Ona görə də həm ABŞ, həm də NATO Rusiyaya qonşu olan dövlətlərlə birgə hərbi təlimlərin sayını artırıb. NATO-Ukrayna, NATO-Gürcüstan və Türkiyə-Azərbaycan birgə hərbi təlimləri olmasa Rusiyanın regional hədəfləri artar. Rusiyanı dayandırmağın yolu müttəfiq dövlətlərin və təşkilatların birgə hərbi təlimlərindən keçir.

Ukrayna Rusiyanın işğalı və təhdidləri ilə üz-üzədir. Rusiya Ukraynaya Donbası nəzarət altına almağa imkan vermir. Ukraynada anlayırlar ki, Rusiyanın dəstəyi olmadan Donbas separatçıları müqavimət göstərə bilməzlər. Ancaq Ukraynada onu da anlayırlar ki, Rusiya ilə mümkün müharibədə qələbə çala bilməzlər. Ona görə də Ukraynanın ABŞ-ın hərbi dəstəyinə ehtiyacı var. Vaşinqton Ukraynanı Rusiyadan qorumağa çalışır və bu məqsədlə həm bu ölkəyə silah satır, həm də birgə hərbi təlimlər keçirir. Bu, Ukrayna üçün çox vacibdir. Rusiya güc amili ilə hesablaşır. Moskva Ukraynanı dəstəksiz görsə, bu ölkənin yerdə qalanını da işğal edəcək. Ancaq Rusiya Ukraynanın arxasında dayanan Amerika ilə bölgədə toqquşmağa cəsarət göstərməyəcək.

Ukrayna kimi Azərbaycanın da Rusiyadan qorunmağa ehtiyacı var. Ermənistan vaxtilə Rusiyadan aldığı dəstək hesabına Azərbaycanın ərazilərini işğal edib. Rusiya Ermənistana hərbi dəstəyi heç zaman əsirgəməyəcək. Rusiyanın Ermənistana daşıdığı tonlarla hərbi yüklər də bundan xəbər verir. Ukraynanı Amerika qoruduğu kimi Türkiyə də Azərbaycanı xarici təhlükələrdən qorumağa qərar verib. Azərbaycanın Türkiyə ilə birgə keçirdiyi hərbi təlimlərin əsas səbəbi budur. İyulun sonlarından başlayan birgə hərbi təlimlər müxtəlif formalarda avqust ayında da davam etdi.

Türkiyə Xarici İşlər Nazirliyinin Azərbaycanla bağlı bəyanatında iki vacib cümlə var idi. **Birincisi,**

Ankara bəyan edirdi ki, Azərbaycana qarşı hər hansı bir hücum Türkiyəyə qarşı hücum kimi qəbul ediləcək. Bu, Türkiyənin müharibədə Azərbaycanı hər formada dəstəkləməyə hazır olduğunu ifadə edirdi. **İkincisi,** Ankara ATƏT-in Minsk Qrupunu münaqişəni həll edə bilməyəcəyini elan etməyə çağırırdı. Bu da zamanında verilmiş bəyanat idi. Əlbəttə, həmsədrlər təslim bəyanatı verməyəcəkdilər, əksinə, Türkiyənin adını çəkmədən Ankaranın siyasətinə qarşı bəyanat yayacaqdılar.

Bu arada ABŞ-ın Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin hesabatına görə, Rusiyanın məşhur "Vaqner" muzdlularının ayaqlarının dəydiyi ölkələr içərisində Azərbaycanın da adı çəkilirdi. Mərkəzin iddiasına görə, "Vaqner" muzdluları 2016-cı ildə Serbiya və İndoneziya ilə yanaşı Azərbaycanda da olublar. Məlumdur ki, "Vaqner" muzdluları Suriyada, Liviyada, Donbasdakı savaşlarda iştirak edir, bəzi Afrika ölkəsində təhlükəsizliklə bağlı təlimlər keçirlər. Bundan baqşa "Vaqner" muzdlularının Belarusda prezident seçkisi qabağı həbs olunmaları da böyük qalmaqala səbəb oldu.

Bəs "Vaqner" muzdluları Azərbaycana niyə və hansı adla gələ bilərdilər? "Vaqner" muzdluları Rusiyanın xüsusi və gizli maraqlarına xidmət edir. Amerika Araşdırma Mərkəzi "Vaqner" qrupunun Azərbaycanda olduğunu yazarkən rusiyalı muzdluların Dağlıq Qarabağda olduğunu nəzərdə tutub. "Vaqner"in Dağlıq Qarabağda separatçılara hərbi

təlimlər keçdiyi və döyüşlərdə iştirak ediyinə dair xəbərlər yayılsa da, bunu təsdiq edən faktlar aşkarlanmadı. Buna baxmayaraq, Rusiya mediasının əksər hissəsi müharibə dövründə işğalçıya informasiya dəstəyini əsirgəmədi.

## AZƏRBAYCAN ERMƏNİSTANI SÜLHƏ MƏCBUR EDƏCƏK

Azərbaycan ordusunun sentyabrın 27-də başladığı hərbi əməliyyatlar elə ilk gündən Ermənistanın çətinliklərini artırdı. Ermənistan müharibənin ilk günündən başlayaraq "qan bankına" ehtiyac duyduğunu bəyan etdi, yaralıların sayı çox olduğuna görə xəstəxanalara mülki əhalinin qəbulu dayandırıldı, gənclərin Ermənistan xaricinə çıxışına qadağa qoyuldu.

Müharibədə hansı tərəfin daha çox insani imkanları, hərbi texnikası varsa, həmin tərəf uğur qazanacaqdı. Azərbaycan bütün parametrlərə görə Ermənistanı üstələyir. Azərbaycanın əhalisi Ermənistanın əhalisindən beş dəfə, hərbi büdcəsi Ermənistan büdcəsinin tamamından çoxdur.

*Ermənistan 1990-cı illərdə Azərbaycan torpaqlarını necə işğal etmişdi?*

Dağlıq Qarabağda yaşayan ermənilər 1980-ci illərin sonunda separatizmə başladılar. SSRİ-nin lideri Mixail Qorbaçov separatizmin qarşısını ala bilmədi.

Ermənilər SSRİ-nin dağılması ərəfəsində mitinqlərə başladılar və silahlandılar. Dağlıq Qarabağda yaşayan azərbaycanlıların silahları yox idi. Azərbaycanlılar ümid edirdilər ki, Moskva məsələni həll edəcək. Ancaq bu olmadı. Erməni silahlı birlikləri Ermənistandan və dünyanın müxtəlif ölkələrindən gələn muzdlular hesabına azərbaycanlılara qarşı etnik təmizləməyə başladılar. Onlara SSRİ-nin Dağlıq Qarabağdakı hərbi hissələri də yardım edirdi. Azərbaycan müstəqilliyini əldə edən kimi erməni separatizminə qarşı savaşa başladı. Ancaq o illərdə Azərbaycanın ordusu yox idi. Digər tərəfdən ermənilər mülki əhalini hədəf alaraq qətliamlar törədir və bölgələri sürətlə işğal edirdilər.

Dağlıq Qarabağdakı Ermənistan ordusu bu dəfə də eyni taktikadan istifadə etməyə çalışırdı, azərbaycanlılar yaşayan əraziləri raket atəşinə tuturdu ki, mülki əhali arasında itki olsun. Ancaq Azərbaycan 27 il ərzində güclü ordu yaradıb (Azərbaycanın İsraildən və Türkiyədən aldığı pilotsuz uçuş aparatları işğalçı ordunun hərbi texnikasını dağıtmaqda davam edir, Ermənistan bu tip silahlara malik deyil), ordunun hərbi texnika üçün təminatına on milyardlarla dollar xərcləyib.

Azərbaycan əhalisi müharibəni davam etdirmək əzmindəydi, gənclər könüllü orduya yazılırdılar. Yəni həm hərbi, həm də mənəvi üstünlük Azərbaycanın tərəfindəydi. Müharibənin ilk günlərində Ermənistandan Dağlıq Qarabağa silah və hərbi texnika aparan yolları nəzarət altına almaq vacib idi. Murov-

dağ və Füzuli istiqamətində həyata keçirilən hərbi əməliyyatların məqsədi də bu idi. Azərbaycan ordusunun Füzuli, Cəbrayıl və Zəngilanı azad edəcəyi halda erməni separatçılarının İranla əlaqəsi kəsiləcəkdi.

Dağlıq Qarabağda gedən müharibə dünyanın diqqət mərkəzindəydi. Böyük dövlətlər və beynəlxalq təşkilatlar Azərbaycana və Ermənistana atəşkəs çağırışı edirdilər. Bunlar gözlənilən idi. Azərbaycan bir şərtlə yenidən atəşkəs elan edib danışıqlara razılaşa bilərdi: Ermənistan ordusu Azərbaycan ərazilərini tərk etməlidir! Bu şərti Ermənistan hakimiyyəti qəbul etmədiyinə görə döyüşlər davam edirdi.

ATƏT-in Minsk Qrupu həmsədrlərindən ABŞ və Fransanın Cənubi Qafqaza təsir imkanları azdır. Fransa prezidenti Emmanuel Makronun Cənubi Qafqaz siyasəti yanlış olduğu ilk günlərdən bəlli oldu. Fransanın keçmiş prezidenti Nikola Sarkozinin həm Ermənistan, həm də Azərbaycanla yaxşı münasibətləri var idi. Sarkozi prezident olarkən həm Ermənistana, həm də Azərbaycana səfərlər etmişdi. Emmanuel Makron isə prezident olduqdan sonra yalnız Ermənistana səfər etdi, Azərbaycana gəlmədi. Makron bununla Ermənistana üstünlük verdiyini göstərdi. Makron müharibənin ilk günlərində verdiyi açıqlamalarda Ermənistanı müdafiə edirdi. Onun bu siyasəti Fransa-Azərbaycan münasibətlərinə zərər verəcəkdi. Digər tərəfdən Bakının bundan sonra Parisin vasitəçilik təşəbbüslərini qəbul edəcəyi sual altına düşdü. Makrondan fərqli olaraq ABŞ-ın keçmiş

prezidenti Donald Tramp Azərbaycanla Ermənistan arasındakı müharibəyə qarışmaq istəmirdi. Trampın bu mövqeyi Azərbaycanın maraqlarına uyğun idi.

Həmsədr ölkələrdən yalnız Rusiya prosesə müdaxilə edə bilərdi. Kreml müharibənin ilk bir neçə günündə neytral qalmağa üstünlük verdi. Ancaq Kreml oktyabrın əvvəllərindən təzyiqi bir qədər artırmağa başladı. ***Birincisi,*** Rusiya işğalçı Ermənistana hərbi yükləri göndərməkdə davam edirdi. ***İkincisi,*** Rusiya Xarici İşlər Nazirliyinin oktyabrın əvvəlindəki bəyanatında Dağlıq Qarabağda Suriya və Liviyadan muzdluların gətirilməsindən narahatlıq ifadə edilirdi. Azərbaycan muzdlulardan istifadə etmirdi. Prezident İlham Əliyevin də söylədiyi kimi, Azərbaycan ordusu kifayət qədər ehtiyatlara malikdir, əlavə canlı qüvvəyə ehtiyacımız yoxdur. Ermənistanın muzdlulara ehtiyacı var idi. Ancaq Kreml Liviyanın adını çəkibsə, demək Türkiyənin bu ölkədən Cənubi Qafqaza muzdlular göndərməsinə işarə edirdi.

Rusiya XİN Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada görüşünü təşkil etməyə çalışırdı. Mövcud şərtlər daxilində belə bir görüş Azərbaycanın maraqlarına cavab vermirdi. Çünki Moskva yenidən atəşkəsə nail olub, həmin günlərdə "mərhələli həll" planının reallaşması üçün heç nə etməyəcəkdi. Dəfələrlə bunun şahidi olmuşduq.

Digər tərəfdən rəsmi Bakı gələcəkdə danışıqlar formatının 2+2 (Azərbaycan, Ermənistan, Rusiya və Türkiyə) keçməsinə çalışmalıydı. Yəni rəsmi Bakı

Türkiyənin bölgədə artan rolunu danışıqlar formatına da keçirməli idi. Moskva Liviya və Suriya məsələsində olduğu kimi Dağlıq Qarabağ məsələsində də Ankaranın vasitəçiliyini qəbul etməliydi. Bu rəsmi Bakının qətiyyətli mövqeyindən asılı idi.

Nikol Paşinyan dayanmadan Türkiyənin adını hallandırırdı. Bunda iki məqsədi var idi. Birinci məqsədi bu idi ki, guya Ermənistan Dağlıq Qarabağda Türkiyə hərbçiləri ilə savaşır. Paşinyan bununla Azərbaycan ordusunun qazandığı uğurları kiçiltməyə çalışırdı. Paşinyanın Türkiyənin adını mütəmadi hallandırmaqla ikinci məqsədi Rusiyanın Ermənistana hərbi dəstəyini təmin etmək idi.

Türkiyə Azərbaycanın strateji müttəfiqidir və dünyada bunu hamı belə qəbul edir. Türkiyə rəsmiləri Azərbaycana istənilən dəstəyi verməyə hazır olduqlarını deyirdilər. Buna baxmayaraq, Azərbaycan ordusunun qarşısına qoyduğu vəzifələri yerinə yetirməkdə Türkiyə hərbçilərinin iştirakına ehtiyacı yox idi. Ancaq o da faktdır ki, Türkiyənin Azərbaycana dəstəyi bölgədə sabitləşdirici rol oynayırdı.

***Birincisi,*** Türkiyə Liviyada, İraqda və Suriyada olduğu kimi Cənubi Qafqazda da maraqlarını qoruyur. Bu amillə Rusiya da hesablaşmağa başlayıb. Təsadüfi deyil ki, Dağlıq Qarabağda müharibə getdiyi günlərdə Rusiyanın və Türkiyənin xarici işlər nazirləri arasında bir neçə dəfə telefon danışığı oldu.

***İkincisi,*** Türkiyənin Azərbaycanla hərbi müttəfiqliyi Ermənistana mesaj verirdi, yəni, Bakı kimi

Ankara da Dağlıq Qarabağ və ətraf rayonların qeyd-şərtsiz azad olunmasını tələb edir.

Buna baxmayaraq, Nikol Paşinyan hər vasitə ilə Rusiyanın hərbi dəstəyinə nail olmaq istəyirdi. Bunun üçün əsas yox idi. Çünki müharibə Azərbaycan ərazisində gedirdi. Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistan Türkiyənin F-16 təyyarələrinin Ermənistan səmasında onların hərbi təyyarələrini vurmasıyla bağlı saxta xəbərlər yayırdı. Məqsəd Rusiyadan Türkiyəyə qarşı adekvat addımın atılmasına nail olmaq idi. F-16 xəbərinin saxta olduğunu Rusiyada da anladılar. Bundan başqa Paşinyan deyirdi ki, Rusiyanın Ermənistandakı hərbi bazalarından istifadə edə bilərlər. Buna Paşinyan qərar verə bilməzdi, Kremlin qərarı olmalıydı. Belə bir qərarın verilməsi Rusiya üçün regional təhlükəni artıracaqdı.

Rusiya Dağlıq Qarabağdakı müharibədə Ermənistan tərəfdən iştirak edərsə, Kreml özü üçün iki mənfi nəticə ilə üzləşəcəkdi.

***Birincisi,*** Rusiya Dağlıq Qarabağdakı ermənilərə birbaşa dəstək verərdisə, Azərbaycan və Türkiyə ilə münasibətləri gərginləşdirəcəkdi. Məntiqlə bu Kremlin maraqlarına cavab verməməlidir. Çünki Ermənistan Rusiyanın hərbi müttəfiqi olsa da, Kremlin Bakı və Ankara ilə tərəfdaşlıq münasibətləri var və bu bütün tərəflər üçün faydalıdır. Azərbaycan və Türkiyə Rusiyanın bölgədə əsas iqtisadi tərəfdaşlarıdır, birgə layihələr reallaşdırılır. Kreml Dağlıq Qarabağa görə bütün bunlardan imtina etməyə hazırdırmı?

***İkincisi,*** Rusiya Dağlıq Qarabağdakı ermənilərə birbaşa dəstək verərdisə, müharibənin sərhədi genişlənə, Şimali Qafqazda Rusiya üçün təhlükəli proseslər başlaya bilərdi.

Rusiya müharibənin bitməsini istəyirdisə, Ermənistan hakimiyyətinə təzyiq edib Dağlıq Qarabağ münaqişəsinin "mərhələli həll" planının reallaşmasını təmin etməliydi. Bu plan qəbul edilmədən müharibəni dayandırmaq mümkün olmayacaqdı. Prezident İlham Əliyev oktyabrda işi yarımçıq dayandırmayacaqdı. Azərbaycan və Türkiyə problemin birdəfəlik həllini istəyirdilər. İlham Əliyev Təhlükəsizlik Şurasının müharibə başladığı gün keçirdiyi iclasında dedi ki, Azərbaycan xalqı problemin birdəfəlik həllini tələb edir və o bu prosesi sona çatdırmaq niyyətindədir.

Qeyd etdiyimiz kimi, Rusiya son dörd ildə iki dəfə Azərbaycana mane olub. Azərbaycan ordusu 2016-cı ilin aprel ayında əks-hücuma başlayanda ərazilərin bir hissəsini azad edib irəli gedirdi. Moskvadan Bakıya zənglər edildi və Bakını inandırdılar ki, atəşkəs elan olunsa, "mərhələli həll" planı reallaşacaq. Moskva bu vədini yerinə yetirmədi. 2020-ci ilin iyul ayında da sərhəddə döyüşlər olanda Kreml yenə prosesə müdaxilə etdi. Bu dəfə isə Türkiyə Rusiyadan Azərbaycana edilən diplomatik təzyiqləri neytrallaşdırırdı.

Azərbaycanla Ermənistan arasında informasiya savaşı da var gücüylə davam edirdi. 1990-cı illərdə Azərbaycan torpaqları işğal edilərkən Azərbaycan

informasiya blokadasında idi. Rusiya və Qərb mətbuatında əsasən ermənilərin mövqeyi əks olunurdu. Azərbaycan 2000-ci illərdən başlayaraq informasiya blokadasını yardı və Azərbaycanın mövqeyi də Rusiya və Qərb mətbuatında əks olunmağa başladı. Digər tərəfdən, Azərbaycan Müdafiə Nazirliyinin və Xarici İşlər Nazirliyinin mətbuat xidmətləri operativ işləyirdilər, daxili və xarici auditoriyanı məlumatlandırır və Ermənistanın dezinformasiyalarını təkzib edirdilər.

Türkiyə, Pakistan, Əfqanıstan, Bosniya və Hersoqovina, o cümlədən Ukraynadan Azərbaycanı dəstək bəyanatları yayılırdı. Ermənistanın işğalçı siyasətini isə müharibənin ilk günlərində rəsmi səviyyədə yalnız kiçik Kipr Yunan Respublikası dəstəklədi. Bir neçə gün sonra Fransa da Kipr Yunan Respublikasına qoşuldu.

Bu arada İranın müharibəylə bağlı mövqeyi diqqət mərkəzindəydi. İnternetdə Rusiya hərbi texnikasının İran üzərindən Ermənistana və Dağlıq Qarabağa daşınmasıyla bağlı görüntülər yayıldı. Rəsmi Tehran bu görüntüləri təkzib etdi. İranın dini liderinin Güney Azərbaycan əyalətlərindəki dörd təmsilçisi birgə bəyanat yayaraq Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu və müharibədə Azərbaycanı müdafiə etdiklərini bəyan etdi. Bu belə də olmalı idi. Əks halda, İranda yaşayan azərbaycanlıların İran hökumətinə qarşı etirazı güclənə bilərdi.

# AZƏRBAYCAN AVROPADAKI DOSTLARINI FƏALLAŞDIRMALIDIR

Fransa prezidenti Emmanuel Makron Ermənistanı açıq-aşkar dəstəkləməklə birincisi, münaqişənin həllində tərəfsiz vasitəçi statusunu itirmiş oldu, ikincisi, Azərbaycanla münasibətlərə zərər vurdu. Əlbəttə, Azərbaycan ordusu Dağlıq Qarabağda hərbi əməliyyatı uğurla bitirdikdən və Ermənistanı sülhə məcbur etdikdən sonra Bakı ilə Paris arasındakı münasibətlərin yenidən qaydasına düşməsi mümkün idi. Ancaq iki ölkə arasında münasibətlərin tam qaydasına düşməsini Makrondan sonrakı prezidentlə qurmaq mümkün olacaq.

Azərbaycan müstəqillik qazandıqdan bu yana Fransa ilə tərəfdaşlıq münasibətlərinə çalışıb. Siyasi və iqtisadi əlaqələr inkişaf edib. Buna baxmayaraq, Fransadakı erməni diasporu bu münasibətlərə hər zaman mane olmağa çalışıb. Bu səbəbdən rəsmi Bakı 1990-cı illərin ortalarında Avropa dövlətlərindən Fransanın ATƏT-in Minsk Qrupunun üçüncü həmsədr təyin edilməsinə etiraz etmişdi. Rəsmi Bakı neytral dövlət kimi Almaniyanın üçüncü həmsədr olmasını istəyirdi.

Ancaq ATƏT-in o illərdəki sədri rəsmi Bakının rəyini nəzərə almadan Fransanı üçüncü həmsədr olaraq təyin etdi və biz fakt qarşısında qaldıq.

Buna baxmayaraq, müharibə başlayana qədər Bakı ilə Paris arasında yaxşı münasibətlər mövcud idi. Fransanın keçmiş prezidentləri Jak Şirak, Fransua Olland və Nikola Sarkozi Ermənistana və ermənilərə rəğbət bəsləsələr də, Dağlıq Qarabağ münaqişəsində vasitəçi olduqlarına görə Azərbaycanla da əlaqələrə əhəmiyyət verirdilər. Fransua Olland və Nikola Sarkozi Ermənistanla yanaşı Azərbaycana da səfər etmişdilər. Emmanuel Makron isə prezident seçildikdən sonra hələ də Azərbaycana səfər etməyib. Makronun Türkiyənin guya Azərbaycana Suriya muzdluları göndərməsi və atəşkəsi Azərbaycanın pozması barədə fakta istinad etməyən açıqlamaları onun erməni tərəfini seçdiyinə işarəydi.

Türkiyə Suriyada və Liviyada möhkəmlənib, Afrika qitəsində müxtəlif ölkələrlə sıx əlaqələr qurub. Bütün bunlar Fransanın hakimiyyət dairələrində narahatlıq doğurur. Türkiyə gəmisi Şərqi Aralıq dənizində qaz araşdırması aparanda Türkiyə əleyhinə olan Yunanıstana əsas dəstək Parisdən gəldi. Paris Türkiyə-Azərbaycan siyasi və hərbi ittifaqından da ciddi narahat idi.

Keçmiş illərdən fərqli olaraq Azərbaycan təmsilçilərinin erməni həmkarlarıyla Parisdə görüşməsi də mümkün deyildi. Bu vəziyyətdə rəsmi Bakı Avropadakı dostlarını hərəkətə gətirməliydi. Bakı Polşa, Çexiya, Rumıniya və Avropa İttifaqındakı digər dost ölkələrlə, o cümlədən yaxınlarda Azərbaycan qazını

qəbul edəcək dövlətlərlə təmaslarını gücləndirməliydi. Fransa prezidenti anlamalı idi ki, Azərbaycanın Avropada da dostları az deyil və həmin dövlətlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər.

Bu arada, Ermənistanın İsraildəki səfirini geri çağırması rəsmi Bakıya diplomatik sahədə manevr imkanlarını genişləndirməyə yeni imkanlar açır və bundan istifadə etmək lazımdır. İsrailin Azərbaycana satdığı müasir silahlar illərdir erməniləri narahat edir və bunun qarşısını ala bilmirlər.

ABŞ İsrailin bölgədəki əsas strateji müttəfiqidir. İsrailin Avropada da dostları az deyil. Rəsmi Bakı bundan istifadə edərək İsraillə dialoqu genişləndirməlidir. ABŞ və Avropadakı yəhudi diasporunun imkanlarından istifadə etmək lazımdır. Türkiyənin İsraillə hazırkı münasibətlərində soyuqluq olsa da, Ankara Bakıya ümumi qələbə naminə İsraillə dialoqu davam etdirməyə mane olmayacaq. Bəlkə də gələcəkdə Türkiyə ilə İsrail arasındakı münasibətlərin qaydasına düşməsində Bakı dialoq müstəvisi kimi seçilsin.

Ermənistan İsraildən səfirini geri çağırmaqla müharibənin gedişatında ərəb dünyası ilə İranın İrəvana dəstəyinin artacağına ümid edirdi. Ancaq ərəb dövlətləri Amerikanın istəyi ilə İsraillə diplomatik münasibətlər qurmağa başladılar. Ermənistanın İrana ümidi də yanlış idi. İran azərbaycanlıları Azərbaycan Respublikasına dəstək verirlər, Təbrizdə, Ərdəbildə və digər şəhərlərdə Azərbaycana dəstək aksiyaları oldu. Buna görə də İran, İrəvan İsraildəki səfirini geri çağırmasına görə, Ermənistana dəstək verməyəcəkdi.

## PAŞİNYAN TÜRKİYƏDƏN QORXURDU

Türkiyə soyuq müharibə illərində ABŞ-ın bölgədəki müttəfiqi idi. ABŞ Türkiyəni SSRİ-dən qoruyurdu. SSRİ 1991-ci ildə dağıldı, soyuq müharibə bitdi və Türkiyənin Amerikanın müdafiəsinə ehtiyacı qalmadı. Türkiyə bərabərhüquqlu əməkdaşlığa ümid edirdi. ABŞ isə bölgədə Türkiyənin maraqlarını nəzərə almadan fəaliyyətə başladı.

ABŞ Türkiyənin əsas düşməni terrorçu PKK təşkilatı ilə əlaqələr qurdu, Türkiyədə hərbi çevriliş etmək istəyən Fətullah Gülənə Pensilvaniya ştatında sığınacaq verdi. Amerikada artıq Türkiyəni strateji müttəfiq və ya strateji tərəfdaş hesab etmirlər. Bu cür siyasət Amerikanın özünə zərər verir. Çünki Türkiyə 2000-ci illərdən başlayaraq bölgədə güclənib. Türkiyənin hərbi sənaye-kompleksi inkişaf edib, hərbi texnikanı özü istehsal edir. Türkiyə eyni zamanda Suriyada, İraqda və Liviyada hərbi əməliyyatlarda iştirak edir. Türkiyə Avrasiya bölgəsinin əsas dövlətlərindən birinə çevrilib.

Türkiyənin Avrasiya bölgəsində gücü artarkən, Ankaranın son illərdə Azərbaycanla hərbi ittifaqı gücləndi. Bu faktoru Rusiya və Ermənistan nəzərə almadılar. Moskva və İrəvan güman edirdilər ki, Türkiyə Azərbaycan torpaqlarının işğalına seyrçi qalacaq. Ancaq Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğan son illərdə deyirdi ki, Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı danışıqlar nəticə vermir və Azərbaycan torpaqlarının işğalına son qoyulmalıdır.

Ermənistan ordusunun iyulun 12-də Azərbaycanla sərhəddə – Tovuz istiqamətində təxribatına Türkiyə sərt reaksiya verdi. Türkiyə rəsmiləri qəti şəkildə Azərbaycana dəstək verdilər. İyulun sonunda Azərbaycanla Türkiyə arasında hərbi təlimlər başladı. Türkiyənin siyasi dəstəyinə arxalanan rəsmi Bakı artıq qərarını verdi: Ermənistan yenə təxribat törətsə, Azərbaycan ordusu Dağlıq Qarabağ istiqamətində əks-hücuma başlayacaq. Belə də oldu.

Türkiyənin Cənubi Qafqazdakı rolu bundan sonra da artacaq. Ermənistanın baş naziri Nikol Paşinyan böyük dövlətlərə yalvarırdı ki, onlar Türkiyəni Cənubi Qafqazda dayandırsınlar. Bu mümkün deyil. Həmin böyük dövlətlər Türkiyəni İraqdan, Suriyadan və Liviyadan çıxarda bilmədilərsə, Cənubi Qafqazdan da çıxara bilməyəcəklər. Azərbaycan Türkiyənin strateji müttəfiqidir, Gürcüstan isə strateji tərəfdaşıdır. Cənubi Qafqazın bu iki dövləti Türkiyənin bölgədə olmasını istəyir.

# BAYDEN VƏ AZƏRBAYCAN UKRAYNANI HƏVƏSLƏNDİRİR

Ukrayna prezidenti Vladimir Zelenski Ukraynanın müharibə günlərində münaqişə tərəflərinə hərbi yardım göstərməyəcəyini bildirdi: "Son illər Ukrayna ilə Azərbaycan həm iqtisadi, həm də geosiyasi səviyyədə sıx münasibətlər qurub. Ona görə də Ukrayna bu dövlətə dəstək mövqeyində durub və duracaq. Hesab edirəm ki, bizim bir dövlət kimi aydın, düşünülmüş və düzgün mövqeyimiz var: biz Azərbaycanla Ermənistan arasında dialoqa və bu münaqişənin aradan qaldırılmasına çağırırıq".

Vladimir Zelenskinin sözlərinə görə, baş verən hadisələr və Dağlıq Qarabağda yeni gərginlik bir daha göstərir ki, istənilən dondurulmuş münaqişə hətta uzun illərdən sonra da yenidən qızışa bilər. Buna görə də, münaqişələri dondurmaq yox, başa çatdırmaq lazımdır. "Mən hesab edirəm ki, heç bir dondurulmuş münaqişə ola bilməz, çünki sonra bunun diversiya və ya təxribat olmasının fərqi olmayacaq, amma bu, planetimizin bu və ya digər yerində müharibə başla-

dıqdan sonra, hətta otuz il keçsə belə, hər halda, partlayış yaradacaq".

Cozef Baydenin ABŞ prezidenti seçilməsi Rusiyanın siyasi və ekspert dairələrində ehtiyatla qarşılandı. Bunun səbəbi odur ki, Kremldə Cozef Baydenin Ukraynanı, işğal altındakı torpaqlarını azad etmək məqsədilə, Rusiyaya qarşı müharibəyə sövq edə biləcəyindən qorxurlar. Ruslar niyə bu qənaətə gəliblər?

**Birincisi,** Cozef Bayden sələfi Donald Trampdan fərqli olaraq Rusiyanı Amerikanın əsas düşməni hesab edir.

**İkincisi,** Barak Obama prezident olduğu illərdə Ukrayna mövzusunu vitse-prezident Cozef Baydenə həvalə etmişdi. Bayden dəfələrlə Kiyevə səfər etmişdi. Bayden bu səfərləri zamanı Ukraynadakı separatçılıq və onun nəticələri barədə kifayət qədər məlumat əldə etmişdi.

Bu iki səbəbi əllərində rəhbər tutan Kreml Baydenin prezidentliyinin Rusiya üçün ciddi başağrısına çevriləcəyini proqnozlaşdırır. Bu istiqamətdə artıq ciddi siqnallar gəlməkdədir. Noyabr ayının son günlərində rus hərbçiləri Krımın şimal hissəsinin səmasında "Bayraktar" pilotsuz aparatlarının uçduğunu qeydə aldılar. Bəllidir ki, Ukrayna prezidenti Vladimir Zelenski Azərbaycan ordusunun işğalçı Ermənistan üzərindəki hərbi uğurunda "Bayraktar" aparatlarının rolunu yüksək qiymətləndirərək Türkiyədən 49 pilotsuz uçuş aparatı alıb. Ukrayna

Türkiyə ilə birgə bu aparatların birgə istehsalının hazırlıqlarına da başlayıb. Rusiyanın hakim və ekspert dairələri Ukraynanın "Bayraktar"ları əldə etdikdən bu yana Kiyevin müharibə hazırlıqlarına başladığını iddia etməyə başladılar. İndi isə rus hərbçilər həmin "Bayraktar"ları Krım səmasında görürlər.

Digər tərəfdən noyabrın 26-da Ukraynanın silahlı qüvvələri Mariupol şəhəri istiqamətində irəliləyərək, separatçıların bir neçə mövqeyini ələ keçirdilər. Ukrayna ordusu separatçı "Donetsk Xalq Respublikası"nın Mariupol istiqamətində Vodian və Ujovk yaşayış məntəqələrini azad etdi.

Kiyevdə anlayıblar ki, Moskva ilə danışıqlar nəticə verməyəcək. Kreml Donbası Ukraynanın tərkibində görmək istəmir. Ona görə də Ukraynanın siyasi və hərbi dairələrində hərbi təzyiq elementindən istifadəyə üstünlük verməyə başlayıblar. Əlbəttə, bu Ukraynanın genişmiqyaslı müharibəyə başlaması mənasına da gəlmir. Ukrayna üçün təhlükə çoxdur.

Bütün hallarda Ukraynada Azərbaycan nümunəsindən çox danışırlar. Ancaq Azərbaycan Ermənistana qarşı savaşırdı. Rusiya Ermənistan üzərindən Dağlıq Qarabağ separatçılarına hərbi texnika göndərsə də, bunun işğalçılara xeyri olmadı. Çünki, Azərbaycan ordusu hərbi texnikanın mütləq əksəriyyətini darmadağın etdi. Dağlıq Qarabağdan fərqli olaraq Rusiyanın birbaşa Donbasla sərhədi var və separatçılara hərbi texnikanı birbaşa çatdırır, ortaq planlaşdırılma

həyata keçirir. Ukrayna 2014-cü ildə olduğu kimi müharibəyə başlasa, yenə Rusiya ilə üz-üzə qalacaq.

Buna baxmayaraq, Baydenin Amerika prezidenti seçilməsi və Azərbaycanın işğal altındakı torpaqlarını geri qaytarması Ukraynanı xeyli həvəsləndirib. Mariupol Ukrayna üçün strateji şəhərdir, Azov dənizinə çıxışı var. 2014-cü ildə Donbas separatçıları Mariupolu ələ keçirməyə çalışırdılar. Bu baş versəydi, separatçıların dənizə çıxış imkanı yaranacaqdı. Mariupol fabrik və zavodları ilə də məşhurdur. Separatçılar şəhər sakinlərinin bir qisminin onlara rəğbətlə yanaşmasından da istifadə etməyə çalışırdılar. Ancaq olmadı. Ukraynada yeni formalaşan ordu birlikləri 2014-cü ildə Mariupola daxil olaraq separatçılara strateji şəhəri işğal etməyə imkan vermədilər. İndi isə Ukrayna ordusu separatçıları Mariupol ətrafından uzaqlaşdırmağa çalışır. Çünki Kiyevdə hesab edirlər ki, Moskvanın və separatçıların gələcək planında Mariupolun ələ keçirilməsi əsas vəzifələrdən biri sayılır. Krıma gəldikdə isə Kiyev "Bayraktar"lar vasitəsilə havada Rusiyaya üstünlüyünü göstərməyə çalışır. Eyni ilə Azərbaycan da Ermənistanla savaşda "Bayraktar"lar vasitəsilə hava üstünlüyünü tamamilə ələ keçirmiş və işğalçının Rusiyadan aldığı bütün texnikanı məhv etmişdi.

# “GÜCLÜ İSTEHKAMLAR” İŞƏ YARAMADI

Azərbaycan ordusu Ermənistan ordusunun müdafiə xəttini ilk gündən yardı. Halbuki, Ermənistan ordusu 27 il ərzində işğal altındakı ərazilərdə güclü istehkamlar qurmuşdu. Dağlıq Qarabağda ağır döyüşlər gedirdi, hər iki tərəfdən itkilər var idi. Ermənistanın vəziyyəti ağırlaşırdı, insan və hərbi texnika ehtiyatı azalırdı. Ermənistan ölən hərbçilərinin yerini doldura bilmirdi, hərbi texnikası da xeyli azalmışdı. Azərbaycan ordusu Ermənistanı şimal və Ağdam istiqamətində qüvvələr cəmləşdirməyə məcbur etmişdi. Bəlkə də işğalçı ölkə Azərbaycan ordusunun hücumunu Ağdam istiqamətindən gözləyirdi.

Azərbaydan ordusu şimal və cənub istiqamətlərindən hücumlar həyata keçirirdi. Azərbaycan ordusu Füzulu və Cəbrayıl rayonlarını işğaldan azad etdikdən sonra Hadrut qəsəbəsinə daxil oldu. Dağlıq Qarabağa aid Hadrut qəsəbəsinin işğaldan azad olunması ermənilər üçün daha böyük itki sayılırdı. Buna görə də Ermənistan ordusu yenidən Hadruta nəzarət

etmək üçün bir neçə dəfə əks-hücuma cəhd etdi, ancaq hər dəfəsində itki verərək geri çəkildi.

Bu arada, Rusiyanın Ermənistana hərbi dəstəyi davam edirdi. Prezidentin köməkçisi Hikmət Hacıyev həmin günlərdə açıqlama verərək, Rusiyadan humanitar yük adı altında Ermənistana silah və hərbi texnika daşındığını bildirdi. Dünyadakı erməni lobbisinin varlı nümayəndələri də silah alaraq Dağlıq Qarabağa göndərirdilər. Bundan başqa müxtəlif dövlətlərdə yaşayan ermənilər iyul ayında olduğu kimi küçə yürüşləri keçirirdilər.

Ard-arda məğlubiyyətlə üzləşən Nikol Paşinyan yeni "taktikaya" keçdi, müxtəlif dövlətlərə müracət edərək Dağlıq Qarabağın "müstəqilliyini" tanımağa çağırdı. Paşinyan bunun mümkün olmadığını anladıqda təklif etdi ki, müxtəlif ölkələrin təşkilatları və cəmiyyətləri Dağlıq Qarabağın "müstəqilliyi"ni tanısınlar. Nikol Paşinyan bunu deyərkən özü Dağlıq Qarabağın "müstəqilliyini" tanımaqdan qorxurdu. Çünki bu halda müharibənin genişlənəcəyini və Ermənistana keçə biləcəyini anlayırdı.

## ERMƏNİSTAN GƏNCƏ VƏ MİNGƏÇEVİRƏ NİYƏ RAKETLƏR ATIRDI?

Müharibənin davam etdiyi günlərdə Ermənistan Azərbaycanın mülki obyektlərini və mülki əhalisini hədəf alırdı. Ermənistanın bununla bir neçə məqsədi var idi.

***Birincisi,*** İrəvan istəyirdi ki, Azərbaycan ordusu da Ermənistan ərazisinə raket atsın və bununla Rusiyanın müdaxiləsini təmin etsin. Yəni Rusiya Ermənistanı müdafiə etsin və Azərbaycana hərbi müdaxilə etsin.

***İkincisi,*** İrəvan Azərbaycanda mülki insanları öldürməklə Azərbaycan əhalisini qorxutmaq istəyirdi. İrəvan istəyirdi ki, Azərbaycan əhalisi müharibənin nəticələrindən əziyyət çəksin. Ancaq Azərbaycan əhalisi qorxmur və müharibənin davam etməsini istəyirdi.

***Üçüncüsü,*** Ermənistan ordusu Dağlıq Qarabağda işğalda saxladığı mövqeləri itirirdi. Ermənistan hakimiyyəti Dağlıq Qarabağ istiqamətində məğlubiyyətlərini Azərbaycanın şəhərlərini bombalamaqla kompensasiya etməyə çalışırdı.

Azərbaycan bu vəziyyətdə nə edirdi?

***Birincisi,*** rəsmi Bakı Moskvaya bildirdi ki, nail olunan atəşkəsi daima Ermənistan pozur və bu halda Azərbaycan Ermənistan ərazisindəki hərbi məntəqələrə zərbələr vuracaq. Bu haqda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının digər üzvləri də məlumatlandırılırdı.

***İkincisi,*** Azərbaycan ordusunun Ermənistandan Azərbaycana raket atılan məntəqələrə zərbələr endirmək haqqı var idi. Çünki bu zərbələr edilməsəydi Ermənistan ordusu Gəncəyə, Mingəçevirə və Azərbaycanın digər şəhərlərinə raket zərbələrini endirməkdə davam edəcəkdi.

***Üçüncüsü,*** Türkiyə ilə hərbi ittifaqı gücləndirməyin zərurəti bir daha üzə çıxdı. Türkiyənin hərbi bazalarını Gəncədə və Azərbaycanın digər şəhərlərində yerləşdirmək zərurəti bir daha ortaya çıxdı. "Atlas" Araşdırmalar Mərkəzi keçmiş illərdə də hazırladığı analizlərdə Türkiyənin Azərbaycanda hərbi bazalarının olmasını bu cür əsaslandırırdı: *Dağlıq Qarabağda müharibə başlasa, Azərbaycan ərazisi Türkiyənin təhlükəsizlik təminatı altında olmalıdır. Bu halda Ermənistan Azərbaycana hücum etməkdən qorxacaq.*

Rusiyanın Ermənistanın təhlükəsizliyinə təminatçı olduğu nəzərə alınaraq Ermənistanın içindəki hərbi məntəqələrə zərbələr endirilmədi. Əks halda bu Ermənistana bəhanə verəcəkdi. Gələcəkdə eyni ilə Azərbaycanın da təhlükəsizliyinin təminatı üçün Türkiyənin məmləkətimizdə hərbi bazalar

yerləşdirməsi zəruridir. Misal üçün Naxçıvan Türkiyənin təhlükəsizlik təminatı altındadır və Ermənistan Türkiyədən qorxduğuna görə Naxçıvana hücum edə bilmir.




355


CAUTION
PROPELLER
AZAD












C 229 HM










PlayStation
RUZI MARKET
TOY VƏ MƏRASİM
MALLARININ
TOPDAN SATIŞI
















Axtardığınız
həll yollarını burada
tapacaqsınız. Çünki Siz
Yapı Kredi-dəsiniz!
Kaiz
RESTO


LUKƏLİDİR
MİNA








Əvvəl için
sonra seçin!
NZS








229



## ERMƏNİSTAN ATƏŞKƏSİ NİYƏ POZDU?

Rusiyanın vasitəçiliyi ilə oktyabrın 9-da Moskvada Rusiya, Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin görüşü oldu. Qapalı görüş 11 saat çəkdi. Bu, danışıqların ağır keçməsindən xəbər verirdi. Danışıqların yekunu olaraq xarici işlər nazirləri birgə bəyanat qəbul etdilər. Həmin bəyanat dörd bənddən ibarət idi:

*1. 2020-ci ilin 10 oktyabr tarixi, saat 12:00-dan etibarən humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun kriteriyalarına uyğun olaraq, hərbi əsirlər və digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi üçün atəşkəs elan olunur;*

*2. Atəşkəs rejiminin dəqiq parametrləri əlavə olaraq razılaşdırılacaq;*

*3. Azərbaycan Respublikası və Ermənistan Respublikası ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə tənzimlənmənin əsas prinsipləri əsasında münaqişənin tezliklə sülh yolu ilə həlli məqsədilə substantiv danışıqlara başlayır;*

*4. Tərəflər danışıqlar formatının dəyişilməzliyini təsdiq edirlər.*

Birinci bənd istisna olmaqla digər üç bəndin yerinə yetirilməsi mümkün deyildi və Azərbaycanın maraqlarına zidd idi. Birinci bəndin özündə də əsirlərin dəyişdirilməsiylə bağlı fikir qüsurluydu. Biz hərbçilərimizə atəş açan erməni hərbçilərini həmin dövrdə azad etsəydik, onlar geri qayıdıb yenidən bizə atəş açacaqdılar. Əsirlərin dəyişdirilməsi ümumi məsələ həll olunduqdan, yəni müharibə bitdikdən sonra mümkün idi. Bu bütün müharibələrdə belədir. Müharibələr bitməmiş əsirlər dəyişdirilməz.

Bəyanatda Azərbaycanın işğal altındakı yeddi rayonunun azad olunmasının vacibliyi göstərilməmişdi. Bəyanatda bu yoxuydusa, bəyanatın digər üç bəndi Azərbaycan üçün uyğun deyildi. Prezident İlham Əliyevin dediyi kimi, Ermənistan qoşunları Azərbaycan ərazilərini tərk etməyənə qədər danışıqlar mümkün deyil. Prezident bir neçə dəfə açıq dedi ki, Ermənistan hakimiyyəti Azərbaycana qoşunların çıxarılması qrafikini təqdim etməlidir. İrəvan oktyabr ayı boyunca belə bir qrafik hazırlamadı. Digər tərəfdən biz danışıqlarda regional dövlət kimi mütləq Türkiyənin iştirakını istəyiriksə, bəyanatda "danışıqlar formatının dəyişilməzliyini" bəndini qəbul edə bilməzdik.

Bu bir bəyanat idi, hüquqi qüvvəsi yoxuydu, kimsə bizi bu bəndləri yerinə yetirməyə məcbur edə bilməzdi. Digər tərəfdən Ermənistan bəyanatın saba-

hısı atəşkəsi pozdu. Ona görə bu bəyanatın əhəmiyyəti itdi.

Moskva görüşündə Ermənistanın xarici işlər naziri "Rusiya sülhməramlıları Dağlıq Qarabağda yerləşdirilsin" təklifini səsləndirdi. O, bu təklifi səsləndirəndə əvvəlcədən bilirdi ki, rəsmi Bakı həmin dövr üçün bunu qəbul etməyəcək. Rusiya qoşunları həmin günlərdə Dağlıq Qarabağa daxil olsaydı, Azərbaycan ərazilərinin əksər hissəsini işğaldan azad edə bilməyəcəkdi. Buna görə də həmin günlərdə rusiyalı sülhməramlıların Azərbaycan ərazisinə daxil olmasına icazə vermək olmazdı. Sadəcə, Ermənistanın xarici işlər naziri bu təklifi səsləndirməklə bir daha Kremlin diqqətinə "biz sizi istəyirik" fikrini çatdırırdı.

Bəlli oldu ki, Kreml oktyabrın əvvəllərindən Rusiya sülhməramlılarının Dağlıq Qarabağda yerləşdirilməsinə çalışır. Bundan əlavə, Kreml Dağlıq Qarabağda Ermənistanın Azərbaycana məğlub olmasını istəmir, elə ona görə də "hümanitar yüklər" adıyla İrəvana hərbi texnika daşıyırdı. Bu səbəbdən gələn dəfə yenə Kremldən "gəlin görüşək" təklifi gəldikdə rəsmi Bakı müxtəlif səbəbləri əsas gətirərək Rusiyanın vasitəçiliyindən imtina etməliydi. Bundan sonra Moskvanın birtərəfli vasitəçiliyini qəbul etməməliydik. Rusiyaya prezident İlham Əliyevin şərtini xatırlatmalıydıq: "Danışıqlar olacaqsa, görüşdə Türkiyə də olmalıdır".

# İRAN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏDİ

Dağlıq Qarabağda müharibə başladıqda İranın mövqeyi diqqət mərkəzində idi. İran həm Azərbaycan, həm də Ermənistanla qonşu dövlətdir. Müxtəlif internet saytlarında Rusiyanın Ermənistana hərbi texnikanı İran üzərindən göndərdiyinə dair xəbərlər və görüntülər yayıldı. Ancaq Tehran bu xəbərləri və görüntülərin doğru olmadığını bəyan etdi.

İranın Azərbaycan əyalətlərində – Təbriz və Ərdəbildə Azərbaycana dəstək mitinqləri keçirildi. Mitinqlərdə bu şüarlar səsləndi: "Azərbaycan uğrunda ölərik!", "Qarabağ bizimdir!", "Ermənistana dəstək cinayətdir!" Mitinqlərdə Dağlıq Qarabağ separatçılarının bayraqları yandırıldı. İran azərbaycanlıları İranın Ermənistanla sərhəd məntəqəsinin bağlanmasını tələb etdilər. Təbriz bazarındakı bəzi dükanlar Azərbaycana dəstək məqsədilə bir neçə gün bağlı qaldı. Həmin dükanların qapılarında bu sözlər yazıldı: "Dükanlar Azərbaycana dəstək məqsədilə üç gün bağlı qalacaq, Qarabağ bizimdir!" Bundan başqa İra-

nın azərbaycanlı şairləri, rəssamları və yazıçıları birgə bəyanat qəbul etdilər. Həmin bəyanatda Azərbaycana dəstək ifadə edildi.

Rəsmi Tehran da bir neçə səviyyədə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirdi. İran Xarici İşlər Nazirliyinin bəyanatında Dağlıq Qarabağın Azərbaycana aid olduğu vurğulandı. Eyni sözləri İranın dini liderinin xarici siyasət məsələləri üzrə müşaviri Əli Əkbər Vilayəti də dedi.

Bəyanatlarda İranın Azərbaycanla Ermənistan arasında vasitəçi ola biləcəyi qeyd edildi. Rəsmi Bakı İrandan səslənən bəyanatları müsbət qiymətləndirsə də, Tehranın vasitəçiliyini qəbul etməyəcəkdi. Ermənistan da İranın vasitəçi olmasını istəmirdi. Rəsmi Bakı İranın vasitəçiliyinin işğala soy qoymayacağından, Ermənistan isə İranda yaşayan azərbaycanlılardan ehtiyatlanırdı.

Buna baxmayaraq, Dağlıq Qarabağda davam edən müharibənin İrana da təsiri vardı. Bəzi raketlər İran ərazisinə düşürdü. Çünki müharibə İran sərhədinə yaxın ərazidə gedirdi. Tehran həm Azərbaycanı, həm də Ermənistanı xəbərdar etmişdi. Azərbaycan ordusu həmin günlərdə sürətlə irəriləyərək İranla sərhədi nəzarət altına almağa çalışırdı.

## RUSİYA AZƏRBAYCANI DAYANDIRA BİLƏRDİMİ?

Azərbaycan ordusu işğal altındakı rayonları ard-arda azad edərkən Ermənistanın məğlub olacağı şübhə doğurmurdu.

Buna baxmayaraq, Ermənistan hakimiyyəti təxribatlarını davam etdirir, Gəncə, Mingəçevir, Bərdə və Tərtəri raket atəşinə tuturdu. Azərbaycanın raketlərdən müdafiə sistemi Ermənistandan atılan raketlərin çoxunu havada neytrallaşdırırdı. Məsələn, Mingəçevirə atılan raketlərin əksəriyyəti neytrallaşdırıldı. Mingəçevirdə böyük su elektrik mərkəzi var. Raketlərdən biri həmin stansiyaya düşsəydi, bölgədə ciddi ekoloji fəlakət baş verəcəkdi. Bundan sonra müharibənin daha geniş miqyas alacağı şübhə doğurmurdu, bu halda bizi Rusiya da dayandıra bilməzdi.

Ermənistan Dağlıq Qarabağda uğur qazana bilmirdi. Ona görə də şəhərlərimizə raket atır, Azərbaycanın mülki əhalisi arasında qorxu yaratmaq istəyirdi. Bu alınmırdı. Azərbaycan ordusu Gəncəyə raket atan hərbi məntəqələrə zərbələr endirdi. Nəticədə

Ermənistanın C-300 raketləri dağıdıldı. Rusiya prosesə müdaxilə etmədi. Çünki birinci raketin haradan atıldığı Moskvaya bəlliydi.

Azərbaycanda yenə eyni sual müzakirə olunurdu: Rusiya Azərbaycanı dayandıra bilərmi?

Rusiyanın bir qrup siyasətçisi və siyasi eksperti televiziya proqramlarında və qəzetlərə müsahibələrində açıq-açığına Azərbaycan ordusunu dayandırmaq lazım olduğunu deyirdilər. Ancaq həmin günlərdə bunun necə həyata keçiriləcəyini bilmirdilər. Hətta televiziya proqramlarından birində bunu təklif edən iştirakçılardan birinə digəri belə bir sual verdi: "Dost və tərəfdaş adlandırdığımız Azərbaycanla müharibə etməliyikmi?" Rusiya Dağlıq Qarabağa hərbi müşahidəçilər göndərmək istəyirdi. Rəsmi Bakı buna razılıq vermədi. İlham Əliyev dedi ki, Azərbaycan istəmirsə, heç bir dövlət Dağlıq Qarabağa "sülhməramlılar" göndərə bilməz.

Rusiyanı Türkiyənin Azərbaycana dəstəyi də çəkindirirdi. Türkiyə Azərbaycana dəstək verməsəydi, Kreml Bakıya təzyiq edib Azərbaycan ordusunun hücumlarını müharibənin ilk günlərindən dayandıra bilərdi. Bunu prezident İlham Əliyev də etiraf etmişdi. Ona görə də Rusiyanın Azərbaycana hərbi müdaxilə edəcəyi ehtimalı az idi.

Buna baxmayaraq, Kreml Ermənistan ordusunun Azərbaycan ordusuna məğlub olmasını istəmirdi. Azərbaycan Dağlıq Qarabağ üzərində tamamən nəzarət əldə etsəydi, Rusiyanın öz strateji müttəfiqi

Ermənistanı qorumadığı görüntüsü yaranacaq və bu daxildə və xaricdə Kremlin nüfuzuna zərbə kimi qiymətləndiriləcəkdi. Kreml həm də, Dağlıq Qarabağ problemi Azərbaycanın xeyrinə həll olunsa, keçmiş SSRİ məkanındakı digər separatçılara da təzyiq başlaya biləcəyindən qorxurdu. Rusiya isə həmin separatçılara dəstək verir.

## RUSİYA AZƏRBAYCANA TƏZYİQİ ARTIRDI

Prezidentin köməkçisi Hikmət Hacıyev mətbuat konfransında Azərbaycan hakimiyyətinə təzyiq olduğunu dedi. Təzyiqi açıq-aşkar Rusiya edirdi. Kreml müharibənin ilk günlərində prosesə müdaxilə etmədi, hətta prezident Vladimir Putin jurnalistin sualına cavab olaraq "müharibə Ermənistanda getmir" deməklə sanki məsələyə aydınlıq gətirdi. Ancaq müharibənin başlandığı ilk günlərdə "Atlas" Araşdırmalar Mərkəzi sonrakı mərhələdə Rusiyanın Azərbaycana yönələn təzyiqlərin artacağını ehtimal etmişdi.

***Birincisi,*** Rusiyanın xarici işlər naziri Sergey Lavrov oktyabrın sonunda verdiyi müsahibədə Dağlıq Qarabağda rusiyalı sülhməramlıların yerləşdirilməsinin vacibliyini qeyd etdi. Bunu işğalçı Ermənistan da istəyirdi. Ancaq həmin dövrdə bu Azərbaycanın maraqlarına cavab vermirdi. Sülhməramlılar mövzusunu gündəmə gətirənlər münaqişəni dondurmaq, işğalın ömrünü uzatmaq istəyirdilər. Digər tərəfdən rusiyalı hərbçilər Dağlıq Qarabağda yerləşdirilsələr, bir daha

Azərbaycanı tərk etməyəcəklər. Bu isə bizə gələcəkdə çətinliklər yaradacaqdı. Gürcüstan 2008-ci ildə Cənubi Osetiyaya nəzarət etmək istəyərkən qarşısını məhz həmin rusiyalı sülhməramlılar kəsmişdilər, nəticədə Moskva Gürcüstana qarşı müharibəni genişləndirdi, Cənubi Osetiyanın "müstəqilliyini" tanıdı və bu bölgədə hərbi bazaları yaratdı. Gürcüstan Cənubi Osetiyanı, o cümlədən Abxaziyanı itirdi. Münaqişənin danışıqlar mərhələsində nə zamansa sülhməramlılar mövzusu müzakirə olunarsa, neytral dövlətlərin, məsələn Skandinaviya, Baltikyanı və ya Şərqi Avropa ölkələri hərbçilərinin bölgəyə gəlişindən danışmaq olardı. ATƏT-in 1994-cü ildəki Budapeşt sammitinin qərarına uyğun olaraq sülhməramlıların tərkibi neytral dövlətlərdən formalaşmalıdır.

***İkincisi,*** Lavrovun "bölgədə rusiyalı sülhməramlıların yerləşdirilməsi vacibdir" açıqlamasının yayıldığı saatlarda Rusiyanın müdafiə naziri Sergey Şoyqu Azərbaycan və Ermənistanın müdafiə nazirləri Zakir Həsənov və David Tonoyanla telefon danışığı apardı. Sergey Şoyqu telefon danışığı zamanı oktyabrın 10-da Moskvada əldə olunmuş humanitar atəşkəslə bağlı müvafiq öhdəliklərin tam icra olunmasına dair azərbaycanlı və erməni həmkarlarına çağırış etdi. Bunun çağırış və ya tələb olduğunu söyləmək çətin idi. 2016-cı ilin aprelində də məhz Şoyqunun Bakıya zəngindən sonra ordumuzun hücumu dayandırıldı, halbuki daha çox ərazini işğaldan azad edə bilərdik.

Beləliklə, Kreml Lavrov və Şoyqu vasitəsilə oktyabr ayının ortalarından başlayaraq Azərbaycana təzyiqi artırdı. Moskvanın məqsədi Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatlarını dayandırmaq və Ermənistanı ağır məğlubiyyətdən xilas etmək idi. Ermənistan və Rusiya sülhməramlıları bölgədə yerləşdirmək istəyirdi, ancaq həmin dövr üçün istəmirdiksə bu müddəanı zorla bizə qəbul etdirə bilməzdilər.

## MİNSK QRUPU LAZIMDIRMI?

ATƏT-in Minsk Qrupunun üzvləri arasında Belarus, İsveç, Hollandiya və Portuqaliya da var. Belarusu, İsveçi, Hollandiyanı və Portuqaliyanı Dağlıq Qarabağ münaqişəsi maraqlandırmır. Bu dövlətlərin Qrupda olmasının Azərbaycana heç bir faydası yoxdur. İlham Əliyev də müsahibələrində bildirirdi ki, Minsk Qrupu üzvlərinin çoxunu Dağlıq Qarabağ münaqişəsinin həlli maraqlandırmır. Ona görə də rəsmi Bakı Rusiya ilə bərabər Türkiyənin də vasitəçi olmasını istəyir.

Həmsədrlər birgə bəyanat verdilər. Bəyanatda atəşkəsin vacibliyi bildirildi. Bu bəyanat Azərbaycanda mənfi qarşılandı. Çünki atəşkəs Ermənistanın işğalına kömək edəcəkdi. Halbuki, həmsədrlər Ermənistanı öz ordusunu Dağlıq Qarabağdan çıxarmağa məcbur etməliydilər. Eyni gün Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu açıqlama verdi. Mövlud Çavuşoğlu Ermənistana Azərbaycan torpaqlarını tərk etməklə də bağlı çağırış edilməsi vacibliyini bildirdi. Həmsədrlər belə bir çağırış etmədilər. Çavuşoğlunun ikinci çağırışı da vacib idi: "Minsk Qrupu olaraq

tezliklə geniş formatda görüşməli və nə edəcəyimizə qərar verməliyik". Ankara haqlı olaraq həmsədrlərdən hesabat istəyir və sualı bu şəkildə qoyurdu: Bu vaxta qədər nə etmisiz, işğala niyə son qoya bilməmisiz?

Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin qəbul etdikləri bəyanatın 4-cü maddəsində danışıqların formatının dəyişdirilməməli olduğu yazılırdı. Bu maddənin Azərbaycana faydası yoxuydu. Xarici işlər naziri Ceyhun Bayramov 4-cü bəndin zərurətini belə izah edirdi ki, Ermənistanın baş naziri Nikol Paşinyanın istəyi nəzərə alınmadı, Dağlıq Qarabağ separatçıları danışıqlarda iştirak edə bilməyəcəklər. Ancaq bu bəndin başqa tərəfi də vardı, danışıqlar formatının dəyişməməsi Türkiyənin vasitəçilərdən biri olmasının qarşısını kəsirdi. Onsuz da separatçılarla birbaşa danışıqların mümkün olmadığı çoxdan bəlliydi, Türkiyənin danışıqlarda iştirak etməməsi Azərbaycan üçün ziyanlı idi. Təsadüfi deyil ki, Sergey Lavrov erməni həmkarıyla Moskvadakı görüşündə İrəvanın narahatlığına səbəb olmadığını, 4-cü bəndə görə Türkiyənin danışıqlarda iştirak etməyəcəyinə işarə etmişdi. Biz bu durumu o dövrdə dəyişə bilmədik.

Vladimir Putinin "müharibə Ermənistanda getmir ki, biz müdaxilə edək" açıqlamasına baxmayaraq, Kreml Ermənistana silah və hərbi texnika göndərməkdə davam edirdi. Döyüşlərdən bir neçə gün əvvəl prezident İlham Əliyev rusiyalı həmkarıyla telefon danışığında Rusiyanın hərbi təyyarələrlə

Ermənistana yük daşımasından narahat olduğunu bildirməsi aktuallığını qoruyurdu. Bu proses müharibənin hər günü davam edirdi, hətta hərbi yükləri Moskvaya görüşə gələn Ermənistan xarici işlər nazirinin təyyarəsinə də doldurmuşdular.

İlham Əliyevin "Putin Nikol Paşinyanı xilas etdi" cümləsi rəsmi Bakının Kremlin siyasətindən narazı olmasından xəbər verirdi. Rusiya Ermənistanı itirmək istəmirdi. Belə olan halda Rusiyanın neytrallığından danışmaq mümkün deyildi. Rusiyalı rəsmilər Azərbaycanı tərəfdaş ölkə adlandırır, ancaq eyni zamanda Ermənistana hərbi texnika göndərirdilər.

Bu arada, Ermənistanın xarici işlər naziri üç günlük Moskvaya səfər etdi. Üç ölkənin nazirləri bir neçə gün əvvəl Moskvada görüşmüşdülər. Ermənistan hakimiyyətini ağır vəziyyətdə nə məcbur edirdi ki, naziri bir neçə gün sonra yenidən Moskvaya göndərdilər? Böyük ehtimalla erməni nazir Moskvaya İrəvanın gələcək addımlarını razılaşdırmaq üçün getmirdi. Erməni nazir gərəkli təlimlər aldıqdan sonra İrəvana dönüb Nikol Paşinyanı məlumatlandıracaqdı. Paşinyan hakimiyyətə gələndə daha çox Qərb ölkələri ilə əlaqələrə üstünlük verirdisə, müharibə günlərində tamamən Rusiyadan asılı vəziyyətə düşdü. Çünki Paşinyan Qərbdən istədiyi dəstəyi ala bilmədi, Ermənistana silahları və hərbi texnikanı da göndərən Amerika və ya Fransa deyil, Rusiya idi.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu türkiyəli həmkarı Hulusi Akara zəng edərək Suriya və Liviya-

dakı durumla yanaşı Dağlıq Qarabağdakı döyüşləri də müzakirə etdi. Bundan əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov türkiyəli həmkarı Mövlud Çavuşoğluna zəng etmişdi. Rusiya prezidenti Vladimir Putin də eyni mövzunu müzakirə etmək məqsədilə Türkiyə Cumhurbaşqanı Rəcəb Təyyub Ərdoğana zəng etdi.

Bütün bunlar Kremldə Türkiyənin rəyi nəzərə alınmadan məsələni həll etməyin çətinliyini başa düşdüklərindən xəbər verirdi. Türkiyə isə Azərbaycanın tələbini qətiyyətlə təkrarlayırdı: Ermənistanın hərbi işğalına son qoyulmalı və bu dövlət işğal etdiyi torpaqlardan çıxmalıdır! Rusiyanın "Rossiya" televiziya kanalının ermənipərəst aparıcısı Solovyov verilişində Azərbaycanı Rusiyanın müdafiə naziri ilə hədələyərək bunu demişdi: "Bakı Lavrovla razılığa gəlməsə, Şoyqu ilə razılığa gəlmək məcburiyyətində qalacaq". Halbuki, həmin Şoyqu telefonda Hulusi Akarın bu sözlərini dinləmək məcburiyyətindəydi: "Azərbaycan münaqişənin həlli üçün daha 30 il gözləməyəcək. Türkiyə öz torpaqlarını geri almaq üçün Azərbaycanın başladığı əks-hücum əməliyyatlarında Azərbaycanın yanında olacaq".

## AMERİKA VƏ BÖYÜK BRİTANİYA MANE OLMURDU

Amerikanın dövlət katibi Mayk Pompeo Azərbaycanla Ermənistan arasındakı savaşın dayandırılmasının vacibliyini bildirdi. Buna baxmayaraq, Vaşinqton Bakıya təzyiq etmirdi.

Böyük Britaniya da rəsmi Bakıya təzyiq etmirdi. Əksinə, London Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirdi. Bununla bağlı olaraq Böyük Britaniya parlamentinin qətnaməsi də var idi. Fransadan fərqli olaraq Böyük Britaniyanın Türkiyə ilə münasibətləri yaxşıdır. London bu amili də nəzərə alaraq Dağlıq Qarabağ münaqişəsi barədə rəy bildirmirdi. Böyük Britaniyanın baş naziri Boris Conson sentyabrın 28-də, yəni müharibə başladıqdan bir gün sonra Türkiyənin prezidenti Rəcəb Təyyub Ərdoğanla telefonla danışdı. Böyük Britaniyanın Azərbaycanla enerji sahəsində əməkdaşlığı var. Bundan başqa Böyük Britaniya Azərbaycan neftinin və qazının Avropa bazarlarına çatdırılmasına dəstək verir. Əlbəttə, Böyük Britaniyada Ermənistanın işğalçı siyasətinə dəstək verənlər də

var. Məsələn, lordlar palatasının üzvü Kerolayn Koks illərdir Dağlıq Qarabağ separatçılarına dəstək verir, bir neçə dəfə Dağlıq Qarabağda olub. Buna baxmayaraq, London Azərbaycana mane olmadı.

BMT-nin Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qeyri-obyektiv, qərəzli mövqeni əks etdirən bəyanat qəbul etməyə çalışdı. Bəyanatda hərbi əməliyyatların dərhal dayandırılması, baş verən proseslərə üçüncü ölkələrin hər hansı formada müdaxiləsinin yolverilməzliyi və "münaqişə zonasında terrorçuların mövcudluğu"ndan bəhs olunurdu. Bəyanat sanki Ermənistanı dəstəkləməyə yönəlmişdi. Lakin BMT TŞ-nin daimi üzvü olan bir ölkənin vetosu bəyanatın qəbulunü mümkünsüz etdi. Həmin ölkə Böyük Britaniya idi. Britaniyanın BMT TŞ-dəki daimi nümayəndəsi Barbara Vudvord belə sənədin qeyri-obyektiv olduğunu, Azərbaycanın öz ərazisində sülhə məcburetmə əməliyyatları apardığını və ərazi bütövlüyünü bərpa etməyə çalışdığını bəyan etdi.

Bu arada, İlham Əliyev müsahibələrinin birində Fransa rəsmilərinin artıq əvvəlki kimi Ermənistanı müdafiə etmədiklərini qeyd etdi.

Azərbaycan Cənubi Qafqazın əsas dövlətidir. Azərbaycanla münasibətlərin gərginləşməsi Fransanın maraqlarına cavab verməməlidir. Fransa Minsk Qrupunun həmsədridir. Fransa prezidenti Emmanuel Makron Ermənistanı müdafiə edəndə Azərbaycanda Fransanın həmsədrlikdən uzaqlaşdırılması tələbləri artdı. Ancaq oktyabrın sonlarına doğru Fransa prezi-

denti Azərbaycan əleyhinə açıqlama vermədi. Fransa prezidenti iki dəfə Azərbaycan prezidentinə zəng etdi. Beləliklə, iki ölkə arasındakı gərginliyin bir müddətə azaldığını söyləmək olardı.

2018-ci ildə Fransanın Cənubi Qafqazın üç ölkəsi ilə ümumi ticarət dövriyyəsinin 62,4 faizi məhz Azərbaycanın payına düşüb və 624,7 milyon dollar təşkil edib. 2019-cu ilin ilk beş ayında iki ölkə arasında ticarət dövriyyəsi bir il əvvəlin eyni dövrü ilə müqayisədə 53 faizdən çox artıb. Azərbaycan tərəfindən Fransaya 2,6 milyard dollar, Fransa tərəfindən isə Azərbaycan iqtisadiyyatına 2,2 milyard dollardan çox investisiya yatırılıb.

Buna baxmayaraq, müharibədən sonra Fransa parlamentinin hər iki palatasının Dağlıq Qarabağın "müstəqilliyini" tanıması haqda qətnaməsi Azərbaycanda böyük narazılıqla qarşılandı. Doğrudur, Fransa Xarici İşlər Nazirliyinin rəsmisi qətnamənin Fransanın zərərinə olduğunu vurğuladı. Ancaq 306 senatordan 305 senatorun sənədə səs verməsi Fransanın hakimiyyət dairələrində erməni separatizminə böyük rəğbətdən xəbər verirdi. İlham Əliyevin və Rəcəb Təyyub Ərdoğanın Fransanın ermənipərəst mövqeyinə cavabı yerində idi: "Fransa erməniləri bu qədər sevirsə, ermənilərin sıx yaşadığı Marsel şəhərini onlara versin". Həqiqətən Marseldə yaşayan ermənilərin sayı Dağlıq Qarabağda yaşayan ermənilərin sayından çoxdur.

## UKRAYNA TÜRKİYƏ İLƏ STRATEJİ MÜTTƏFİQ OLMAQ İSTƏYİR

Müharibə günlərində Ukrayna prezidenti Vladimir Zelenski qısa müddət ərzində Türkiyəyə ikinci rəsmi səfərini reallaşdırdı. Bu, Ukrayna prezidentinin Türkiyə ilə əməkdaşlığa verdiyi əhəmiyyətdən irəli gəlirdi. Hələ səfərdən əvvəl Ukraynalı rəsmilər Türkiyə ilə tərəfdaşlığı gücləndirməyi arzu etdiklərini bildirirdilər. Ukraynanın xarici işlər naziri Dmitri Kuleba iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıqdan da yüksək səviyyəyə qaldırılmasını və yeni layihələrin reallaşdırılmasını vacib hesab edib. Strateji tərəfdaşlıqdan yüksək mərtəbə strateji müttəfiqlik sayılır. Demək Kiyev Türkiyə ilə strateji müttəfiq olmağı arzulayır.

Vladimir Zelenski açıq bildirdi ki, onun ən böyük arzusu Ukrayna ilə Türkiyə arasındakı ticarət əlaqələrini Rusiya-Türkiyə ticarət əlaqələrinin səviyyəsinə çatdırmaqdır. Rusiya-Türkiyə ticarət əlaqələrinin həcminin on milyardlarla dollar olduğu məlumdur. Zelenski Türkiyənin Ukraynaya ən azı 10

milyard dollar yatırım qoyacağına ümid edir. Ukrayna prezidenti Türkiyənin tikinti şirkətlərini ölkəsinin infrastruktur çalışmalarına cəlb etməyə çalışır. Vladimir Zelenski Türkiyə şirkətlərinin özünün böyük ümid bəslədiyi "Böyük tikinti" layihəsində iştirakında maraqlıdır.

Türkiyə Cumhurbaşqanı Rəcəb Təyyub Ərdoğan Vladimir Zelenski ilə görüşdə Krım məsələsində Ukraynaya hərtərəfli dəstək verəcəyini bir daha açıqladı. Kiyevlə Ankara Krımda insan hüquqlarının pozulmasına qarşı birgə mübarizə aparacaqlarını bəyan etdilər. Məlum olduğu kimi, Krımda Rusiyanın işğal siyasətini tənqid etdiklərinə görə həbs edilənlər var və onlar arasında Krım türkləri də az deyil. Bu hal Ankaranı ciddi narahat edir. Bundan başqa Ankara Ukraynanın NATO üzvlüyü yolunda dəstəyini artıracağını vəd etdi. Rəcəb Təyyub Ərdoğan Ukraynanın İslam Əməkdaşlıq Təşkilatına və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına müşahidəçi statusunda qoşulmaq istəyini də alqışladı.

İki ölkənin liderləri bir məsələdə də razılığa gəldilər: Ukraynanın və Türkiyənin xarici işlər və müdafiə nazirləri "2 + 2" formatında ildə ən azı bir dəfə görüşərək xarici siyasət və təhlükəsizlik mövzularında fikir mübadiləsi aparacaqlar. Ümumiyyətlə Ukrayna Türkiyə ilə hərbi əməkdaşlığın genişləndirilməsinə çalışır. Türkiyənin pilotsuz uçuş aparatlarının Dağlıq Qarabağda erməni işğalçılarına qarşı dəqiq zərbələri Ukraynanın diqqətini çəkdi. Ukrayna həm

Türkiyədən pilotsuz uçuş aparatlarının alınmasında, həm də birgə istehsalında maraqlıydı. Bəlkə də Ukrayna silahlı qüvvələrinin 2014 və 2015-ci illərdə pilotsuz uçuş aparatları olsaydı, Azərbaycan ordusu kimi separatçılar üzərində üstünlük qazanardı.

Ukraynanın Türkiyə ilə yaxınlaşmaq istəyi Rusiyada diqqətlə izlənilir. Rusiyanın siyasi dairələri Rəcəb Təyyub Ərdoğanın Krım məsələsində Kiyevə dəstəyini artırmasından narahatdır. Ancaq Kremlin Türkiyə-Ukrayna münasibətlərinə təsir etmək imkanı yoxdur. Digər tərəfdən Avropa ölkələri Ukraynaya vəd etdiklərini vermədilər, köhnə qitədən Ukraynaya yatırımlar azdır. Kiyev Avropa Birliyi ölkələrinin yerinə yetirmədiyi vədləri Türkiyənin reallaşdırmasını istəyir. Ukrayna böyük bazardır, Türkiyə şirkətləri bu bazarda möhkəmlənə bilərlər.

## BMT ÖZ QƏTNAMƏLƏRİNİ NƏZƏRƏ ALMIR

Ermənistan 1990-cı illərin əvvəllərində Azərbaycan torpaqlarını işğal etdi. BMT Təhlükəsizlik Şurası bununla əlaqədar olaraq dörd qətnamə (822, 853, 874 və 884) qəbul etdi. Bu qətnamələrə görə, erməni silahlı birlikləri işğal etdikləri ərazilərdən çıxmalı idilər. Ancaq erməni silahlı birlikləri əraziləri tərk etmədilər, BMT isə qətnamələrinin icrasını təmin etmədi. Halbuki, Təhlükəsizlik Şurasının daimi üzvləri həmin qətnamələrə səs vermişdilər.

25 illik fasilədən sonra BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 29 sentyabr və 19 oktyabrda müzakirələr keçirildi. BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar sonuncu müzakirələr 1995-ci ildə keçirilmişdi.

BMT Təhlükəsizlik Şurasının qətnamələrində Ermənistanın Azərbaycana qarşı gücdən istifadə etməsi pislənilir, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu qeyd edilir və Ermənistan qoşunları-

nın Azərbaycanın bütün işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və tam çıxarılması tələb olunur.

Buna baxmayaraq, 19 oktyabrda BMT Təhlükəsizlik Şurasında həmin qətnamələrə istinad edilmədi. Təhlükəsizlik Şurası bəyanat layihəsi hazırladı. Layihəni Rusiya və Fransa hazırlamışdı. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri olan və Qoşulmama Hərəkatının üzvü olan İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent Vinsent və Qrenadin və Dominikan Respublikası bəyanata BMT Təhlükəsizlik Şurasının qətnamələrinə istinadın daxil edilməsinə israr etdilər. Qoşulmama Hərəkatı üzv dövlətlərinin israrlı və prinsipial mövqeyindən sonra haqqında bəhs olunan bəyanat layihəsi rəsmən geri götürüldü.

Bununla bir daha sübut olundu ki, böyük dövlətlər Dağlıq Qarabağ probleminin BMT qətnamələri əsasında həllini istəmirlər. Bu isə Azərbaycanın maraqlarına ziddir. Ona görə də Azərbaycan özü təkbaşına 44 gün ərzində BMT qətnamələrinin icrasını reallaşdırdı.

## AZƏRBAYCAN İRANLA SƏRHƏDİ NƏZARƏTƏ GÖTÜRDÜ

Azərbaycan ordusu işğal altındakı Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını oktyabr ayında tamamilə azad etdi. Bunun Azərbaycan üçün strateji əhəmiyyəti var idi. Çünki, Azərbaycan 27 ildən sonra İranla sərhədi tam nəzarətə götürdü.

***Birincisi,*** erməni separatçıları 27 il ərzində İranla sərhəddən istifadə edirdilər. Separatçılar gizli yollarla İrandan tikinti materialları daşıyırdılar. Bundan başqa sərhəddən gizli yollarla narkotik maddələrin keçirilməsinə dair məlumatlar var idi. Azərbaycan ordusu sərhədi nəzarətə götürməklə, separatçıların qanunsuz fəaliyyətlərini dayandırdı.

***İkincisi,*** İran Araz çayı üzərində su elektrik stansiyası tikmişdi. Azərbaycan hökuməti buna razılıq vermişdi. Ancaq həmin stansiya erməni separatçılarının nəzarət etdiyi hissəyə düşdüyündən Azərbaycan hökuməti həmin stansiyadan istifadə edə bilmirdi. Azərbaycan ordusu sərhədi tam nəzarətə götürdükdən sonra bu məsələ də həll olundu. Azər-

baycan Araz çayı üzərindəki su elektrik stansiyasından həm azad olunan bölgələrə elektrik verəcək, həm də həmin elektrikdən kənd təsərrüfatının inkişafı üçün istifadə edəcək.

***Üçüncüsü,*** sərhədin 27 il ərzində erməni separatçılarının nəzarəti altında qalması Azərbaycanla İran arasında müəyyən gərginlik yaradırdı. Çünki, Azərbaycan sərhəddən qanunsuz istifadənin əleyhinə idi. Azərbaycan ordusu sərhədi tam nəzarətə götürməklə bu məsələni də həll etdi. Bundan sonra Azərbaycanla İran arasında sərhəd məsələsinə görə gərginlik olmayacaq.

Azərbaycanın sərhədi tam nəzarətə götürməsi İranın da maraqlarına xidmət edir. İki ölkə arasındakı sərhəd boyu əməkdaşlıq artacaq. Bu iqtisadi əlaqələrə də müsbət təsir edəcək. Zəngilanın Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran dövlət sərhədinin tam nəzarətə götürülməsi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan və İran xalqını təbrik etdi.

İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi bununla əlaqədar "Twitter" hesabında bunları yazdı: "Cənab Prezident, bədxahların mövcudluğu və müdaxiləsi olmadan İran və Azərbaycan arasındakı 760 km-lik dövlət sərhədi iki qonşu xalq üçün dostluq, sülh və təhlükəsizlik sərhədi olaraq qalacaq. İranlılar Azərbaycandakı müsəlman qardaş və bacılarının xoşbəxtliyinə sevinir".

# ERMƏNİSTANIN EHTİYATLARI AZALDI

Nikol Paşinyan ehtiyatların tükəndiyini anlasa da, müharibəni davam etdirməkdə israrlı idi. Paşinyanın müharibə dövründə iki açıqlaması oldu.

***Birincisi,*** diplomatik danışıqlardan imtina etdiyini dedi. Çünki danışıqların nəticə verməyəcəyini bildirdi.

***İkincisi,*** erməniləri silahlanmaya və Dağlıq Qarabağa getməyə çağırdı.

Nikol Paşinyan Dağlıq Qarabağda rayonları ard-arda itirərkən danışıqlarda mövqeyinin zəif olacağını başa düşürdü. Bu səbəbdən oktyabrın əvvəllərində danışıqlardan imtina edirdi. Çünki bu danışıqlarda Paşinyan İlham Əliyevin tələbini yerinə yetirməli idi. Digər tərəfdən o, məğlubiyyətə görə məsuliyyəti bütün ermənilərlə bölüşmək istəyirdi.

Nikol Paşinyanın açıqlamaları həm də Ermənistanın ehtiyatlarının tükəndiyindən xəbər verirdi. Paşinyan bir tərəfdən diplomatik danışıqların nəticə verməyəcəyini deyir, digər tərəfdən xarici işlər nazi-

rini Moskvaya və Vaşinqtona azərbaycanlı həmkarı ilə danışıqlara göndərirdi. Çünki Paşinyan hələ də ümid edirdi ki, böyük dövlətlər Azərbaycanı dayandıra və ya Bakıya təzyiq edə biləcəklər. Ancaq həmin ərəfədə Azərbaycana təzyiqlər nəticə vermirdi. Əksinə, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən dövlətlərin və rəsmilərin sayı artırdı.

ABŞ-ın NATO-dakı səfiri Key Beyli Hatçison müharibə dövründə münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olmasıyla bağlı açıqlama verdi. ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıyır, Dağlıq Qarabağın Azərbaycana aid olduğunu bildirirdi.

Amerikanın dövlət katibi Mayk Pompeo oktyabrın 23-də Vaşinqtonda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ilə ayrılıqda görüşdü. Bu görüşün iki məqsədi var idi.

***Birincisi,*** ABŞ Minsk Qrupunun həmsədridir, bu prosesdə Rusiya və Fransadan geridə qalmaq istəmirdi. Çünki Rusiya daha fəal idi, Fransadan müəyyən açıqlamalar verilirdi. Buna görə Vaşinqton geridə qalmadığını göstərmək üçün Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərini Vaşinqtona dəvət etdi.

***İkincisi,*** noyabrın əvvəlində ABŞ-da prezident seçkiləri keçiriləcəkdi. Ermənipərəst konqresmenlər Trampa qarşı ittihamlar səsləndirərək Dağlıq Qarabağla bağlı açıqlama verməməsinin səbəbini soruşmuşdular. Tramp bu ittihamları neytrallaşdırmaq

üçün Pompeoya Vaşinqtonda belə bir görüşü təşkil etməyi tapşırdı.

Vaşinqtondakı görüş görüntü üçün təşkil olunmuşdu. Rusiya həmin günlərdə Azərbaycanı dayandıra bilmədisə, Amerika da Azərbaycanı dayandıra bilməyəcəkdi. Digər tərəfdən ABŞ superdövlət olsa da, Cənubi Qafqaza təsir vasitələri çox deyil.

# PUTİN OKTYABRDA AZƏRBAYCANA MANE OLMADI

Vladimir Putin oktyabrın 22-də "Valday klubu"nun onlayn iclasındakı çıxışında ermənilәri növbəti dəfə məyus etdi.

***Birincisi,*** Vladimir Putin çıxışında Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğanın əleyhinə heç nə demədi. Putin Ərdoğana inandığını bildirdi: "Avropa ölkələri verdikləri vədi yerinə yetirmirlər, qaz xəttinin çəkilişi yubanır. Ancaq Ərdoğan vəd verdi və yerinə yetirdi. Ərdoğan Qərbin təzyiqlərini nəzərə almır və ölkəsinin maraqlarını nəzərə alır". Bu sözlər Ermənistan hakimiyyətinin xoşuna gəlməyəcəkdi. Çünki Ermənistan hakimiyyəti bölgədə Rusiya ilə Türkiyəni toqquşdurmaq istəyirdi.

***İkincisi,*** Vladimir Putin Qarabağda müharibənin baş verməsəbəbinin Azərbaycan torpaqlarının uzun müddətdir işğalda qalması ilə bağlı olduğunu bildirdi: "Azərbaycan ərazilərinin əhəmiyyətli hissəsinin itirilməsi vəziyyəti həmişəlik davam edə bilməzdi". Putin ilk dəfədir bu cür açıqlama verirdi. Bu, Puti-

nin Ermənistanın Azərbaycan ərazilərinin işğalına müsbət yanaşmadığını göstərirdi.

***Üçüncüsü,*** Vladimir Putin Azərbaycan və Ermənistanın Rusiya üçün bərabər tərəfdaş olduğunu bildirdi. Onun sözlərinə görə, Rusiyanın təkcə Ermənistanla deyil, Azərbaycanla da həmişə xüsusi əlaqələri olub. Bu da ermənilər üçün pis xəbər sayıla bilərdi. Çünki, Ermənistan hakimiyyəti və erməni separatçılar düşünürdülər ki, Rusiya prezidenti ilk növbədə erməniləri dəstəkləməlidir. Putin isə bunun belə olmadığını qeyd etdi.

***Dördüncüsü,*** Vladimir Putin Minsk Qrupu fotmatının dəyişdirilməsini istisna etmədiyini bildirdi. Bu açıqlama həm Azərbaycan, həm də Türkiyə üçün vacib idi. Çünki, həm Bakı, həm də Ankara danışıqlar formatının dəyişdirilməsini tələb edirdi. Putin "danışıqların formatı dəyişdirilə bilər" deyərkən Türkiyəni nəzərdə tuturdu.

Rəcəb Təyyub Ərdoğan Dağlıq Qarabağla bağlı danışıqlarda Türkiyənin iştirakının vacibliyini bildirdi. ATƏT-in Minsk qrupunun bir nəticə ortaya qoya bilmədiyini dedi: "Azərbaycan prezidenti İlham Əliyev dedi ki, Ermənistan bu problemin həllində Rusiyanı təklif edirsə, biz də Türkiyəni təklif edirik. Rusiya nə qədər Qarabağ problemilə bağlı sülh və sabitlik istəyirsə, Türkiyə də ən azı o qədər istəyir. Rusiyanın regionda nə qədər söz haqqı varsa, Türkiyənin də bir o qədər haqqı olduğuna inanıram".

Ermənistan Türkiyənin danışıqlarda iştirakının əleyhinədir. Ancaq Rusiya razılıq versə, Türkiyənin danışıqlarda iştirakına heç nə mane olmayacaq. Rusiya Türkiyə ilə Suriya və Liviya problemini müzakirə edirsə, Dağlıq Qarabağ məsələsini də müzakirə edəcək.

Bu arada, Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı barədə açıqlama verdi: "Münaqişə Dağlıq Qarabağ ərazisində gedir və Ermənistan ərazisinə keçməyib, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) müdaxiləsindən danışmaq düzgün deyil. Ermənistandan rəsmi sorğu gəlməyib. KTMT üzv dövlətlərə müəyyən vəziyyətlərdə, açıq-aşkar işğal olanda kömək edir. Hələlik söhbət həmin Dağlıq Qarabağdan gedir ki, həmin ermənilər tərəfindən ora öz əraziləri kimi tanınmayıb və yəqin, tanına da bilməz. KTMT-nin müdafiə imkanlarının müdaxiləsindən danışmaq düzgün deyil".

Həmin günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və İran prezidenti Həsən Ruhani arasında telefon danışığı oldu. Telefon danışığı zamanı prezidentlər Türkiyə-İran əlaqələri, terrorla mübarizədə əməkdaşlıq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Suriya barədə fikir mübadiləsi aparıblar. Azərbaycan torpaqlarını işğal edən Ermənistanın mülki əhalini atəşə tutmasının müharibə cinayəti olduğunu qabardan Ərdoğan bu məsələdə haqlı ilə haqsızı, işğala məruz qalanla işğalçını ayırd etməyin vacibliyini qeyd etdi.

## PAŞİNYAN PUTİNDƏN NƏ İSTƏYİRDİ?

Nikol Paşinyan Vladimir Putinə məktub göndərdi. Paşinyan məktubunda Rusiya liderindən Ermənistana yardım göstərilməsi istiqamətində məsləhətləşmələrə başlanılmasını xahiş etdi. Erməni baş nazir bu mənada 29 avqust 1997-ci il tarixli "Rusiya və Ermənistan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"yə istinad etdi. Nikol Paşinyan məktubunda Qarabağdakı vəziyyətdən detallı şəkildə bəhs etdi, Azərbaycan və Türkiyə əleyhinə ittihamlar səsləndirdi.

Nikol Paşinyan Putinə beş telefon zəngindən sonra niyə məktub göndərdi?

***Birincisi,*** bu Paşinyanın Putinə məktubundan çox öz cəmiyyətini məğlubiyyətə hazırlamaq idi. Çünki özü də Putinin hələlik gözləmə mövqeyində olduğunu bilirdi. Ona görə də Paşinyan cəmiyyətinə göstərmək istəyirdi ki, "bu ağır vəziyyətdə Rusiya da Dağlıq Qarabağı qurtara bilmir, mən heç nə edə bilmərəm..."

***İkincisi,*** Ermənistanın oktyabr ayının ortalarına Dağlıq Qarabağda canlı qüvvə və hərbi texnika itki-

si xeyli artmışdı. Həmin hərbi texnikanın əksəriyyəti Ermənistana aid idi. Ermənistandan Dağlıq Qarabağa nə daşınırdısa, hamısını Azərbaycan ordusu və pilotsuz uçuş aparatları məhv edirdi. Belə məqamda Ermənistanın hərbi vəziyyəti ağırlaşmışdı, müdafiəsi zəifləmişdi. Ona görə Paşinyanda və erməni cəmiyyətində Azərbaycan ordusunun, Dağlıq Qarabağa nəzarəti ələ keçirdikdən sonra, Ermənistanın içərilərinə doğru da hərəkət edəcəyiylə bağlı qorxu vardı. Paşinyan Putinin Dağlıq Qarabağın itirilməsinə səssiz qalarsa, Ermənistana hücumlara da bir müddət səssiz qala biləcəyindən də ehtiyatlanırdı. Ona görə də Paşinyan Dağlıq Qarabağdan əlini üzdükdən sonra, Rusiyadan heç olmazsa, Ermənistanı qoruyacağına təminat almaq istəyirdi.

Paşinyan Rusiyanın Ermənistanda hərbçi və hərbi texnika sayını artırmasını da istəyirdi. Kreml müharibə günlərində onsuz da Ermənistana kifayət qədər silah və hərbi sursat göndərirdi. Ancaq Rusiya prezidenti həm də onu anlayırdı ki, Ermənistan vasitəsilə Dağlıq Qarabağa daşınan Rusiyanın bahalı hərbi texnikası kiçik ölçülü pilotsuz uçuş aparatları qarşısında acizdir. Azərbaycana məxsus pilotsuz uçuş aparatlarının Rusiyanın bahalı hərbi texnikasını darmadağın etməsi Rusiyanın hərbi sənaye kompleksinin imicinə ciddi zərbəydi. Ona görə də Putin artıq Ermənistanın Dağlıq Qarabağı qoruya bilməyəcəyini anladığından Ermənistana hərbi texnika göndərilməsinin faydasız olduğunu anlamağa başladı.

Ermənistanın Azərbaycan şəhərlərini raket atəşinə tutmasından sonra müxtəlif ölkələrin diplomatik korpusunun nümayəndələri, səfirlər, hərbi attaşelər hadisə yerinə aparılır və erməni vəhşiliyi ilə tanış edilirdi. Xarici ölkələrin təmsilçiləri mülki insanların hədəf götürülməsi səhnəsiylə tanış olurdular. Bu hal Ermənistanı ciddi narahat edirdi. Çünki, diplomatlar və hərbi attaşelər döyüş bölgələrinə aid olmayan Gəncənin, Mingəçevirin, Bərdənin və Tərtərin vurulması barədə hesabatlar hazırlayır və öz ölkələrinə göndərirdilər. Bu hal Ermənistan hakimiyyətini narahat etməyə başladı. İrəvan "vəziyyətdən" çıxış yolu kimi Ermənistanın və Dağlıq Qarabağın "ombudsmanları" adından birgə müraciət hazırladı. Müraciət İrəvandakı diplomatik korpus nümayəndələrinə ünvanlandı ki, onlar da Dağlıq Qarabağa gəlib, "dağıntılarla" tanış olsunlar. Birincisi, heç bir diplomat Ermənistanın xaricində Azərbaycana aid torpaqlara qanunsuz gəlməzdi. İkincisi, bu beynəlxalq hüquqa zidd olduğu kimi həmin diplomatların həyatı üçün də təhlükəliydi. İrəvanın bu mənasız çağırışı da nəticə vermədi.

## AZƏRBAYCANA TƏZYİQ NİYƏ ARTDI?

Müharibənin ilk günündən həmsədr dövlətlərin – Rusiya, Fransa və ABŞ-ın əsas məqsədi hərbi əməliyyatları dayandırmaq və danışıqları bərpa etmək idi. Ancaq oktyabr ayı boyunca nə hərbi əməliyyatlar dayandı, nə də müxtəlif təşəbbüslər nəticə verdi.

***Birincisi,*** Azərbaycan ordusu əraziləri azad etdiyi dövrdə atəşkəs və danışıqlar işğalçı Ermənistanın maraqlarına cavab verirdi. Ermənistan hakimiyyəti atəşkəs və danışıqlar vasitəsilə müharibədə fasilə əldə etmək istəyirdi. Ermənistan bu fasilə zamanı həm cəbhə xəttindəki istehkamları möhkəmləndirməyə, həm də cəbhə xəttinə canlı qüvvə və hərbi texnika daşımağa çalışacaqdı. Azərbaycan buna imkan verə bilməzdi.

***İkincisi,*** Ermənistan ordusu ard-arda məğlubiyyətlə üzləşsə də, silahlı qüvvələrini Dağlıq Qarabağdan çıxarmağı planlaşdırmırdı. Ermənistan hakimiyyəti düşünürdü ki, mümkün qədər vaxtı uzatmaq və bundan istifadə edərək böyük dövlətlərin Azərbaycana təzyiqini təmin etmək lazımdır. Ancaq rəsmi İrəvanın

bu planı reallaşmırdı. Çünki Azərbaycan ordusu sürətlə irəliləyir və böyük dövlətlərin Azərbaycana qarşı təzyiqi nəticə vermirdi. Türkiyə bu təzyiqləri neytrallaşdırmaqda Azərbaycana zəruri dəstək verirdi.

***Üçüncüsü,*** Azərbaycan böyük dövlətlərin təzyiqindən qorxmurdu. Müharibənin ilk günlərində Azərbaycan cəmiyyətində təzyiqlə bağlı narahatlıq var idi. Azərbaycan hakimiyyəti və cəmiyyəti oktyabr ayında təzyiqlərin miqyasını gördü. Təzyiqlər noyabrın ilk günlərində daha da artdı. Ancaq bu təzyiqlər Azərbaycan ordusunun hücum əməliyyatlarını dayandırmaq gücündə deyildi. Həmsədr dövlətlər Ermənistanı məğlubiyyətdən xilas etməyə çalışsalar da, Dağlıq Qarabağa ordu göndərmək və ya Azərbaycana qarşı sanksiya tətbiq etmək fikrindən uzaq idilər. Heç kim Cənubi Qafqazın açar dövləti olan Azərbaycanla düşmən olmaq istəmirdi.

Rusiya, Fransa və ABŞ rəsmiləri, diplomatları müharibənin davam etdiyi bir ayda BMT-nin dörd qətnaməsini xatırlamadılar. Halbuki, münaqişənin həlli bu qətnamələrə əsaslanmalıydı. Həmsədrlər Ermənistan ordusunun Azərbaycan ərazilərini tərk etməsi barədə fikir də səsləndirmədilər.

Başqa sual da aktual idi: Necə oldu ki, Dağlıq Qarabağa bu qədər hərbi texnika daşındı? Belə çıxırdı ki, münaqişəni dayandırmaq istəyən vasitəçilər özləri separatçıları ya silahlandırır, ya da silahlanmasına mane olmurdular. Halbuki, oktyabr ayı ərzində erməni se-

paratçılarına silah göndərilməsəydi, onlar rəsmi Bakının şərtini qəbul edərdilər. Deməli, erməni separatçılarına hərbi yardımı davam etdirənlər Azərbaycanın Dağlıq Qarabağa nəzarət etməsini istəmirdilər.

Digər tərəfdən 1990-cı illərin ortalarında təşkilata üzv dövlətlər, o cümlədən Azərbaycan və Ermənistan təşkilatın "cinah sazişini" imzalamışdılar. Bu sazişə görə üzv dövlətlərin hərbi texnikasının dəqiq kvotası var idi və bunu aşmamalıydılar. Ancaq mən jurnalist işlədiyim elə o illərdə Ermənistanın kvotadan artıq hərbi texnikanı nəzarətdən kənar olan Dağlıq Qarabağda yerləşdirəcəyini yazmışdım. Belə də oldu. Müharibə dövründə bəlli oldu ki, Dağlıq Qarabağ ərazisində yüzlərlə tank, top və raket kompleksləri var, bölgə faktiki barıt çəlləyinə çevrilib və beynəlxalq təşkilatlar buna göz yumub.

Rusiya prezidenti müharibə dövründəki açıqlamasında işğal altındakı torpaqlarla bağlı fikirlərini dəqiq söylədi: "Azərbaycanın yeddi rayonu azad edilməli və Azərbaycan ərazi bütövlüyünü təmin etməlidir. Bundan sonra bölgənin təhlükəsizlik məsələləri həll olunmalıdır".

Azərbaycan ordusu daha çox ərazini işğaldan azad etdikcə bu cür çağırışların və bəyanatların sayı artacaqdı. Ermənistan hakimiyyəti də sonda bu çağırış və bəyanatlara istinad edərək reallığı qəbul etmək məcburiyyətində qalacaqdı.

## İRAN FƏALLAŞMAĞA QƏRAR VERDİ

İran prezidenti Həsən Ruhani xarici işlər nazirinin müavini Abbas Araqçını özünün Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə nümayəndəsi təyin etdi. Bundan sonra Abbas Araqçı Bakı, Yerevan, Moskva və Ankaraya səfər etdi.

İran keçmiş illərdə də Dağlıq Qarabağ münaqişəsinin həllində fəal olmaq istəyirdi. Ancaq Bakı və Yerevan Tehranın vasitəçiliyini qəbul etmirdi. İranın sonuncu dəfə vasitəçiliyi 1992-ci ildə oldu. Azərbaycanın və Ermənistanın liderləri 1992-ci ildə Tehranda atəşkəs razılığı əldə etdilər. Ancaq erməni separatçıları sazişi pozdular və Şuşanı işğal etdilər.

Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Moskvada və Vaşinqtonda görüşdülər. Türkiyə də fəal idi. Buna görə İran da fəallaşmağa qərar verdi. İranın həm Azərbaycanla, həm də Ermənistanla sərhədi var. İran bölgədə sabitlikdə maraqlıdır.

İranın xarici işlər nazirinin müavini Abbas Araqçı Bakıda prezident İlham Əliyevlə və xarici işlər naziri Ceyhun Bayramovla görüşdü. İranlı diplomat

Azərbaycanın ərazi bütövlüyunü dəstəklədiklərini dedi. Bundan başqa, bölgəyə səfər edən iranlı diplomatın münaqişənin həlliylə bağlı planı olduğu da bildirilmişdi. Ancaq həmin planın detalları barədə məlumat yox idi.

Suriyada münaqişənin həlliylə bağlı Cenevrə formatı var. Bundan başqa Suriya ilə bağlı üç dövlətin (Türkiyə, Rusiya və İran) iştirak etdiyi Astana formatı da var. Astana formatı Cenevrə formatından daha yaxşı nəticə əldə edir. Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı Minsk Qrupunun həmsədrlər (Rusiya, Fransa və ABŞ) formatı var. Ancaq bu format uğurlu deyil. Ona görə də Türkiyə və Azərbaycan 2+2 formatını (Azərbaycan, Ermənistan, Rusiya və Türkiyə) təklif edirdi. Rusiya prezidenti Vladimir Putin verdiyi açıqlamalarda Türkiyənin danışıqlar prosesində iştirakının əleyhinə deyildi. İran da Astana formatında olduğu kimi Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya və Türkiyə ilə birgə iştirak etmək istəyirdi. Bunun üçün bütün tərəflərin razılığı lazım idi.

Ermənistan nə Türkiyənin, nə də İranın danışıqlarda iştirak etməsini istəyirdi. Yerevan İranın hakimiyyət nümayəndələrinin müharibə günlərində Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edən açıqlamalar verməyindən narahat idi. Azərbaycan ordusunun İranla sərhədi nəzarətə götürməsi Azərbaycanla yanaşı İranın da maraqlarına uyğun idi. Bu, sərhəddə sabitliyə səbəb olacaqdı.

## GÜRCÜSTANDA ETNİK MÜHARİBƏ MÜMKÜNDÜRMÜ?

Gürcüstanın əhalisi təxminən 3 milyon 700 min nəfərdir. Gürcüstanda 233 min azərbaycanlı yaşayır. Azərbaycanlılar Gürcüstan əhalisinin ümumilikdə 6,3 faizini təşkil edir. Gürcüstanda yaşayan ermənilərin sayı isə 168 min nəfərdir.

Ermənilər Gürcüstanda kompakt şəkildə Samtsxe-Cavaxetiya bölgəsində yaşayırlar. Türklər bu bölgəni Ahıska, gürcülər Cavaxeti, ermənilər isə Cavaxk adlandırırlar. 1828-1829-cu illərdəki Osmanlı-Rusiya müharibəsinin nəticələrinə görə, Samtsxe-Cavaxetiya regionu Rusiya İmperiyasının nəzarətinə keçdi. 1828-ci il Ədirnə sülh müqaviləsinə əsasən, burada yaşayan müsəlman gürcülər – lazlar Türkiyənin daxili rayonlarına köçürüldü, əvəzində isə Ərzurum vilayətində yaşayan ermənilərin bir hissəsi İrəvan və Qarabağla yanaşı, həmçinin Axalkalakidə məskunlaşdırıldı. Yəni, ermənilər Dağlıq Qarabağ kimi, Cavaxetiyaya da İrandan və Osmanlı Türkiyəsindən (1828-1829-cu illərin Rusiya-Qacar və Rusiya-Türkiyə müharibəsindən

sonra) köçürülüblər. Tədqiqatlar sübut edir ki, təkcə müharibə zamanı buraya köçürülən ermənilərin sayı 35 min nəfər olub. Hazırda Cavaxetiyada yaşayan ermənilərin 90 faizi o vaxt köçürülənlərin nəsillərindəndir. Həm Dağlıq Qarabağda, həm də Samtsxe-Cavaxetiya regionunda mövcud olan erməni kilsələri əsasən 1830-cu ildən sonrakı dövrdə inşa edilib.

Gürcüstanda yaşayan ermənilər də Dağlıq Qarabağda olduğu kimi zaman-zaman separatçı şüarlar irəli sürürdülər. Ermənilər 1980-ci illərin ortalarında separatizmə Dağlıq Qarabağda başladılar. Ona görə də Cavaxetiya bölgəsində fəallığı azaltdılar. Ona görə ki, Ermənistan həm Azərbaycana, həm də Gürcüstana eyni zamanda ərazi iddiasını həyata keçirə bilməzdi. Yəni Ermənistan eyni zamanda həm Azərbaycan, həm də Gürcüstanla düşmən ola bilməzdi. Ermənistandakı millətçi dairələrin planına görə əvvəlcə Dağlıq Qarabağı Ermənistana birləşdirəcək, sonra Cavaxatiyada separatçılığa başlayacaqdılar.

Buna baxmayaraq, son illər ərzində Gürcüstanın Cavaxetiya bölgəsində erməni separatizminə dair faktlar az deyil. Mixail Saakaşvili Gürcüstan prezidenti olduğu illərdə Cavaxetiyada bir neçə erməni separatçısını həbs etdirmişdi.

1990-cı illərdə – birinci Qarabağ müharibəsi zamanı Gürcüstanda yaşayan azərbaycanlılarla ermənilər arasında münasibətlər gərgin idi. Buna baxmayaraq, Gürcüstanda yaşayan azərbaycanlılarla ermənilər

arasında ciddi toqquşmalar baş vermədi. Eyni zamanda, il ərzində Gürcüstanda yaşayan ermənilərlə azərbaycanlılar arasında gərginliklər oldu.

*2020-ci ilin yanvar ayı.* Gürcüstanda yaşayan ermənilər Qarabağ müharibəsində iştirak etmiş erməni hərbçi Mixail Avaqyana abidə qoydular. Gürcüstanda yaşayan azərbaycanlılar buna etiraz etdilər. Çünki Mixail Avaqyan Qarabağda azərbaycanlıları öldürmüşdü. Gürcüstan Azərbaycanlıları Milli Konqresinin sədri **Əli Babayev** bununla bağlı mətbuat konfransı keçirtdi. Onun sözlərinə görə, abidənin açılması Gürcüstanın azərbaycanlı ictimaiyyəti tərəfindən şiddətlə qınanır: "Bunu Gürcüstan və Azərbaycan arasındakı münasibətlərə xələl gətirməkdə maraqlı olan qüvvələr təşkil edib. Abidənin məhz 20 yanvar tarixində təntənəli şəkildə açılması da təsadüfi deyil. Belə ki, Azərbaycan xalqı həmin gün 20 Yanvar şəhidlərini yad edir. Mixail Avaqyana abidənin qoyulması erməni separatçılarının Gürcüstanda ilk təxribatı deyil".

*2020-ci ilin mart ayı.* Gürcüstanın Axaltsixe şəhərində Samtsxe-Cavaxeti Dövlət Universitetinin azərbaycanlı və erməni tələbələri arasında şifahi mübahisə oldu. İnsidentə Azərbaycan-Ermənistan sərhədindəki gərginlik səbəb oldu. Polisin müdaxiləsi nəticəsində gənclər arasında mübahisə fiziki qarşıdurmaya keçmədi.

*2020-ci ilin iyul ayı.* Gürcüstanın Marneuli rayonunun Sadaxlı kəndində yerli azərbaycanlı və

ermənilər arasında qarşıdurma oldu. Hadisəyə polis idarəsində işləyən erməni əsilli əməkdaşın oğlunun hərəkəti səbəb oldu. Şaumyan kəndindən olan həmin şəxs Ermənistan dövlət nömrə nişanlı avtomobili ilə kəndin mərkəzində təhlükəli vəziyyət yaratmışdı. O, yolda azərbaycanlı gənclərin olduğu avtomobilin qarşısını kəsmiş və nalayiq hərəkətlərə yol vermişdi. Gəncin əməllərindən hiddətlənən kənd sakinləri onu saxlamış və tərəflər arasında mübahisə, daha sonra isə fiziki qarşıdurma yaranmışdı. Erməni gənc azərbaycanlıların ünvanına təhqir, söyüş işlətmiş və hədə-qorxu gəlmişdi.

*2020-ci ilin avqust ayı.* Növbəti qarşıdurma Gürcüstanın Ninotsminda bələdiyyəsinin Toriya kəndində baş verdi. Davanın səbəbi milli deyil, məişət zəminində idi. Belə ki, mal-qaranın qonşu örüş sahəsinə girməsi ilə iki tərəf arasında münaqişə yaranmışdı.

Beləliklə, 2020-ci ilin başlanğıcından Gürcüstanda yaşayan azərbaycanlılarla ermənilər arasında etnik zəmində gərginliklər artmışdı. Gürcüstanda yaşayan ermənilərin bir hissəsi müharibənin ilk günlərində Bakı-Tbilisi-Qars dəmiryolu ilə keçən qatarların hərəkətinə mane olmaq istəyirdilər. Sentyabrın 27-də Dağlıq Qarabağda müharibə başladıqda ermənilər Cavaxetiyada mitinq keçirdib Dağlıq Qarabağdakı erməni separatçılarına dəstək verdilər. Ermənistanın baş naziri Nikol Paşinyan "Facebook" profilində həmin mitinqdən şəkil paylaşıb statusunda bunu yaz-

dı: “Cavaxkda mitinq!” Bu, gürcülərin etirazına səbəb oldu. Çünki həmin bölgənin rəsmi adı Cavaxetiyadır.

Gürcüstan hakimiyyəti Azərbaycanla Ermənistan arasındakı müharibədə tərəf tutmurdu. Gürcüstan hökuməti öz ərazisindən üçüncü ölkələrin Azərbaycana və ya Ermənistana silah daşımasını qadağan etdi. Buna baxmayaraq, ermənilər iddia edirdilər ki, Türkiyə Gürcüstan üzərindən Azərbaycana hərbi texnika və silah daşıyır. Bu o demək idi ki, Ermənistan hakimiyyəti Gürcüstanın neytral siyasətinə inanmır.

# ŞUŞA ŞƏHƏRİNİN XÜSUSİ ƏHƏMİYYƏTİ VAR

Azərbaycan ordusu sentyabrın 27-dən başlayaraq “Ohanyan xətti”ni yardıqca rayonlar ard-arda azad olunurdu. Erməni separatçıları müharibədən əvvəl deyirdilər ki, Azərbaycan ordusu heç zaman “Ohanyan xəttini” yara bilməz. Çünki həmin xətt üç hissədən ibarətdir. Ancaq Azərbaycan ordusu həmin xətti cənub istiqamətindən yardı. “Ohanyan xətti” yox oldu.

Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan şəhərləri azad edildikdən sonra Ermənistan hakimiyyəti və Dağlıq Qarabağ separatçıları Azərbaycan ordusunun Şuşa və Xankəndinə sürətlə yaxınlaşacağını ehtimal etmirdilər.

Şuşa şəhərinin Azərbaycan və azərbaycanlılar üçün xüsusi əhəmiyyəti var.

**Birincisi,** Şuşa Azərbaycanın tarixi şəhəridir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin Şuşada anadan olması da bu şəhərin əhəmiyyətini artırır. Bu mənada Şuşa azərbaycanlıların müqəddəs şəhəri sayılır.

**İkincisi,** Şuşanın bölgəyə nəzarət etmək baxımından strateji əhəmiyyəti var. Azərbaycan ordusu Şuşanı azad etməklə Laçın dəhlizini (bu dəhliz Dağlıq Qarabağla Ermənistanı birləşdirir) nəzarətə götürəcəkdi. Bundan başqa Şuşa Xankəndidən yüksəkdə yerləşir. Şuşadan Xankəndinə hücum etmək çətin deyil. Erməni separatçılarının lideri Araik Arutunyan noyabrın ilk günlərində bildirirdi ki, Şuşanı itirsələr, Dağlıq Qarabağı itirəcəklər.

**Üçüncüsü,** Azərbaycan ordusu Şuşaya nəzarət etməklə erməni separatçılarının mühasirəsini tamamlayacaqdı. Bundan sonra müharibənin davam etdirilməsinin ermənilər üçün mənası qalmayacaqdı.

Bu arada, Dağlıq Qarabağın "hökuməti" İrəvana köçdü. Bu o demək idi ki, artıq erməni separatçıları məğlubiyyəti qəbul ediblər. Xankəndidə erməni əhalisi azalmışdı.

Xarici jurnalistlər müharibə günlərində prezident İlham Əliyevə ən çox bu sualı verirdilər: "Bakı Dağlıq Qarabağa hansı status verəcək?" Azərbaycan prezidenti bu məsələnin müzakirəsinin erkən olduğunu bildirirdi.

Rəsmi Bakı Yerevanla 27 il aparılan danışıqlarda Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verəcəyini vəd edirdi. İlham Əliyev deyirdi: "Dünyada mövcud olan istənilən muxtariyyət modelini Dağlıq Qarabağ ermənilərinə verməyə hazırıq". İlham Əliyev və azərbaycanlı siyasi ekspertlər müxtəlif

nümunələr göstərirdilər: Aland modeli, Tirol modeli və s.

Ermənistan hakimiyyəti və Dağlıq Qarabağ separatçıları bütün bu modelləri rədd edirdilər. Onlar Dağlıq Qarabağa "müstəqillik" istəyirdilər. Rəsmi Bakı bununla razılaşa bilməzdi. 27 il aparılan danışıqlar nəticə vermədi.

Azərbaycan ordusu böyük əraziləri işğaldan azad etdi. Azərbaycan mövcud reallığı dəyişdi. Bundan sonra rəsmi Bakı Dağlıq Qarabağ ermənilərinə yüksək statuslu muxtariyyət verməyəcək. Dağlıq Qarabağda ermənilərin sayı az olsa, bu bölgəyə aşağı statuslu muxtariyyətin verilməsi də lazım olmayacaq. Azərbaycanın digər bölgələrinin hansı statusu varsa, Dağlıq Qarabağın da eyni statusu olacaq.

Ermənistan hakimiyyəti və Dağlıq Qarabağ separatçıları vaxtilə rəsmi Bakının təklifini qəbul etsəydilər, müharibə olmazdı və bölgənin yüksək muxtariyyət statusu olardı. İndi isə bu mümkün deyil. Hazırda şərtləri Azərbaycan diktə edir.

## İRANIN AZƏRBAYCANA DƏSTƏK AÇIQLAMALARI ARTDI

İran rəsmiləri və din xadimləri noyabrın əvvəllərində də Azərbaycanı dəstəkləyən açıqlamalar verdilər. İranın dini lideri Ayətulla Seyid Əli Xamneyi müraciətində bunları dedi: "Ermənistan işğal etdiyi Azərbaycanın bütün ərazilərini Azərbaycana qaytarmalıdır. İranın iki qonşusu arasında baş verən döyüşlər təhlükə yaradır və tez bir zaman ərzində bitməlidir. Məlumdur ki, bu ərazilər Azərbaycanındır və Ermənistan tərəfinin zəbt etdiyi ərazilər azad edilməlidir. Azərbaycan Respublikası bu məsələdə haqlıdır. Müharibə tərəfləri beynəlxalq sərhədlərin toxunulmazlığını təmin etməlidir".

Bundan sonra İranın prezidenti Həsən Ruhani də oxşar açıqlama verdi. Həsən Ruhani hökumətin iclasında belə dedi: "Ərazi bütövlüyünün bərpası Azərbaycanın hüququdur". Ruhani İran Xarici İşlər Nazirliyinin də münaqişənin həlli ilə maraqlandığını və bu baxımdan Azərbaycan, Ermənistan, Rusiya və Türkiyəyə plan təklif etdiyini bildirdi. Onun sözlərinə

görə, İran bu planın qarşıdurmaya son qoyacağına və bölgədə sülhü təmin edəcəyinə ümid edir.

Beləliklə, İran rəsmiləri və din xadimləri Azərbaycanın haqlı olduğunu bildirdilər. Rəsmi Bakı bu açıqlamaları yüksək qiymətləndirdi. Maraqlıdır ki, Ermənistan rəsmiləri İran rəsmilərinin və din xadimlərinin Azərbaycanla bağlı açıqlamalarına münasibət bildirmədilər. Rusiya prezidenti Vladimir Putin "Yeddi rayon Azərbaycana qaytarılmalıdır" deyəndə də rəsmi İrəvan susmuşdu.

Tehranın mövqeyi rəsmi İrəvanı məyus etdi.

***Birincisi,*** Tehran Azərbaycan ordusunun uğurlar qazandığını görürdü. İran hakimiyyəti Azərbaycanın qələbəyə yaxın olduğunu anlayırdı. Buna görə də Tehran qalibin yanında yer almaq istəyirdi.

***İkincisi,*** Türkiyə Azərbaycana dəstək verirdi. Türkiyə Azərbaycana edilən təzyiqləri neytrallaşdırır. Bu amillə Tehranda da hesablaşırdılar.

## COZEF BAYDEN ERMƏNİSTANA KÖMƏK EDƏCƏKMİ?

Amerikanın yeni prezidenti seçilən Cozef Baydenin erməni lobbisi ilə sıx əlaqələri var. Bayden 1990-cı illərin əvvəllərində Konqresdə Azərbaycana qarşı qəbul edilən ədalətsiz 907-ci düzəlişin müəlliflərindəndir. O, seçki kampaniyası zamanı da Azərbaycan əleyhinə müxtəlif açıqlamalar verdi. Ona görə də ermənilər Cozef Baydenin Ermənistana dəstək verəcəyinə, müharibənin gedişatında az qala ermənilərin xeyrinə dönüş yaradacağına ümid edirdilər.

Azərbaycan müstəqillik qazandıqdan sonra Amerikanın müxtəlif prezidentləri ilə – Bill Klinton, Corc Buş, Barak Obama və Donald Trampla əməkdaşlıq edib. Barak Obamanın da erməni lobbisi ilə sıx əlaqələri var idi. O, prezident seçiləcəyi təqdirdə "erməni soyqırımını" tanıyacağını vəd etmişdi. Ancaq prezident seçildikdən sonra "erməni soyqırımını" tanımadı, sadəcə hər ilin aprel ayında erməni dilində "böyük faciə" ifadəsini işlətdi. Barak Obama "erməni

soyqırımını" tanıyaraq Türkiyə ilə münasibətləri gərginləşdirmək istəmədi.

Cozef Bayden prezident seçildikdən sonra Obama kimi çətin ki, "erməni soyqırımını" tanısın. Əlbəttə, hazırda ABŞ-la Türkiyə arasındakı münasibətlər yaxşı deyil və Bayden Türkiyəni daima tənqid edir. Ancaq Amerika prezidenti "erməni soyqırımını" tanıyarsa, bu Amerika-Türkiyə münasibətlərinə daha pis təsir edəcək. Vaşinqton isə Türkiyənin bölgədəki artan rolunu nəzərə almaq məcburiyyətindədir.

Cozef Bayden Dağlıq Qarabağdakı erməni separatçılarını da məğlubiyyətdən xilas edə bilməyəcəkdi. Birincisi, Cozef Baydenin prezident seçilməsi rəsmiləşsə də, andiçmə mərasimi yanvar ayının sonunda keçiriləcək. Digər tərəfdən andiçmədən sonra yeni vəzifədə Baydenin adaptasiya dövrü ən azı 5-6 ay çəkəcək. Bu müddətə qədər isə Azərbaycan hədəfinə çatacaqdı.

Azərbaycan öz qazını Avropaya nəql etməyə başlayacaq. Bu isə Amerikanın maraqlarına cavab verir. Digər tərəfdən Bayden administrasiyası Azərbaycanın İsraillə əməkdaşlığını da nəzərə almaq məcburiyyətindədir.

## ŞUŞANIN AZAD OLUNMASI MÜHARİBƏNİ BİTİRDİ

Azərbaycan 44 gün çəkən müharibədə Ermənistanı və erməni separatçılarını məğlub etdi. Ermənistan ordusu Şuşa şəhəri üzərində nəzarəti itirdikdən sonra Dağlıq Qarabağın paytaxtı Xankəndini itirmək təhlükəsi ilə üzləşdi. Bundan başqa erməni separatçılarının Dağlıq Qarabağdakı qüvvələri mühasirəyə düşə bilərdi. Buna görə də Nikol Paşinyan təcili Rusiya prezidenti Vladimir Putinə müraciət etdi.

Əvvəlki bölmələrdə də yazdığım kimi, Rusiya müharibənin ilk günündən bölgəyə rusiyalı sülhməramlıların yerləşdirilməsini istəyirdi. Azərbaycan prezidenti İlham Əliyev bunun əleyhinə idi. İlham Əliyev xarici jurnalistlərin sülhməramlılarla bağlı sualına belə cavab vermişdi: "Sülhməramlılar gələcəkdə müzakirə olunmalıdır. Hazırda Ermənistanın silahlı qüvvələri Dağlıq Qarabağdan çıxardılmalıdır. Biz sülhməramlıların harada və necə yerləşdiriləcəyini və onların funksiyalarının nədən ibarət olduğunu bilmirik".

Rusiyanın, Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin oktyabrın 9-da Moskvadakı görüşündə sülhməramlılar mövzusu müzakirə olunmuşdu. Xarici işlər nazirləri arasında müzakirələr 11 saata yaxın uzandı. Azərbaycanın xarici işlər naziri müzakirə müddətində bir neçə dəfə Bakıya zəng etdi. Rəsmi Bakı sülhməramlıların bölgədə yerləşdirilməsi ilə razılaşmadı. Ancaq hiss olunurdu ki, Moskva rusiyalı sülhməramlıların Dağlıq Qarabağda yerləşdirilməsini istəyir.

Noyabrın 7-də Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Təyyub Ərdoğana zəng etdi. Bundan bir gün sonra Türkiyənin xarici işlər və müdafiə nazirləri Mövlud Çavuşoğlu və Hulusi Akar Bakıya gəldilər, İlham Əliyevlə görüşdülər. Nazirlər Putinlə Ərdoğan arasındakı telefon danışığının detalları barədə İlham Əliyevə məlumat verdilər. İlham Əliyev Putinin təklif etdiyi atəşkəsin mətni ilə tanış oldu. Ancaq atəşkəs bəyanatına qədər Şuşa işğaldan azad edilməli idi. Çünki, atəşkəs sazişi Şuşanın işğaldan azad olunmasına qədər imzalansaydı, Şuşa şəhəri erməni separatçılarının nəzarətində qalacaqdı. Buna görə də Azərbaycan ordusunun xüsusi təyinatlı bölməsi Şuşa uğrunda ağır döyüşlərə başladı. Azərbaycanın xüsusi təyinatlıları ağır silahlar olmadan üç istiqamətdən Şuşa qalasına dırmaşaraq azərbaycanlılar üçün tarixi və müqəddəs şəhəri azad etdilər. Bundan sonra Ermənistan hərbçiləri ağır vəziyyətə düşdülər. Nikol Paşinyan bundan sonra

erməni generallarla görüşdü və ona aydın oldu ki, müharibəni davam etdirə bilməyəcək. Bu vəziyyətdə Paşinyan Rusiyanın hazırladığı bəyanatı qəbul etmək məcburiyyətində qaldı.

## BİRGƏ BƏYANATDA NƏLƏR VAR?

Azərbaycan prezidenti İlham Əliyevin, Ermənistanın baş naziri Nikol Paşinyanın və Rusiya prezidenti Vladimir Putinin qəbul etdikləri bəyanatda bunlar var:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə pa-

ralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidməti Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

Əlbəttə, bu bəyanat ümumilikdə Azərbaycanın müharibədə qələbə çaldığını təsdiqləyir.

***Birincisi,*** Dağlıq Qarabağ ətrafındakı bütün rayonlar dekabrın 1-ə qədər boşaldılacaqdı və azərbaycanlılar bir müddətdən sonra bu bölgələrə qayıdacaqlar;

***İkincisi,*** Azərbaycanla Naxçıvan arasında quru yol açılacaq;

***Üçüncüsü,*** Azərbaycan ordusu işğaldan azad etdiyi ərazilərdə qalacaq, yəni ermənilər Hadruta və Xocavəndin azad edilmiş hissələrinə qayıda bilməyəcəklər;

***Dördüncüsü,*** Dağlıq Qarabağda ermənilərin yaşadığı ərazilər azaldı və bundan sonra onlar geniş ərazidə separatçı fəaliyyət apara bilməyəcəklər.

Buna baxmayaraq, Azərbaycan cəmiyyətində bəyanatla bağlı suallar da az deyil. Əsas odur ki, Azərbaycan cəmiyyətinin bir hissəsi rusiyalı sülhməramlıların Dağlıq Qarabağda yerləşdirilməsindən məmnun deyil. Çünki, vaxtilə məhz SSRİ və Rusiyanın Dağlıq Qarabağdakı hərbi bazaları erməni separatçılarına silah vermişdi. Erməni separatçıları həmin silahlarla etnik təmizləmə aparmış və Azərbaycan torpaqlarını işğal etmişdilər. Digər tərəfdən Gürcüstan və Moldovada rusiyalı sülhməramlılar var və bu ölkələrin ərazi bütövlüklərinin təminatına əsas təhlükədir.

Əlbəttə, imzalanan bəyanatda belə bir bənd var ki, tərəflərdən hər hansı biri beş ildən sonra Rusiya sülhməramlılarının bölgədən çıxarılmasını istəyərsə, onlar bölgəni tərk edəcəklər. Yəni Azərbaycan beş ildən sonra istəməsə, rusiyalı sülhməramlılar Dağlıq Qarabağdan çıxacaqlar. Rusiya Azərbaycanın Qəbələ bölgəsindəki hərbi bazasını tərk etmişdi. Deməli, Azərbaycan rusiyalı sülhməramlıların beş ildən sonra Dağlıq Qarabağdan da çıxarılmasına nail ola bilər. Digər tərəfdən Dağlıq Qarabağın ətrafında türkiyəli sülhməramlılar da olacaq. Məsələn, türkiyəli sülhməramlıların azərbaycanlı hərbçilərlə birgə Şuşada, Kəlbəcərdə və ya Ağdamda yerləşdirilməsi aktualdır. Başqa bu sual budur: Naxçıvanla Azərbaycanın materik hissəsini birləşdirən və Ermənistan ərazisindən keçən dəhlizi rusiyalı sülhməramlılar qoruyacaqlar. Azərbaycan beş ildən sonra rusiyalı

sülhməramlıların Dağlıq Qarabağdan çıxarılmasını istəsə, Naxçıvanla Azərbaycanın materik hissəsindəki dəhlizin təhlükəsizliyini kim təmin edəcək?

Dağlıq Qarabağdakı ermənilərə çətin olacaq. Erməni separatçıları Azərbaycanın 20 faiz ərazisini işğal etmişdilər. Ordumuz Azərbaycan ərazilərini azad etdikdən sonra ermənilər cəmi 7-8 faiz əraziyə nəzarət edəcəklər. Azərbaycanlı köçkünlər geri qayıtdıqdan sonra isə azərbaycanlıların sayı 700-800 min olacaq. Yəni Dağlıq Qarabağda yaşamaq istəyən 60 və ya 70 min erməni 800 min azərbaycanlının əhatəsində yaşayacaq. Digər tərəfdən azərbaycanlılar artıma meyillidirlər, ermənilərin sayı isə artmayacaq. Ona görə də məlum deyil ki, ermənilərin Dağlıq Qarabağda sayı nə qədər olacaq?

## ERMƏNİLƏR FÜRSƏTİ ƏLDƏN VERDİLƏR

Azərbaycan prezidenti İlham Əliyev müharibədən əvvəl Ermənistan hakimiyyətinə Dağlıq Qarabağda yüksək muxtariyyət təklif edirdi. Ermənistanın prezidentləri və indiki baş naziri bu təklifi rədd edir, Dağlıq Qarabağın "müstəqil" olacağını deyirdilər. Ermənilər Dağlıq Qarabağ ətrafındakı rayonları da boşaltmaq istəmirdilər.

Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan erməni cəmiyyətini inandırmaq istəyirdi ki, Azərbaycan və Türkiyə ilə barışmaq lazımdır. Ter-Petrosyan Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı "mərhələli həll" planını qəbul etmişdi. Ancaq İrəvandakı Qarabağ klanı onu devirdi. Levon Ter-Petrosyan onu devirənlərə dedi ki, "Biz bu gün mərhələli həll planını qəbul etməsək, gələcəkdə bizə bundan da pis həll planını zorla qəbul etdirəcəklər". Belə də oldu. Bu açıqlamadan 22 il sonra Ermənistan hakimiyyəti özü üçün daha pis həll planını qəbul etmək məcburiyyətində qaldı.

Ermənistanı gələcəkdə nə gözləyir?

Ermənistan üçün Dağlıq Qarabağın itirilməsi böyük faciədir. Ermənilər elə bilirdilər ki, Azərbaycan öz torpaqlarının işğalı ilə barışacaq. Ancaq Azərbaycan öz ordusunu 30 il ərzində inkişaf etdirdi, müasir hərbi texnika aldı, buna on milyardlarla dollar xərclədi. Ermənistan ordusu isə köhnə SSRİ silahları ilə təhciz olunmuşdu. Bu yalnız Nikol Paşinyanın günahı deyildi. Nikol Paşinyandan əvvəlki prezidentlər Robert Köçəryan və Serj Sərkisyan da ordularını gücləndirmək üçün pul xərcləmirdilər. Ermənistan sadəcə Rusiyanın ona pulsuz verdiyi silah və hərbi texnika ilə kifayətlənirdi. Ermənistanın başqa ölkələrdən silah və hərbi texnika almaq üçün pulu yox idi.

Ermənistanın müharibə dövründəki müdafiə naziri David Tonoyan Ermənistanın məğlubiyyətini belə izah etdi: "Biz çox böyük bir qüvvəyə – super silahlı Azərbaycan ordusuna qarşı vuruşduq. Məndən "bəs siz niyə silahlanmadınız?" deyə soruşa bilərsiniz. Biz də silahlı idik, ancaq kəmiyyət və ehtiyatlar baxımından imkanlar qeyri-mütənasib idi". Tonoyan rus sülhməramlılarının yerləşdirilməsi ilə Qarabağ müharibəsinə son qoyulması barədə razılaşmanın ən yaxşı seçim olduğunu da bildirdi. Halbuki, Tonoyan Amerikaya səfəri zamanı Ermənistanın yeni ərazilər uğrunda Azərbaycana qarşı savaşacaqlarını iddia edirdi.

Ermənistan və ermənilər Dağlıq Qarabağ müharibəsindən dərs almalıdırlar.

***Birincisi,*** Ermənistan və ermənilər bundan sonra Dağlıq Qarabağ üçün "müstəqillik" tələb etməməlidirlər. Əks halda, bölgədə yenə də müharibə təhlükəsi alovlanacaq. Ermənistan növbəti müharibədə də məğlub olacaq.

***İkincisi,*** Ermənistanın qonşu Azərbaycan və Türkiyə ilə düşmənçiliyi bu ölkənin çətinliklərini daha da artıracaq. Əksinə, ermənilər Azərbaycan və Türkiyə ilə münasibətlərin qaydasına düşməsinə çalışmalıdırlar. Hökumət və ermənilər bunu edərlərsə, Ermənistan təhlükəsiz şəkildə inkişaf edər. Əlbəttə, Azərbaycan və Ermənistan 30 ildə iki dəfə müharibə etdilər, hər iki tərəfdən böyük itkilər oldu. Bunları unutmaq çətindir. Ancaq Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətlərini yaxşılaşdırmaqdan başqa yolu yoxdur. Əks halda, Ermənistan bir dövlət olaraq zəifləməyə davam edəcək.

## QƏRB KƏNARDA QALDI

Dağlıq Qarabağ münaqişəsinin həllində iki dövlət rol oynadı – Rusiya və Türkiyə. Minsk Qrupunun iki həmsədri – ABŞ və Fransa prosesdən kənarda qaldı. Ümumiyyətlə ATƏT-in Minsk Qrupu bundan sonra münaqişənin həllində passiv qaldı.

Mümkündür ki, ATƏT-in Minsk Qrupu həmsədrləri gələcəkdə Dağlıq Qarabağın statusunun müzakirələrində iştirak etsinlər. Ancaq rəsmi Bakı hazırda status müzakirələrində maraqlı deyil. Çünki Azərbaycan məsələni öz xeyrinə həll edib və mövcud vəziyyətdə Dağlıq Qarabağa status vermək fikrində deyil.

ATƏT-in Minsk Qrupu həmsədrləri Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllində iştirakını istəmirdilər. Ermənistan da Türkiyəni istəmirdi. Ancaq Türkiyə Azərbaycana dəstək verməklə münaqişənin həllində statusunu artırdı. Bundan sonra münaqişənin həllində Rusiya və Türkiyə rol oynayacaq. Türkiyə Cənubi Qafqazda daha da möhkəmləndi. Rusiya Suriya və Liviyada olduğu kimi Cənubi Qafqazda da Türkiyə ilə əməkdaşlıq edəcək.

Əslində Ermənistan Azərbaycana və Türkiyəyə qarşı düşmənçilik siyasətini dəyişsə, bu, regional əməkdaşlığa şərait yarada bilər. Ermənistanla Azərbaycan və Türkiyə arasında kommunikasiya xətləri açılması Ermənistanın iqtisadiyyatına müsbət təsir edəcək. Məsələn, prezidentlərin bəyanatındakı 9-cu bəndin icrası reallaşarsa, Gürcüstanın Cənubi Qafqazda nəqliyyat və kommunikasiya sahəsindəki rolu və tranzit gəlirləri azalacaq. Çünki, bundan sonra Rusiya Ermənistana yükləri yalnız Gürcüstan vasitəsilə deyil, həm də Azərbaycan ərazisindən göndərə biləcək, əksinə, ermənilər də Rusiyadan və başqa ölkələrdən yükləri Azərbaycan vasitəsilə də əldə edə biləcəklər. Həmçinin Türkiyədən Azərbaycana və əksinə yüklər Naxçıvan üzərindən daha çox daşınacaq. Gürcülər bu səbəbdən hər il 10 milyonlarla dollar və əvvəlki statusu itirəcəklər.

Bəyanatın 9-cu maddəsində deyilir ki, "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidməti Sərhəd Xidmətinin orqanları həyata keçirir".

Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Dağlıq Qarabağdakı hərbi əməliyyatların tamamilə

dayandırılması barədə birgə bəyanatı insan itkisinin dayandırılmasına kömək edəcək və bölgədə münaqişənin hərtərəfli həll yolu üçün ilk addım ola bilər. Bu barədə Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Josep Borrellin bəyanatında deyilirdi: "Hərbi əməliyyatların dayandırılmasını alqışlayıram. Çərşənbə axşamı Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanan atəşkəs daha çox insan itkisinin qarşısını alacaq və münaqişənin hərtərəfli həllinə ilk addım ola bilər".

Ukrayna da Dağlıq Qarabağ münaqişəsi regionunda hərbi əməliyyatların Azərbaycan və Ermənistan tərəfindən dayandırılmasını alqışladı. Bu barədə Ukrayna Xarici İşlər Nazirliyi bəyanat yaydı: "Hesab edirik ki, növbəti addım bölgənin sabitliyini və canlılığını bərpa etməklə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında tam həllinə nail olmaq üçün beynəlxalq səylərin davam etdirilməsidir. Ukrayna beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəyişməz olaraq və qeyd-şərtsiz dəstəkləyir".

## PUTİN VƏ NARIŞKİN AZƏRBAYCANA HANSI MESAJI GÖNDƏRDİLƏR?

Vladimir Putin 2020-ci il noyabrın 17-də "Rossiya" kanalına müsahibəsində Dağlıq Qarabağla bağlı xeyli detala toxundu. Birincisi, Putin Azərbaycan prezidenti və Ermənistanın baş naziri ilə telefon danışıqlarının məzmununu açıqladı. Paşinyanı tənqid etdi. Məlum oldu ki, Ermənistanın baş naziri oktyabrın ortalarında Kremlin sahibinə Şuşa uğrunda döyüşməyə davam edəcəklərini bildirib. Putin müsahibəsində demək istədi ki, Paşinyan oktyabrın ortalarında Bakı ilə atəşkəsə razılaşsaydı, Şuşa ermənilərin nəzarətində qalacaqdı.

Vladimir Putinin müsahibəsində Azərbaycan üçün də təhlükəli məqamlar az deyildi. Kreml sahibi Dağlıq Qarabağın "status-kvosunun" davam edəcəyini bildirdi. Bu o deməkdir ki, Dağlıq Qarabağdakı separatçılar və onların qanunsuz silahlı qüvvələri fəaliyyətlərini davam etdirəcəklər. Jurnalistin "Rusiya Dağlıq Qarabağı tanıya bilərmi" sualına isə cavabı belə oldu: "Biz Abxaziyanın və Cənubi Osetiyanın müstəqilliklərini tanıdıq, Krımın özmüqəddəratını

qəbul etdik...” Yəni Rusiya prezidenti bununla: “Rusiyalı hərbçilərə bir şey olsa, Azərbaycana çətinlik yarada bilərik”, – demək istədi. Cənubi Osetiyanın “tanınması” məhz sülhməramlılarla əlaqəli olmuşdu. Putin müharibə dövründə Ermənistana kifayət qədər silah və hərbi sursat göndərdiyini ilk dəfə açıqladı, müharibə zamanı hərbi tarazlığın Ermənistanın əleyhinə yönəlməməsi üçün bu ölkəyə hərbi texnika göndərdiyini dedi.

Putin Türkiyə haqqında da fikirlərini bildirdi. Rusiya prezidenti Türkiyənin sülhməramlı əməliyyatda iştirakının əleyhinə olduğunu vurğuladı. Putin bunu deyərkən ermənilərin etirazına istinad etdi: “Ermənilər ötən əsrin əvvələrindəki soyqırımı unutmayıblar”. Yəni Putinin sözlərinə görə, Türkiyə sülhməramlıları ermənilərə psixoloji təzyiq vasitəsi ola bilər. O, bunu istəmir. Ancaq Putin sözlərində Azərbaycan istəsə, Türkiyə hərbçilərini ərazisinin istədiyi hissəsində yerləşdirə biləcəyini də bildirdi. Rusiya ilə Türkiyə arasında tarixi düşmənçiliyin arxada qaldığını da sözlərinə əlavə etdi. Başqa sözlə demək istədi ki, iki ölkənin maraqları arasındakı fərqlərə baxmayaraq, ortaq fəaliyyət də az deyil.

Vladimir Putin həmçinin Dağlıq Qarabağın statusunun müzakirəsində digər iki həmsədrin – ABŞ və Fransanın fəallığının artmasını arzuladığını və bu əməkdaşlıqdan razı olduğunu da dedi. Ancaq Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin Qarabağ münaqişəsi ilə bağlı Qərb ölkələrini bu sözlərlə ittiham etdi: “Qərb Qarabağ razılaşmasını

pozmaq üçün erməni və azərbaycanlı millətçiləri qızışdırır. ABŞ və müttəfiqləri erməni və Azərbaycan xalqları arasında nifaq salmağa çalışır". Narışkinin digər fikri də maraqlıdır: "Qərb ölkələrinin rəsmiləri ermənilərə deyirlər ki, "sona qədər müharibəni aparmalı idiniz", azərbaycanlılara isə əksinə, bildirirlər ki, "Kreml sizin qələbənizi oğurladı, Stepanakertin bir addımlığındaydız".

İki sual yaranır.

**Birinci sual:** *Putinlə Narışkinin yanaşmasındakı fərq nə ilə bağlı idi?*

Putinin Qarabağla bağlı Amerika və Fransaya etirazı yoxdur, Narışkin isə hər iki dövlətə qarşı ciddi ittihamlar irəli sürdü. Görünür, Putin özünü daha dözümlü göstərməyə çalışır və demək istəyirdi ki, Vaşinqtonla Parisin Rusiyaya qarşı müxtəlif sanksiyalarına baxmayaraq, Dağlıq Qarabağın statusunun müəyyənləşməsində onlarla əməkdaşlıq etməyə hazırdır. Putin üçün əsas məsələ Rusiya sülhməramlılarını Azərbaycanda yerləşdirmək idi. Buna nail oldu. Putinin Dağlıq Qarabağın status məsələsini Amerika və Fransa ilə birgə müzakirə etməyə hazır olması isə onun Türkiyəni bu iki dövlət vasitəsilə bölgədəki fəallığını azaltmaq məqsədi daşıyır. Yəni Putin Türkiyəyə qarşı özünün edə bilmədiyini başqalarının əli ilə həyata keçirməyə çalışır. Buna baxmayaraq, Putin Vaşinqton və Parisin təxribatlarını ölkəsinin baş kəşfiyyatçısı Narışkinin dili ilə səsləndirir. Bu dəfə isə Putin Narışkinin açıqlaması vasitəsilə Vaşinqton və Parisi Rusiyaya qarşı "pis əməllərdən" çəkindirməyə çalışır.

**İkinci sual:** *Narışkinin Qərb ölkələrinin rəsmiləri azərbaycanlılara deyirlər ki, "Kreml sizin qələbənizi oğurladı, Stepanakertin bir addımlığındaydız" ifadəsi nə dərəcədə həqiqətə uyğundur?*

Ermənistan hakimiyyətinin Fransaya bağlılığı məlumdur, Amerika ilə də sıx əlaqələr qurmağa çalışırlar. Yəni Vaşinqton və ya Paris Paşinyanı və ya gələcəkdə onun yerinə gələcək şəxsi qızışdıra bilər. Ancaq Vaşinqton və Paris rəsmi Bakını niyə qıcıqlandırsın? Tam əksinə, Vaşinqton və Paris müharibənin ilk günündən bizə mane olmağa çalışırdı, Azərbaycana qarşı təxribatlardan əl çəkməyib. Ona görə də Qərb ölkələrinin rəsmilərinin bizə "sona qədər getməli idiniz" deməsi inandırıcı deyil. Narışkin sadəcə həmişəki kimi Ermənistanla Azərbaycan arasında tarazlıq yaratmağa çalışıb, yəni Qərb ölkələri həm erməni, həm də guya azərbaycanlı millətçilərə müraciət ediblər.

Beləliklə, Putin Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ancaq Azərbaycanın Dağlıq Qarabağdakı ermənilər üzərində nəzarətini istəmir. Azərbaycan cəmiyyəti bir qrup sualın cavabını axtarır:

- *Dağlıq Qarabağdakı ermənilər Azərbaycan qanunlarına tabe olacaqlarmı?*
- *Dağlıq Qarabağ erməniləri Azərbaycan pasportu daşıyacaqlarmı?*
- *Dağlıq Qarabağın büdcəsi necə formalaşacaq?*
- *Dağlıq Qarabağın silahlı qrupları tərksilah olacaqmı?*
- *Azərbaycan vətəndaşları Xankəndi yolundan istifadə edə biləcəklərmi?*

## LAVROV TƏHLÜKƏDƏN DANIŞDI

Vladimir Putin noyabrın 20-də Dağlıq Qarabağda humanitar missiya ilə bağlı müşavirə keçirtdi. Müşavirədə baş nazirin müavini Aleksandr Novak, müdafiə naziri Sergey Şoyqu, xarici işlər naziri Sergey Lavrov, fövqəladə hallar naziri Yevgeni Ziniçev, maliyyə naziri Anton Siluanov, Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikov və Dağlıq Qarabağdakı Rusiya Sülhməramlı Qoşunlarının komandanı Rüstəm Muradov iştirak etdilər.

Putin mövcud məsələlərin həlli üçün yaradılan Qurumlararası Humanitar Mərkəzdən xeyli danışdı. O, yeni heç nə demədi. Bu müşavirədə daha çox Rusiyanın xarici işlər naziri Sergey Lavrovun fikirləri diqqəti cəlb etdi: *"Təəssüflər olsun ki, Rusiya, Azərbaycan və Ermənistan dövlət başçılarının 9 noyabr tarixli üçtərəfli bəyanatının icrasını ləngitməyə, bu bəyanatın tam yerinə yetirilməsinə imkan verməməyə yönəlmiş bir tendensiya var. Hər kəs bunun uğurla həyata keçirildiyini etiraf etməyə məcbur olsa da, sülhməramlı əməliyyatın mahiyyətini dəyişdirmək cəhdlərini müşahidə edirik. Hələlik bu gizlidir, ancaq mövcuddur".*

Bəyanatı ləngidən tərəf bəllidir: Ermənistan. Ermənistan silahlı qüvvələri Kəlbəcərdən çıxmalarını 10 gün yubatdılar, ermənilər rusiyalı sülhməramlıların gözü qarşısında yaşayış yerlərini və meşələri yandırdılar. Ancaq adətən rusiyalı rəsmilər, o cümlədən Putin və Lavrov nəsə danışanda üçüncü dövlətlərə mesaj göndərirlər. Demək, Lavrovun "sülhməramlı əməliyyatın mahiyyətini dəyişdirmək cəhdləri var" deyərkən üçüncü dövlətlərdən hansınısa nəzərdə tutub.

Lavrov və Narışkin bir neçə gün əvvəl ABŞ və Fransanın adını çəkərək faktiki təxribatla məşğul olduqlarını demişdilər. Lavrovun və Narışkinin dediyi kimi, bu iki ölkə bəyanatın yerinə yetirilməsinə mane olmağa çalışırsa, bunu da ancaq dəstəklədikləri Ermənistan vasitəsilə həyata keçirə bilərlər. Bunun Azərbaycana nə dəxli var idi? Bir də, rusiyalı sülhməramlılar Dağlıq Qarabağda böyük səlahiyyətə sahibdirlər və kimsə onlara mane olmur.

## VAŞİNQTON VƏ PARİS MİNSK QRUPUNU DİRÇƏLTMƏK İSTƏYİR

Minsk Qrupu həmsədrləri Dağlıq Qarabağ münaqişəsini həll edə bilmədi. Həmsədrlər (ABŞ, Fransa və Rusiya) özlərinin hazırladığı "Madrid planı"nı Ermənistana qəbul etdirmədi. Nəticədə Azərbaycan qərarını verdi və işğalçını cəzalandırdı. Azərbaycan qalibdir. Əlbəttə, Fransa və ABŞ-da bu bəzi dairələri narahat etsə də, Ermənistanın məğlubiyyətindən çox da kədərlənmirlər. Onları əsas narahat edən Türkiyənin Cənubi Qafqazda artan roludur.

Müharibə getdiyi müddətdə danışıqlar prosesində əsas iki dövlət iştirak edirdi – Rusiya və Türkiyə. Məhz bu iki ölkənin rəsmiləri 44 gündə bir-birləriylə tez-tez telefon danışıqları apardılar və vəziyyətdən çıxış yolları axtardılar. İki həmsədrin – ABŞ və Fransanın faktiki oyundankənar vəziyyətdə qalması Rusiyanı da narahat etmirdi. Çünki, ABŞ və Fransanın Rusiyaya qarşı sayı bəlli olmayan sanksiya qərarı, münasibətlərində kifayət qədər çətinliklər var. Ona görə də Moskva müharibə müddətində Paris və Va-

şinqtonla hərəkət etməkdənsə Ankaraya ilə dialoqa ehtiyac duydu. Moskva anlayırdı ki, Azərbaycan Vaşiqnton və Parisin çağırışlarını eşitməyəcək, Bakı daima Ankara ilə təmas içində idi.

Buna baxmayaraq, Vaşinqton və Paris müharibə bitdikdən sonra "biz də varıq" deməyə başladı. Parisdə ABŞ-ın dövlət katibi Mayk Pompeo ilə Fransanın xarici işlər naziri Jan İv Le Drian arasında görüş oldu. Müzakirənin əsas mövzularından biri Dağlıq Qarabağ idi. Onlar əvvəlkitək həmsədrlik institutunun davamlı olmasının gərəkliyini vurğuladılar.

***Birincisi,*** ABŞ və Fransanın xarici siyasət idarələrinin başçıları atəşkəsin əldə olunmasında Rusiyanın addımlarını qeyd etdilər. Yəni Pompeo və Jan İv Le Drian Rusiyanın addımlarını dəstəklədiklərini demədilər, sadəcə "olan faktı qeyd etdilər". Yəni Vaşinqton və Paris qeyri-müəyyən ifadə ilə Rusiyanın atəşkəs uğurunu tərifləməkdən çəkindilər.

***İkincisi,*** ABŞ və Fransanın baş diplomatları sualların qaldığını, ən başlıcası isə Türkiyənin rolundan narahat olduqlarını açıq ifadə etdilər. Bu suallara Rusiyadan cavab istədilər. Rusiya hər iki həmsədr ölkənin təmsilçilərini məsələni aydınlaşdırmaq üçün Moskvaya dəvət etdi. ABŞ və Fransanın baş diplomatları açıq şəkildə Türkiyənin Şərqi Aralıq, Liviya və Suriyadakı siyasətindən narazı olduqlarını bildirdilər. Yəni onlar bununla Türkiyənin Cənubi Qafqazdakı və Azərbaycandakı fəallığının onları da narahat etdiyini demək istədilər. ABŞ təmsilçisi Türkiyənin bölgədə

hərbi imkanlarının artmasından narahat olduğunu da qeyd etdi, elə bil söhbət Vaşinqtonun NATO üzrə müttəfiqindən getmirdi.

***Üçüncüsü,*** ABŞ və Fransa təmsilçiləri danışıqların yenidən həmsədrlər çərçivəsində aparılmalı olduğunu bildirdilər. Rusiyanın da bunu istədiyi hiss olunurdu. Müharibə müddətində Ankara ilə sıx dialoq içərisində olan Moskva Türkiyənin Cənubi Qafqazda artan rolunu tarazlaşdırmaq üçün Vaşinqton və Parisin diplomatik imkanlarından istifadə etməyə maraq göstərə bilər.

Beləliklə, Fransa və ABŞ yenidən oyuna qayıtmaq istəyir. Ancaq meydanda hazırda iki əsas oyunçu var – Rusiya və Türkiyə. Əlbəttə, Ermənistan Fransa və ABŞ-ın oyuna qayıtmasını çox istəyir, çünki müharibə boyunca Vaşinqton və Parisdən öz xeyrinə açıqlamalar əldə edirdi. Əsas sual budur: Biz bu iki dövlətin yenidən danışıqlar prosesində rol almasını istəyirikmi? Rusiya onsuz da ermənilərin tərəfindədir, ona daha iki ermənipərəst mərkəzin qoşulmasından nə əldə edəcəyik?

# AMERİKA CƏNUBİ QAFQAZDA NƏYİ SƏHV ETDİ?

Amerikanın “The National Interest” jurnalı ölkə kəşfiyyatının Dağlıq Qarabağdakı müharibəylə bağlı üç səhvə yol verdiyini və bu səhvlərin ABŞ-ın bölgədəki rolunu azaltdığını yazıb.

***Birincisi,*** jurnalın gəldiyi qənaətə görə, Amerika kəşfiyyatı müharibənin başlanması ehtimalını nəzərdən qaçırıb: *“Amerika kəşfiyyatı Türkiyə-Azərbaycan hərbi ittifaqının planlarını düzgün hesablamayıb. Vaşinqton Azərbaycan ordusunun müharibə hazırlıqlarını diqqətə almayıb”.*

***İkincisi,*** Amerika kəşfiyyatı Rusiya sülhməramlılarının bölgəyə qəfil gəlişini planlaşdıra bilməyib: *“Amerika ATƏT-in Minsk Qrupuna ümid edərkən, Rusiya prezidenti Vladimir Putin yaranmış vəziyyətdən ölkəsinin maraqları üçün istifadə edib”.*

***Üçüncüsü,*** Amerika kəşfiyyatı Rusiya və Türkiyə prezidentlərinin razılaşmasından xəbərsiz olub: *“Rusiya və Türkiyə maraq dairələrini öz aralarında bölüşdürüb. Putin Türkiyənin Azərbaycana sülhməramlılar*

*göndərməsi, Ankara isə bunun əvəzində Rusiyanın İdlibdə fəallığının artması ilə razılaşıb".*

"The National Interest" jurnalının qənaətinə görə, səhvlər ucbatından Amerikanın bölgədəki maraqlarına ciddi zərbə dəydi: *"Nəticədə Ermənistan demokratiyası təhlükə altındadır, Rusiya və Türkiyənin Azərbaycanda mövqeləri isə güclənib".*

Jurnalın Amerika kəşfiyyatının xəbərsiz olması barədə iddiası şübhə doğurur. Amerika kəşfiyyatı əldə etdiyi məlumatlar əsasında müharibənin başlanacağı günü doğru hesablamışdı, əks halda ABŞ-ın Azərbaycandakı və Ermənistandakı səfirlikləri sentyabrın 26-da hər iki ölkədəki vətəndaşlarını ehtiyatlı olmağa dəvət etməzdi. Bir gün sonra Azərbaycan ordusu əks-hücum əməliyyatına başladı. Yəni Amerika kəşfiyyatı müharibənin başlanacağı tarixi müəyyənləşdirmişdi, sadəcə kəşfiyyatın hesabatını Ağ Evdə diqqətə almayıblar. Müharibə başlayanda Amerikada prezident seçkisi kampaniyasının ən qızğın dövrü idi, Cənubi Qafqaz və bölgədəki müharibə Ağ Evi maraqlandırmırdı. Ancaq jurnalın gəldiyi əsas nəticəylə razılaşmamaq olmur. Müharibənin nəticəsinə görə Cənubi Qafqazda iki ölkənin – Rusiyanın və Türkiyənin rolu və yeri artdı, Amerika prosesdən kənarda qaldı.

# ERMƏNİSTAN BAKIDA TERROR PLANLAŞDIRIRDI

ABŞ-ın Azərbaycandakı səfirliyi oktyabrın 25-də bəyanat yayımladı. Həmin bəyanatda bunlar yazılırdı:

"Abşeron J.W. Marriott" kimi otellər də daxil olmaqla, potensial olaraq Bakının digər yerlərində ABŞ vətəndaşlarına və xarici vətəndaşlara qarşı baş verə biləcək terror hücumları və qaçırmalar barədə etibarlı məlumatlar əldə edilib. Səfirliyin rəsmi saytında yer alan bəyanatda ABŞ vətəndaşlarına amerikalıların və ya əcnəbilərin toplaşa biləcəyi yerlərdə çox ehtiyatla davranmaları tövsiyə olunur.

- Ehtiyatlı və sayıq olun.
- Kütlənin çox olduğu yerlərdən yayının.
- Öz profilinizi büruzə verməyin.
- Ətrafınızdan xəbərdar olun.
- Xarici vətəndaşların sıx olduğu yerlərdə diqqətli olun.
- Yerli mətbuatı diqqətdə saxlayın.

Bəyanatda daha sonra yazılırdı ki, səfirlik təhlükəsizliklə bağlı vəziyyəti nəzərdən keçirməyə davam

edəcək və ehtiyac olduğu təqdirdə əlavə məlumat verəcək.

ABŞ səfirliyinin bəyanatından bir neçə gün əvvəl Azərbaycan Dövlət Təhlükəsizlik Xidməti də oxşar bəyanat yaymışdı.

Həmin bəyanatda bunlar yazılırdı:

"Dövlət Təhlükəsizliyi Xidmətinə daxil olmuş məlumatlara əsasən, Ermənistan xüsusi xidmət orqanları cəbhədə öz ordularının silsilə məğlubiyyətlərini ört-basdır etmək məqsədilə Azərbaycan Respublikasının böyük şəhərlərində insanların sıx cəmləşdiyi yerlərdə, ictimai nəqliyyatda terror-təxribat və digər pozuculuq aktlarını həyata keçirmək, bununla da keçən əsrin 80-ci illərin sonu və 90-cı illərdə Bakıda və ölkəmizin başqa yerlərində dinc əhaliyə qarşı törətdikləri mənfur və insanlığa sığmayan qanlı terror əməllərini təkrarlamaq niyyətindədir. Ermənistan dövlət səviyyəsində terroru dəstəkləyən və terror əməllərini həyata keçirən dövlətdir. Hazırda Ermənistan silahlı qüvvələrinin və xüsusi xidmət orqanlarının tərkibində Yaxın Şərq ölkələrindən gətirilmiş terrorçular xidmət edir. Vətəndaşları gündəlik həyat və iş ahəngini pozmadan və təşvişə qapılmadan ayıq-sayıq olmağa çağırır, yaşadıqları ərazilərdə şübhəli şəxslər, hərəkət və əşyalar barədə məlumatları (012) 405-99-99 nömrəli telefonla Dövlət Təhlükəsizliyi Xidmətinə, eləcə də yerli polis və digər hüquq-mühafizə orqanlarına bildirmələri xahiş olunur. Eyni zamanda son dövrlərdə erməni terror

təşkilatı olan ASALA-nın fəallaşdığını nəzərə alaraq, xarici ölkələrdəki Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və diplomatik heyəti, diaspora təmsilçilərini və ölkəmizə aid şirkətlər və onların əməkdaşlarını ayıq-sayıq olmağa və şübhəli hallar müşahidə edildikdə yerləşdikləri ölkələrin hüquq-mühafizə orqanlarına müraciət etməyi tövsiyə edirik".

ABŞ səfirliyinin və Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin bəyanatlarından bu qənaətə gəlmək olardı ki, erməni tərəfinin Bakıda terror aksiyası planlaşdırmasına dair ciddi kəşfiyyat məlumatı var. Bu məlumat o qədər diqqət cəlbedici idi ki, ABŞ səfirliyi terror aksiyasının həyata keçirilə biləcəyi məkanın yerini belə göstərmişdi – "Abşeron J.W. Marriott" oteli.

Azərbaycan cəmiyyəti ABŞ səfirliyinin bu xəbərdarlığını ciddi qəbul etdi. Çünki ABŞ səfirliyi sentyabrın 26-da yayımladığı əvvəlki xəbərdarlığında öz vətəndaşlarına Bakıdan kənara çıxmamağı tövsiyə etmişdi. Bu xəbərdarlıqdan bir gün sonra müharibə başlandı. Deməli, səfirliyin növbəti xəbərdarlığı da səhih kəşfiyyat məlumatlarına əsaslanırdı.

Azərbaycan ərazilərində 1980-ci illərin ortalarından başlayaraq ard-arda terror aksiyaları həyata keçirilib, avtobuslar və metro stansiyaları partladılıb, yüzlərlə insan həlak olub və hər dəfəsində terrorçuların izi Ermənistana gedib çıxıb. Erməni təşkilatların 100 illik böyük terror təcrübəsi var. Onlar 100 il əvvəl

Türkiyənin və Azərbaycanın dövlət xadimlərini, 70-ci və 80-ci illərdə türkiyəli diplomatları qətlə yetiriblər, hətta 1970-ci illərin sonlarında Moskvada dəmiryolu vağzalını partlatmaqdan çəkinməyiblər. Ermənistan müstəqillik qazandıqdan sonra terrora nəzarət işini bu ölkənin müvafiq dövlət strukturları həyata keçirməyə başlayıb.

44 günlük müharibə müddətində Bakıda terror aksiyası olmadı. Görünür, Ermənistandakı müvafiq strukturlar anladılar ki, Bakıda terror aksiyasi törətsələr bunun ünvanı hamıya bəlli olacaq və İrəvan Qərbin dəstəyindən məhrum olacaq. Çünki Bakıda hər hansı partlayış baş verərdisə, bütün dünya biləcəkdi ki, müharibə getdiyi müddətdə bunu ancaq bir ölkə – Ermənistan həyata keçirə bilər. Bu mənada müharibə günlərində Azərbaycan və Bakı üçün təhlükə sovuşdu. Ancaq Azərbaycan vətəndaşları hər zaman diqqətli olmalıdırlar. Ermənistanda müharibənin məğlubiyyətinə görə Azərbaycandan revanş götürmək istəyən qüvvələr var.

# PAŞİNYAN ÖZÜNÜMÜDAFİƏYƏ KEÇDİ

Ermənistanda müharibədən sonra qəribə vəziyyət yarandı. Ermənistan müharibədə məğlub oldu. Məğlubiyyətə görə məsuliyyəti baş nazir Nikol Paşinyan daşıyır. O, özü də bunu etiraf edib. Buna baxmayaraq, Paşinyanı ilk günlərdə istefaya göndərmək mümkün olmadı. Onun istefasının üç yolu var idi. Birinci yol Paşinyanın özünün istefa verməsiydi, ancaq o, bu addımı atmayacağını bəyan etdi. İkinci yol parlamentin Paşinyanı istefaya göndərməsiydi. Ancaq noyabr ayı boyunca bu da alınmadı, çünki qanunverici orqana nəzarət edən hakim partiya liderlərinin istefasının əleyhinə idi. Üçüncü yol Paşinyanı mitinqlər və küçə yürüşləri vasitəsilə istefaya məcbur etmək idi, ancaq bu da alınmadı, çünki mitinq və küçə yürüşlərinə çıxanların sayı getdikcə azalırdı. Bəzi hesablamalara görə, kapitulyasiyadan sonra Paşinyanın reytinqi azalsa da, əhalinin ən azı 30 faizi hələ də onu dəstəkləyirdi. 30 faiz Ermənistan üçün kiçik rəqəm deyildi.

Paşinyan ona altı ay vaxt verilməsini xahiş etdi. Yəni guya altı ayda ölkəni sabitləşdirəcək. Paşinyanın vaxt udmağa çalışdığı aydındır. Ermənistan kimi kasıb dövləti altı ayda qaydasına salmaq – iqtisadiyyatı düzəltmək, xeyli canlı itki verən, hərbi texnikasının böyük hissəsindən məhrum olan ordunu əvvəlki vəziyyətinə qaytarmaq fiziki və maliyyə baxımdan mümkün deyil. Paşinyan sadəcə altı ay ərzində Qarabağ itkisini Ermənistan cəmiyyətinə unutdurmağa çalışacaq. Əslində Ermənistan cəmiyyətinin bir hissəsi açıq dilə gətirib etiraf etməsə də, Qarabağ yükündən qurtulmaqdan daxilən razıdır. Ermənistan Dağlıq Qarabağa büdcədən pul ayırırdı, övladlarını təhlükəli bölgəyə göndərirdilər, üstəlik erməni qarabağlıların yekəxanalığı Ermənistandakıların narazılığına səbəb olurdu. Ona görə də bu cür düşünən ermənilər Paşinyandan imtina etmək istəmirlər. Düzünə qalsa, ağır kapitulyasiyadan sonra müxalifət də hakimiyyətə gəlmək istəmirdi. Müxalifətin noyabr ayı boyunca İrəvanda keçirdiyi mitinq və küçə yürüşləri gözə kül üfürmək idi. Qışqırıb-bağırsalar da, özləri də Paşinyanın hakimiyyətdə qalmasını istəyirdilər. Çünki müxalifət hakimiyyətə gəlib kapitulyasiya şərtlərini yerinə yetirməli olacaq.

Ermənistan müxalifəti dekabrın 5-də İrəvanın Azadlıq meydanında növbəti mitinqini keçirtdi. Aksiya iştirakçıları növbəti dəfə Nikol Paşinyanın istefasını tələb etdilər. Müxalifət baş nazir postuna Vazgen Manukyanı təklif etdi. O mitinqdə çıxış edərək

Ermənistanı vəziyyətdən çıxarmaq üçün "yol xəritəsi" hazırladığını dedi.

Vazgen Manukyan Ermənistanın keçmiş baş naziri və müdafiə naziri, SSRİ-nin son illərində Azərbaycana qarşı ərazi iddiası irəli sürən "Qarabağ" komitəsinin fəal üzvü olub. Prezident seçkisində Levon Ter-Petrosyanın əsas rəqibi kimi çıxış edirdi. Jurnalist işlədiyim illərdə – 1998-ci ildə Vazgen Manukyandan geniş müsahibə götürmüşdüm. Bircə onu deyə bilərəm ki, qatı millətçidir. "Yol xəritəsində" əsas müddəası odur ki, "beynəlxalq aləmdə Türkiyə və Azərbaycana qarşı blokun formalaşdırılmasını sürətləndirmək lazımdır". Yəni Manukyan ölkəsi üçün ağır vəziyyətdən çıxış yolu tapmaq əvəzinə, iki böyük qonşusuyla gərginliyin davamını təklif edib. Vazgen Manukyan Paşinyanı devirib nə edəcəkdi? Ermənistanın itirdiyi torpaqları geri qaytaracaqdı, yoxsa taqətdən düşmüş ordunun yenidən hücuma keçməsinə əmr verəcəkdi? Buna Ermənistanda heç kimin gücü çatmaz.

Ermənistanda Qarabağ klanının da nüfuzu qalmayıb. Onların nüfuzu birinci Qarabağ müharibəsinin qələbəsi üzərində formalaşmışdı. İndi nə keçmiş qələbə var, nə də həmin nüfuz. Ona görə də erməni cəmiyyətinin bir hissəsi hələ bir müddət Paşinyanla yola davam etmək istəyir. Bu bizim üçün də pis ssenari deyil.

Bu arada, Rusiyanın "RİA Novosti" agentliyi Ermənistan Müdafiə Nazirliyinin hərbi nəzarət xidmətinin keçmiş rəisi general-polkovnik Movses

Hakobyanın sözlərinə əsasən, bu dövlətin müharibə zamanı Azərbaycana qarşı "İskəndər" raket-taktiki kompleksindən istifadə etdiyini bildirdi: "Bu raketlərdən Azərbaycana qarşı istifadə edildi, amma hansı istiqamətdə olduğunu deyə bilmərəm". Erməni generalın, jurnalistlərin "hərbçilər "İskəndər"dən niyə istifadə etmədi" sualına, cavabı məsələyə aydınlıq gətirib.

Maraqlıdır ki, Amerikanın "The Drive" nəşri noyabrın 10-da Ermənistanla Azərbaycan arasında atəşkəs sazişinin bağlanmasından bir neçə saat əvvəl İrəvanın ilk dəfə "İskəndər" raketindən istifadə etdiyini bildirdi. Söhbət noyabrın 10-da Xırdalan üzərində neytrallaşdırılan raketdən gedir. Həmin raketi neytrallaşdırmaq mümkün olmasaydı, Bakıda mülki insanlar həlak olacaqdı. Bundan sonra Moskvanın hazırladığı atəşkəs sazişini imzalamağın mənası qalmayacaqdı. Raket mövzusu qaranlıq qaldı: Ermənistanın baş naziri Nikol Paşinyan noyabrın 10-da Rusiya prezidenti Vladimir Putinin şərtlərini qəbul etmişdisə, Bakıya raket atmağı niyə əmr edib? Bəlkə hansısa erməni general Paşinyanın acığına və ya ona etiraz olaraq Bakıya raket atıb?

Eyni gündə Ermənistanın Naxçıvanla sərhədində Rusiyanın helikopteri vuruldu. Həmin helikopter yanlış olaraq Azərbaycan hərbçiləri tərəfindən vuruldu. Ancaq bu hadisədə də bir neçə sual yarandı: Rusiyanın Ermənistandakı hərbi bazasına aid helikopter əvvəlcədən məlumat vermədən gecə vaxtı

Naxçıvanla sərhədə niyə bu qədər yaxınlaşıb? Rusiyanın Ermənistandakı hərbi bazası müharibə getdiyi həssas dövrdə sərhədə yaxın ərazidə uçuşlara ara verə bilməzdimi?

Beləliklə, 10 noyabrda təxminən eyni saatlarda üç hadisə baş verdi: Naxçıvanla sərhədə yaxın ərazidə Rusiya helikopteri vuruldu, Bakı səmasında haradan və kim tərəfindən atıldığı müəmmalı qalan raket zərərsizləşdirildi və üç ölkənin liderləri ortaq bəyanat imzaladılar. Bu üç hadisə arasında bağlılığın olub-olmadığı gələcəkdə də müzakirə mövzusu olacaq.

Başqa bir hadisə də diqqəti çəkdi. Müharibə bitdikdən və rusiyalı sülhməramlılar Dağlıq Qarabağda yerləşdikdən sonra separatçıların lideri Araik Arutunyan Moskvaya çağırıldı. Onun bu səfəri "gizli" kimi qələmə verildi. Ancaq bu necə gizli səfəriydi ki, Moskva hava limanında onun şəkli çəkildi və yayıldı, digər tərəfdən səfərdə onu müşayiət edənlərin kimliyi bəlliydi. Əksinə, Araik Arutunyan bu səfərdən özü məmnun qaldı. Onu Rusiyadakı müxtəlif strukturlar qəbul etdi və fikirlərini dinlədilər. Araik Arutunyanın Ermənistanın baş naziri Nikol Paşinyandan şikayət etmək üçün Moskvaya getdiyi xəbəri də ağlabatan deyildi. Bunu erməni saytlarından biri yaydı. Ancaq bu dezinformasiya da ola bilərdi. Çünki, Araik Arutunyan Moskvadan İrəvana qayıtdı və Nikol Paşinyanın rəhbəri olduğu "Mənim addımım" partiyasının nümayəndələri ilə görüşdü.

Araik Arutunyanın kimdən şikayət edib-etmədiyi az maraqlıdır. Əsas düşündürücü məsələ Araik Arutunyanın hansı məqsədlə Moskvaya getməsi, kimlərlə görüşməsi və onlarla hansı məsələləri müzakirə etməsiydi. Dağlıq Qarabağ separatçılarının lideri keçmiş illərdə beynəlxalq hüquqa zidd olaraq hansısa ölkəyə gedib kimlərləsə görüşəndə Azərbaycan Xarici İşlər Nazirliyi həmin ölkənin səfirini çağırar və ona etiraz notası təqdim edərdi. Bu dəfə isə separatçıların liderinin Moskvaya səfərinə etiraz edilmədi. Bu gedişat davam edərsə, gələcəkdə Araik Arutunyanı Vaşinqtona və Parisə də dəvət edəcəklər.

Bu arada, Ermənistanın hakimiyyət nümayəndələri özlərini alçaltmaqdan – hər məsələyə görə Moskvaya yalvarmaqdan yorulmadılar. Baş nazir Nikol Paşinyan müharibə günlərində Rusiya prezidenti Vladimir Putini telefon zəngləri ilə bezdirmişdi, Ermənistan prezidenti Armen Sarkisyan da növbəyə dayandı. Sarkisyan dekabrın 8-də Putinə məktub göndərdi.

Məktubun mahiyyəti bu idi ki, Sarkisyan Putinin Ermənistanla Azərbaycan arasında sərhədin müəyyənləşməsində yardım etməsini istəyirdi. Sarkisyan məktubunda müharibənin dayandırılmasına görə Putinə bir daha minnətdar olduğunu yazaraq sərhəd məsələsinə də toxundu: "Təəssüf ki, Ermənistanla Azərbaycan arasında sərhədin müəyyənləşməsində təhlükə yaradacaq mübahisələr yaranıb. Yeni gərginlik ocağının yaranmaması məqsədilə Sizin köməyinizə ehtiyacımız var".

Bir dəfə güzəştə gedib Rusiya sülhməramlılarının bölgədə yerləşməsinə razılıq verdik, sərhəd məsələsinə üçüncü dövlətin qarışmasına imkan verməməliyik. Ermənilər işğal altındakı əraziləri itirdilər, indi də sərhəddən nəsə qoparmağa çalışırlar. Buna imkan verə bilmərik.

Nikol Paşinyanın müharibədən sonra təyin etdiyi xarici işlər naziri Ara Ayvazyan da əvvəlkindən heç nə ilə fərqlənmədi, əksinə, məğlub olduqları halda, Azərbaycana qarşı dörd mənasız şərt irəli sürdü. Özündən böyüyə və güclüyə qarşı şərt irəli sürmək erməni siyasətçilərin "dəst-xəttinə" çevrilib.

Ara Ayvazyanın Moskvaya iki günlük səfəri (6-7 dekabr) və rusiyalı həmkarı Sergey Lavrovla görüşü tanışlıq məqsədi daşıyırdı. Nazirlər birgə mətbuat konfransında görüşdən və müzakirələrdən məmnun qaldıqlarını ifadə etdilər. Erməni nazir rusiyalı həmkarını İrəvana səfərə dəvət etdi. Görüşdə rusiyalı sülhməramlıların Dağlıq Qarabağdakı fəaliyyəti barədə də müzakirə aparıldı.

Erməni nazir Lavrovun əhatəsində Türkiyənin əleyhinə danışmağı da unutmadı: "Türkiyə silahlı qüvvələri və terrorçu dəstələri Dağlıq Qarabağdan və ümumiyyətlə Cənubi Qafqazdan çıxarmalıdır. Türkiyə Azərbaycanı Dağlıq Qarabağda müharibəyə başlamağa təşviq edib. Beynəlxalq aləm Türkiyəyə təzyiqi artırmalıdır. Türkiyənin bölgəyə gətirdiyi silahlı qüvvələrin bölgəni tərk etməsinə dair işarələr yoxdur. Əksinə, Azərbaycan həmin qrupları Dağlıq

Qarabağın işğal olunmuş bölgələrində yerləşdirməyə çalışır".

Hər cümləsi yalan!... Ermənistan rəsmiləri və diplomatları guya Azərbaycanın istifadə etdiyi "terrorçu dəstələr" ifadəsindən yapışıblar, ancaq ortada faktları yoxdur. Dağlıq Qarabağ və işğal altındakı digər ərazilərimizi məskunlaşdıran Ermənistan rəsmiləri yalandan deyirlər ki, Azərbaycan hardansa gətirdiyi qrupları bölgədə yerləşdirməyə çalışır. İşğaldan azad olunan şəhər və qəsəbələrimizdə kiminsə hardasa yaşamağa başlaya biləcəyi salamat ev qalıbmı? Bir də işğaldan azad olunan şəhər və qəsəbələrimizə qayıdacaq öz insanlarımız var. Sadəcə qayıdışa qədər həmin bölgələrdə evlər tikilməli və bütün infrastruktur işləri yekunlaşmalıdır.

Mətbuat konfransında jurnalistlərdən biri Ermənistanın Türkiyə ilə münasibətlərinin yaxşılaşması imkanlarına dair Ayvazyana sual verdi. Erməni nazir bu suala cavabında da əsl mahiyyətini ortaya qoydu: "Ermənistanda soyqırım qurbanlarının davamçıları yaşayır. Biz bu tarixlə yaşayırıq".

Yəni erməni nazir "tarixlərinin" Türkiyə ilə münasibətləri yaxşılaşdırmaqda onlara imkan vermədiyini demək istədi. Ermənistan hakimiyyəti "ənənəsindən" əl çəkmir. Ağır məğlubiyyətlə üzləşiblər, ordularını və gənclərini itiriblər, yenə də Azərbaycana və Türkiyəyə qarşı təxribatlarından qalmırlar. Ara Ayvazyan Moskvada Türkiyənin Cənubi Qafqazdan çıxmalı olduğunu bildirdi. Ermənistanın asılı olduğu Rusiya Türkiyə ilə

Qarabağda monitorinq mərkəzi yaradır, birgə patrul xidməti müzakirə olunur, üstəgəl Türkiyə hərbçiləri Azərbaycanda yerləşəcək və Moskva buna etiraz edə bilmir, erməni nazir isə deyir ki, beynəlxalq aləm Türkiyəyə təzyiq etsin. Amerika və Avropa Ankaraya təzyiq edib nəticə əldə etmirlərsə, erməniyə görə Türkiyəni Cənubi Qafqazdan necə çıxaracaqlar?

# TÜRKİYƏ VƏ RUSİYA AZƏRBAYCAN ÜZƏRİNDƏN ƏMƏKDAŞLIQ EDƏCƏK

Rusiya Dağlıq Qarabağa sülhməramlılarını göndərməsiylə bağlı planını müharibənin ilk günündən hazırlamışdı. Moskva bu planını oktyabrın ilk günlərindən gündəmə gətirməyə çalışdı. Ancaq bunun üçün həm Ermənistanın, həm də Azərbaycanın razılığı lazım idi, bunu rusiyalı rəsmilər də bir neçə dəfə səsləndirmişdilər. Azərbaycan ordusu oktyabrın ortaları üçün hələ ilk qələbələrini qazanmışdı, rusiyalı sülhməramlıların bölgəyə gəlişinə yaşıl işıq yandırmaq ümumi işin yarımçıq qalmasına səbəb ola bilərdi. İlham Əliyev isə açıq deyirdi ki, "Şuşa alınmadan işimiz yarımçıq qala bilər". Buna görə də rəsmi Bakı sülhməramlıların Dağlıq Qarabağda yerləşdirilməsinin hələ erkən olduğunu bildirirdi.

Prezident İlham Əliyev oktyabrın 29-da Rusiyanın "İnterfaks" agentliyinin əməkdaşının sülhməramlılarla bağlı sualına belə cavab vermişdi: *"Biz bu bəndə çatmamışıq. Regiona sülhməramlıların göndərilməsi nizamlamanın sonuncu mərhələsində, işğalın nəticələri*

*aradan qaldırılanda, işğal edilmiş ərazilər qaytarılanda, qaçqınlar Dağlıq Qarabağa qayıdanda planlaşdırılırdı. Bəli, erməni və azərbaycanlı əhalinin birgə yaşamasını təmin etmək üçün birinci mərhələdə ayırıcı qüvvələr lazım olacaq. Ancaq sülhməramlılar harada yerləşəcək, onların mandatı necə olacaq, şəxsi heyəti, sayı, silahları, funksiyaları nə olacaq, onların təhlükəsizliyini kim təmin edəcək? Buna görə də bütün bu məsələlərin çox diqqətlə öyrənilməsi tələb olunur və yalnız bundan sonra deyə bilərik ki, bəli, biz buna razıyıq və ya razı deyilik. Ona görə bu sual hələ tezdir".*

İlham Əliyevin bu müsahibəsindən 10 gün keçdikdən və Azərbaycan ordusunun strateji şəhər olan Şuşanı işğaldan azad etməsindən sonra rəsmi Bakı rusiyalı sülhməramlıların bölgədə yerləşməsinə razılaşdı.

Rəsmi Bakı rusiyalı sülhməramlıların bölgəyə gəlişinə uzun müddət etiraz edə bilərdimi? Çətin. Azərbaycanın döyüş meydanında qələbələri artdıqca Kremlin Bakıya təzyiqi artırdı. Müharibəni dayandırmaq və sülhməramlıları bölgəyə göndərməklə bağlı Kremlin mümkün arqumenti bu ola bilərdi: "Siz (*Azərbaycan* – **E.Ş.**) Dağlıq Qarabağ ətrafındakı rayonları azad etdiniz, üstəlik Dağlıq Qarabağın içinə daxil olaraq Şuşa və Hadrutu ələ keçirdiniz, ancaq ermənilərin sıx yaşadığı Xankəndi və ətrafına daxil olub məsələni tam olaraq öz xeyrinizə həll edə bilməzsiniz. Bu Rusiya üçün qırmızı xətdir". Kreml bu qərarı verərkən həm də ondan çıxış edirdi ki, Azərbaycan Cümhuriyyətinin mövcud olduğu 2 ili və

30 illik erməni işğalını çıxsaq, çar dövründən SSRİ-nin son illərinə qədər uzanan zaman kəsiyində Dağlıq Qarabağda hər zaman rus-sovet hərbçiləri olub. Kreml açıq-aşkar bu ənənəni davam etdirmək istəyirdi. Digər tərəfdən Dağlıq Qarabağda rus hərbçilərinin varlığı Kremlə Azərbaycana və Ermənistan təsir imkanlarını itirməməyə şərait yaradır.

Əlbəttə, Rusiya hərbçilərinin yenidən Azərbaycan ərazisinə – Dağlıq Qarabağa daxil olmaları uzaq və yaxın tariximiz baxımından bizdə bəlli məyusluq doğurdu. Ancaq siyasət mümkün olanın reallaşdırılmasıdır. Mövcud şərtlər daxilində mümkün olan həyata keçirildi. Azərbaycan prezidenti, Ali baş komandan İlham Əliyev şanlı ordumuzla birlikdə böyük nailiyyət əldə etdi, tarixi qələbə çaldıq, illər əvvəl xəyal etdiklərimizi 2020-ci ilin payızında reallaşdırdıq. Ancaq hələ yetəri qədər görəcək işlərimiz var, düzgün siyasi kombinasiyalar qurmalı, ağıl oyunlarında üstün olmalıyıq. Bunun ilk nümunələrini qələbədən sonra artıq müşahidə etməyə başlamışıq. Azərbaycan hərbçilərinin rusiyalı sülhməramlıların müşahidəsi altında ara-sıra Xankəndindəki marketlərdə alış-veriş etdiklərinə dair xəbərlər yayılır. Buna kimsə mane ola bilməz. Dekabrın 4-də alban-udi xristian icmasının nümayəndələri Kəlbəcərə gedərək Xudavəng monastırında ibadət ediblər. Buna da kimsə, hətta ordakı erməni keşişlər mane ola bilməzlər. Azərbaycan hərbçilərinin Xankəndiyə daxil olmaları və xristian vətəndaşlarımızın istədikləri vaxt Xudavəng monastı-

rında ibadət etmələri Azərbaycanın Dağlıq Qarabağa, o cümlədən Xankəndinə və ətrafdakı kilsələrə sahib olmasının özümüzə və beynəlxalq aləmə nümayişi və təsdiqidir.

Rusiya prezidenti Vladimir Putin 10 noyabr bəyanatından əvvəl Türkiyə Prezidenti Rəcəb Təyyub Ərdoğana telefon zəngi zamanı böyük ehtimalla türkiyəli həmkarını sənədin ana bəndləri ilə tanış etmişdi. Təsadüfi deyil ki, Ankara Bakı ilə paralel şəkildə imzalanan bəyanatı müsbət qiymətləndirdi.

Buna baxmayaraq, Rəcəb Təyyub Ərdoğan telefon danışığında Rusiya kimi türkiyəli hərbçilərin də bölgədə sülhməramlılar qismində iştirakının vacib olduğunu Kreml sahibinin diqqətinə çatdırdı. Putinin cavabı ermənilərin tarixdən çıxış edərək türkiyəli hərbçilərin Dağlıq Qarabağın daxilində yerləşməsindən qorxması yönündə idi. Onun sözlərinə görə, Ərdoğan vəziyyətini anlayıb və israr etməyib. Ancaq Putin daha sonra verdiyi müsahibədə sözlərinə Türkiyə ilə Azərbaycanın strateji müttəfiq, bunun onların hüququ olduğunu və Türkiyə hərbçilərinin Azərbaycanda varlığına mane ola bilməyəcəklərini əlavə etdi. Başqa sözlə, Türkiyə hərbçilərinin Şuşada, Laçında və ya Kəlbəcərdə yerləşməsinə heç kim və heç nə mane ola bilməz. Bu istiqamətdə işlər sürətlənib. Türkiyənin müdafiə naziri Hulusi Akar da hər dəfə Rusiya hansı hüquqla hərbçilərini Azərbaycan ərazisində yerləşdiribsə, Türkiyə hərbçilərinin də eyni hüquqla Azərbaycanın tərkib hissəsi olan Dağlıq

Qarabağda və ətrafında mövcud olacaqlarını, saylarının da rusiyalı hərbçilərin sayından az olmayacağını qeyd edirdi. Bundan başqa Türkiyə hərbçilərinin Suriyada olduğu kimi Dağlıq Qarabağda da rusiyalı hərbçilərlə birgə patrul xidmətində iştirakı təmin olunacaqdı. Türkiyə və Rusiya prezidentləri bu mövzunu noyabrın 24-də telefon danışığında yenidən müzakirə etdilər.

Türkiyə və Rusiya Dağlıq Qarabağda birgə fəaliyyət üzərindən bölgədə yeni əməkdaşlıq formatı üzərində fikir mübadiləsi aparırdılar. Türkiyə Prezidentinin təmsilçisi İbrahim Kalın "Twitter" hesabında yazdığı "Türkiyə Qafqazın ən yeni tarixində fəal rol oynamağa davam edəcək" cümləsi də bundan xəbər verirdi. Yaxın gələcəkdə Naxçıvan istiqamətində nəqliyyat və dəmiryolunun açılması Azərbaycanla Türkiyəni birləşdirməklə yanaşı Türkiyə ilə Rusiya arasında da quru və dəmiryolu birləşməsinə və ticarət mübadiləsinin artmasına şərait yaradacaq.

Ermənistan Azərbaycan torpaqlarına iddiasından və bir sıra Qərb ölkəsində Dağlıq Qarabağın "müstəqilliyini" tanıtmaq kimi təxribatlarından əl çəkərsə, bu ölkənin də gələcəkdə regional layihələrdən faydalanması mümkündür. Ancaq bunun üçün ermənilər yüzillərdir türk əleyhdarlığı düşüncə tərzinə son qoymalıdırlar. Ermənistan bu ağır xəstəlikdən qurtulmayınca əvvəlki kimi regional layihələrdən kənarda qalacaq.

## AZƏRBAYCAN-İRAN SƏRHƏDİ DOSTLUQ SƏRHƏDİNƏ ÇEVRİLƏCƏK

İran parlamentinin deputatı Əhməd Biqeş 2020-ci il dekabrın 2-də parlamentin iclasında sərt bəyanatla çıxış edərək Naxçıvanla Azərbaycan arasında dəhlizi tanımamağı tələb etdi. İranlı deputat Tehranı Türkiyənin Azərbaycanda möhkəmlənməsinə qarşı tədbirlər görməyə çağırdı: "Biz Türkiyəyə xidmət edəcək dəhlizi tanımırıq". Əhməd Biqeş İran parlamentini Türkiyənin regiona müdaxiləsinə qarşı çıxmağa və İranın regionda sərhədlərin coğrafi dəyişməsini və müvafiq dəhlizi tanımadığını rəsmən bəyan etməyə çağırdı.

İranlı deputatın naharatlığı aydın deyildi. Görünür, İranda bəzi dairələr hələ də Türkiyə-Azərbaycan strateji əlaqələrindən narahatdır. Həmin dairələrin nümayəndələri bunu açıq səsləndirməsələr də, qapalı müzakirələrdə Türkiyənin Azərbaycanla strateji əlaqələrinin möhkəmlənməsini tənqid edirlər. Ancaq bu əməkdaşlığın genişlənməsi İran üçün çətinlik yaratmayacaq. Əksinə, Türkiyənin Azərbaycanla strateji

əlaqələrinin gücləndirilməsi İran üçün də faydalıdır. Azərbaycan işğal altındakı torpaqlarını azad etdikdən sonra bölgədə üçtərəfli və dördtərəfli əməkdaşlıq imkanları artacaq. Bu əməkdaşlıq formatlarında İran da iştirak edəcək. Bundan əvvəl də Azərbaycan-Türkiyə-İran üçtərəfli əməkdaşlıq formatı mövcud idi bə format gələcəkdə işini daha da gücləndirəcək.

Azərbaycan prezidenti İlham Əliyev noyabrın 20-də xalqa müraciətində belə dedi: *"Mən ermənilərin silahları nə üçün İran üzərindən gətirə bilmədiklərini bilirəm. Çünki İran bizim dost, qardaş ölkəmizdir. Çünki bizim xahişimizi nəzərə alaraq öz hava məkanını bağlayıb. Çünki onların gəlib azərbaycanlıları öldürməyini istəməyiblər".*

Prezident İlham Əliyev oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində də bu mövzuya toxunmuşdu: *"İrandan Ermənistana silahların göndərilməsi ilə əlaqədar bizdə hər hansı bir məlumat yoxdur. Əksinə, deyə bilərəm ki, İran öz hava məkanını və quru yollarını Ermənistana silahların daşınmaması üçün bağladı. Buna görə biz İran hökumətinə bir daha təşəkkürümüzü bildirmək istəyirik".*

Qarabağ müharibəsinin davam etdiyi 44 gündə İranın mövqeyi rəsmi Bakını qane edirdi. Doğrudur, Tehranın Azərbaycanı yalnız sözdə dəstəklədiyini, əməldə kifayət qədər dəstək vermədiyini söyləyənlər də var idi, ancaq prezident İlham Əliyevin son açıqlamaları İranın Azərbaycana dəstəyinin yalnız sözdə olmadığını göstərdi. Prezident hətta İranın Azərbaycanı

silahla təmin etdiyini də bildirdi. Məsələn İlham Əliyev oktyabrın 14-də Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibəsində Azərbaycana silah satan ölkələr arasında İranın adını qeyd etdi: *"Biz Rusiyadan, İsraildən, Belarusdan, İrandan, Ukraynadan, Şərqi Avropa ölkələrindən, o cümlədən Türkiyədən silah alırıq"*.

İranın müxtəlif şəhərlərində Azərbaycanın qələbələrinə dəstək aksiyaları da diqqəti cəlb edirdi. Şuşanın azad edilməsi və Azərbaycanın İranla sərhədi nəzarətə götürməsi Təbriz, Ərdəbil və digər şəhərlərdə xüsusi sevinclə qarşılandı. İran sərhədindən Azərbaycan ordusunun işğalçılara zərbələr endirilməsinin Arazın o biri tayından izlənilməsinə dair görüntülər internetdə populyarlıq qazandı.

Bu arada, İran hərbi komandirləri də ikinci Qarabağ müharibəsində Azərbaycana dəstəklərini bildirdilər. Buna misal olaraq İslam İnqilabı Keşikçilər Korpusunun (SEPAH) quru qoşunları komandanı general Məhəmməd Pakpurun açıqlamasını xatırlatmaq olar: *"İran həmişə Azərbaycan torpaqlarının işğaldan azad olunmasını arzulayırdı və indi bu hadisə baş verdiyinə görə sevinirik"*. Sepah generalı İranın Qarabağdakı terrorçularla mübarizəyə hazır olduğunu da sözlərinə əlavə etdi. Bu açıqlamanı SEPAH-ın digər generalı Rəhim Noyi Əqdəm də təsdiqlədi: *"Bakı kömək üçün Tehrana müraciət edərsə, döyüşçülərimiz Azərbaycan tərəfindən döyüşməyə hər zaman hazırdılar"*.

Müharibə dövründə İranın ali dini lideri Seyid Əli Xamneyinin xarici siyasət məsələləri üzrə müşaviri Əli Əkbər Vilayəti açıqlamasında Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmalı olduğunu dedi: *"Bütün ölkələrin ərazi bütövlüyünə hörmət edilməsi BMT Nizamnaməsinin əsas prinsiplərindən biridir və biz də təşkilatın üzvü olaraq, ona sadiq qalırıq. Azərbaycanın yeddi rayonu Ermənistan tərəfindən işğal edilib. BMT Təhlükəsizlik Şurası bununla bağlı dörd qətnamə qəbul edib ki, onların hər birində Azərbaycanın bu bölgələrinin işğaldan azad edilməsi tələb olunur. BMT-nin üzvü olaraq Ermənistanın işğal edilmiş əraziləri Azərbaycana qaytarmasını tələb edirik. Bu ərazilərin işğalı nəticəsində bir milyondan çox azərbaycanlı köçkün düşüb. Onlar tezliklə vətənlərinə qayıtmalıdırlar".* Daha sonra dini liderin özü də məsələyə bu sözlərlə münasibət bildirdi: *"Ermənistan tərəfindən zəbt edilmiş ərazilərin azad edilməsi zəruridir. Məlumdur ki, bu ərazilər Azərbaycanındır və Ermənistan tərəfinin zəbt etdiyi Azərbaycan Respublikasının bütün əraziləri azad edilməli və Azərbaycana qaytarılmalıdır. Azərbaycan Respublikası bu məsələdə haqlıdır".*

Prezident İlham Əliyev bu açıqlamalardan sonra "CNN Türk" televiziyasına 7 oktyabr müsahibəsində İran haqqında bunları dedi: *"İran rəsmiləri Azərbaycanın haqq işini dəstəklədilər. İranın rəsmi şəxsləri açıqlamalar verdilər ki, işğala son qoyulmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim köçkünlərimiz öz torpaqlarına qayıtmalıdırlar. Bu da ədalətli mövqedir".*

Bəlkə də elə bu səbəbə görə, Prezident Administrasiyasının hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev və Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev birinci Qarabağ müharibəsinə aid bəzi sirləri mətbuata açıqlayaraq, İran topçularının müharibədə Azərbaycana kömək məqsədi ilə dəstəyindən danışdılar: *"Biz unutmamalıyıq ki, hələ birinci Qarabağ müharibəsində Naxçıvan Ermənistan tərəfindən blokadada saxlanılanda, İran tərəfi xilas körpüsü açdı, xalqın çətin, ağır vəziyyətdən çıxması üçün həyati vacib addımlar atdı".*

Beləliklə, müharibədən sonra Azərbaycan-İran münasibətlərində yeni səhifə açılır. Təsadüfi deyil ki, İlham Əliyev noyabrın 16-da işğaldan azad edilmiş İranla sərhəd rayonlara gedərkən belə bir ifadə işlətdi: *"Araz çayı üzərindən keçən Azərbaycan-İran sərhədi dostluq sərhədinə çevrilib".*

İranın Qarabağ müharibəsində Azərbaycana verdiyi dəstək Ermənistanda narazılıqla qarşılandı. Ermənistanın baş naziri Nikol Paşinyanın bir neçə il əvvəl İrana etdiyi rəsmi səfərin əhəmiyyəti qalmadı. Paşinyana müxalif olan qüvvələr də İranın Ermənistandan üz çevirdiyini bildirirlər. Bu Azərbaycanın maraqlarına uyğundur. Bundan sonra İranla Azərbaycan arasında həm ikitərəfli, həm də regional səviyyədə əməkdaşlıq genişlənəcək. Regional əməkdaşlıqda Azərbaycan və İranla yanaşı Rusiya və Türkiyə də iştirak edəcək.

# AZƏRBAYCAN AVRASİYA İQTİSADİ BİRLİYİNƏ ÜZV OLA BİLƏRMİ?

Rusiya hakimiyyəti Nikol Paşinyanı Qərbin və məşhur iş adamı Corc Sorosun adamı sayır. Belə rəylər var ki, Moskva Azərbaycan vasitəsilə Paşinyanı cəzalandırmaq istəyirdi. Moskvada hesab edirdilər ki, Paşinyan Dağlıq Qarabağda Azərbaycana məğlub olarsa hakimiyyətini itirəcək. Digər tərəfdən Rusiya Türkiyə faktorunu nəzərə alırdı. Türkiyə Rusiyanın Azərbaycana təzyiqlərini neytrallaşdırırdı.

Buna baxmayaraq, Azərbaycan ordusu strateji əhəmiyyətli Şuşanı azad etdikdən sonra Rusiya Azərbaycanı dayandırmağa qərar verdi. Çünki, Azərbaycan ordusu Şuşadan sonra Dağlıq Qarabağı tamamilə azad edəcəkdi. Rusiya bunu istəmirdi. Ancaq Rusiya Azərbaycanın bütün şərtlərini qəbul etdi. Dekabrın 1-ə qədər Dağlıq Qarabağ ətrafındakı bütün rayonlar (Laçın, Kəlbəcər, Ağdam) Azərbaycana qaytarıldı. Bunun əvəzində isə rəsmi Bakı Rusiya sülhməramlılarının Dağlıq Qarabağda yerləşdirilməsinə razılıq vermək məcburiyyətində

qaldı. Hər halda rəsmi Bakının istəyi ilə Türkiyə ordusu da Azərbaycanda olacaqdı.

Müharibədən sonra Rusiya ilə Azərbaycan arasında münasibətlər inkişaf edə bilər. Keçmiş illərdə Azərbaycan Rusiyanın istəyi ilə Avrasiya İqtisadi Birliyinə qoşulmurdu. Çünki Azərbaycan işğalçı Ermənistanla eyni təşkilatda yer almaq istəmirdi. Azərbaycan Ermənistanla inteqrasiya proseslərində iştirak edə bilməz. İndi isə vəziyyət dəyişib. Azərbaycan öz torpaqlarını işğaldan azad edib. Bu baxımdan Moskva Azərbaycanı Avrasiya İqtisadi Birliyinə dəvət edə və Bakı buna müsbət yanaşa bilər. Halbuki, Azərbaycan Avropa İttifaqı ilə strateji sazişin imzalanmasını da istəyir. Yəni Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyü Avropa İttifaqı ilə inteqrasiya prosesinə mane ola bilər. Bu baxımdan rəsmi Bakı Avrasiya İqtisadi Birliyinə üzv olmamışdan əvvəl ciddi düşünməlidir.

Azərbaycanın Moskvanın istəyi ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyü isə mümkün deyil. Azərbaycan Türkiyə ilə hərbi ittifaqı gücləndirir. Türkiyə isə NATO ölkəsidir. Ola bilsin, Azərbaycanda Türkiyənin hərbi bazaları yerləşdirilsin. Bu səbəbdən Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında üzvlüyü mümkün deyil. Digər tərəfdən Rusiya sülhməramlıları Dağlıq Qarabağda erməni separatçılarının lideri Araik Arutunyanla tez-tez görüşür və şəkil çəkdirirlər. Bu Azərbaycan cəmiyyətini ciddi narahat etməyə başlayıb.

## ERMƏNİSTAN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ TANIYARSA...

Vaxtilə Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan Azərbaycan və Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq, Dağlıq Qarabağ münaqişəsini "mərhələli həll" planı əsasında həll etmək istəyirdi. Bu Azərbaycan üçün də məqbul idi. Ancaq Ermənistandakı "Qarabağ klanı" Levon Ter-Petrosyanı devirdi və Robert Köçəryan prezident oldu. O isə "mərhələli həll" planını qəbul etmədi. Münaqişə 1990-cı illərin ortalarında həll olunsaydı, Azərbaycanla Ermənistan arasında kommunikasiya xətləri açılacaq, neft və qaz boru xətləri Gürcüstandan deyil, daha qısa məsafə olan Ermənistandan keçəcəkdi. Gürcüstan son 20 ildə bu layihələrdən milyardlarla dollar qazanc əldə edib. Halbuki, həmin qazanc Ermənistana çata bilərdi. Ancaq Ermənistanda hakimiyyətə gələnlər Azərbaycan torpaqlarının işğalını davam etdirdilər. İki ölkə arasında düşmənçilik davam etdi. Ermənistan elə bilirdi ki, Azərbaycan torpaqlarının işğalı üzərində ermənilər üçün xoşbəxt gələcək quracaq. Ancaq qonşu dövlətin

torpaqlarının işğalı üzərində xoşbəxt gələcək qurmaq mümkün deyil. Azərbaycan müharibəyə hazırlaşmaq məcburiyyətində qaldı.

Levon Ter-Petrosyan istefa verən gün belə bir açıqlama vermişdi: "Mən sülh planını qəbul etmək istəyirdim, bu Ermənistana faydalı olacaqdı. İmkan vermədilər. Bir gün gələcək Ermənistana bundan da pis sazişi qəbul etdirəcəklər". Bu açıqlamadan 22 il keçəndən sonra Levon Ter-Petrosyanın proqnozu doğru çıxdı. Noyabrın 10-da Ermənistan Azərbaycana məğlub oldu və kapitulyasiya sənədini imzaladı. Ermənistan daha ağır şərtləri qəbul etmək məcburiyyətində qaldı.

Buna baxmayaraq, Ermənistanın Azərbaycanla münasibətlərini qaydasına salmaq üçün yenidən yaxşı imkan yaranıb. Ancaq bunun üçün Ermənistan gərək Azərbaycan torpaqlarına iddiasından əl çəksin. Azərbaycanda yaşayan ermənilərə hər cür şərait yaradılacaq, dağıdılmış şəhərlər, qəsəbələr bərpa olunacaq. Ermənilər Azərbaycanda yaşayan digər xalqlarla eyni hüquqlara malik olacaqlar. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyarsa, Azərbaycan Ermənistanla kommunikasiya xətlərini açmağa hazır olacaq. Bu halda Türkiyə də Ermənistanla sərhədi açacaq və diplomatik münasibətlər quracaq. Ermənistanın regional layihələrə qoşulmaq imkanı da artacaq. Ancaq bütün bunların baş verməsi üçün erməni cəmiyyətinin azərbaycanlılara və türklərə nifrət hissindən qurtulması vacibdir. Əks halda Ermə-

nistanın Azərbaycan və Türkiyə ilə düşmənçiliyi davam etdirməsi Ermənistanın çətinliklərini daha da artıracaq.

Ermənistanın keçmiş baş naziri Hrant Baqratyan son açıqlamasında faktiki işğal altındakı Azərbaycan torpaqlarında bu illər ərzində qarətlə məşğul olduqlarını etiraf etdi, müharibəyə qədər Qarabağda təxminən 100 min ton buğda yığıldığını, bir neçə su elektrik stansiyasının işlədiyini, indi isə həm taxıl sahələrinin, həm də su elektrik stansiyalarının əhəmiyyətli hissəsinin Azərbaycanın nəzarətinə keçdiyini dedi.

Hrant Baqratyan indiki hökuməti bu sözlərlə tənqid edib: *"Mövcud hakimiyyətin yarıtmaz siyasətinə görə Ermənistan Dağlıq Qarabağı buğda və elektrik enerjisi ilə təmin etməli olacaq. Halbuki, Dağlıq Qarabağda ildə yığılan 100 min ton buğda Ermənistanın buğdaya olan tələbatının 25 faizini ödəyirdi. Buğda tarlalarının əksəriyyəti Azərbaycanın nəzarətinə keçdi. İndi bu yüz min ton buğda Ermənistandan Qarabağa tədarük edilməli olacaq. Eyni məsələlər elektrik enerjisi təchizatında da ortaya çıxacaq. Azərbaycan ordusu yalnız bir rayonda üç su elektrik stansiyasına sahib olub. Deməli, Qarabağın elektrik enerjisi təchizatını da Ermənistandan təmin etmək lazım gələcək. Bundan əlavə, bir neçə böyük müəssisə Azərbaycanın nəzarətinə keçib".*

Bu açıqlama Ermənistanın illərdir Azərbaycan ərazilərindəki zənginlikləri talamasının daha bir sübutudur. Hrant Baqratyan hələ Ermənistanın Kəlbəcərin

və Zəngilanın yeraltı sərvətlərindən milyonlarla və bəlkə də milyardlarla dollar əldə etdiyini demədi. Məsələnin başqa tərəfi də var. Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan qanunlarına riayət etmələrini və Azərbaycan pasportunu daşımalarını tələb ediriksə, bu bölgənin Ermənistan iqtisadiyyatı ilə bağlılığına da son qoymalıyıq. Dağlıq Qarabağda tədavüldə manat olmalı, büdcəsi, gəlirləri və xərcləri Bakı ilə razılaşdırılmalıdır.

Bu arada, Rusiya sülhməramlılarının komandirlərindən birinin bölgədə olan "Kommersant" qəzetinin əməkdaşına müsahibəsi diqqəti çəkdi. Həmin komandir müsahibə üçün yuxarı komandanlığın icazəsinin gərəkliyini bildirsə də, jurnalistə açıqlama verməkdən imtina etmədi. Birincisi, rus komandir rusiyalı sülhməramlıların məqsədinin bölgədə xristianları, yəni erməniləri və xristian abidələri qorumaq olduğunu dedi. İkincisi, neytral qalsalar da, erməni tərəfə rəğbət bəslədiklərini bildirdi. 1990-cı illərin sonlarına qədər Dağlıq Qarabağda mövcud olan SSRİ hərbi bazasının komandir heyəti də erməni separatçılarını eyni düşüncəylə silahlandırmışdı.

Göründüyü kimi, bizi gələcəkdə müxtəlif problemlərin həlli gözləyir. İşğal atındakı ərazilərimizin mütləq əksəriyyətini azad edib dünyaya gücümüzü göstərdiksə, digər məsələləri də həll edə biləcəyimizə inanıram.

# QARABAĞ AZƏRBAYCAN İQTİSADİYYATINA NECƏ FAYDA VERƏCƏK?

İşğaldan azad olunan rayonların yenidən bərpası və dirçəldilməsinin Azərbaycan iqtisadiyyatında əhəmiyyətli payı olacaq. Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin əsas məqsədi bərpa işlərinin koordinasiyası və məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması üçün şəraitin yaradılmasını təmin etməkdən ibarət olacaq.

1994-cü ildə uğurlu Horadiz əməliyyatından sonra Füzuli rayonunun 42 yaşayış məntəqəsinə həyat verildi. 2016-cı ilin aprelində hərbi qələbədən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi – "Böyük qayıdışın başlanğıcı" nöqtəsi oldu. Bu kənddə iş yerləri və sosial xidmətlər yüksək səviyyədə təmin olunub. Artıq Tərtər rayonunun yenicə azad olunan Suqovuşan və Talış kəndlərinə gedən 29 kilometrlik avtomobil yollarının bərpası başlayıb.

1988-1993-cü illərdə işğal olunmuş ərazilərdə erməni işğalçıları tərəfindən aparılan etnik təmizləmə

siyasəti nəticəsində ümumilikdə 900 yaşayış məntəqəsi, 150 min yaşayış evi və mənzil, 6 minədək sənaye, kənd təsərrüfatı və digər müəssisələr tam şəkildə sıradan çıxarılıb və dağıdılıb, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 798 səhiyyə obyekti, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb, soyğunçuluğa məruz qalıb. Bundan əlavə, 280 min hektar meşə, 1 milyon hektara yaxın məhsuldar torpaqlar, o cümlədən 127 min 700 hektar suvarılan torpaq, 34 min 600 hektar üzüm və meyvə bağları sahəsi, 1200 kilometr irriqasiya sistemi işğalçıların əlinə keçib, işğal edilən ərazilərdən kənarda yerləşən 5 rayonda 120 min hektar əkinəyararlı torpaq sahəsi suvarılmamış qalıb və praktiki olaraq təsərrüfat dövriyyəsindən çıxarılıb. İşğalçılar tərəfindən 220 min baş iribuynuzlu mal-qara aparılıb. İndi əsas məqsəd yaxın illərdə bütün bunların bərpası olacaq. Bundan əvvəl itkilərin miqyası hesablanmalıdır. İtki və tələfatların ümumi dəyəri 820 milyard dollar səviyyəsində olub. Ərazilərin işğal altında saxlanılması Ermənistana ciddi iqtisadi fayda gətirməyib. Həmin ərazilərin yeraltı və yerüstü təbii ehtiyatlarla zəngin olmasına, əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və başqaları kimi çox yayılan faydalı qazıntılara malik olmasına, habelə geniş kurort-rekreasiya potensialına malik olmasına baxmayaraq, Ermənistan bu imkanlardan heç zaman tam faydalana bilməyib.

***Birincisi,*** "AzerGold" QSC və Azərbaycan Sənaye Korporasiyası işğaldan azad olunan ərazilərdə ehtiyatların hasilatı və emalını həyata keçirə biləcək. Bu bölgədə dağ-mədən sənayesinin, eləcə də metallurgiya kompleksinin yüksəlişini təmin etmək mümkündür.

***İkincisi,*** işğaldan azad olunan ərazilərdə "tikinti bumu" gözlənilir. Tikinti tenderlərinə xarici ölkələrin şirkətlərini də cəlb etmək mümkündür. Bunun həm də siyasi mənası olacaq. Nə qədər çox xarici şirkət işğaldan azad olunan rayonların bərpasında iştirak etsə, bu həmin şirkətlərin təmsil etdiyi ölkələrin Dağlıq Qarabağ məsələsində Azərbaycana dəstəyini göstərəcək. Məsələn, İtaliya şirkətləri bərpa işlərinə maraq göstərirlər. İtaliya Avropada Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Avropa ölkələrindən, dağıdılan Ağdam şəhərini ilk ziyarət edən, məhz İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyəti oldu.

***Üçüncüsü,*** ilkin hesablamalara görə, qarşıdakı illərdə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında əsas sahələr üzrə məhsulun ümumi buraxılışı 2 milyard manatdan çox arta bilər.

***Dördüncüsü,*** işğal olunmuş ərazilər işğaldan əvvəl Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi. Azərbaycan işğaldan azad olunan torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük imkanlara sahibdir. Eyni zaman-

da, burada emal və ərzaq sənayesinin inkişaf imkanları var. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinin təminatına ciddi töhfə verəcək. Xüsusən də heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq. Hazırda ölkəmizdə özünütəminetmə səviyyəsi ət və ət məhsulları üzrə 82,5 faiz, süd və süd məhsulları üzrə 86,2 faizdir. Proqnozlara görə, işğaldan azad edilən ərazilərdə təsərrüfat fəaliyyəti bərpa ediləndən sonra bu məhsullarla özümüzü tam təmin edə biləcəyik. Azərbaycan kərə yağının 50 faizini, ət və ət məhsullarının 15 faizə qədərini xaricdən alır. Bu asılılıqdan qurtarmaq mümkündür. Həmçinin Azərbaycanda dənli bitkilər üzrə özünü təmin etmə səviyyəsi 70 faizə çatır. Torpaqlarımızın işğaldan azad olunması bizə imkan verəcək ki, bu sahədə də vəziyyəti yaxşılaşdıraq.

***Dördüncüsü,*** su ehtiyatlarının 72,7 faizi ölkə xaricində formalaşan Azərbaycanın işğal altında olan su ehtiyatlarına çıxışı əhəmiyyətlidir. Bu ehtiyatlardan həm içməli su, həm meliorasiya, həm də elektrik enerjisi istehsalı üçün istifadə ediləcək. Azərbaycan su ehtiyatlarını səmərəli idarə etməklə həm Ermənistanın Azərbaycana qarşı apardığı hidro müharibəyə son qoyacaq, həm də Ermənistanın özünə də nəzarət imkanı qazanacaq. Xüsusən də Kəlbəcər və Laçın rayonları şirin su ehtiyatları ilə zəngindir, hətta Ermənistanın şirin su mənbəyi olan Göyçə gölünü qidalandıran Arpa və Bərgüşad çaylarının da mənbəyi bu rayonlardadır.

***Beşincisi,*** Azərbaycan mineral su ehtiyatlarının 40 faizinə qədəri işğal altındakı torpaqlarda idi. Bu suların həm qablaşdırılaraq satılması, həm də bulaqların üzərində kurort-rekreasiya zonalarının yaradılması mümkündür.

***Altıncısı,*** işğal altındakı iki qoruq, dörd yasaqlıq və tarixi abidələrin əsasında turizmin inkişafı üçün böyük imkanlar var. Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasının turizm imkanları çox genişdir. Tibbi turizm üçün unikal imkanlar var. Bu bölgələrin turizm gəlirləri indiyədək bütün Azərbaycanın əldə etdiyi turizm qazanclarından çox ola bilər. Söhbət ən azı 1.5 milyard dollardan gedir.

## BAKI-XANKƏNDİ QATARI REALDIRMI?

Keçmiş SSRİ-də Bakı-Xankəndi (Stepanakert) qatarı işləyirdi. Bu qatardan həm azərbaycanlılar, həm də ermənilər istifadə edirdilər. Ancaq Dağlıq Qarabağ erməniləri 1980-ci illərin sonunda separatçılığa başladılar. Dağlıq Qarabağda vəziyyət gərginləşdi. Ermənistandan və Dağlıq Qarabağdan azərbaycanlılar qovuldular. Bundan sonra Bakı-Xankəndi qatarı fəaliyyətini dayandırdı.

Azərbaycan ordusu Ermənistan ordusunu məğlub etdi. Noyabrın 10-da Rusiya prezidentinin vasitəçiliyi ilə atəşkəs sazişi imzalandı. Ermənistan 28 il işğal altında saxladığı bölgələri Azərbaycana qaytardı. Bundan sonra kommunikasiya xətlərinin açılması mümkündür. Xüsusi komissiya noyabrın 22-də 30 il istifadəsiz qalan Xankəndi dəmir yolu vağzalına baxış keçirdi. Məlum oldu ki, təkcə relslər deyil, vağzal da tamamilə yararsız vəziyyətdədir.

Azərbaycan Dəmir Yolları Yevlax-Xankəndi dəmir yolunun Ağdam, Xocalı və Xankəndindən keçən yeni

qolunun inşasını müzakirə edir. Yeni xəttin uzunluğu 104 km olacaq. Xəttin Yevlax (final) - Bərdə - Köçərli - Təzəkənd - Ağdam - Əsgəran - Xocalı - Xankəndi (final) stansiyalarından ibarət olacağı ehtimal olunur.

Qarabağın dağlıq bölgəsinə dəmir yolu xəttinin çəkilməsi hələ Çar Rusiyasının dövründə planlaşdırılıb. Bakı-Tiflis-Yevlax dəmir yolunun Şuşaya qədər uzadılması qərara alınıb və yolun inşasına 1912-ci ildə başlanıb. Bu, Rusiya imperiyasında nadir rast gəlinən bir dəmir yolu olmalı idi. Amma çətin relyef tezliklə yolun inşası məsələsini gündəmdən çıxarıb. Dəmir yolunun inşası məsələsinə bir də sovetlər dövründə qayıdıldı. Ancaq bu dəfə Şuşa tikinti planından çıxarıldı. Demək olar, dəmir yolu planı tam dəyişdi – marşrutun Ağdam və Bərdədən keçməklə sonuncu stansiyasının Xankəndi olmasına qərar verildi. Xankəndinə gedən relslər 1942-ci ildə döşənib başa çatdı, amma bu yol, yəqin, müharibə səbəbindən rentabelli olmadı. 1960-cı illərdə bu xətt yenidən qurulmağa başlandı.

1962-ci ildə Bakıdan Yevlaxa gələn marşrut xətti Bərdəyə qədər uzadıldı. 1967-ci ildə isə bu bölgənin qatarla Bakıya getmək istəyən sakinləri artıq Ağdamdan yola düşə bilirdilər. 1978-ci ildə isə Bakıdan çıxan qatarın son stansiyası Xankəndi oldu. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndi məhz bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutur.

Ermənistan vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərə-

kətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

Dəmir və quru yolların açılmasına qədər təhlükəsizlik məsələləri həll olunmalıdır. Minalanmış ərazilər təmizlənməlidir. Bu müddətdə icmalar arasında münasibətlərin bərpasına da ehtiyac var. Kommunikasiya xətlərinin açılmasında Rusiya da maraqlıdır. Rusiya dəmir yolu vasitəsilə Azərbaycan üzərindən Ermənistan və Türkiyə ilə əlaqə yaratmaq istəyir.

## RUSİYA GÜRCÜSTANA NƏ TƏKLİF EDİB?

Dağlıq Qarabağdakı münaqişənin həlli Gürcüstanın siyasi dairələrində yaxından öyrənilir. İlk gündən Gürcüstan rəsmiləri münaqişə ilə bağlı fikirlərini bildirdilər. Tiflis Gürcüstan ərazisindən Ermənistana və ya Azərbaycana gedən hərbi texnikanın tranzit istifadəsinə icazə verməyəcəyini açıqladı. Müharibə sona çatdı və Tiflis yeni imkanları araşdırmağa başladı.

Rusiya Xarici İşlər Nazirliyi Qarabağla bağlı, xüsusən nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasına dair üçtərəfli razılaşmaların həyata keçirilməsinin bütün Zaqafqaziya dövlətləri üçün yeni imkanlar açdığına inanır. Gürcüstan Baş nazirinin xüsusi nümayəndəsi Zurab Abaşidze və Rusiya senatoru Qriqori Karasin 28 noyabrda keçirilən onlayn görüşdə Qarabağla bağlı üçtərəfli bəyanatı müzakirə etdilər. Bu danışıqlar hazırkı Rusiya-Gürcüstan qeyri-rəsmi dialoq mexanizmi çərçivəsində video formatında aparıldı. Onlarda hər iki ölkənin Xarici İşlər Nazirliklərinin və Nəqliyyat Nazirliklərinin nümayəndələri iştirak etdilər.

Tərəflər bir daha Qarabağla bağlı üçtərəfli bəyanatın vacibliyini qeyd etdilər. Bunun hərbi əməliyyatların dayandırılmasına və Dağlıq Qarabağ münaqişəsi zonasında vəziyyətin sabitləşməsinə şərait yaratmasına imkan yaratdığını qeyd etdilər. Bu üçtərəfli razılaşmaların, xüsusən nəqliyyat kommunikasiyalarının və iqtisadi əlaqələrin blokdan çıxarılmasına dair icrası, Gürcüstan da daxil olmaqla, bütün Zaqafqaziya dövlətləri üçün yeni imkanlar açır.

Danışıqlar zamanı ikitərəfli münasibətlərdə bir sıra praktik məsələlər ətrafında hərtərəfli fikir mübadiləsi aparıldı. Rusiya-Gürcüstan ticari-iqtisadi əlaqələrindən bəhs olundu. Siyasi mühitə və yeni koronavirus infeksiyasının pandemiyası ilə əlaqəli çətinliklərə baxmayaraq, Rusiyanın Gürcüstanın ikinci ən vacib xarici ticarət tərəfdaşı və Gürcüstan məhsullarının əsas idxalatçısı olaraq qaldığı qeyd edildi. Bu, ilk növbədə şəraba aiddir. Abaşidze və Karasin tərəflərin ikitərəfli əsasda təqdim etdikləri yük yol nəqliyyatı üçün icazə sayının artırılması imkanlarını da nəzərdən keçirdilər. Keçən ilin iyul ayında Gürcüstana hava sərnişindaşıma nəqliyyatına qoyulan müvəqqəti qadağanı nəzərə alaraq iki ölkə arasında hava trafikinin bərpası perspektivlərinə də toxundular. Ancaq Moskvanın şərtləri var. ***Birincisi,*** Moskva Gürcüstandakı anti-Rusiya təzahürlərinə son qoyulmasını tələb edir. ***İkincisi,*** Gürcüstanda Rusiya vətəndaşları üçün təhlükəsizlik təhdidlərinin itməsi. ***Üçüncüsü,*** COVID-19 pandemiyasının səbəb olduğu

sanitariya və epidemioloji vəziyyət hər iki ölkədə qaydasına düşməlidir. Tərəflər növbəti görüşün 2021-ci ilin birinci rübündə keçirilməsi və sanitariya və epidemioloji vəziyyətin təmin ediləcəyi təqdirdə Praqa əyani formatda keçirilməsi barədə razılığa gəldilər.

Beləliklə, Moskva Dağlıq Qarabağdakı atəşkəsdən öz məqsədləri üçün istifadə etmək istəyir. Məsələn, Moskva Tbilisini Gürcüstan və Rusiya arasındakı dəmir yolu xətlərinin bağlı qalmasının artıq Gürcüstanın maraqlarına uyğun olmaması lazım olduğuna inandırmaq istəyir. Çünki Rusiya yeni dəmir yolu ilə malını Azərbaycan və Gürcüstan ərazisindən keçirərək Ermənistana və Türkiyəyə daşımağa başlayacaq. Moskva Gürcüstanın öz yollarını açmasında maraqlıdır. Bu, Gürcüstan üçün çətin seçimdir. Gürcüstanda Rusiya Cənubi Osetiya və Abxaziyanı ələ keçirmiş bir işğalçı sayılır. Buna görə də dəmir yolunun açılmasını lazım hesab etmirlər. Ancaq digər tərəfdən, Tbilisi başa düşür ki, Rusiya Azərbaycandan keçən yoldan istifadə etməyə başlayacaq və bütün mallar Gürcüstanın yanından keçəcək. Buna görə də rəsmi Tbilisi Gürcüstan üçün ən vacib hesab olunan qərarı verməlidir.

# İKİ PARAD VƏ YERİNƏ YETİRİLƏN VƏD...

2018-ci il sentyabrın 15-də Azərbaycan paytaxtının "Azadlıq" meydanında Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirildi. Paradda Azərbaycan Prezidenti İlham Əliyev, birinci vitse-prezident Mehriban Əliyeva ilə yanaşı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edirdi. Həmin gün Bakı öz tarixinin ən əlamətdar günlərindən birini yaşayırdı. Düz 100 il əvvəl – 1918-ci il sentyabrın 15-də Bakı tarixində ilk dəfə Azərbaycanın paytaxtı statusunu alaraq Qafqaz İslam Ordusu və Azərbaycan milli ordu birləşmələrinin zəfərini bayram edirdi.

İlham Əliyev paradda Azərbaycan-Türkiyə qardaşlığı və strateji müttəfiqliyi haqqında geniş nitq söylədikdən sonra işğal altındakı torpaqlar haqqında bunları dedi: "Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb. Mənfur qonşular 1990-cı illərin əvvəllərində Azərbaycandakı qeyri-sabit vəziyyətdən istifadə edərək torpaqlarımızın bir hissəsini işğal

edib. İşğal edilmiş torpaqlarda bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən vəhşicəsinə məhv edilib. Xalqımıza qarşı soyqırımı törədilib və bu işğal bu gün də davam edir. Ona görə güclü ordu Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşaması, ərazi bütövlüyünün bərpası üçün əsas şərtdir. Azərbaycan Ordusu döyüş meydanında öz gücünü, məharətini göstərib. Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. Həmin bayraqlar 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılıb. Həmin bayraqlar bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılıb. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaq".

Həmin gün iki il sonra gəldi və Azərbaycan öz sözünü döyüş meydanında dedi. Rəcəb Təyyub Ərdoğan da çıxışında işğal altındakı torpaqlar mövzusundan yan keçmədi: "Azərbaycanın ən böyük məsələsi olan Dağlıq Qarabağ məsələsi Türkiyə üçün də eyni dərəcədə ağrılıdır. Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik. İllərdir vətən həsrəti ilə ömür sürən bir milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır".

Təəssüf ki, böyük dövlətlər, beynəlxalq təşkilatlar və Ermənistan iki il əvvəl Bakının "Azadlıq" meydanında səsləndirilən açıqlamaları düzgün oxuya bilmədilər. İlham Əliyevin "gün gələcək bayraqlarımızı işğal altındakı torpaqlarda qaldıracağıq" və Rəcəb Təyyub Ərdoğanın "qardaşlarımızın intizarına artıq son qoymağın vaxtıdır" cümlələri qulağa xoş gəlmək üçün səsləndirilən fikirlər deyildi. Azərbaycan torpaqlarının işğalına son qoyulmasıyla bağlı qəti qərar verilmişdi.

Üstündən cəmi iki il keçdikdən sonra Azərbaycanın və Türkiyənin liderləri yenə eyni məkanda dayanıb qalib ordunu alqışlayırdılar. İki lider və dünya iki il əvvəl verilən vədlərin yerinə yetirilməsinin zəfərini izləyirdilər.



Elxan Şahinoğlu

# DƏMİR YUMRUQ

Elxan Şahinoğlu – kitabın müəllifi, siyasi analitik, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, 1971-ci ildə Bakıda anadan olub. Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin məzunudur (1988-1993). SSRİ illərində tələbə hərəkatının fəal üzvlərindən olub. Tələbəlik illərində müxtəlif nəşrlərlə əməkdaşlıq edib. Universiteti bitirdikdən sonra Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunda analitik qrupun rəhbəri kimi fəaliyyətə başlayıb. 1994-2005-ci illərdə "Millət", "Azadlıq", "Gün səhər" qəzetlərində beynəlxalq əlaqələr və xarici siyasət şöbəsinin müdiri vəzifələrində, Türkiyənin "TRT" televiziyasının və "Anadolu" agentliyinin Bakıdakı bürolarında işləyib. 2005-ci ildə "Atlas" Araşdırmalar Mərkəzini təsis edib. Bundan başqa, müstəqil yazar kimi fəaliyyət göstərir. Rəhbəri olduğu "Atlas" Araşdırmalar Mərkəzi regional təhlükəsizlik, o cümlədən, Azərbaycanın yaxın qonşularla və beynəlxalq təşkilatlarla münasibətləri mövzularını tədqiq edir, əlavə olaraq, Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə danışıqlar prosesinin monitorinqini aparır. ***"Dəmir yumruq"*** müəllifin beşinci, Dağlıq Qarabağ mövzusunda isə üçüncü kitabıdır. O, həmçinin "Dağlıq Qarabağ: Statussuz status" (2010-cu il) və "Aprel atəş(kəs)i" (2017-ci il) kitablarının müəllifidir.

9 789952 369120

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing
www.instagram.com/qanunpublishing